Əl-Məqsədu'l-Əsna fi şərhi Əsmaillahi'l-Hüsna

Müəllif:
Əbu Həmid Muhammməd
ibn Muhammməd əl-Ğazzali

وَ بِهِ نَسْتَعِينُ

اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعٰالَمِينَ

وَالصَّلٰوةُ وَالسَّلَامُ عَلٰى سَيِّدِنَا مُحَمَّدٍ وَعَلٰى اٰلِهِ وَصَحْبِهِ اَجْمَعِينَ

«Əl-Məqsədu'l-Əsna fi şərhi Əsmaillahi'l-Hüsna» risaləsi

("Allahın ən gözəl isimlərinin şərhində ən parlaq məqsəd")

Bismilləhi'r-Rahməni'r-Rahim

Kibriya və əzəmətilə tək; ucalığı və Samədiyyəti (heç bir şeyə möhtac olmamaq və hər şeyin Özünə möhtac olması) ilə bir olan Allaha həmd olsun. O Allah ki, izzətinin sərhədlərinə girməkdə, *«ağılların qanadı»* əskik qaldı. Özünün mərifəti xüsusunda, aciz qalmaqdan başqa bir yol, qılmadı. Fasih dilləri, həzrətinin camalını səna (tərif)'dən qısaltdı. Onu, ancaq Özü, haqqı ilə səna edə bilmiş; isim və sifətlərini də, sadəcə O saymışdır. Salat, bütün məxluqatın ən xeyirlisi olan Muhammədə, ailəsinə, əshabına və zürriyyətinə olsun.

Allah (azzə və cəllə) üçün qardaşım olan bir nəfər, -ki, din xüsusunda, özünə icabət edilməsi, cavab verilməsi lazımdır- əsmau'l-hüsna'nın mənalarının şərhini, məndən soruşdu. Bir çox dəfə, bu suallarını, ard-arda təkrarladı. Mən isə, bu mövzuda, bir addım iləri, bir addım geri addım atır; tələbin iqtizası (gərəyi)'nə tabe olmaq və qardaşlıq haqqını yerinə yetirməklə, bu işdən çəkinmə yolunu tutaraq təhlükəli bir yola girməkdən çəkinərək, bu məqsədi idrak etməkdə, bəşərin (idrak) qüvvəsinin kifayət etmədiyini düşünərək, bəhsi keçən mövzuya girməmək üçün, tərəddüd içində idim. Necə ki, belə dərin bir mövzuya dalmaqdan bəsirətli bir kimsəni əngəlləyəcək, 2 mane vardır:

1. Bu iş, özündə üstün bir arzu olub, nail olunması, çətin; idrak edilməsi də, qapalıdır. Ucalıqda, ən yüksək zirvə, ən uzaq məqsəddir. Ağıllar, bunda heyrətə gəlmiş; ağılların bəsirətləri, deyil onun uzaqlıq və dərinliklərini; yaxındakılarını belə görə bilməmişdirlər. Rububiyyətin sifətlərini araşdırmaq, incələmək və təftiş etmək, bəşərin qüvvətinəmi qalmışdır?! Günəşin nuruna, yarasalar necə dözə bilsin?!

2. Bu mövzuda, haqqın künhü(nü bəyan etmək), cumhurun (əksəriyyətin) görüşünə müxalif düşə bilər. Xalqı, adətlərindən və adət etdikləri yollardan ayırmaq isə, çox çətindir. Və Cənabu'l-Haqq isə, hər gələnin quyudan su çəkə bilməsi misalı, hər istəyənin, Özü haqqında mərifət sahibi olmasından və Özündən muttali (xəbərdar) olmasından münəzzəhdir. Onu bilənlər, çox azdır. Tələb edilən şey, nə qədər ucadırsa, o mövzuda köməkçi də, o qədər azdır. Xalqa qarışmış olan şəxs üçün uyğun olan, qorunmasıdır. Lakin, Haqqı görən kimsəyə görməzdən gəlməsi də, çox çətindir. Allah (azzə və cəllə)'ni bilməyənə, sükut lazımdır. Allah Taala'nı bilən kimsənin susması isə, ehtiyatdır. Bundan dolayı, *«Allah Taalanı bilənin dili, lal olar*.» deyilmişdir.

(Nə var ki, bütün bunlara), buna olan həqiqi ehtiyac ilə bərabər, şiddətli israr səbəbilə, pərdə çəkildi. Artıq, Allah (azzə və cəllə)'dən istəyirəm ki, lütfü və kərəminin genişliyi ilə, doğrunu asanlaşdırsın və savabı bol qılsın. Şübhəsiz ki, O, Kərim, Cavad, qullarına qarşı Raufdur.

* * *

Giriş

Kitabdakı kəlamı, 3 fənn (bölmə)'yə ayırmağı uyğun gördük:

• 1-ci fənn (bölmə): əvvəl gələnlər və müqəddimələr;

• 2-ci fənn (bölmə): *məqsədlər və qayələr üzərinə;*

•3-cü fənn (bölmə): *lahiqələr və təkmilələr* (əlavələr və tamamlamalar)›dan ibarətdir.

~ Birinci fənn (bölmə)'nin fəsilləri, *kitabın əsl qayəsi olan mövzulara bir hazırlıq və giriş (mahiyyətində) olacaq;*

~ İkinci fənn (bölmə)'nin fəsilləri, *Allahın gözəl isimlərinin mənalarının bəyanını ehtiva edəcək;*

~ Üçüncü fənn (bölmə)'nin fəsilləri, *ilk 2 bölmədə zikr edilənlərə bir tətimmə və təkmilə (mahiyyətində) olacaqdır.*

Mətləbin özü (yəni, kitabın əsl məqsədi), ortadakı bölmə (yəni, 2-ci bölmə)'nin əhatə etdiklərindən ibarətdir.

• Birinci fənn:

~ İsim, müsəmma, təsmiyyə sözlərinin həqiqətinin bəyanına; əksər firqələrin düşdükləri yalnışların kəşfinə şamildir. (Bununla bərabər, bu bölmədə),

~ Allah Taalanın, əl-Əzim, əl-Cəlil və əl-Kəbir kimi mənaca bir-birinə yaxın isimlərinin eyni mənada olduqlarının və beləcə, mütəradif qəbul edilmələrinin doğru olub-olmadığı (ələ alınacaq); bundan başqa, 2 mənası olub, bu mənalara nisbətlə müştərək olan 1 ismin, müsəmmalarına, ümum (yəni, hər 2 mənaya eyni anda şamil olacaq) şəkildəmi həml edildiyi, yoxsa, bu mənalardan (bir istifadədə, yalnız) birinəmi həml edilməsi lazım gəldiyi bəyan ediləcək.

~ Qulun, əsmau'l-hüsna'dan hər birinin mənasından bir nəsibi olduğu da, bu bölmədə açıqlanacaqdır.

• İkinci fənn:

Allah Taala'nın 99 isminin bəyanını ehtiva etməkdədir. Bu isimlərin,

~ Əhl-i Sünnətə görə, 1 tək Zat və 7 sifətə;

~ mötəzilə və filosoflara görə də, kəsrət (çoxluq) qəbul etməyən tək bir Zat'a necə rücu etdiyi (qayıtdığı, döndüyü) bəyan ediləcəkdir.

• Üçüncü fənn'də:

Allah Taala'nın isimlərinin, nass və təvqif ilə 99-dan çox olduğu bəyan ediləcəkdir. Bu isimlərin 99 olaraq sayılıb (isimlərin 99-a) təxsis edilməsinin faydası ortaya qoyulacaqdır. Allah (subhənəhu və taala)'nın bütün müttəsif olduğu sifətlər ilə vəsf edilməsi; vələv ki, bunda icazə və təvqif varid olmasa, bu xüsusda bir əngəlləmə də yoxdursa, bunda, ruxsat ilə cəvaz olduğunu bəyan edəcəyik.

Ancaq mənasında nöqsanlıq olanlara gəlincə, (bunlar), qətiliklə Allah Taala haqqında söylənə bilməz. Məgər ki, bu xüsusda, bir icazə varid olsun. (Bu halda da), bu icazə səbəbilə, bu sifət, söylənər; və Allah Taala haqqında, necə lazım gələrsə, elə də təvil edilər. Bəzən, Allah Taala haqqında bir ləfzin istifadə edilməsi, caiz olmaz; ancaq bir qərinə olarsa, istifadəsi caiz olar. Bizə əmr etdiyi kimi; Allah (subhənəhu)'ya, əsmau'l-hüsna'sı ilə dua edilər. Hətta, isimləri buraxıb sifətləri ilə Ona dua etsək, o vaxt, sadəcə mədh və cəlal sifətlərilə dua edilə bilər. Cəlal və mədh mənası daşıyan kəlimələr xaric, (Allaha) vəsflənməsi caiz olan hər sifət və fellər ilə dua edilə bilməyəcəyini, ilərida, gözəl bir şəkildə açıqlayacağıq, inşallah.

* * *

Birinci Bölmə

Birinci Fəsil

İsim, Müsəmma və Təsmiyyə sözlərinin mənalarının izahı haqqındadır**:**

İsim və müsəmmadan bəhs edənlər çoxalmış; ayrı-ayrı yollar meydana gəlmiş; və firqələrin əksəriyyəti, haqq (yol)dan azmışlardır.

~ **Bəziləri:** ismin müsəmma ilə eyni; (lakin) təsmiyyə'dən ayrı olduğunu;

~ **Bəziləri də:** ismin təsmiyyə ilə eyni; (lakin) müsəmmadan ayrı olduğunu iləri sürməkdədirlər.

Cədəl və kəlam sənətlərində məharətilə tanınmış olan bir üçüncüsü də, belə deyir:

~ İsim, müsəmmanın özü ola bilər. Allah Taala haqqında, ***«O, Zat və mövcuddur.»*** deməyimiz kimi.

~ Müsəmmadan başqa da ola bilər. ***«O, Xaliq (yaradan) və Raziq (ruzi verən)'dir.»*** sözümüz kimi...Bu hər ikisi (yəni, Xaliq və Raziq), yaratma və ruzi verməyə dəlildirlər; və bunlar, (Müsəmma)›dan başqadırlar.

~ Bəzən də isim, müsəmmanın nə özü, nə də qeyrisi olur. Məsələn, ***«O, alim və qadirdir.»*** dediyimiz vaxt, bu isimlər, elm və qüdrətə dəlalət etməkdə olub Allahın sifətləri üçün isə, Onun (yəni, Zatının) eynisi, nə də (Onun Zatının) qeyrisi deyilə bilməz.

(Firqələr arasında baş verən bu) ixtilafın mənşəyi, ikidir:

1. *İsmin özü, təsmiyyədirmi, deyilmi?*

2. *İsmin özü, müsəmmadırmı, deyilmi?*

Haqq olan budur ki, isim, nə təsmiyyədir, nə müsəmma. Bu 3 kəlimə (yəni, isim, müsəmma və təsmiyyə kəlimələri), eyni mənalı olmayıb, əksinə, bir-birilərindən fərqlidirlər.

Haqqı kəşf etmək üçün, bir-bir, bu 3 ləfzin tək-tək mənalarını verdikdən sonra, ***«Bu, bunun eynisidir.»*** və ya ***«Bu, bunun qeyrisidir.»*** demək, mümkün olacaqdır. Həqiqətləri kəşf etməyin mənhəci (metodu, yolu), bax, budur. Bu mənhəcdən ayrılan kimsə, (bu işdə) əsla müvəffəq ola bilməz.

Təsdiqi (keyfiyyətdəki) hər elmin (biliyin): -(bu sözlə, təsdiq və ya təkzibə mövzu ola biləcək vəsfdə olan hər xüsusu qəsd edirəm)-

~ məvsuf;

~ sifət; və

~ sifətin məvsufa olan nisbəti kimi 3 ünsürdən meydana gələn bir qəziyyə (hökm) olduğunda, heç bir şübhə yoxdur.

~ **İlk əvvəl:** tək başına, tərif və həqiqətini təsəvvür etmək yolu ilə ***məvsuf***u (sifətlənəni) bilmək;

~ **Sonra:** tək başına, tərif və həqiqətini təsəvvür etmək yolu ilə ***sifət***i bilmək; və

~ **Sonra da:** bu sifətin, məvsufa olan nisbətini incələmək, bu nisbətin, məvsufda mövcud olub-olmadığına baxmaq lazımdır. Məsələn:

Məlayin, qədim və ya hadis (sonradan meydana gələn) olduğunu bilmək istəyən,

~ **ilk əvvəl:** mələk ləfzinin mənasını;

~ **sonra:** qədim və hadis ləfzinin mənasını;

~ **sonra da:** mələkdə, bu sifətlərin varlığını və yoxluğunu öyrənməlidir.

Bunun üçün, ismin mənasını, müsəmmanın mənasını, təsmiyyənin mənasını bilmək lazımdır. (Bunun sayəsində), nəyin, nəyin eynisi və ya nəyin qeyrisi olduğu təsəvvür edilə bilər.

İsmin tərif və həqiqətinin bəyanı haqqında, (belə) deyirik:

Şübhəsiz, əşyanın:

~ ayan'da (əsldə) vücudu (varlığı);

~ zehnlərdə vücudu (varlığı); və

~ dillərdə vücudu (varlığı) vardır.

~ Əsldəki vücud, həqiqi olan vücuddur.

~ Zehnlərdəki vücudu isə, elmi və şəklidir.

~ Dillərdəki vücudu da, ləfzi və istidlalidir. Məsələn,

Səmanın, əslində və zatında; zehnlərimizdə və nəfslərimizdə də bir vücudu vardır. Çünki səmanın şəkli, gözlərimizdə və xəyalımızda, bir iz

buraxmaqdadır. Hətta əgər səma yox olsa və yalnız biz qalsaq, səmanın surəti, xəyalımızda hazır olardı. Elm ilə təbir edilən şey də, bax budur. (O halda) o (yəni, elm), məlumun bir misalıdır. (Yəni) o elm, məlumun bir bənzəridir və ona bərabərdir. Və o, aynada görünən şəkil və surət kimidir. Bu (yəni, aynadakı) surət, xaric (i aləm)dəki surətin bənzəridir.

~ Səmanın dildəki varlığına gəlincə:

Bu varlıq, səslərdən mürəkkəb bir ləfzdir. Bu səslər, 4 parçaya ayrılaraq,

• **Birincisi:** Sin;

• **İkincisi:** Mim;

• **Üçüncüsü:** Əlif;

• **Dördüncüsü** isə: Həmzə təbir edilmişdir.

Səma sözü, zehndəki səmanın bir dəlili; zehndəki səma da, əsldəki səmaya uyğun (bir surət)'dir. Əgər ayanda (əsldə) vücud olmasaydı, surətlər, zehnlərdə meydana gəlməzdi. Əgər zehnlərdə surət meydana gəlməsəydi, insan, onu idrak edə bilməzdi. Əgər insan, onu idrak edə bilməsəydi, dililə onu istifadə edə bilməzdi. O vaxt (elə isə), ləfz, elm (əşyanın zehndəki surəti) və məlum (əşyanın, xarici aləmdə felən mövcud olması), bir-birindən fərqli 3 şeydir. Ancaq bunlar, bir-birilərinə uyğun və paraleldirlər.

Bu (saydığımız şey)'lər, axmaq olanlara, bəlkə də qarışıq gələ bilər. Və beləcə, bəzilərini, bəzilərindən ayırd edə bilməz.

Bu mövcudlar, necə ola bilir ki, bir-birindən ayırd edilə bilmir?! Bunların hər birini, izləyən və izləməyən (yəni, bunların bir-birinə bənzəyən və bənzəməyən) xüsusiyyətləri vardır. Məsələn, insan:

~ **Əsldəki vücudu** etibarı ilə: yatan-oyanan; yaşayan-ölən; gəzən-oturan bir varlıqdır.

~ **Zehnlərdəki vücudu** etibarı ilə: mübtəda-xəbər; amm (ümumi)-xass (xüsusi); cüzi-külli, qəziyyə kimi şeylərdir.

~ **Dillərdəki vücudu** etibarı ilə: ərəb, əcəm, türk, zənci, çox hərfli, az hərfli, isim, fel, hərf və bənzəri şeylərdir ki, bu vücud, əsrlər (zamanlar) və hər ölkənin adət-ənənəsinə görə dəyişməkdədir.

Lakin əsldəki vücuduna gəlincə, əsrlərə, millətlərə görə, bu vücud, əsla dəyişməz.

Əgər bunu bildinsə, ayan və zehndəki vücudu bir tərəfə qoy, ləfzi vücuda bax. Çünki məqsədimiz, bununla bağlıdır. Biz, belə deyirik:

"Ləfz": *"ayana (yəni, əşyanın əsldəki vücuduna) dəlalət etməsi üçün, insan iradəsilə vaz edilən (yəni, qoyulan) muqatta (yəni, kəsik hərflərdən, əlifba hərflərindən) ibarətdir"*. Bu ləfzlər, *«ilk vaz edilən»* və *«ikinci vaz edilən»* olaraq, qisimlərə ayrılırlar.

• **İlk əvvəl vaz edilən ləfzlər:** *«Səma", "ağac", "insan"* və buna bənzər digər ləfzlərdir.

• **İkinci vaz edilənlər**ə gəlincə, bunlar: *«İsim", "fel", "hərf", "əmr", "nəhy", "mudari"* kimi ləfzlərdir. Buna, ***ikinci vaz edilən*** deməyimizin səbəbi, budur ki: Əşyaya dəlalət etmək üzərə vaz edilən ləfzlər (bu qisimlərə ayrılır):

a. Ləfz, özünə deyil, başqasına dəlalət edərsə, o: ***«hərf»***dir.

b. Öz mənasına dəlalət edən ləfz də, 2 qismə ayrılır:

b.1. ***Mənasının zamanla əlaqəsi olan ləfz.*** Buna: ***"fel"*** deyilir. Sənin: ***"vurdu"*** və ***"vurur"*** deməyin kimi...

b.2. ***Mənasının zamanla əlaqəsi olmayan ləfz***. Buna da: ***"isim"*** deyilir. Sənin: ***"g***öy*"* və ***"yer"*** deməyin kimi...

Ləfzlər, ilk əvvəl, ayana (əsllərə) dəlalət etmək üzərə vaz edilmişdilər. İsim, fel, hərf, bundan sonra ləfzlərin növlərinə dəlalət etmək üzərə vaz edildilər. Çünki ləfzlər vaz edildikdən sonra, (bu ləfzlər), əslləri etibarı ilə (xaricdə) bir varlıq qazandılar; və surətləri (şəkilləri), zehnlərdə tərəssüm edincə (şəkillənincə), dil hərəkətlərilə göstərilməyə haqq qazandılar.

Ləfzlərin, 3 və 4-cü vazlarla vaz edilmələri də təsəvvür edilə bilər. Məsələn, isimlər, fərqli qisimlərə ayrıla və hər qismi, ayrı bir isim ifadə edə bilər. Beləcə, o isim, üçüncü dərəcədən sayılır. Məsələn, ismin, mərifə və nəkirə və s. qisimlərə ayrıldığının deyilməsi kimi...Bundan məqsəd, bir ismin, ikinci vaz edilmə halında ləfzə döndüyünü bilməyin üçündür.

Əgər bizə: ***"İsmin tərifi, nədir?"*** deyə soruşulsa, ***"İsim, (müfrəd mənaya) dəlalət etmək üzərə vaz edilən ləfzdir."*** deyə bilər və bəlkə də, bu tərifə, ismi, fel və hərfdən ayırd edə biləcək bir qeyd də, əlavə edə bilərik.

Hal-hazırda bizim burdakı məqsədimiz, isim üçün tərif bəyan etmək deyildir. Məqsədimiz, isimdən qəsdimizin, (varlığın) üçüncü dərəcədəki məna olunduğunu bildirməkdir ki, bu da, ismin, əsldə və zehndəki vücudları deyil, sadəcə dildəki vücududur.

Əgər ismin, bir mənaya dəlalət etmək üzərə vaz edilən bir ləfz olduğunu başa düşdünsə, artıq bilməlisən ki, məna ifadə edən hər mövzunun (vaz edilən, qoyulan ləfzin):

~ bir vazi'i (vaz edəni);

~ bir vaz'ı (ləfzin, bir mənanı göstərmək üzərə qoyulması);

~ bir də mövzu-un lehi (ləfzin, özü üçün qoyulduğu məna) vardır.

Mövzu lehə, müsəmma deyilir ki, müsəmma, özünə dəlalət edilən varlıqdır. Vaz edənə, "***musəmmi***"; vaz'a da, "***təsmiyyə***" adı verilir.

Məsələn: ***"Filankəs, öz uşağına, ad qoydu."*** dediyimiz vaxt, o, uşağına dəlalət edən bir ləfz vaz etmiş (qoymuş) olmaqdadır və onun, bu vaz etmə felinə, ***"təsmiyyə"*** deyilir.

Bəzən də, ***"təsmiyyə"*** ləfzi, daha əvvəl vaz edilən ismi zikr etmək (anmaq) üçün istifadə edilir. Məsələn, bir şəxsi çağıran və ona, ***"Ey Zeyd!"*** deyən şəxsə, ***"Onu təsmiyyə etdi (adlandırdı)."*** deyilir.

Əgər desə ki, ***"Ey əbu Bəkr (Bəkrin atası)!"*** Deyilər ki: ***"Ona ləqəb verdi."*** O halda, təsmiyyə ləfzi, ismin vaz edilməsi (qoyulması) ilə, (daha əvvəl isim verilmiş olan bir şeyin) zikr edilməsi arasında müştərəkdir. Ancaq zikr edilmək mənasına nisbətlə vaz etmək (isim vermək) mənası, təsmiyyə (adlandırmaq) üçün, daha uyğundur.

İsim, təsmiyyə və müsəmma ləfzləri, "***hərəkət, təhrik (hərəkət etdirmək), mühərrik (hərəkət etdirən) və mühərrək (hərəkət etdirilən)"*** ləfzləri məcrasında cərəyan etməkdədir. Bunlar isə, müxtəlif mənalara dəlalət edən 4 ayrı isimdir. (Belə ki):

1. Hərəkət: *bir yerdən digərinə yer dəyişdirməyə;*

2. Təhrik: *bu hərəkətin meydana gətirilməsinə*;

3. Mühərrik: *hərəkətin failinə;*

4. Mühərrək də: *bir faildən meydana gələn belə bir hərəkətin özündə gerçəkləşdiyi şeyə* dəlalət etməkdədir.

Mütəhərrik isə, *sadəcə, özündə hərəkət olan məhəllə dəlalət edib*, failə dəlalət etməz.

Əgər bu ləfzlərin mənaları başa düşüldüsə, artıq bunlar haqqında, onların, bir-birilərinin eyni və ya bir-birilərinin qeyrisi olduğu söyləməyin mümkün olub-olmadığına baxılacaq. Hüviyyət (eynilik) və qeyrilik mənaları bilinmədən, bu (mövzu), başa düşülə bilməz.

"Huvə, huvə" *(O, odur; yəni, o, onun eynisidir.)* sözümüzün, 3 cür istifadəsi vardır:

• **1-ci cəhət:** Qailin (söz söyləyənin) bu sözündə olduğu kimi: ***"əl-Xamru, hiyə'l-uqar."*** (yəni, "İçki, içkidir.") və ***"Leysu, huvə'l-əsəd."*** (yəni, "*Aslan, aslandır.")*

Bu (istifadə): *nəfs (zat) etibarı ilə, bir olub, eyni mənada 2 isim olan və məfhumları (fəhm etdirdikləri şey, yəni mənaları) arasında ixtilaf olmayan hər şey* üçün caridir. (Bunlara) nöqsan və əlavə ilə də, fərqlilik meydana gəlməz. Sadəcə hərfləri etibarı ilə fərqli olan bu cür isimlər, mütəradif (eyni mənalı) deyə təsmiyyə edilir.

• **2-ci cəhət:** Qailin bu sözündə olduğu kimi: ***"əs-Sarimu, huvə's-seyfu."*** (yəni, *"Qılınc, qılıncdır.")* və ***"və'l-Muhənnədu, huvə's-seyfu."*** (yəni, *"Qılınc, qılıncdır.")*

Bu istifadə, birinci cəhət(dəki istifadə)'dən fərqlidir. Çünki bu isimlərin məfhumları, bir-birindən fərqlidirlər və eyni mənalı deyildirlər. Çünki:

~ **"Sarim"**: *kəskinlik cəhətindən qılınca;*

~ **"Muhənnəd"** isə: *Hindistana nisbəti cəhətindən qılınca* dəlalət etməkdədir.

~**"Seyf"** isə: *başqa bir şeyə (yəni, kəskinlik və Hindistana) işarət etmədən, mütləq olaraq qılınca* dəlalət etməkdədir. Lakin mütəradif kəlimələr, ki, hərfləri etibarı ilə bir-birilərindən fərqlidirlər; (bunlara) nöqsan və əlavə ilə, (mənaları) fərqliləşməz. Bu cinsdəki ləfzlərə, ***"mütədaxil"*** (iç-içə, bir-biri içində olan) ismini verək. Necə ki, ***"seyf"*** (qılınc) kəliməsi, özlərində məna yönündən əlavələr olmasına baxmayaraq, bu 3 ləfzin (yəni, sarim, muhənnəd və seyf) məfhumuna daxildir.

• **3-cü cəhət:** Qailin bu sözündə olduğu kimi: ***"əs-Səlicu, əbyadun, bəridun***.» (yəni, *"Qar, ağdır, soyuqdur.")*

Ağ və soyuğun bir olduğu və (dolayısı ilə, ağ və soyuğun eyni şey olduğu düşünülə bilər). (Halbuki) ağın soyuq olması, (yuxarıda zikr edilən) cəhətlərdən ən uzağıdır. Burdakı eynilik, 2 vəsflə vəsfləndirilən bir mövzunun (yəni, qarın) vəhdətinə racidir (dönməkdədir) və bunun mənası, bir tək şeyin, (eyni zamanda), ağlıq və soyuqluqla vəsf edilməsindən ibarətdir.

Qısacası, ***"Huvə, huvə."*** sözümüz, bir cəhətdən vəhdət ifadə edən kəsrətə (çoxluğa) dəlalət etməkdədir. Vəhdət olmasaydı, ***"Huvə, huvə, vahidun."*** demək, mümkün olmaz; və kəsrət olmasaydı, yenə, ***"Huvə, huvə."*** demək mümkün olmazdı. Çünki, bu ***"Huvə, huvə.",*** 2 şeyə işarət etməkdədir.

Məqsədimizə geri qayıdaq: ***"əl-Xamru, hiyə'l-uqar."*** (Yəni, *"İçki, içkidir."*) sözümüzdə olduğu kimi, mütəradif isimlərə qiyas edərək, ismin, müsəmmanın eynisi olduğunu zənn edənlər, ciddi mənada xəta etmişlərdir. Çünki müsəmmanın məfhumu başqa, ismin məfhumu başqadır. (Necə ki), daha əvvəl, ismin - dall (dəlalət edən ləfz); müsəmmanın isə - mədlul (özünə dəlalət edilən ləfz) olduğunu açıqladıq. İsim, ləfz olmaya bilər. Yəni, isim, ərəb, əcəm və türkcədir. (Yəni), ərəblərin, əcəmlərin və türklərin vaz etdikləri ləfzlərdir. Müsəmma isə, bunun kimi olmaya bilər.

İsim haqqında sual edildiyi vaxt, ***"O, nədir?"*** deyə sual edilir. Müsəmmadan sual edilincə isə, bəzən ***"O, kimdir?"*** deyilir. Məsələn:

Məclisə bir şəxs gəldiyi vaxt, ***"Bu şəxsin ismi, nədir?"*** deyə soruşulur. (Bu suala): ***"(Onun ismi), Zeyd'dir."*** deyə cavab verilir. Əgər o şəxsin özü haqqında sual ediləcəksə (yəni, adamın şəxsi mövzu olacaqsa), (bu halda), ***"O, kimdir?"*** deyə soruşulur.

Əgər yaraşıqlı bir türkə, hindistanlılara aid bir isim verilərsə, ***"İsim, çirkin; müsəmma isə, gözəldir."*** deyilir. Əgər çox hərfli və ya qalın məxrəcli (yəni, hərflərinin tələffüzü çətin olan) bir isimlə isimləndirilərsə, ***"İsim, ağır; müsəmma isə, xəfifdir."*** deyilir.

(Bəzən) isim, məcaz da ola bilər. Lakin (müsəmma) isə, məcaz olmaz. Təfəül (xeyrə yozmaq) cəhətindən, isim, dəyişdirilə bilər. Lakin (müsəmma) dəyişməz. Bütün bunların hamısı, sənə, ismin, müsəmmadan başqa bir şey olduğunu tərif etməkdədir.

Əgər dərincə düşünəcək olsan, (bu zikr edilənlərdən başqa, isim ilə müsəmma arasında), çox fərqlər tapacaqsan. Lakin bəsirətli olana, az bir şey, (bu mövzunun izahı üçün) kifayət edər. Axmaq olana gəlincə isə, ona (mövzu haqqında çox şey danışmaq), onun heyrətini artıracaqdır (yəni, məsələ, bu şəxs üçün, daha da çətinləşəcəkdir.)

• İkinci cəhətə gəlincə:

Burda, belə deyilir: ***"İsim, müsəmmadır."*** Bu mənaya görə, müsəmma, isimdən müştaqdır və ***"seyf"***in, ***"saarim"***in məfhumuna daxil olması kimidir. Buna qail olduğun təqdirdə, təsmiyyə, müsəmma, müsəmmi və ismin, (yəni, bunların hamısının), eyni şeylər olmaları lazım gələcəkdir. Çünki hamısı, isimdən müştaqdır və ismə dəlalət etməkdədirlər. Bu isə, kəlamda mücazəfə (ölçüb-biçmədən, səthi nəzərlə verilən hökm)'dür. Və bu, qailin (söz söyləyənin), bu sözü kimidir: ***"Hərəkət, təhrik, mühərrik və mühərrək, eyni şeydir."***

Bunların hamısı, hərəkət (kəliməsindən) müştaqdır. (Halbuki), bu, xətadır. Çünki:

~ **hərəkət:** *fel, fail və məhəl'ə dəlalət etmədən, sadəcə nəqlə (bir yerdən, digər bir yerə keçməyə);*

~ **mühərrik:** *hərəkətin failinə*; və

~ **mühərrək:** *məful (üzərində iş görülməsi, özünün bir faili olması*) cəhətilə, hərəkət məhəlinə;

~ **mütəhərrik:** *məful olmadan, hərəkətin məhəlinə*;

~ **təhrik isə:** *fail və məhəllə dəlaləti olmadan, hərəkətin felinə dəlalət edir*.

Bu halda, hər nə qədər, hərəkət, heç birindən xaric deyilsə də, bunlar, bir-birindən fərqli həqiqətlərdir.

Bununla bərabər, hərəkətin, tək başına və öz nəfsində idrak edilən bir həqiqəti vardır ki, bunun bir failə nisbəti, daha sonra idrak edilir. Bu, izafədir, mudaf deyildir. Necə ki, izafət, 2 şey arasında təsəvvür edilərkən; mudaf, bəzən öz başına da təsəvvür edilə bilir. Bəzən də, bir məhəllə olan nisbəti təsəvvür edilə bilir ki, bu nisbət, failə olan nisbətindən fərqlidir. Hərəkətin məhəllə olan nisbəti və ona olan ehtiyacı, zəruri; failə olan ehtiyacı isə, nəzəridir. Bununla, təsəvvür olmadan, 2 nisbət arasındakı hökmün varlığını qəsd edirəm. Eyni şəkildə, ismin də, bir dəlaləti və bir də mədlulu vardır və bu mədlula, müsəmma deyilir. Və ismin vazı isə, ixtiyar sahibi bir failin felidir ki, buna da, təsmiyyə deyilir.

Sonra, burdakı tədaxül (iç-içəlik) ilə, seyf (qılınc)'ın, sarim (kəskin qılınc) və muhənnəd (Hindistan qılıncı məfhumlarına) daxil olması kimi deyildir. Çünki sarim, seyfin sifətidir; muhənnəd də, belədir. Seyf, ona daxildir. (Halbuki), müsəmma, bir sifət sahibi olan isim deyildir və (eyni şəkildə), təsmiyyə də, bir sifət sahibi olan isim deyildir. (Bu halda), bu təvil, burda səhih (doğru) ola bilməz.

• **Üçüncü cəhətə gəlincə:** Sifətlərin təəddüdü (çoxluğu) ilə məhəllin ittihadı (birliyi) əsasına söykənən bu cəhət, uzaq olmasına baxmayaraq, isim və müsəmmada cari olmadığı kimi; isim və təsmiyyədə də cari deyildir. Hətta, bir şeyin, həm isim, həm də təsmiyyə olaraq adlandırılmaq üzərə vaz edildiyinə qail olmaq gərəkdir. Qar misalında olduğu kimi...O (yəni, qar), ağ və soyuq ilə vəsf edilən bir tək mənadır. ***"Siddiq, əbu Kuhafə'nin oğlunun özüdür!"*** sözünün mənası, ***"siddiq"*** olmaqla vəsfləndirilən şəxsin, oğulluq cəhətindən əbu Kuhafəyə nisbət edilmiş olmasıdır. Bu təqdirdə, ***"Huvə, huvə."***nin mənası, sifətlərin fərqliliyi nəzərə alınmadan, mövzunun birliyi olmaqdadır. Çünki, ***Siddiq***'in məfhumu (fəhm etdirdiyi məna), başqa; əbu Kuhafə'nin oğlu olmağın məfhumu, başqadır.

(O halda), ***"Huvə, huvə."***yə verilən təvillər, isim və müsəmma ilə, isim və təsmiyyə haqqında, nə həqiqət, nə də məcaz cəhətindən, əsla cari deyildir. (Bu xüsusda) həqiqət, bütünü ilə, ismin mütəradifliyinə racidir ki, burda da, 2 ləfzin məfhumu arasında, lüğəvi cəhətdən hər hansı bir fərqliliyin olmaması lazımdır. Məsələn, ***"Leys, huvə'l-əsəd"*** *(Aslan, aslandır.)* sözümüzdə olduğu kimi...Əgər ikisi arasında bir fərq varsa, başqa bir misal tələb ediləcəkdir. Bu xüsus da, həqiqətin birliyi ilə isimlərin çox olması (cəhətinə) racidir. ***"Huvə, huvə."*** *(O, odur.)* sözümüzdə, bir cəhətdən vəhdət və digər cəhətdən də kəsrət vardır. Cəhətlərin ən doğrusu

isə, vəhdətin, mənada; və kəsrətin isə, mücərrəd ləfzdə olmasıdır. Bəhsin uzunluğu və başa düşülməsi çətin olan bu ixtilaf (haqqında) bu qədərinin kəşf edilməsi, kifayət edir.

Artıq, isim, təsmiyyə və müsəmma ləfzlərinin, məfhumluq (cəhətindən) fərqli; məqsudları ayrı olduqları, sənə görünmüş oldu. Ancaq bunlardan hər birinin, digərlərindən fərqli olduqları deyilə bilər; onun eyni olduğunu söyləməyə isə, imkan yoxdur. Çünki qeyrilik, ***"Huvə huvə."***nin müqabilidir.

• **Üçüncü məzhəb** olan, ***"İsim, müsəmmanın eynisi də, qeyrisi də ola bilər; nə eynisi, nə də qeyrisi ola bilər."*** deyənlərə gəlincə:

Haqdan və izdirabı qəbul edib (özündə) toplama cəhətindən ən uzaq məzhəb, budur. Ancaq təvil etmə halı, xaricdir. (Belə ki):

"*Burda, 3 qismə ayrılan isimdən, ismin özü deyil****, məfhum və mədlulu qəsd edilmişdir. Çünki, ismin məfhumu, isimdən başqadır. İsmin məfhumu, ismin mədluludur ki, mədlul, dəlildən başqadır. Bu etibarla, zikr edilən bu təqsim, ismin məfhumuna racidir."*** deyilərsə, (o vaxt, vəziyyət dəyişər). Bu xüsusda, doğru olanı, budur:

İsmin məfhumu, bəzən, müsəmmanın zatı, həqiqəti və mahiyyəti ola bilər. Bunlar, ***"insan", "elm"*** və ***"ağ"*** sözündə olduğu kimi, müştaq olmayan növi (növə aid) isimlərdir. Müştaq olan isimlər isə, müsəmmanın həqiqətinə dəlalət etməyib (əksinə), həqiqəti, mübhəm olaraq buraxır və sadəcə, müsəmmanın bir sifətinə dəlalət edir. ***"Alim"*** və ***"katib"*** sözlərində olduğu kimi...

Sonra müştaq olan da,***"alim"*** və ***"ağ"*** kimi müsəmmada mövcud olan bir halın vəsfinə dəlalət edən ləfzlə; ***"Xaliq"*** və ***"Katib"*** kimi müsəmmaya aid və ondan ayrılmayan bir izafətə dəlalət edən ləfzə təqsim edilir.

"O, nədir?" sualına cavab olaraq söylənən isimlərin, birinci qismin tərifi olduğunu deyə bilərik. Belə ki, bir insana işarət edib, ***"O, kimdir?"*** deməz, ***"O, nədir?"*** deyərsə, bunun cavabı, ***"O, insandır."*** olmalıdır. Əgər, ***"Heyvan (yəni canlı)dır."*** deyilsə, mahiyyət, bütünü ilə zikr edilmiş olmaz. Çünki insanın mahiyyəti, mücərrəd heyvaniyyətə (canlılığa) söykənmir. Sadəcə heyvan olduğu üçün deyil, ağıllı heyvan olduğu üçün, o, odur.

"İnsan" ləfzi yerinə, ***"ağ***» və ya ***"uzun"*** və ya ***"alim"*** və ya ***"katib"*** deyilsə, bu, cavab olmaz. Çünki ***"ağ"***ın məfhumu, ***"ağlıq"*** vəsfi daşıyan mübhəm bir varlıqdır ki, mahiyyətinin nə olduğu, bilinməz. (Eyni şəkildə), ***"Alim"*** məfhumu, elm vəsfi daşıyan mübhəm bir şeydir. Və ***"katib"*** məfhumuna gəlincə, bu, (özündə) kitabət feli mövcud olan mübhəm olan bir varlıqdır. Bəli, katibin, bir insan olduğu başa düşülə bilər. Lakin bunun

başa düşülməsi, ləfzin məfhumundan xaric və onun məfhumuna əlavə olan (bəzi) dəlillərlə mümkündür.

Yenə, əgər bir rəngə işarət edilərək, ***"O, nədir?"*** deyə soruşulsa, ***"(O), ağdır."*** deyə cavab verilir. Əgər (bunun yerinə), müştaq bir isim zikr edilərək, ***"İşıqlandırıcıdır!"*** və ya ***"Gözün işığını böləndir."*** desək, bu, cavab olmaz. Çünki ***"O, nədir?"*** sözümüzdən mətlub olan, zatın həqiqəti və mahiyyətini öyrənməkdir. ***"İşıqlandırıcı"*** ləfzi, işıqlandırma xüsusiyyətinə; ***"Bölücü"*** ləfzi də, bölmə xüsusiyyətinə sahib olan mübhəm bir şeydir.

İsimlərin mədlul və məfhumları haqqındakı bu təqsim, doğrudur və biz, bu təqsimi, belə təbir edə bilərik:

İsim, zata da, zatın qeyrisinə də dəlalət etməkdədir. Və onun, zatın qeyrisinə dəlaləti, istifadədə müsahələ yolu ilədir. ***"Zatın qeyrisinə dəlalət edər."*** sözümüz, ***"O, nədir?"*** (sualının) cavabında vaqe olan mahiyyətin qeyrisini qəsd etmiş olmağımızla təfsir edilməzsə, bu (cavab), doğru olmaz. Alim, elm sahibi olan zata dəlalət etməkdədir, ki, onun (yəni bu ləfzin), zata dəlaləti vardır. (Bu səbəbdən), alim və elm ləfzlərinin söylənməsində, fərq vardır. Çünki, alim, elm sahibi olan zata; elm isə, yalnız elmə dəlalət edir.

"İsim, müsəmmanın eynisidir." sözündə, 2 problem vardır və (burda), 2 islaha (düzəlişə) ehtiyac vardır:

~ **Onlardan biri:** ismin, ismin məfhumu ilə dəyişdirilməsidir;

~ **Digəri** isə: ismin, zatın mahiyyətilə dəyişdirilməsidir.

Buna görə, cümlə belə olar: ***"İsmin məfhumu, bəzən zatın həqiqət və mahiyyəti; bəzən də zatın həqiqətinin qeyrisi ola bilər."***

"Xaliq/Yaradıcı, müsəmmanın qeyrisidir." sözünə gəlincə:

~ Əgər burda, ***"Xaliq/Yaradıcı"*** ləfzi qəsd edilirsə, ləfz, ləfzin mədlulundan başqa olduğu üçün, burda bir problem yoxdur. Lakin

~ Əgər ləfzin məfhumunun, müsəmmanın qeyrisi olduğu qəsd edilirsə, bax bu, muhaldır. Çünki, ***"Xaliq"***, bir isimdir; və hər ismin məfhumu, o ismin müsəmmasıdır.

Əgər o isimdən müsəmması başa düşülməzsə, (demək ki), o müsəmma üçün bir isim deyildir. Hər nə qədər, yaratmaq, Yaradıcı məfhumuna daxil isə də, Yaradıcı, yaratmanın ismi deyildir. (Eyni şəkildə), katib, kitabətin (yazı yazmağın); müsəmma da, təsmiyyənin ismi deyildir. ***"Yaradıcı"***, Özündən yaratma feli meydana gələn Zatın ismidir və bu etibarla, ***"Yaradıcı"*** məfhumu, Zatdır. Lakin Zatın həqiqəti deyil, özünə izafi bir

sifət olması cəhətindən, Zatdır. Necə ki, ***"ata"*** dediyimizdə, bu ləfzin məfhumundan, atanın zatı deyil**,** oğula izafəti cəhətindən atanın zatı başa düşülür. Sifətlər, izafi və qeyri izafi olaraq qisimlərə ayrılırlar; və zatlar isə, bu sifətləri cəm etməkdədirlər.

Əgər Yaradıcının, bir sifət olduğu; hər sifətin də, bir isbatdan ibarət olduğu; Yaradıcı ləfzinin məzmununda, sadəcə yaratmağın isbatının varlığı; halbuki, yaratmağın, Yaradıcıdan fərqli olduğu; Yaradıcıda, yaratmağa dair həqiqi bir sifət olmadığı; bundan dolayı da, onun, müsəmmanın qeyrisinə raci olduğu iddia edilərsə, (cavab olaraq, belə) deyərik:

"İsimdən, müsəmmadan başqa şey başa düşülür." iddiası, ziddiyyətdir. Bu, eynilə, ***"Dəlil, mədluldan başqasını tərif edir."*** sözündə olduğu kimi (təzad)'dır. Çünki müsəmma, ismin məfhumundan ibarətdir, ki, (bu halda), məfhum, müsəmmanın qeyrisi; və müsəmma, məfhumun qeyrisi, necə ola bilər?!

Sonra, ***"Yaradan'ın, yaratmaq felinden bir vəsfi yoxdur; və katibin, kitabət felindən bir vəsfi yoxdur."*** sözü, doğru deyildir. Buna (Yaradanın, yaratma felinə dair bir sifəti olduğuna) dair dəlil (budur ki), (Yaradan), bəzən onunla vəsf edilir; bəzən də, ondan nəfy edilir. İzafət isə, mudafın vəsfi olub ondan nəfy də edilə bilər, isbat da. Eynilə, mudaf olmayan ***"ağ"***lıq kimi.

Zeyd və Bəkir'i tanıyan biri, sonra, Zeydin, Bəkirin atası olduğunu öyrəndiyi vaxt, şübhəsiz ki, (yeni) bir şey öyrənmişdir və bu (yeni) şey, ya sifətdir, ya da məvsuf. O (atalıq), məvsufun (Zeydin) zatı deyildir, əksinə, o vəsfdir. Və yenə o (atalıq), öz nəfsilə qaim bir vəsf də deyildir; əksinə, o, Zeydin vəsfidir.

İzafətlər, mudafların vəsfləri qəbilindəndirlər. Ancaq bunun məzmunu, 2 şey arasında qiyas etmədən, başa düşülə bilməz və bu (xüsus), onu, vəsf olma (halından) çıxara bilməz.

Əgər qail, ***"Allah, Xaliq olaraq məvsuf deyildir."*** deyərsə, küfrə girər. Necə ki, ***"(Allah), Alim olmaqla məvsuf deyildir."*** sözündə olduğu kimi...

Bu sözün qailini qarışıqlığa salan (tərəfi) budur ki, izafət, kəlam alimləri arasında, arazların cümləsindən sayılmamaqdadır. Kəlam alimlərinə, ***"Arazın mənası, nədir?"*** deyə soruşulsa, ***"Nəfsilə qaim olmayıb, bir məhəldə mövcud olan şeydir."*** deyəcəklər. Əgər, ***"İzafət, nəfsilə qaimdirmi?"*** deyə soruşulsa, ***"Xeyr!"*** deyəcəklər. ***"İzafət, mövcuddurmu, deyildirmi?"*** deyə soruşulsa, ***"Bəli! Mövcuddur."*** deyəcəklər.

(Elə isə), ***"Atalıq, mədumdur (yoxdur.)"*** demələri, mümkün deyildir. Əgər atalıq mədum olsaydı, dünyada atalar olmazdı. Əgər, ***"Atalıq, nəfsilə qaimdirmi?"*** deyə soruşulsa, ***"Xeyr!"*** deyəcəklər.

Bundan sonra isə, (izafətin), bir məhəl ilə mövcud olduğunu və nəfsilə qaim olmadığını etiraf etməyə məcbur olacaqlardır. Yenə (onlar), arazın da, bir məhəl ilə qaim olduğunu etiraf etməklə bərabər, qayıdıb izafətin bir araz olmasını inkar edəcəklər.

Kəlam alimlərinin, ***"Bəzi isimlər, müsəmmanın, nə eynisi, nə də qeyrisidir***." sözünə gəlincə, bu söz, xətalıdır və bunun xətalı olması, ***"Alim"*** ləfzinin təfsirilə izah ediləcəkdir. Əgər Allah Taala haqqında, bunun itlaqına şəriətin icazə verdiyi iləri sürülərsə, haqqı və doğrunu açıqlamağın, xüsusi bir icazəyə bağlı olmadığı deyilə bilər və bəlkə də, bu xüsusda, bir müsamaha edilmişdir. Diqqətimizi, elm ilə vəsfləndirilən insan üzərində toplayaq və deyək ki, Elm, insanın qeyrisi deyildir. (Halbuki) elm, yox ikən, insan var idi. (Yenə), elmin tərifinin, insanın tərifindən başqa (olması səbəbilə), şübhəsiz ki, elmin, insandan ayrı olduğu da söylənə biləcəkdir.

Əgər: ***"Elm, insanın qeyrisidir. Ancaq bir şəxs haqqında, onun alim və ya insan olduğunu söylədiyimizdə, alim, insanın eynisi və ya onun qeyrisi olmuş olmaz. Çünki, insan, onunla vəsflənmiş olandır."*** deyiləcək olarsa, buna, belə cavab verərik:

Bu (hökm), katib və nəccar (dülgər) haqqında da lazım gələcəkdir. Çünki, bununla məvsuf olan, yenə insanın özüdür.

Haqq olan budur ki, (məsələ), təfsilə möhtacdır. Belə ki: ***"İnsan"*** ləfzinin məfhumu, ***"alim"*** ləfzinin məfhumundan başqadır. Çünki ***"insan"*** ləfzinin məfhumu, aqil (ağıllı) və natiq (danışan) bir heyvandır. ***"Alim"***in məfhumu isə, elm vəsfinə sahib olan mübhəm bir şeydir. (Bu halda), hər 2 ləfzin özü də, məfhumları da, başqa-başqadır. Bu cəhətdən, onlar, bir-birinin eynisi deyildirlər və onlara, ***"Huvə, huvə." ("O, odur. Yəni, o, onun eynisidir."***) deyilməsi, caiz deyildir. Lakin başqa cəhətdən isə, bir-birinin eynisidirlər və bu cəhət ilə, onlara bir-birisinin qeyrisi demək, caiz deyildir. (Belə ki):

"İnsan" və ***"alim"*** olaraq vəsf edilən bir tək zatı göz önünə aldığın vaxt, ***"insan"*** deyə təsmiyyə edilən varlıq (yəni, ismin müsəmması), ***"alim"*** olaraq vəsf edilən varlığın özüdür. Necə ki, ***"qar"*** deyə təsmiyyə edilən varlıq, ***"soyuq"*** və eyni zamanda ***"ağ"*** olmaqla vəsf edilən varlığın özüdür. Bax bu nəzər və etibarla, ***"O, odur."*** (Yəni, elm, insanın eynisidir.) və birinci etibarla da, qeyrisidir. Bir etibar ilə olarsa, ***"O, onun eynisidir."*** və ya ***"O, onun qeyrisidir."*** (demək), əqlən muhaldır. Necə ki, ***"O, onun nə eynisidir; nə də qeyrisidir."*** (sözündə) olduğu kimi, (bu), imkansızdır. Çünki eynilik və qeyrilik, inkar və isbata qarşılıq gələn bir-birinə müxalif (şeylərdir) və aralarında, vasitə (orta dərəcə) yoxdur.

Bu izahı başa düşən şəxs (biləcəkdir ki), Zata zaid (əlavə) olaraq Allah üçün qüdrət və elm sifətlərini isbat etdiyi vaxt, Zatdan ayrı bir varlıq; və (eyni zamanda), qeyrilik üçün də, icazənin varid olmasına bağlı olduğundan, ləfzən itlaq etməmiş (deməmiş) olsa belə, bir məna isbat etməkdədir. Necə (belə) olmasın ki?! Elmin tərifini zikr edincə, bu tərifə, Allah (azzə və cəllə)'nin elmi daxil olur; qüdrət və Zatı isə, daxil olmur. (O halda), tərifin xaricində qalan şeyin, necə olur ki, tərifə daxil olmadığı, qəbul edilmir?! Və qüdrətin tərifinə elm daxil olmadığına görə, elmi tərif edən şəxsin, ***"Qüdrətin, tərifin xaricində qalmasında bir zərər yoxdur. Çünki mən, elmi, belə tərif edirəm. Qüdrət isə, elmdən başqadır. Qüdrəti, elmin tərifinə daxil etməyim, lazım gəlməz. Eyni şəkildə, bilən (yəni, alim) də, elmdən başqadır. Dolayısı ilə, onu da elmin tərifinə daxil etməyim, vacib deyildir."***

Tərifə girənin, tərifə girməyəndən başqa olduğuna qail olanın sözünü inkar edən və burdakı ***«qeyr»*** ləfzinin itlaqını (istifadəsini) muhal görən şəxs, şübhə yoxdur ki, ***«qeyr»*** ləfzinin mənasını başa düşməyənlərdəndir. Məncə, ***«qeyr»*** ləfzi, başa düşülməyəcək bir şey deyildir. Çünki ləfzin mənası, aşkardır. (O) ancaq sirri (vicdanı) və ağlı ilə yalanladığı (bir şeyi), dililə söyləyə bilər.

Bürhanlı (dəlilli) silsilələrdən məqsəd, dilləri ovlamaq deyildir; əksinə, ağılları ovlamaqdır ki, (nəticədə), haqqı batinən etiraf etsin.

Əgər ismin, müsəmmanın eynisi olduğunu söyləyənlərin, bu sözü söyləməyə, ismin istilah ilə *"mənaya dəlalət edən ləfz"* olduğunu söyləməkdən həzər etmək üçün məcbur olduqları; əks təqdirdə, Allah (azzə və cəllə)'nin əzəldə ismi olmadığına qail olması lazım gələcəyi; çünki əzəldə, isim və ləfzin mövcud olmadığı; və ləfzin, hadis olduğu iləri sürülərsə, deyərik ki, bu, zəif bir zərurətdir və dəfi isə, asandır.

(Onlara) deyilər ki, isimlər, yox ikən; mənaları, əzəldə sabit idi. Çünki isimlər, ərəb və ya əcəm isimləridir; və bütün hamısı da, hadisdir. Bu (hökm), Zatın mənasına və ya sifətinə raci olan hər isimdə (cari)'dir. Məsələn, ***«əl-Quddus»*** ismi kimi, ki, bu isim əzəldə qüdsiyyət sifətilə mövcud idi; və ***«əl-Alim»*** kimi ki, O da, əzəldə, alim olaraq mövcud idi. (Necə ki), biz, əşyanın, vücudda, 3 mərtəbə olduğunu, bəyan etmişdik. Bunlardan:

~ **Birincisi:** *Əşyanın, ayanda olan (yəni, zat etibarı ilə) olan vücududur* ki, bu, Allah (azzə və cəllə)'nin Zatı və sifətlərilə əlaqəli olan və qədimlik ilə məvsuf olan vücuddur;

~ **İkincisi:** *Əşyanın, zehnlərdə olan vücududur* ki, bu vücud, hadisdir. Çünki zehnlərin özləri hadisdir;

~ **Üçüncüsü:** *Əşyanın, dillərdəki vücududur.* Bunlar, isimlərdir. Və dillərin hadis olması ilə, bu vücudun özü də, hadisdir.

Bəli, ayrıca, zehnlərdə məlum olan sabit şeylərdən, elmləri (bilikləri) qəsd edirik, ki, bu da, əgər Allah (azzə və cəllə)'nin Zatına izafə edilərsə, qədim olur. Çünki Allah (azzə və cəllə), əzəldə mövcud və alim idi. Və əzəldə, Özünün mövcud və alim olduğunu bilirdi. Bununla bərabər, Öz mövcudluğu, həm Öz nəfsində, həm də Öz elmində sabit idi. Qullarına ilham edəcəyi və onların zehnlərində və dillərində yaradacağı isimlər də, (eyni şəkildə) Öz nəzdində məlum idi. Bu təvil ilə, ***«İsimlər, əzəldə vardı. Heç kim yox ikən; O, var idi.»*** deyilməsi, caiz olur.

Lakin felə raci olan ***Xaliq, Musavvir*** və ***Vəhhab*** isimlərinə gəlincə:

Bir qrup, Allahın, əzəldə Xaliq olaraq vəsfləndiyini söyləyərkən; bəziləri də, vəsf edilə bilməyəcəyini söyləmişlərdir. Bu, əsli olmayan bir ixtilafdır. (Belə ki):

Xaliq ismi, 2 mənada istifadə edilməkdədir:

1. Qəti olaraq, əzəldə sabit;

2. Qəti olaraq, mənfi olan (yəni əzəldə mövcud olmayan).

Elə isə, bu 2 məna üzərində ixtilaf etməyin mənası yoxdur. Belə ki:

~ Qılınc, qınında olduğu vaxt da, boyunları kəsərkən də, ***«kəsici»*** deyə təsmiyyə edilir. (Nə var ki), qında, bi'l-qüvvə (potensial olaraq); boyun kəsmədə isə, bi'l-fel (feli olaraq) kəsicidir.

~ Dolçadakı su, susuzluğu ortadan qaldırmaqdadır. Lakin dolçada ikən, bi'l-qüvvə; və mədədə ikən, felən doyurucudur. Dolçadakı suyun doyurucu olmasının mənası, o suyun, mədəyə girdiyi vaxt, doyurmağı meydana gətirən vəsfdə olmasından ibarətdir və bu, maiyyət (sululuq) sifətidir.

Qılınc, qınında kəskindir; yəni, kəsilməyə məhəl olacaq şeylə qarşılaşdığı zaman, kəsməyi meydana gətirəcək vəsfdədir. Bax o (yəni, sifət) isə, kəskinlikdir. Və öz nəfsində, başqa bir sifət qazanmağa ehtiyacı yoxdur.

Bari (subhənəhu və taala)'nın əzəldə Xaliq olması, dolçadakı suyun doyurucu olması (misalında olduğu) kimidir. Yəni, (bundan), yaratmağı və yaratmağı mümkün qılacaq sifət üzərə olduğu qəsd edilmişdir.

O, kəlimənin ikinci mənası ilə, Xaliq deyildir. Yəni, yaratmaq feli, hələ Özündən meydana gəlməmişdir. Onun, gərək əzəldə, gərəksə də əbəddə, alim, quddus və s. isimlərinin növcud olması da, bu məna üzərinədir. Bir başqasının, Onu, o isimlərdən biri ilə təsmiyyə etməsinin və ya etməməsinin, bir əhəmiyyəti yoxdur.

Cədəlləşənlərin əksəriyyətlə xəta etmələrinin mənşəi, müştərək isimlərin mənaları arasındakı fərqi təmyiz edə bilməmələrindən dolayıdır. Əgər bu fərqlər ayırd edilsə, ixtilaflar ortadan qalxar.

Əgər, مَا تَعْبُدُونَ مِن دُونِهِۦٓ إِلَّآ أَسْمَآءً سَمَّيْتُمُوهَآ أَنتُمْ وَءَابَآؤُكُم...

«Ondan başqa ibadət etdiklərinizi, sizin və atalarınızın təsmiyyə etdikləri isimlərdən başqa bir şey deyildir...»[1] (ayəti) iləri sürülsə, məlumdur ki, onlar (müşriklər), hərflərdən (ibarət olan) ləfzlərə deyil; əksinə, bunların müsəmmalarına ibadət edirlərdi.

Ancaq bu ayətlə belə istidlal edənin, istidlal yönünün başa düşülməsi üçün, belə deməsi lazımdır: ***«Onlar, isimlərə deyil, müsəmmalara ibadət edirlərdi.»***

Bu təqdirdə, onun sözündə, isimlərin, müsəmmanın qeyrisi olduğuna dair tasrih (açıqlama) vardır. Əgər bir qail, ***«Ərəb, müsəmmalara deyil, müsəmmalara ibadət edirlərdi.»*** desə, burda tənaquz (ziddiyyət) vardır. Yox əgər, ***«(Onlar), isimlərə deyil, müsəmmalara ibadət edirlərdi.»*** desə, bu məfhum, mütənaqiz olmaz. (Halbuki), isimlər, müsəmmaların eynisi olsaydılar, ikinci sözün, birinci sözdən mənaca fərqli olmaması lazım gələrdi.

Sonra (ayətin mənası haqqında) belə deyilir: Bütlərə verilən ilah isimləri, müsəmmasız bir isimdən ibarət idilər. Çünki müsəmma, ayanda (əsldə) sabit olan və ləfzin özünə dəlalət etdiyi mənadır. Bütlər isə, nə əsldə sabit; nə də zehnlərdə məlum olan ***«ilah»***lardır. İsimləri isə, ancaq dillərdə mövcuddur və bunlar, mənası olmayan isimlərdir.

Hikmətli olmayan biri, ***«hikmətli»*** olaraq təsmiyyə edilər və özü də bundan dolayı sevinərsə, ***«İsim ilə xoşbəxt oldu.»*** deyilir. Ancaq o ismin arxasında, bir məna mövcud deyildir.

İsmin müsəmmanın qeyrisi olduğuna dair dəlil, bax, budur. Çünki ayə, ismi, təsmiyyəyə; təsmiyyəni də, onlara izafə etdi və bunu, onların feli qılaraq, ***«...təsmiyyə etdiyiniz isimlər...»***[2] deyə buyurdu ki, bu (ifadə), isimlərin, onların fel və təsmiyyələrilə hasil olduğunu göstərir. (Yoxsa) bütlərin şəxsən özləri, onların bu təsmiyyələrilə hadis olmuş (meydana gəlmiş) deyillərdir.

Allah Taala'nın: سَبِّحِ ٱسْمَ رَبِّكَ ٱلْأَعْلَى ***«Uca Rəbbinin ismini təsbih et!»***[3] buyurduğu (və tənzih edilənin, əslində isim olmayıb) Zat olduğu

(1) (Yusuf/40)

(2) (Yusuf/40)

(3) (Əla/1)

deyilsə, cavab olaraq, belə deyərik: Burda, isim, sifət təriqilə əlavədir və bu (istifadə), ərəblərin adətində caridir və bu, Allah (azzə və cəllə)'nin bu qövlündə olduğu kimidir: ...لَيْسَ كَمِثْلِهِ شَيْءٌ... ***«...Onun kimi bir şey yoxdur...»***[1]

Bu ayətin, eynilə, ***«...ləysə kə vələdihi əhəd...»*** Yəni, ***"Onun uşağı kimi uşaq yoxdur."*** cümləsi tərzində olduğu, bu cümlədən isə, bəhsi keçən şəxsin bir oğlu olduğunun anlaşıldığı, dolayısı ilə, bu ayətə istinad edərək burda Allahın bir bənzərinin mövcud olduğu şəklində istidlal etmək, caiz deyildir. Əksinə, burdakı ***"kəf",*** əlavədir. Müsəmmaya, iclal (böyüklük) və təzim üçün, isim ilə kinayə olduğunu söyləmək də, uzaq görülməz. Necə ki, şərif (şərəfli kimsə haqqında), ***"cənab", "həzrət"*** və ***"məclis"*** kinayəsində olduğu kimi...Və deyilər ki: ***"Onun mübarək həzrətinə (zatına) və şərəfli məclisinə salam olsun."***

Əslində, bundan murad edilən, salam verməkdir. Lakin iclal və təzim qəbilindən, özü zikr edilməyərək, yüksək rütbəli olmasına dəlalət edən bir xüsus, kinayə tərifilə zikr edilmişdir. İsim də, belədir.

(Hər nə qədər) isim, müsəmmadan başqa olsa da, müsəmma ilə bağlıdır və ona uyğundur. Belə xüsusların, vazın əsası xüsusunda, bəsirətli olanlara qarışıq gəlməməsi lazımdır.

~ Çünki ismin, müsəmmanın qeyrisi olduğuna qail olanlar:

وَلِلَّهِ ٱلْأَسْمَآءُ ٱلْحُسْنَىٰ... ***"Ən gözəl isimlər, Allahındır..."*** **(Əraf/180)** ayəti; və ***"Allahın, 100-dən 1 əskik 99 ismi vardır. Kim o isimləri sayarsa, cənnətə girər."***[2] hədisi ilə istidlal etməkdə və belə deməkdədirlər: ***"Əgər isim, müsəmmanın eynisi olsaydı, 99 müsəmma olması lazım gələrdi. Bu isə, (müsəmma) 1 olduğundan, muhaldır."***

Onlar, ismin müsəmmanın qeyrisi olduğunu etiraf etmək məcburiyyətində qalaraq, belə dedilər: ***"İsim, müsəmma mənasında deyil; təsmiyyə mənasında gəlmişdir."***

~ Necə ki, bu qruplardan bir digəri də, ismin, burda, müsəmma deyil, bəzən təsmiyyə mənasında gəldiyinin mümkün olduğunu söyləmişlərdir.

~ Bir digəri də, əsl olaraq müsəmmadan fərqli olduğunu qəbul etməklə bərabər, bəzən ismin müsəmma mənasına gələ biləcəyini təslim edir və ***"Rəbbinin o uca ismini təsbih et!"*** ayətini istixrac etdilər (yəni, bu mənada olduğunu dəlil göstərdilər).

---

(1) (Şura/11)

(2) (Buxari, hədis no: 7392)

Ancaq hər 2 qrup da, istidlal və cavab mövzusunda müvəffəq ola bilmədilər. ***«Rəbbinin uca ismini təsbih et!»*** ayətinə gəlincə, ayət haqqında lehdə və əleyhdəki görüşləri zikr etdik. Ancaq bu istidlal və onların bu istidlal haqqındakı isim və ya müsəmmanın bir olduğuna və burdakı isimdən, sadəcə təsmiyyənin qəsd edildiyinə dair cavabları, 2 cəhətdən xətalıdır.

Onlardan:

• **Birincisi:** İsmin, müsəmmanın eynisi olduğunu söyləyən, burda, müsəmmanın 99 olduğunu söyləməkdən aciz olmaz (deyildir). Çünki bu sözün sahibinə görə, müsəmmadan murad, ismin məfhumu (isimdən başa düşülən məna)'dır. Necə ki, Alim isminin məfhumu, Qadir, Quddus, Xaliq isimlərinin məfhumundan başqadır. Hər ismin özünə məxsus məna və məfhumu vardır. Nəticədə, tək bir Zatın nəfsinə raci olmaları, (bu halı) dəyişməz. Sanki bu qail, ismin məna olduğunu söyləyir. Allaha aid gözəl mənalar vardır və müsəmmalar, mənanın özüdür və o, bunda labüd bir çoxluq olduğunu söyləyə bilər.

• **İkincisi:** Burda, isimdən təsmiyyənin murad olunduğu sözü, yalnışdır.

Təsmiyyənin mənasının, ***«Bir şeyin ismini zikr etmək və ya onu vəsf etmək»*** olduğunu, bəyan etdik. İsim bir olsa da, təsmiyyə edənlərin çox olması ilə, təsmiyyə də çoxalar. Necə ki, zikr edilən və bilinən tək olsa belə, zikr edənlərin və bilənlərin çoxluğu ilə, zikr və elm də çoxalar. Bu halda, təsmiyyənin çoxluğu, isimlərin də çoxluğunu gərəkdirməz. Çünki bu, müsəmmi'lərin (təsmiyyə edənlərin, yəni, isim verənlərin) fellərinə racidir. (Halbuki) burda, isimlərdən murad, təsmiyyələr deyil; isimlər murad edilmişdir. İsimlər isə, müxtəlif mənalara dəlalət etmək üzərə vaz edilən ləfzlərdən ibarətdir. Artıq istər isim, müsəmmanın eynisi və ya istər qeyrisidir, deyilsin, bu tərz təkəllüflü təvillərə hacət yoxdur. Bu məsələ, az mənfəətli olmasından, uzadaraq açıqlamağa layiq olmadığından, bu qədərinin açıqlanması, sənə kifayət edər. Və lakin belə bəhsləri tanıma yolunu təlim etmək üçün, şərh etməyi qəsd etdik. Ta ki, daha əhəmiyyətli məsələlərdə, bu yoldan istifadə edilsin. Bu məsələdə ən çox üzərində durulan, mənalar deyil, ləfzlərdir. Allah, ən gözəl biləndir...

* * *

İkinci Fəsil

Bu fəsil, mənaca bir-birinə yaxın olan isimlərin bəyanı haqqındadır. Məna cəhətilə bir-birinə yaxın olan isimlərin eyni mənalı olmaları, caizdirmi (mümkündürmü)? Və ya məfhumları, mütləq surətdə bir-birindən fərqlidirmi?

Mən (Ğazzali) deyirəm: Bu isimləri şərh xüsusuna dalanlar, bu xüsusa toxunmamışlardır. Onlar,

~ ***«əl-Musavvir», «əl-Bari», «əl-Xaliq»;***

~ ***«əl-Qadir», «əl-Muqtədir»;***

~ ***«əl-Əzim»*** *və* ***«əl-Kəbir»***

kimi bənzərlik göstərən isimlərin arasından 2 ismin eyni məna ifadə etməsini, uzaq görməmişlərdir. Hər nə qədər 2 isim də, 99 ismin içində yer alsa da, Mən, bunu (yəni, bunların eyni mənalı olmalarını), çox uzaq görməkdəyəm. Çünki ismə, hərfləri üçün deyil, mənaları üçün baxılır. Eyni mənalı isimlərin isə, sadəcə hərfləri dəyişir. Çünki isimlər, ehtiva etdiyi mənalardan dolayı fəzilətlidir. Əgər məna gedərsə, (geriyə) sadəcə ləfz qalar. 1000 isimlə dəlalət edilən 1 məna, tək isimlə dəlalət edilən mənadan üstün deyildir. (Dolayısı ilə), (isimlərin) məhdud olan sayının, eyni mənaya dəlalət edən ləfzlərin təkrarı ilə tamamlanması, uzaq (bir ehtimal)'dır. Hər ləfzin altında xüsusi bir məna olması, daha doğrudur. Əgər yaxın bir məna ifadə edən 2 ləfz görsək, bu ləfzlə bağlı bu 2 ehtimaldan birinin olması, labüddür. Onlardan:

• **Birincisi:** 2 isimdən birinin 99 ismin xaricində olduğunun ortaya çıxması. Məsələn, ***«əl-Əhəd»*** və ***«əl-Vahid»*** isimlərində olduğu kimi...2

Əbu Hureyrə (radiyallahu anh)›dan rəvayət edilən məşhur bir hədisdə, ***«əl-Vahid»*** ismi keçməkdədir. Başqa rəvayətdə isə, ***«əl-Vahid»*** ismi yerinə, ***«əl-Əhəd»*** ismi keçməkdədir.

Dolayısı ilə, istər ***«əl-Əhəd»,*** istər ***«əl-Vahid»*** ismi olsun, hər iki rəvayətdə də 99 ismi tamamlayan məna, tövhiddir. Lakin bu 2 ismin, mənaca bir olduqları halda, 99 ismin sayını tamamlamaq cəhətindən 2 isim yerinə qaim olmaları, Məncə, çox uzaq (bir ehtimal)'dır.

• **İkincisi:** 2 ləfzdən birinin, digərindən, məna cəhətilə bir məziyyətinin olduğunu izhar etmək, bizim üçün təkəllüflü (çətin) olacaqdır. (Bunu da),

birinin dəlalət etdiyi (mənaya), digərinin dəlalət etmədiyini söyləyərək edəcəyik. ***«əl-Ğafir», «əl-Ğafur»*** və ***«əl-Ğaffar»*** isimlərinin varid olmasını, buna misal olaraq göstərə bilərik. Bu 3 ismi (fərqli mənalara dəlalət edən 1 isim olaraq) saymaq, uzaq (bir ehtimal) olmayacaqdır. Çünki:

~ ***«əl-Ğafir»*** ismi, sadəcə məğfirətin əslinə dəlalət edir;

~ ***«əl-Ğafur»*** ismi, günahların çoxluğuna izafətlə məğfirətin çoxluğuna dəlalət edir. Hətta günahlardan yalnız bir növünü bağışlayana, ***«əl-Ğafur»*** deyilməz.

~ ***«əl-Ğaffar»*** ismi isə, təkrar yolu ilə günah bağışlamağın çoxluğuna işarət edir. Yəni, ***«günahları, təkrar-təkrar bağışlayan»*** deməkdir. Hətta bütün günahları birinci dəfə bağışlayıb, lakin təkrar günah işləyəni bağışlamayana, ***«əl-Ğaffar»*** deyilməz.

«əl-Ğani» və ***«əl-Məlik»*** isimləri də, belədir. ***«əl-Ğani», «heç bir şeyə möhtac olmayan»*** deməkdir. ***«əl-Məlik»*** də, ***«heç bir şeyə möhtac olmayan, hər şey Ona möhtac olan»*** deməkdir. Bu halda, ***«əl-Məlik», «əl-Ğani»*** isminin mənasını və eyni zamanda, özündə, əlavə bir məna da daşımaqdadır.

«əl-Alim» və ***«əl-Xabir»*** isimləri də, belədir. ***"əl-Alim",*** sadəcə elmə dəlalət edir. ***"əl-Xabir"*** isə, işlərin batinini belə bildiyinə dəlalət edir.

İsimlər arasındakı bu qədər fərqlilik, onları, mütəradiflikdən (eyni mənalı olmaqdan) çıxarmaqdadır. Və bu isimlər, ***"leys"*** və ***"əsəd"*** cinsindən deyil; ***"seyf", "muhənnəd"*** və ***"sarim"*** cinsindəndirlər.

Mənası bir-birinə yaxın olan bu isimlərin bəziləri haqqında, (yuxarıda zikr etdiyimiz) 2 ehtimaldan birini izləməyimiz mümkün olmursa; hansı yöndən bir-birindən ayrıldıqlarını təyin edə bilməsək belə, ləfzin mənaları arasında fərqlilik olduğuna etiqad etməyimiz lazım gələcəkdir. Eynilə, ***«əl-Əzim»*** və ***«əl-Kəbir»*** isimlərində olduğu kimi...Allah Taala haqqında bu 2 ləfzin mənalarının hansı yöndən bir-birindən fərqli olduğunu təyin və təsbit etmək, çətindir. Lakin, (bunların), əsldə bir-birilərindən fərqli olduqlarına dair şübhəmiz yoxdur.

Allah Taala, belə buyurdu: ***«Kibriya, rida'm; əzəmət isə, izar'ımdır.»*** (1) (hədisindən də göründüyü kimi), bu 2 kəliməni (kibriya və əzəməti), bir-birindən ayırdı. Rida və izar, onu geyinən üçün bir zinətdir. Çünki rida, izardan daha şərəflidir.

Yenə, bu səbəbdən dolayı, namazın açarı, ***"Allahu Əkbər"*** qılınmışdır. Nüfuzlu bəsirət sahiblərindən heç kim, ***"Allahu Əkbər"*** yerinə, ***"Allahu***

(1) İbn Macə, Sünən, hədis no: 4174; əbu Davud, Sünən, hədis no: 4090

Əzəm" təbirinin istifadə edilə biləcəyini söyləməmişdir. Ərəblər də, bu 2 ləfzin istifadəsini, bir-birindən ayırmışlardır. ***"Kəbir"*** (ifadəsini) istifadə etdikləri yerdə, ***"Əzim"*** ifadəsini istifadə etməzlər. Əgər bunlar, eyni mənalı olsalardı, hər yerdə (bir-birinin yerinə) istifadə edilərlərdi. Məsələn, (onlar), ***"Filankəs, yaşca, filankəsdən əkbərdir."*** deyərkən; ***"Filankəs, yaşca, filankəsdən əzəmdir."*** deməzlər. Eyni şəkildə, ***"Cəlil"*** ismi, ***"Kəbir"*** və ***"Əzim"*** isimlərindən fərqlidir. Çünki ***"Cəlal",*** şərəf sifətlərinə işarət edir. Bundan dolayı, ***"Filankəs, yaşca, filankəsdən əcəldir."*** deyilməz. Ancaq *"əkbərdir"* deyilir. Yaxud, ***"Ərş, insandan əzəm/böyükdür."*** deyilir; ancaq, ***"Ərş, insandan daha əcəll'dir."*** **deyilməz**.

O halda, bütün bu isimlərin mənası, bir-birinə yaxın olduqları halda, bir-birilərinin eynisi deyildirlər.

Nəticə olaraq, (99 ismin içərisində), yaxın mənalı ləfzlər, 99 isimdən olub, bunların, tamamilə eyni mənalı olması (ehtimalı), uzaqdır. Çünki isimlərə, hərfləri və məxrəclərdəki səsləri üçün deyil; əksinə, mənaları üçün baxılır. Bax bu, etiqad edilməsi zəruri olan bir əsldir.

* * *

Üçüncü Fəsil

Bu fəsil, müxtəlif mənaları olan və bu müxtəlif mənalara izafətlə müştərək olan isimlər haqqındadır.

Məsələn, ***«əl-Mu'min»*** ismində olduğu kimi...Bəzən bu isimlə, ***«təsdiq edən»*** mənası murad edilir. Bəzən də, ***«güvən vermək»*** mənasına gələn ***«əmn»*** kəliməsindən müştaq olur ki, bu halda, mənası, ***«əmin-amanlıq verən»*** ifadə edir. O halda, ümumilik ifadə edən bir ismi, müsəmmalarına həml etməklə, bu müştərək ismi, hər 2 mənaya həml etmək, caizdirmi? (Necə ki), ***«əl-Alim»*** ismi, qeyb və şəhadət aləminə; zahir və batin elminə və s. məlumatlara həml edilirsə...

Müştərək isim, lüğət cəhətindən ələ alındığı təqdirdə, ümuma həml edilməsi qəbilindən olaraq, onu, bütün müsəmmalara həml etmək, uzaq (bir ehtimal)›dır. Çünki ərəblər, ***«racul/kişi»*** dedikləri zaman, bu isimlə, kişilərdən hər birini qəsd edirlər. Bax, ümumi olan, budur.

Lakin ***«ayn»*** ləfzini istifadə etdikləri vaxt, (eyni anda)

~ ***«günəş»;***

~ ***«dinar»;***

~ ***«tərəzi»;***

~ ***«bulaq»;*** və

~ canlıdakı ***«göz»*** kimi ***«ayn»*** ləfzinin müştərək olduğu bütün mənaları qəsd etməzlər. Onlar, ***«ayn»*** ləfzini, yalnız, bu mənalardan birini qəsd edərək istifadə edər və onu, qərinə ilə ayırd edərlər.

İmam Şafi›nin, üsulda, belə dediyi rəvayət edilir: ***«Müştərək isim, mütləq olaraq gəldiyində və təxsis edildiyinə dəlalət edən bir qərinə olmadıqca, müsəmmalarının hamısına itlaq edilir.»*** Əgər bu sözün Şafi›dən rəvayəti səhihdirsə, (bu söz), (həqiqətdən) uzaqdır. Əksinə, mütləq şəkildə, ***«ayn»*** ləfzi, mübhəmdir; müsəmmalarından birinə bir qərinə ilə dəlalət etmədikcə, təyin edilə bilməz.

Təmim'ə (ümumiləşdirməyə) gəlincə, bəlkə də, şəriətin vaz etdiyi şey, dilin vaz etdiyinə müxalif ola bilər. Bəli, şəriətin istifadə etdiyi kəlimələrdə, şəri cəhətdən edilən bu istifadə və vazdan dolayı, bir kəliməni istifadə edib onun bütün mənalarını iradə etmək, uzaq bir ehtimal olmaya bilər. Necə

ki, ***«salat/namaz»*** və ***«siyam/oruc»*** kəlimələri, şəri bir vazla (qoyuluşla), lüğətin vermədiyi bəzi mənalar üçün istifadə edilə bilirsə; (eyni şəkildə), ***«əl-Mu'min»*** ismi də, lüğətin vazı ilə deyil, şəriətin vazı ilə, ***«təsdiq edən»*** və ***«əmin-amanlıq verən»*** mənalarına həml edilə bilər.

Bir dəlilin olması halında, (məsələnin bu şəkildə başa düşülməsi), uzaq (bir ehtimal) deyildir. Ancaq şəriətin, (kəlimənin) qoyulduğu (mənaları) dəyişdirdiyinə dair, bir dəlil yoxdur. Mənim qalib olan zənnimə görə də, şəriət, bu vazları (qoyuluşları) dəyişdirməmişdir. (Bu səbəblə), müsənniflərdən bəzilərinin, ***«Allah (azzə və cəllə)'nin isimlərindən bir isim, birdən çox məna ehtiva edər və ağıl da, (o mənalar içindən birinin) muhallığına dəlalət etməzsə, ümum təriqi ilə cəminə həml edilər.»***

deməsi, (həqiqətdən çox) uzaqdır.

* * *

Dəyərli oxuyucu! Əsər, isimlərin kainatdakı təcəlliləri (təzahürləri) və insanların da bununla zinətlənməsi, mənalarına bürünməsilə bağlı olduğu üçün, bu izahları verməyi uyğun gördük. Belə ki:

İsim təcəllisi nədir?

Ustad Said Nursi (rahiməhullah), "Risale-i Nur" külliyyatının bir çox yerində, belə deyir:

"Nasıl mükemmel, muntazam, san'atlı, saray gibi bir eser, bilbedâhe muntazam bir fiile delâlet eder. Yani bir bina bir dülgerliğe delâlet eder. Ve mükemmel, muntazam bir fiil, bizzarure, mükemmel bir fâile ve mâhir bir ustaya, bir dülgere delâlet eder. Ve mükemmel usta ve dülger ünvanları, bilbedâhe, mükemmel bir sıfata, yani san'at melekesine delâlet eder. Ve mükemmel sıfat ve o mükemmel meleke-i san'at, bilbedâhe, mükemmel bir istidadın vücuduna delâlet eder. Ve mükemmel bir istidad ise, âlî bir ruh ve yüksek bir zâtın vücuduna delâlet eder. Öyle de, zeminin yüzünü, belki kâinatı dolduran müteceddid eserler, bilbedâhe, gayet derece-i kemâlde bulunan ef'âli gösteriyor. Ve şu nihayet derecedeki intizam ve hikmet dairesindeki ef'âl, bilbedâhe, ünvanları ve isimleri mükemmel olan bir fâili gösteriyor. Çünkü, muntazam, hakîmâne fiiller fâilsiz olmadığı, katiyen mâlûm. Ve son derece mükemmel ünvanlar, o fâilin son derece kemâldeki sıfatlarına delâlet eder. Çünkü, fenn-i sarfça, nasıl ism-i fâil masdardan yapılır; öyle de, ünvanların ve isimlerin dahi masdarları ve menşe'leri sıfatlardır. Ve son derece-i kemâlde sıfatlar, şüphesiz son derece mükemmel olan şuûnât-ı zâtiyeye delâlet eder. Ve kabiliyet-i zâtiye, tâbir edemediğimiz o mükemmel şuûn-u zâtiye, bihakkalyakîn hadsiz derece-i kemâlde olan bir Zâta delâlet eder.

İşte, bütün âlemdeki âsâr-ı san'at ve bütün mahlûkat, herbiri birer eser-i mükemmel olduğundan, herbiri bir fiile ve fiil ise isme, isim ise vasfa ve vasıf ise şe'ne ve şe'n ise zâta şehâdet ettikleri için, masnuât adedince, birtek Sâni-i Zülcelâlin vücûb-u vücuduna şehâdet ve ehadiyetine işaret ettikleri gibi; heyet-i mecmûası ile, silsile-i mahlûkat kadar kuvvetli bir tarzda, bir mi'rac-ı mârifettir, hiçbir cihette içine şüphe girmeyen müteselsil bir bürhan-ı hakikattir." (1)

(1) Sözlər", 33-cü Söz, Tövhid'in 18-ci Pəncərəsi, s. 647-648

Yəni:

Necə ki, mükəmməl, müntəzəm (intizamlı), sənətli, saray kimi bir əsər, açıq bir şəkildə, intizamlı bir felə dəlalət edər. Yəni, bir bina, bir dülgərliyə dəlalət edər. ---> Və mükəmməl, müntəzəm bir fel, zəruri olaraq, mükəmməl bir failə və mahir bir ustaya, bir dülgərə dəlalət edər. ---> və mükəmməl usta və dülgər ünvanları, açıq bir şəkildə, mükəmməl bir sifətə, yəni sənət məharətinə dəlalət edər. ---> və mükəmməl sifət və o mükəmməl sənət məharəti, açıq bir şəkildə, mükəmməl bir istedadın varlığına dəlalət edər. ---> və mükəmməl bir istedad isə, ali bir ruh və yüksək bir zat'ın varlığına dəlalət edər.

Elə də, yer üzünü, bəlkə (yəni, yer də bir tərəfə) kainatı dolduran mütəcəddid (yenilənən) əsərlər açıq bir şəkildə, kamal dərəcədə olan felləri göstərir. ---> və bu nəhayət dərəcədəki intizam və hikmət dairəsindəki fellər, açıq bir şəkildə, ünvanları və isimləri mükəmməl olan bir faili göstərir. Çünki, müntəzəm, hikmətli fellərin failsiz olmadığı, qəti olaraq məlumdur. ---> və son dərəcə mükəmməl olan ünvanlar, o failin son dərəcə kamaldakı sifətlərinə dəlalət edər. Çünki, sarf elminə(1) görə, necə ki, ismu'l-fail(2) məsdərdən düzəldilir; elə də, ünvanların və isimlərin də məsdərləri və mənşələri, sifətlərdir. ---> və son dərəcə kamalda olan sifətlər, şübhəsiz, son dərəcə mükəmməl olan şuunata(3) dəlalət edər. --->

(1) Sarf elmi (morfologiya): sözlərin quruluşundan və dəyişərkən məruz qaldığı formalardan bəhs edən elmdir. Yəni, sözün, müxtəlif formalara düşməklə yeni mənalar verməsini öyrənən elmdir.

(2) İsmu'l-fail: feldən meydana gələn və işi göräni göstərən isim cinsindən olan kəlimələrdir. Məsələn, "كَتَبَ / kətəbə" sözü, "yazdı." mənasındadır. Bu felin ismu'l--faili, "كَاتِبٌ / kətibun" şəklindədir və "yazan" mənası verməkdədir.

(3) "Şuunat", "şə'n"in cəm halıdır. "Şə'n üçün, dilimizdə, tam bir qarşılıq yoxdur. Ən yaxın məna olaraq, "şan", "hal", "qabiliyyət" deyilir.

~ "Xaliq" (Yaradan), Allahın bir ismidir. "Xaliqiyyət" isə, "şan"ıdır. Yəni, yaradıcı olmaq, Allahın şan'ındandır. Bu xaliqiyyətini icra etmək istədiyində, bu istəyi, elm, iradə, qüdrət və s. kimi sifətlər izləyir və xəlq (yaratma) feli icra olunur. Beləcə, yaradılan o məxluqda, "Xaliq" ismi təcəlli edir.

~ "Rəbb" (Tərbiyə edən) də, Allahın bir başqa ismidir. "Rububiyyət" (tərbiyə edici olmaq) isə, Allahın bir şan'ıdır.

Müəllifimizin "Risale-i Nur" külliyyatında,

Zat ---> Şuunat ---> Sifət ---> İsim ---> Fel ---> Əsər

sıralaması vardır. Diqqət edilsə, şuunat, sifətdən əvvəl zikr edilmişdir. Çünki, sifətləri icraata sövq edən şey, şuunat'dır. Məsələn, mərhəmət etmək, Allahın şan'ındandır. Bu mərhəmət ilə, insana nemət ehsan etməyi iradə edər və qüdrətilə, onun ehtiyacı olan şeyi yaradar. Mərhəmət etmək, Allahın şan'ı; iradə və qüdrət isə, Allahın sifətləridir. Bütüh

və zati qabiliyyət deyə təbir edə bilmədiyimiz[1] o mükəmməl şuunat (şə'nlər), bihaqq əl-yəqin (şəxsən yaşamaq surətilə əldə edilən yəqinliklə), hədsiz kamal dərəcədə olan bir Zat'a dəlalət edər.

Bax, bütün aləmdəki sənət əsərləri və bütün məxluqat, hər biri, mükəmməl bir əsər olduğundan, hər biri, bir felə ---> və fel isə, ismə ---> isim isə, vəsfə ---> vəsf isə, şə'nə ---> və şə'n isə, Zata şəhadət etdikləri üçün, məsnuat (sənətlə yaradılan şeylər) ədədincə, bir tək cəlal sahibi Sani (sənətkar)'ın varlığının zəruri olmasına, şəhadət və əhədiyyətinə (birliyinə) işarət etdikləri kimi; topyekun görünüşü ilə, məxluqatın silsilələri qədər qüvvətli bir tərzdə, bir mərifət miracı (nərdivanı); içinə heç bir cəhətlə şübhə girməyən mütəsəlsil (silsilə) bir həqiqət bürhanı (dəlili)'dir.

Haşiyə:

Cilvə: "*qəlbdə, təcəllidən hasil olan şey*" deməkdir. "**Cilvə**" üçün, "*arifin qəlbində parlayan İlahi nur (yəni, kainatda hər hansı bir fəaliyyət təfəkkür edildiyində, bu fəaliyyətin failinin Allah olmasının qəlbdə hiss edilməsi)*" da deyilmişdir.

"**Təcəlli**" isə: "*görünmək" deməkdir və "qeybi həqiqətlərin qəlblərdə hiss edilə bilən hala gəlməsi*", "*qeybi olan şeylərin nurlarından qəlblərə açılan şeylər*" şəklində tərif edilir.[2])

Allahın sifətlərindən bir sifətin qulun qəlbində münkəşif olmasına (kəşf edilməsinə) - "***sifət təcəllisi***"; isimlərindən bir ismin qulun qəlbində inkişafına isə "***isim təcəllisi***" deyilir. Təcəlli, Quran və hədislərdə, həm lüğət, həm də termin mənasında istifadə edilmişdir.

Quranda "*təcəlli*" kəliməsi: وَٱلنَّهَارِ إِذَا تَجَلَّىٰ

"*And olsun günəşin təcəllisi ilə aydınlaşan gündüzə!*"[3];

İlahi isimlər, beləcə düşünüldüyündə, hər birinin, Allahın şuunatından bir şan'a söykəndiyi başa düşülür. Allahın Zatı, müqəddəs olduğu kimi; şuunatı da, müqəddəsdir. Yəni, bəşər ağlı, bu xüsusda nə düşünsə, nə təxmin etsə, nə xəyallar qursa, Allahın şuunatı, bunların heç birinə bənzəməz; hamısına bənzəməkdən, münəzzəhdir.

(1) Müəllifin qəsdi, budur: "Qabiliyyət" kəliməsinə, insanlar örfi bir məna yüklədikləri üçün, Ustad Nursi, "tabir edemediğimiz" deməkdədir. İnsanlar, qabiliyyəti, daha çox, qüvvə (potensial)'dan felə doğru inkişaf etdirilməsi lazım olan bir şey şəklində dəyərləndirirlər. Halbuki, Allahdakı bu qabiliyyətlər, kamal bir mərtəbədədir, inkişafı bəhs mövzusu deyildir.

(2) bax: Seyyid Şərif Cürcani, "Tarifat"

(3) Leyl/2

وَلَمَّا جَآءَ مُوسَىٰ لِمِيقَـٰتِنَا وَكَلَّمَهُۥ رَبُّهُۥ قَالَ رَبِّ أَرِنِيٓ أَنظُرْ إِلَيْكَ ۚ قَالَ لَن تَرَىٰنِى وَلَـٰكِنِ
ٱنظُرْ إِلَى ٱلْجَبَلِ فَإِنِ ٱسْتَقَرَّ مَكَانَهُۥ فَسَوْفَ تَرَىٰنِى ۚ فَلَمَّا
تَجَلَّىٰ رَبُّهُۥ لِلْجَبَلِ جَعَلَهُۥ دَكًّا وَخَرَّ مُوسَىٰ صَعِقًا ۚ فَلَمَّآ أَفَاقَ قَالَ سُبْحَـٰنَكَ تُبْتُ إِلَيْكَ
وَأَنَا۠ أَوَّلُ ٱلْمُؤْمِنِينَ

"*Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. Musa dedi: 'Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım.' O dedi: 'Sən məni görə bilməzsən. Lakin bu dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən.' Rəbbi dağa təcəlli etdikdə, onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: 'Sən, pak və müqəddəssən! Sənə tövbə etdim və mən, iman gətirənlərin birincisiyəm!*" (1)

Hədislərdə "*təcəlli*" kəliməsi:

Bu kəlimə, hədislərdə, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in bir günəş tutulması hadisəsi sonrasında namaz qıldığında, günəşin yenidən görünməsi(2), təcəlli sözü ilə ifadə edilmişdir.

Təcəllinin bir başqa dəlili də budur:

əbu Əyyub əl-Ənsari (radiyallahu anh) rəvayət edildiyinə görə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"*Sizin, Allah Taala'nın əfv edəcəyi heç bir günahınız olmazsa, O, günahları olan bir qövm gətirər və onların günahlarını əfv edərdi.*" (3)

Muslim'də, əbu Hureyrə təriqilə bunun bənzəri olan bir rəvayətdə, Allahın, sonradan gətirəcəyi qövm üçün, "*Onlar, Allaha istiğfar edərlər.*" ifadəsi vardır.(4)

Rəzin'də isə, bu əlavə vardır:

Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurur:

"*Nəfsim əlində olan Allaha and olsun ki, əgər günah işləməsəydiniz, bunun daha böyüyü olan ucbun (yəni, özünü bəyənməyin) başınıza gəlməsindən qorxardım.*"(5)

(1) Əraf/143

(2) bax: Buxari, 67-ci Kitab: "Nikah kitabı", 88-ci bab, hədis no: 5197); axirətdə möminlərin görməsi üçün, Haqqın, Özünü, aşkar hala gətirməsi (Muslim, "İman"/191

(3) Muslim, "Tövbə", 9, 10, 11

(4) Muslim, "Tövbə", 11

(5) ibnu'l-Əsir, "Camiu'l-Üsul", hədis no: 5875

Bu 2 xüsus, Muslim və Tirmizi'nin rəvayətilə sabit olmaqdadır. Alimlər, birinci haqqında açıqlama verərkən, belə deyirlər:

Bu aləmdə, şər'i olaraq, sadəcə iman və itaət istənilmişdir. Lakin, aləmin və insanlığın yaradılışı etibarı ilə, küfr və masiyyətin də varlığı lazımdır, ki, bunun varlığı da murad edilmişdir. Çünki nəhayətində, tövbə gözlənilməkdədir.

İkinci xüsus isə, birincinin hikməti səviyyəsindədir. Bunun açıqlaması isə, belədir:

Allahın bütün isimləri, gözəldir. Cəmil (gözəl) sifəti olmasından dolayı, bu ismilə zühur etməsi lazımdır. Hər bir isim və sifətin zühuru, xüsusi bəzi hadisələrin gerçəkləşməsinə bağlıdır.

Hədisin dəlaləti, birinci xüsus haqqında, açıqdır. Beləcə, günahların ortaya çıxma zərurətinin hansı məqsədə (yəni, Allahın, özünü bu isimlərlə tanıtması məqsədinə) dair olduğu, başa düşülmüşdür.

İkinci xüsusun dəlili: "*Günahlarını bağışlayandır.*" ifadəsi düşünüldüyündə başa düşülür. Çünki, zikr edilən əfv etmə zərurətinin hikməti, Allahın, günahları bağışlamasıdır. Yəni, Allahın isimlərindən biri də, "*əl-Ğaffar*"dır. Günah ortaya çıxacaqdır ki, bu sifət də təzahür etsin. Günahın ardından Allahın əfvi olunca, bu sifət, dünyada zühur etmiş olur. Günah işləyən kimsələr isə, sifəti "*Ğaffar*" olana yalvarırlar.

Hədis deyə məşhur olan: "*Bilinmək istədim. Bunun üçün məxluqatı yaratdım.*"[1] sözünə görə, bu aləmin yaradılış səbəbi, bilinmə istəyidir. Bu da, digər sifətlər kimi, Allah Taala'nın bir sifətinin iqtizası/gərəyidir.

Eyni şəkildə, Allahın "*əl-Muntəqim/intiqam alan*" sifətinin zühuru üçün, dünyada küfrün var olması lazımdır. Buna da diqqət edilməlidir ki, iqtizadan murad, bir şeyin olmasını murad etməyin zəruri bir gərəyi deyildir. Çünki, Allah Taala, bundan çox ucadır. Bu cür şeylərə və intiqam almağa, möhtac deyildir. O, günah işləməsini murad etməz. Çünki, günahı istəmək, nass'lara ziddir. Əksinə, bir hikməti bəyan edərək günahlarımızdan tövbə etməyimizi və günahlardan uzaqlaşmağımızı və qəlbi təsfiyə etməyimizi (saflaşdırmağımızı) istəməkdədir. Ancaq, istənilən halda, Allah Taala'nın sahib olduğu sifətlər, təcəlli edəcəkdir.[2]

* * *

(1) Acluni, "Kəşfu'l-Xafa", ll, 132

(2) Əşrəf Əli Təhanəvi, "Həqiqətu't-Təriqa min Sünnəti'l-Əniqa" , 154-cü hədis

Varlıqların, xüsusilə insanların, isimlərin təcəlliləri̇nə ayna olmaları:

Ustad Bədiü'z-zaman Said Nursi (rahiməhullah), "Sözlər" adlı əsərinin 33-cü Sözündə (1) , belə deyir:

"İnsan, üç cihetle esmâ-i İlâhiyeye bir âyinedir."

Yəni:

İnsan, 3 cəhətlə Allahın isimlərinə aynadır.

Not:

Dəyərli oxuyucu! Kainat bir ağaca bənzədilərsə, insan, onun ən mükəmməl meyvəsidir. Meyvə, ağacın kiçik bir modeli olduğu kimi; Allah Taala da, insanı, kainatın kiçik bir modeli olaraq yaratmışdır. Bundan dolayı, Allahın kainatda təcəlli edib görünən bütün isimləri, insanda da təcəlli etməkdədir. Yəni insan, Allahın bütün isimlərini öz üzərində göstərən bir ayna kimidir.

- **Birinci vecih: Gecede zulümat nasıl nuru gösterir. Öyle de, insan, zaaf ve acziyle, fakr ve hâcâtıyla, naks ve kusuruyla bir Kadîr-i Zülcelâlin kudretini, kuvvetini, gınâsını, rahmetini bildiriyor, ve hâkezâ, pek çok evsâf-ı İlâhiyeye bu suretle âyinedarlık ediyor. Hattâ hadsiz aczinde ve nihayetsiz zaafında, hadsiz a'dâsına karşı bir nokta-i istinad aramakla, vicdan daima Vâcibü'l-Vücuda bakar. Hem nihayetsiz fakrında, nihayetsiz hâcâtı içinde, nihayetsiz maksatlara karşı bir nokta-i istimdad aramaya mecbur olduğundan, vicdan daima o noktadan bir Ganiyy-i Rahîmin dergâhına dayanır. Dua ile el açar. Demek her vicdanda şu nokta-i istinad ve nokta-i istimdad cihetinde iki küçük pencere, Kadîr-i Rahîmin bârgâh-ı rahmetine açılır, her vakit onunla bakabilir.**

Yəni:

- *Birinci cəhət: İnsanın, ziddiyyət etibarı ilə Allahın isimlərinə ayna olması:*

Gecədə qaranlıq, necə nuru göstərirsə; elə də, insan, zəiflik və acizliyi, möhtaclıq və ehtiyacları, nöqsanlıq və qüsurları ilə, cəlal sahibi bir

(1) bax: 31-ci Pəncərə, s. 665-666

Qadir'in qüdrətini, qüvvətini, zənginliyini, rəhmətini bildirir. Və beləcə, Allahın bir çox vəsflərinə, bu surətlə aynalıq etməkdədir. Hətta, hədsiz acizliyində və sonsuz zəifliyində, hədsiz düşmənlərinə qarşı bir istinad nöqtəsi axtarmaqla, vicdan, daim Vacibu'l-Vücuda (varlığı zəruri olan Allah)'a baxmaqdadır. Həm nəhayətsiz möhtaclığında, sonsuz ehtiyacları içində, sonsuz məqsədlərə qarşı, bir istimdad nöqtəsi axtarmağa məcbur olduğundan, vicdan, daim o nöqtədən, Ğaniyy (zəngin) və Rahim olan Allahın dərgahına söykənir. Dua ilə əl açır.

Demək, hər vicdanda, bu istinad və istimdad nöqtələri cəhətində, 2 kiçik pəncərə, Qadir və Rahim olan Allahın rəhmət dilənən məqamına açılır; hər vaxt, onunla baxa bilir.

• **İkinci vecih âyinedarlık ise: İnsana verilen nümuneler nev'inden cüz'î ilim, kudret, basar, sem', mâlikiyet, hâkimiyet gibi cüz'iyatla, Kâinat Mâlikinin ilmine ve kudretine, basarına, sem'ine, hâkimiyet-i rububiyetine âyinedarlık eder, onları anlar, bildirir. Meselâ, "Ben nasıl bu evi yaptım ve yapmasını biliyorum ve görüyorum ve onun mâlikiyim ve idare ediyorum. Öyle de, şu koca kâinat sarayının bir ustası var. O usta onu bilir, görür, yapar, idare eder," ve hâkezâ...**

Yəni:

• *İkinci cəhət: İnsanın, nümunələr etibarı ilə Allahın isimlərinə ayna olması. (Yəni):*

İnsana verilən nümunələr növündən cüzi elm, qüdrət, görmək, eşitmək, malikiyyət, hakimiyyət kimi cüziyyatla, kainat Malikinin elminə, qüdrətinə, görməsinə, eşitməsinə, tərbiyə ediciliyindəki hakimiyyətinə aynalıq edər; onları başa düşər; bildirər. Məsələn, "Mən, necə bu evi tikdim və tikməsini bilirəm, görürəm, onun malikiyəm, onu idarə edirəm. Elə də, bu böyük kainat sarayının bir Ustası vardır. O Usta, onu bilir, görür, tikir, idarə edir." və s...

• **Üçüncü vecih âyinedarlık ise: İnsan, üstünde nakışları görünen esmâ-i İlâhiyeye âyinedarlık eder. Otuz İkinci Sözün Üçüncü Mevkıfının başında bir nebze izah edilen insanın mahiyet-i câmiasında nakışları zâhir olan yetmişten ziyade esmâ vardır. Meselâ, yaratılışından Sâni, Hâlık ismini ve hüsn-ü takviminden Rahmân ve Rahîm isimlerini ve hüsn-ü terbiyesinden Kerîm, Lâtif isimlerini, ve hâkezâ, bütün âzâ ve âlâtıyla, cihazat ve cevarihiyle, letâif ve mâneviyâtıyla, havas ve hissiyatıyla ayrı ayrı esmânın ayrı ayrı nakışlarını gösteriyor...**

...Ey kendini insan bilen insan! Kendini oku. Yoksa hayvan ve câmid hükmünde insan olmak ihtimali var.

Yəni:

Üçüncü cəhət: İnsanın, öz üzərində naxışları görünən isimlərlə ayna olması:

...İnsanın cami (cəm edici) mahiyyətində "naxışları" zahir olan 70-dən çox isim vardır. Məsələn:

~ yaradılışından: Sani, Xaliq (xəlq edən) isimlərinin;

~ ən gözəl şəklindən: Rahmən və Rahim isimlərinin;

~ tərbiyəsindəki gözəllikdən: Kərim, Lətif isimlərinin

və beləcə, bütün əzaları və alətlərilə, cihazları və cövhərlərilə, hisləri və mənəviyyatı ilə, xüsusiyyətləri və hissiyyatı ilə, ayrı-ayrı isimlərin, ayrı-ayrı naxışlarını göstərir.

Ey özünü insan bilən insan! Özünü oxu. Yoxsa heyvan və cansız hökmündə bir insan olmaq ehtimalın var.

* * *

Təcəlliyə çalışmaq:

"Şeriat ve Sünnet-i Seniyyenin ahkâmları içinde cilveleri intişar eden Esmâ-i Hüsnânın herbir isminin feyz-i tecellîsine bir mazhar-ı câmi' olmaya çalış."

Yəni:

"*Şəriət və səna edilmiş/tərifləmiş sünnətin hökmləri içində, öz cilvələri yayılan əsmau'l-hüsnanın hər bir isminin təcəlli feyzinə cəm edici bir mazhar/ayna olmağa çalış!*"(1)

Ustad Nursi, belə deyir:

"Nasıl esmada bir ism-i azam var, o esmanın nukuşunda dahi, bir nakş-ı azam var ki, o da, insandır."

Yəni:

"*Necə ki isimlər içərisində ən böyük bir isim var; o isimlərin 'naxışları'nda (yəni, təcəlli etdiyi şeylər içində) də böyük bir 'naxış' vardır ki, o da, insandır."*

deyərək, insanın, bütün isimlərə "*ayna*" olduğunu bəyan etmişdir.

İnsan:

~ Yaradılmış və özünə, müəyyən bir şəkil verilmiş; bu yönü ilə, ulduzlar, dağlar, səhralarla qardaşdır.

~ Həyat nemətinə qovuşmuş; bu cəbhəsilə, cansız varlıqlardan ayrılmışdır.

~ Ağıl sahibi, qəlb və vicdan sahibi bir məxluq olaraq varlıq sahəsində boy göstərmişdir. Bax, insanı, yer kürəsinə xəlifə qılan da, onun bu cəbhəsidir. Cansız varlıqlarda, bitki və heyvanlar aləmində təcəlli etməyən neçə-neçə isimlər, insanın qəlb aləmində, könül dünyasında, çəyirdəklər halında təcəlli etməkdədir.

İnsana düşən vəzifə, o çəyirdəkləri inkişaf etdirmək və bir ağac halına gətirməkdir.

"Bir şey mütləq olaraq zikr edilincə, ən kamalına sərf edilir." Yəni, "Ona ən kamil mənada ayna olan şey başa düşülür." qaydası gərəyincə, insan deyilincə də, ağla, ilk, Allah rəsulu (sallallahu aleyhi və səlləm)

(1) Said Nursi, Sözlər, 24-cü Söz, s. 353

gəlir. Bütün isimlərə ən iləri dərəcədə ayna olan şəxs, ancaq Odur. Digər peyğəmbərlər və bütün saleh və vəli qullar, ancaq müəyyən isimlərə kamalı ilə ayna olmuşlardır. Bu kamal nöqtəsi də, Allah rəsulundakı təcəllinin çox gerisində qalır.

İnsan, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'ə hər yönü ilə bənzəməyə çalışdığı təqdirdə, "ən cəm edici ayna, mazhar" olmaq yolundadır deməkdir. Bu yüksək qayəyə, hansı sahələrdə, nə qədər çata bilərsə, o qədər kardır.

Bəhsimizə mövzu olan hikmətli cümlədə, əhəmiyyətli bir kəlimə keçirdi: "**Çalış!**"

Bir arı, sadəcə bal düzəltməyi; bir hörümçək də, sadəcə tor hörməyi bilir. Balı da, toru da yaradan, Allahdır. Onlar, bu İlahi sənətin icrasında, bir səbəb olaraq vəzifə almış və bu sayədə, özləri də bir dəyər qazanmışlardır. (Yəni, arının bal, hörümçəyin tor düzəltməsi fəaliyyəti, arıya və hörümçəyə deyil, məhz Allaha aiddir. Məhz bu fəaliyyətdən, biz, Allahı isimləri/ünvanları ilə tanıyırıq. İsimlərin təcəllisi, təzahürü deyərkən qəsd etdiyimiz də, məhz budur.)

Ancaq onların artıq çalışaraq yeni bir sənət icra etmək imkanları yoxdur ki, ayrı bir kamillik qazansınlar, ayrı bir gözəlliyə qovuşsunlar. Ancaq insan, belə deyil. Kitab və sünnətin hər bir əmrinə tabe olmaqla, ayrı bir sahədə dərinləşmə və zənginləşmə imkanına sahibdir. Bax Ustadın yuxarıdakı sözündə keçən "Çalış!" ifadəsi, belə bir səy içərisinə girmə əmri və ya tövsiyyəsidir.

İnsanın, bir məxluq olaraq, gərək bədənində, gərəksə də ruhunda təcəlli edən isimlər ilə qazandığı kamilliyin fövqündə, bir kamal və camal sahəsi daha vardır. Bax bu sahə, onun iradəsinə buraxılmışdır. Çalışarsa, bu təcəllilərdən nəsiblənər; çalışmazsa, məhrum qalar.

İnsan oğlu, fənn və texnika sahəsində göstərdiyi təqdirə layiq işlərilə, bu "kainat kitabı"nın gizli mənalarını axtarıb tapmış; ondakı incə sirləri kəşf etmiş; və beləcə, özünə, daha rahat, daha aydın bir dünya həyatı hazırlamışdır. Bax bu səyin bir bənzərini də, ruh aləminin, qəlb dünyasının inkişafı üçün sərf etsə, ağlı, daha kamil; qəlbi, daha ülvi; ruhu, daha zəngin olacaqdır.

Bütün gözəlliklər, əsmau'l-hüsnanın təcəlliləriylə meydana gəldiyinə görə, insan, bu yeni dünyasında, daha çox ismə, daha iləri mənada mazhar olmuş deməkdir. Bax, Quranın hər bir hökmü və sünnətin hər bir əsası da, insan üçün ayrı bir tərəqqi və ayrı bir gözəllik vəsiləsidir. İnsan, Quran və sünnətin bu hökmlərinə tabe olmaqla, isimlərdən feyizlənə (bərəkət qazana) bilər. Buna, bir neçə misal:

~ İnsan, elmlə toxunmuş bir varlıqdır. Hər əzası, hər hüceyrəsi, İlahi elmdən xəbər verirlər. İnsan, bu yönü ilə, Haqq Taala'nın, "əl-Alim" isminə bir mazhar, bir ayna olmaqdadır. Bununla bərabər, insanın, çalışaraq elm təhsil etməsi də vardır ki, onu, digər insanlardan üstün qılan, məhz bu cəhətidir. Ancaq, bu elmin, Quran və sünnət dairəsində, yəni Allah və rəsulunun icazə verdiyi, razı olduğu dairədə istifadə etməsi, şərtdir.

~ Elmini və sənətini, insan sağlamlığının xidmətinə ərz edən və qəlbi, mərhəmət və şəfqətlə dolu olan bir həkim, "əş-Şafi" isminin təcəllisinə mazhar olar və bu isimdən, ayrı bir feyz alar.

~ Allahın "əl-Quddus" ismini xatırlayan bir mömin, kainatın, başdan-başa bu ismin təcəllilərilə aydın və tər-təmiz olduğunu təfəkkür etməklə, bu isimdən ayrı bir feyz alar. Bu feyz ilə, öz cismini və bununla bərabər daxili aləmini (yəni, qəlbini) də təmiz saxlamağa çalışar. Qüsurdan münəzzəh olan Rəbbinin hüzuruna, günahsız olaraq çıxmağa səy göstərər. Ruhundakı kirlərə, libasındakı ləkələrdən daha çox əhəmiyyət verər.

Not:

Dəyərli oxuyucu! Bütün kainatda, bir təmizləmə fəaliyyəti mövcuddur. Bu fəaliyyət, Özünü bu isim/ünvanla (yəni, əl-Quddus olaraq) tanıdan Allaha məxsusdur. Çünki, təmizləmək üçün, bilmək, görmək, eşitmək, iradə etmək, həyata sahib olmaq, şərtdir. Bu isə, Allahdan başqası üçün, muhal/imkansızdır.

Varlıqlar isə:

~ ya ixtiyar sahibləridirlər;

~ ya da deyillər.

İxtiyarı olmayan varlıqları təmizləyən Allah, heç mümkünmüdür ki, ixtiyarı olan varlıqlara, Özünü bu ünvanla tanıtmaq istəməsin?! Bütün kainatı təmiz tutan Allah, heç mümkünmüdür ki, ixtiyarı ən geniş olan insana, təmizlənməyi əmr etməsin?! İnduktiv metodla başa düşdüyümüz budur ki, insana da, (dəstəmaz, qüsul kimi vasitələrlə) təmizlənməsi əmr ediləcəkdir və əmr edilmişdir də...İnsan, mənəvi yönü etibarı ilə digərlərindən üstün olduğu üçün, onun bu mənəvi tərəfini (tövbə, istiğfar, haramlardan çəkinməklə) təmizləməsi də, təbiidir ki, əmr ediləcəkdir və edilmişdir.

Dəyərli oxuyucu! Allahın ən çox yad etdiyimiz isimlərindən biri də, Rəbb ismidir. Rəbb: "tərbiyə edən" deməkdir. Tərbiyə isə: "əşyanı, ən kamal mərtəbəsinə, tədricən çatdırmaq" deməkdir. Tərbiyə fellərinə, aşağıdakıları misal verə bilərik:

Günəş, bir tərbiyədən keçərək bu halı aldığı kimi, ay da, dünya da, dünyadakı hər növ varlıq da, ayrı-ayrı tərbiyələrdən keçmişlərdir. Beləcə, kainatda, Allah, bu tərbiyə fəaliyyətilə, Özünü, Rəbb deyə tanıtmışdır.

Bunları zikr etməkdə məqsədimiz, budur:

Günəş və s. varlıqlar kimi, insanın maddəsi də bir tərbiyədən keçmiş, nütfə halından mükəmməl bir şəkilə çatmışdır. Və özündən hasil olan bütün faydalar, məhz bu doğru tərbiyə ediciliyin məhsuludur.

Dəyərli oxuyucu! İnsan iradəsinin xaricində olan bu felləri, işləri tərbiyə edən, bunları ən kamil bir şəkilə gətirən Allah, heç mümkünmüdür ki, insanı, mənəvi cəhətdən də ən kamil bir şəkildə (maddəsində olduğu kimi) tərbiyə etmək, ondan faydalar hasil etmək istəməsin?! Çünki insanları digər varlıqlardan ayıran, ona üstünlük qazandıran, məhz bu mənəvi cəhətidir. Bu cəhətdən, daha aşağıda yer alan maddəsini, ən kamil bir şəkildə tərbiyə edən Allah, onun ən üstün cəhəti olan mənəvi tərəfini də, tərbiyə etmək istəyəcək, istəmiş və bunun üçün də, Öz əzəmətli kitabını və rəsulunun sünnətini endirmişdir. Çünki, nəyin yaxşı, nəyin də pis olduğunu ağılla təyin etmək mümkün deyildir.

Dəyərli oxuyucu! Namaz qılmaq, sədəqə vermək, oruc tutmaq və s. kimi hər bir İlahi əmrdə və qadağada da, bu Rəbb isminin ayrı bir təcəllisi vardır. Bunların hər birilə, insan qəlbi, ayrı bir tərbiyədən keçməkdə və ayrı bir kamillik qazanmaqdadır.

Qısacası: özü ilə əməl edilən hər bir İlahi əmr və qadağa, insan üçün ayrı bir tərəqqi vəsiləsidir. Hər şey kimi, bu tərəqqilər də, İlahi fellərin icrası ilə meydana gəlməkdədir. Və insan, o felin qaynağı olan o isimdən/ünvandan, beləcə feyz ala bilər.

Hər bir ismə də, insan, bu nəzərlə baxmalı və isimlərin mənalarının öz üzərində görünməsinə çalışmalıdır.

* * *

Dördüncü fəsil:

Bu fəsil:

~ Allah Taala'nın əxlaqı ilə əxlaqlanmaq;

~ İsim və sifətlərinin mənaları ilə imkan nisbətində zinətlənmək; və

~ Qulun kamal və səadətinin bəyanı haqqındadır.

Bil ki, Allah (azzə və cəllə)'nin isimlərinin mənaları (xüsusunda) həzzi (yəni, nəsibi) olmayan şəxs,

~ ancaq (isimlərin) ləfzini eşidər;

~ lüğətdəki mənasının təfsirini və vad'ını (ləfzlərin hansı mənaya dəlalət etmək üzərə ortaya qoyulduğunu) bilər; və

~ qəlbən, (bu ismin) Allah Taala haqqında sabit olduğuna (yəni, mövcudluğuna) inanmaqdan ibarət qalarsa, nəsibi, az; və dərəcəsi də, aşağıdır, deməkdir. Nail olduğu şey ilə də, iftixar edə bilməz. Çünki,

1. Ləfzi eşitmək, eşitmə hissinin salamat olmasına bağlıdır ki, bu (məziyyət), heyvanlarda belə mövcuddur.

2. (Bir ləfzi) lüğət cəhətindən başa düşmək üçün isə, ərəb dilini bilməkdən başqa, bir şey lazım gəlməz. Bu mərtəbəni isə, ədəbiyyatçı və ağlı qıt bədəvi belə onunla paylaşmaqdadır. Ancaq,

3. Kəşfsiz Allah (Subhənəhu və Taala) üçün, bu mənaların sabit olduğu etiqadına gəlincə, (bunun üçün), ləfzlərin mənalarını başa düşmək və onları təsdiq etməkdən başqa, bir şey lazım gəlməz. Bu isə, avamın, hətta uşağın belə özünə şərik olduğu bir mərtəbədir.

4. Sözü (n mənasını) başa düşməyə başlayınca, bu mənalar ona ərz edildiyində, qəlbilə etiqad edər, öyrənər, götürər və üzərində qərarlı bir şəkildə dayanarsa, bax bu, digərlərindən fəzilətli olan alimlərin əksəriyyətinin mərtəbəsidir.

Bu 3 mərtəbədə, onlar (yəni, dördüncü mərtəbədə olanlar) ilə şərik olmayanlar, onların nisbi fəzilətlərini inkar edə bilməzlər. Ancaq, (bəhsi keçən dərəcələr), kamal zirvəsinə nisbətlə, açıq bir nöqsanlıqdır. Çünki, əbrar'ın həsənatı (saleh, gözəl əməlləri), muqarrəbin'in səyyiatı (çirkin əməllər, günahları) (məsabəsində)'dir.

Allah Taala'nın isimlərinin mənaları (xüsusunda), muqarrəb'lərin nəsibləri, 3-dür:

• **Birinci nəsib:** İsimlərin mənalarını, müşahidə və mükaşəfə yolu ilə bilməyindir. Hətta (elə bir şəkildə bilmək ki), içində xəta ehtimalı mümkün olmayan qəti bir dəlillə, bu isimlərin mənalarının həqiqətləri açılana qədər.

Allah (azzə və cəllə)'nin (bu isimlər) ilə müttəsif olduğu (vəsfləndiyi), açıqlıq etibarı ilə, yəqin mərtəbəsindədir. İnsan üçün (bəhsini etdiyimiz bu) yəqinlik isə, zahiri ihsas (hiss etmə) ilə deyil, batini müşahidəsilə idrak etdiyi batin sifətləri vasitəsilə meydana gəlir.

(İndi), bununla, müəllimlər və atalardan təqlid yolu ilə götürülüb israrlı bir şəkildə etiqad edilən şey arasında -istərsə, bu inanclar, cədəli-kəlami dəlillərlə dəstəklənmiş olsun- nə qədər böyük bir fərq vardır.

• **İkinci nəsib:** Cəlal sifətlərindən özlərinə kəşf olunan şeyləri, böyük görmələridir ki, bu istizam (böyük görmə) sayəsində, o sifətlərdən özləri üçün vəsflənməsi mümkün olanlarla vəsflənməyə şövqlənərlər ki, (beləcə), bu sifətlərlə, Haqqa, məkan (cəhətilə) deyil, sifət (cəhətilə) yaxınlaşarlar. (Beləcə, bu sifətlərlə), muqarrəb (Allaha yaxın) mələklərə bənzəməyə başlayarlar.

Qəlb, bir sifəti böyük görərək dolarsa, o vaxt, o sifətə şövq duyar. Bununla bərabər, əgər o böyük görən üçün, o sifəti kamalı ilə əldə etmək mümkündürsə, o cəlal və kamala aşiq olar və o vəsflə zinətlənməyə qarşı hərislənər. Əgər mümkün olmazsa, mümkün olduğu qədərinə şövq duyar.

Bu 2 səbəbdən dolayı, heç kim, bu şövqdən xali (uzaq) deyildir:

a. Cəlal və kamal vəsflərindən məlum olan vəsfə dair mərifət və yəqinliyin zəifliyi; və ya

b. İnsanın qəlbi, başqa bir şeylə dolmuş və istiğraq (səbəbilə).

Tələbə, müəllimin elmdəki kamalını müşahidə etdiyi vaxt, ona bənzəməyə və tabe olmağa şövq duyar. Lakin, tələbənin içi, aclıqla doludursa; qarnını doyurmaq ehtiyacı, içini əhatə etmişdirsə, bu, onun elmə olan iştiyaq (həvəs)'inə əngəl ola bilər.

Bax, bundan dolayı, Allah Taala'nın sifətlərinə baxan (yəni, təfəkkür edən)'in qəlbi, masiva (Allah xaricində qalan şeylər)'dən xali olmalıdır. Çünki, mərifət, şövqün toxumudur. Ancaq, bu toxum, şəhvət tikanından xali olan bir qəlbə təsadüf edərsə, (bəhsi keçən şövq doğacaqdır). Yox əgər şəhvət tikanından xali olmayan bir qəlbə rast gələrsə, toxum, sünbüllənməz.

• **Üçüncü nəsib:** Bu sifətlərdən, özü üçün mümkün olanı əldə etməyə; onunla əxlaqlanmağa; və onların gözəlliklərilə öz nəfsini zinətləndirməyə çalışmaqdır. Beləliklə, Rəbbani, yəni, Rəbb Taala'ya yaxın və mələklərdən meydana gələn əl-məlәu'l-ə'la'ya rəfiq olar. Çünki onlar, *«yaxınlıq örtüsü»*dürlər. Hər kim, onların sifətlərindən bir şey götürər; onları, Haqq Taala'ya yaxınlaşdıran vəsflərindən nə qədərinə nail olarsa, o miqdar yaxınlıq qazanmış olar.

Əgər: *«Allah (azzə və cəllə)'yə sifət yönündən yaxınlaşmaq, qəlblərin qəbul və təsdiqdən çəkindikləri qapalı bir şeydir. (Bundan dolayı, bu məsələni), inkar edənlərin inkarını qıracaq bir şəkildə şərh et! Bu, əksəriyyətlə, həqiqəti kəşf edilməmiş inkar edilən (mövzular) kimidir.»* deyərsənsə, belə cavab verərəm:

Sənə və avam dərəcəsindən bir az yuxarıda olan elm əhlinə, varlıqların, kamil və nöqsan olaraq ikiyə ayrıldıqları, gizli deyildir. Kamil olanlar, nöqsan olanlardan üstündür. Kamal dərəcələri, hər nə qədər fərqlilik ərz edib, mütləq kamal da, ancaq Özünə aid olacaq şəkildə kamalın nəhayət mərtəbəsi tək bir Zat›a məxsus olduğunda, digər mövcudat, mütləq kamala sahib olmayıb ancaq, kamaldan bir-birilərinə nəzərən fərqli-fərqli dərəcələrə sahib olduqlarında, (bax bu halda) aralarında ən kamil olan, (heç şübhəsiz), mütləq kamal sahibinə ən yaxın olan kimsədir, deməkdir. (Burda), məkan və məsafə yaxınlığını deyil; mərtəbə və dərəcə yaxınlığını qəsd edirəm.

Sonra, varlıqlar, canlı və cansız olaraq da ikiyə ayrılırlar. Sən də bilirsən ki, canlı, cansızdan daha şərəfli və daha kamildir. Canlıların dərəcələri də, 3-dür:

1. Mələklərin dərəcəsi;

2. İnsanların dərəcəsi;

3. Heyvanların dərəcəsi.

3. *Heyvanların, sayəsində üstünlük qazandıqları həyat dərəcəsi,* (digər dərəcələrə nəzərən), altdadır. Çünki diri olan varlıq, hər şeyi idrak edib hər feli icra edə bilən (varlıq)'dır. Heyvanın isə, idrak və felində, nöqsanlıq vardır. Onların idrakındakı nöqsanlıq, idrakının, sadəcə hisslərlə olmasıdır. Və hissi idrakları da, nöqsandır. Çünki heyvan, ancaq toxunaraq və ya yaxınlaşaraq əşyanı idrak edir. (O halda), hiss, toxunmadan və ya yaxınlaşmadan, bir şeyi idrak edə bilməz. Necə ki, dadma və toxunma hissləri, təmasa ehtiyac duyduqları kimi; eşitmə, görmə və qoxlama hissləri də, yaxınlığa ehtiyac duyurlar. Özündə təmas və ya yaxınlıq təsəvvür edilə bilməyən varlıqlar isə, (bu hal içərisində ikən), hisslərin idrakına mövzu ola bilməz. Heyvanların fellərindəki nöqsanlıq isə, şəhvət və qəzəbin iqtizasına (gərəyinə) bağlıdır. Şəhvət və qəzəbin xaricində,

onların saiq (sövq edən)›i yoxdur. Qəzəb və şəhvətin gərəyinə müxalif feli dəvət edəcək ağlı da yoxdur.

1. ***Mələyə gəlincə***, onun dərəcəsi, ən yüksək dərəcədir. Çünki, yaxınlıq və uzaqlıq, onun idrakına təsir etməz. Onun idrakı, (sadəcə), özündə yaxınlıq və uzaqlıq təsəvvür edilə bilən şeylərə xas deyildir. Çünki yaxınlıq və uzaqlıq, cisimlər haqqında təsəvvür edilir. Cisimlər isə, mövcudatın ən aşağı təbəqəsinə mənsubdurlar. Sonra, mələklər, qəzəb və şəhvətdən bəridirlər. Bu səbəblə, felləri, qəzəb və şəhvətin gərəyinə görə deyildir. Onları fellərə dəvət edən, qəzəb və şəhvətdən üstün bir şeydir, ki, o da, Allah (azzə və cəllə)'yə yaxınlıq istəyidir.

2. ***İnsanın dərəcəsi*** isə, 2 dərəcənin ortasındadır. İnsan, sanki, heyvaniyyət (heyvanlıq) və mələkiyyət (mələklik)'dən mürəkkəb (tərkib edilmiş) bir varlıqdır. Başlanğıcda, heyvaniyyət (cəhəti), daha qalibdir. Çünki onda, ilk əvvəl, hiss idrakı mövcuddur ki, məhsusat (hisslərlə idrak edilən şeylər)'dən, hərəkət və səy yolu ilə yaxınlıq tələb edərkən, bu hissi idraka ehtiyac duyar. Ta ki, sonralar, özündə, göylərin və yerin mələkutunda təsərrüf edən və bədənin hərəkətinə, idrak etdiyi şeyə yaxınlaşmağa və ya təmas etməyə möhtac olmayan ağlın nuru parlayana qədər. Məqulat (ağlın idrak etdiyi şeylər) isə, özlərinə, məkanca yaxınlaşıb-uzaqlaşmağı qəbuldan münəzzəh şeylərdir. Eyni zamanda, ilk əvvəl, ona hakim olan şey, şəhvət və qəzəbidir. Bu ikisinin müqtəzasınca davam edər, ta ki,

~ kamalı tələb etməkdə zəfər əldə edincəyə;

~ aqibətə nəzər edincəyə; və

~ şəhvət və qəzəbin gərəkdirdiyi şeylərə üsyan zühur edincəyə qədər...

Əgər şəhvət və qəzəbinə qələbə çalar, hətta o 2 qüvvə, hərəkət və ya təskin xüsusunda zəifləyərsə, bax o vaxt, mələklərə bir növ bənzərlik qazanar. Yenə, nəfsini, xəyallar və hisslərdən kəsər, heç bir hiss və xəyalın nail ola bilməyəcəyi xüsusların idrakı ilə ünsiyyət qazanarsa, mələklərdən bir bənzəyiş daha almış olacaqdır. Çünki, həyatın xüsusiyyəti, idrak və feldir. Nöqsanlıq, etidal və kamal, bu 2 şeyə racidir (qayıtmaqdadır). Bu 2 xüsusiyyətdə (yəni, idrak və feldə) (nə dərəcə) mələklərə tabe olarsa, heyvaniyyətdən uzaq və mələkiyyətə yaxın olar. Mələk isə, Allah (azzə və cəllə)›yə yaxındır. Yaxına yaxın olan da, (O əsl varlığa) yaxındır, deməkdir.

«Bu kəlamın zahiri, qul ilə Allah arasındakı bənzərliyi isbat etməyə işarət etməkdədir. Çünki qul, Allahın əxlaqı ilə əxlaqlanarsa, Ona bənzəyəcək, deməkdir. Halbuki, şəran (şəriət cəhətindən) və əqlən bilinməkdədir ki, Allah (Subhənəhu və Taala)'nın bənzəri yoxdur.» deyə soruşsan, buna cavab olaraq, belə deyərəm:

Əgər Allah (azzə və cəllə)›dən nəfy edilən mümasələt (bənzərliy)›in mənasını başa düşərsənsə, (o vaxt), Onun mislinin olmadığını da bilərsən. Və zənn edilməməlidir ki, müşarəkət (hər hansı bir vəsfdəki şəriklik), mümasələt (bənzərliy)'i gərəkdirir. Məgər görmürsənmi ki, bir-birinə zidd olan 2 şey, bir-birinə bənzərlik ərz edir; (ancaq), aralarında təsvir edilə bilməyəcək qədər uzaqlıq vardır?! Və o 2 zidd, (bir çox vəsfdə) müştərəkdirlər. Necə ki, qara (rəng), ağ ilə,

~ araz olaraq;

~ rəng olaraq;

~ gözlə idrak edilə bilən varlıq olaraq

və başqa xüsuslarda, şərikdir.

(İndi) biri: *«Allah (azzə və cəllə), məhəl olmadan mövcuddur; eşidən, görən, alim (bilən), murid (iradə edən), mütəkəllim (danışan), hayy (diri), qadir (qüdrət sahibi) və fail (iş görən)'dir...İnsan da, belədir.' demiş olsa, bunu söyləyən, təşbih edib (yəni, insanı, Allaha bənzədib) misil isbat etmiş deyildirmi?»*

Heyhət (həqiqətdən nə qədər uzaq, əsla)! İş, belə deyildir. Əgər belə olsaydı, bütün xalq, müşəbbihə'dən olardı. (Bu halda), ən azından, vücud (varlıq)'da şərikliyi isbat lazım gələr ki, bu da, bənzərliyi vəhm etdirir.

Üsٰtəlik, mümasələt (bənzərlik), növ və mahiyyət cəhətlərindən müşarəkət›dən ibarətdir. Məsələn, at, zəkalı da olsa, insanın misli ola bilməz. Çünki, insandan, növ cəhətindən fərqlidir. Ancaq, zəka cəhətindən insana bənzəmiş olar ki, zəka, insanın zatını qaim (ayaqda) tutan mahiyyətdən xaric, arizi (bir xüsusiyyət)›dir.

Allaha məxsus xüsusiyyət isə, Onun, Vacibu'l-Vücud (varlığı zəruri) bir Mövcud olması; var olmaları imkan dairəsində olan bütün varlıqların, nizam və kamallarının ən gözəl cəhətlərini, yalnız Onun var etməsilə varlıq qazanmasıdır. Bu vəsflərdə, İlah ilə bir müşarəkət təsəvvür edilə və bu xüsusiyyətdə, bir mümasələt meydana gələ bilməz. Qulun, rəhim (mərhəmətli), sabur (çox səbrli) və şəkur (çox şükr edən) olması, Allah ilə mümasələti gərəkdirməz. Eynilə, səmi (eşidən), basir (görən), alim (bilən), qadir (qüdrətli), hayy (diri) və fail (iş görən) olmasında olduğu kimi.

Hətta deyirəm ki, İlahi xüsusiyyət, ancaq, Allah Taala'ya aid olub, bunu, Ondan başqası bilə bilməz. Bu xüsusiyyəti, Ondan və ya Onun mislindən başqasının bilməsi, təsəvvür edilə bilməz. Madam ki, Onun misli yoxdur. Bu halda, bu xüsusiyyəti, Ondan başqası bilə bilməz. Elə isə, Cüneyd (əl-Bağdadi)'nin dediyi bu söz, haqdır:

«Allahı, sadəcə Allah bilər.»

Bunun üçündür ki, ən yüksək məxluquna, ancaq, Özünü pərdələyən bir isimdən başqasını bəhs etməmiş və belə buyurmuşdur:

سَبِّحِ ٱسْمَ رَبِّكَ ٱلْأَعْلَى ***«Ən Uca Rəbbinin ismini təsbih et!»***(1)

And olsun ki, nə dünyada, nə də axirətdə, Allahı, Ondan başqası, haqqı ilə bilə bilmədi. Vəfatına yaxın bir zamanda, Zünnun əl-Misri'dən: *«Nə arzu edirsən?»* deyə soruşulduğunda, O, belə cavab vermişdir: ***«Ölmədən əvvəl, bir an belə olsa, Onu, haqqı ilə bilməyi.»*** Bu an, zəiflərin əksəriyyətinin qəlbini təşviş edər və onların nəzdində, nəfy və tə'til (Allahın sifətlərini inkar)'ı vəhm etdirər. Bu isə, onların, bu sözü fəhm etməkdəki acizliklərindən qaynaqlanır.

Mən də deyirəm ki, (hər kim):

~ ***«Mən, Allahı bilirəm.»*** deyəndə də;

~ ***«Mən, Allahı bilmirəm.»*** deyəndə də, doğru söyləmişdir.

Məlumdur ki, nəfy və isbat, ikisi bərabər, (eyni anda, eyni məhəldə) mövcud olmazlar. Ancaq, kizb (yalnış) və sidq (doğru) hökmünü, aralarında paylaşarlar. Nəfy, doğru olarsa; isbat, yalnış olar. İsbat, doğru olarsa; nəfy, yalan olar. Ancaq, sözün vəchi (istifadə cəhəti) müxtəlif olduğunda, 2 qisimdə də, doğruluq təsəvvür edilə bilər.

- Biri, başqa birindən soruşsa ki: *"Siddiq'i tanıyırsanmı?"*

- O da: ***"Siddiq, tanınmayacaq biridirmi? İsminin intişar (yayılması), iştihar (şöhrət qazanması) və zühur etməsilə, bu aləmdə bilinməməsi, təsəvvür edilə bilərmi?! Minbərlərdə, məscidlərdə, sadəcə Ondan bəhs edilmirmi? Və dillərdə, Ondan, tərif ilə bəhs edilmirmi?"*** cavab verərsə, doğru danışmış olar.

Digər tərəfdən,

- başqa birindən: *"Siddiq'i tanıyırsanmı?"* deyə soruşulduğunda,

- O da: ***"Heyhət (həqiqətdən nə qədər uzaq, əsla)! Mən, kiməm ki, Onu tanıdığımı (iddia edim)?! Heyhət! Siddiq'i, ancaq, Onun kimi və ya Onun fövqündə olan kimsə tanıyar. Mən, Onu tanıdığımı, necə iddia edə bilərəm?! Və ya Onu tanımağa, necə göz dikə (tamah sala) bilərəm?! Mənim kimi biri, sadəcə, Onun isim və sifətini eşidə bilər. Ancaq, Onun mərifətini (yəni, Onu tanımağı) idrak etmək, muhal/imkansızdır."*** deyərsə, bu da doğru danışmış olar və bu sözünün bir vəch/cəhəti vardır ki, tə'zim və ehtirama, daha layiqdir.

(1) (Əla/1)

Bax, ***"Mən, Allahı bilirəm."*** deyən kimsənin sözü ilə, *"Mən, Allahı bilmirəm."* deyən kimsənin sözü də, bu şəkildə başa düşülməlidir. Aqil (ağıllı birinə), mənzum (düzgün, nizamlı) bir xətt ərz edər və ***"Xəttin sahibini, tanıyırsanmı?"*** deyə soruşsan, o da, ***"Xeyr!"*** deyə cavab versə, doğru danışmış olar. Əgər, ***"Bəli! Onun katibi, hayy (diri), qadir (qüdrətli), səmi (eşidən), basir (görən), əli sağlam və xəttatlıq sənətində alim bir insandır. Mən, bütün bunları (bu yazıdan yola çıxaraq) bilirəmsə, necə ola bilər ki, onu tanımayım?!"*** desə, bu da doğru olar.

Lakin burda, ən sadiq (doğru) söz, ***"Onu, tanımıram."*** sözüdür. Çünki, həqiqətdə, o xəttin sahibini tanımamaqdadır. O, sadəcə, düzgün bir yazının, hayy (diri), qadir (qüdrətli), səmi (eşidən), basir (görən), əli sağlam, xəttatlıq sənətini bilən bir katibə ehtiyacı olduğunu bilmiş; ancaq, katibin özünü isə, tanımamışdır.

Bax, bütün insanlar da, bu müntəzəm və möhkəm kainatın, müdəbbir (tədbir edən), hayy (diri), alim (bilən) və qadir (qüdrətli) bir Zat'a möhtac olduğunu bilirlər.

Bu mərifətin (biliyin) isə, 2 cəhəti vardır:

1. Onlardan biri, bu aləmlə bağlıdır. Burdan, aləmin bir Müdəbbir (tədbir edən)'ə möhtac olduğu bilinir.

2. Digəri isə, Allah (azzə və cəllə) ilə bağlıdır. Bu isə, Zatın həqiqət və mahiyyətinə daxil olmayan sifətlərdən müştaq olan isimlərdir.

Daha əvvəl açıqlamış olduğumuz üzərə, bir nəfər, bir şeyə işarət edərək, ***"Bu, nədir?"*** deyə soruşacaq olsa, (cavab olaraq) müştaq isimləri zikr etmək, əsla cavab yerinə keçməz. Məsələn:

~ bir heyvana (canlıya) işarət edərək, ***"O, nədir?"*** deyə soruşulsa, (özünə sual ünvanlanan da, buna cavab olaraq), ***"Uzundur."*** və ya ***"Ağdır."*** və ya ***"Qısadır."*** deyə cavab versə; və ya

~ bir suya işarət edərək, ***"O, nədir?"*** deyə soruşulsa, ***"O, soyuqdur."*** deyə cavablansa;

~ bir atəşə işarət edərək, ***"O, nədir?"*** deyə soruşulsa, (buna cavab olaraq da), ***"O, iştidir."*** deyə cavab verilərsə, bütün bu cavablar, mahiyyətin nə olduğunu bildirən cavablar (cinsindən) deyildirlər. (Çünki), bir şeyi bilmək, ancaq, o şeyin həqiqət və mahiyyətini bilməklə mümkündür. (Yoxsa), ona aid müştaq isimləri bilməklə deyil. (Necə ki), ***"iştî"*** demək, özündə iştilik vəsfi olan mübhəm bir şey deməkdir; ***"alim"*** və ***"qadir"*** də, eyni şəkildə, özündə elm və qüdrət vəsfləri mövcud olan mübhəm bir şeydir.

Əgər: *"O, imkan dairəsində mövcud olan hər bir şeyin varlığının, yalnız Özündən meydana gəldiyi Vacibu'l-Vücud'dur.' sözümüz, Onun həqiqətidir və biz, Onu, belə bilmişik."* deyərsənsə, belə deyərəm:

Heyhət! ***"Vacibu'l-Vücud"*** sözü, Onun, illət və failə möhtac olmamasından ibarətdir. Bu da, Ondan, səbəbin səlbinə (varlığının, bir səbəbə möhtac olduğunu inkar etmə mənasına) racidir. ***"Hər bir şeyin varlığının, yalnız Özündən meydana gəldiyi"*** sözümüz isə, fellərin Ona izafə ediləcəyinə racidir.

Bizdən, *"Bu şey, nədir?"* deyə soruşulsa, biz də buna, ***"O, faildir."*** deyə cavab versək, bu, cavab olmaz. ***"O, illəti olan bir şeydir."*** deyə cavab versək, bu, yenə cavab yerinə keçməz. (O halda), ***"O, illəti olmayan bir şeydir."*** (sözü), necə cavab ola bilər?!

Bütün bunlar, Onun Zatından xaric olub, ya isbat, ya da nəfy yolu ilə Onun Zat'ına izafə edilən bir xüsusdan xəbər verməkdədir. (Beləliklə), bunların hamısı, isimlər, sifətlər və izafətlərdən ibarətdir. O halda, *"Onu tanımağın yolu, nədir?"* deyə soruşsan, (cavab olaraq, belə) deyərəm:

Bir uşaq və ya bir xədim, bizdən, ***"Cinsi münasibətin ləzzətini bilməyin yolu və bunu idrakın həqiqəti, nədir?"*** deyə soruşsa, ona, belə cavab verərik:

Bu məsələdə, 2 yol vardır. Onlardan,

• **Birincisi:** Sənə, onun nə olduğunu, sən bilənə qədər vəsf edəcəyik.

• **İkincisi:** Şəhvət qərizəsinə çatana qədər, səbr edəcəksən. O vaxt, cinsi münasibəti özün edəcəksən və beləliklə, öyrənmiş olacaqsan.

Bu ikinci yol, həqiqətə çatdıran, həqiqi mərifətə götürən yoldur.

Birinci isə, ancaq təvəhhüm yaratmaqdan iləri keçmir; və bir şeyi, özünə bənzəmədiyi halda, fərqli bir şeyə bənzətməyə səbəb olur.

Bizim məqsədimiz, cimanın ləzzətini, cimaya gücü olmayan kimsənin tanıyıb idrak etdiyi ləzzətlərdən birilə təmsil etməkdir. (Məsələn), dadlı içki və ləzzətli bir yemək kimi...

- Ona, (belə) deyərik: ***"Qəndin ləzzətli olduğunu, bildinmi? Onu yediyin vaxt, özündə, gözəl bir hal gördünmü? Və nəfsində rahatlıq hiss etdinmi?"***

- Deyəcək ki: ***"Bəli!"***

- Biz isə, ona, belə deyərik: ***"Cima (cinsi münasibət) də, belədir."***

İndi bu, o şəxsin, cimanın həzzini, -həqiqətilə, elə ki, bu həzzi dadıb idrak edən bir kimsə dərəcəsində- bilib idrak etməsini, təmin etdimi?

Heyhət! (Nəticədə) Bu vəsfin qayəsi, xətalı bir təşbih (bənzətmə); bir iham (vəhm etdirmə); və isimdə müşarəkətliyi ifadədən başqa bir şey deyildir.

~ İham olması, o şəxsin, bunun, ümumiyyətlə gözəl olduğunu vəhm etməsi səbəbilədir.

~ Təşbih (bənzətmə)'yə gəlincə, qəndin dadlılığına bənzətməsi, xətalıdır. Çünki, cimanın ləzzətilə qəndin ləzzəti arasında, münasibət yoxdur.

~ İsimdə müşarəkət (şəriklik) isə, bunun, bir həzz (ləzzət) olaraq isimləndirilməyə layiq olduğunu bilər; şəhvəti zahir olub onu daddığında, qəndin dadına bənzəmədiyini; və vəhm etdiyi şeyin, vəhm etdiyi cəhətdən elə olmadığını, qəti olaraq bilər.

Bəli. İsmini və vəsfini eşitdiyi şeyin, həqiqətən də ləzzət verən xoş bir şey olduğunu və bu səbəblə, söylənilənin, doğru olduğunu; hətta, söylənilənin, qəndin dadlılığı ilə müqayisə edildiyində, daha da doğru olduğunu bilər.

Bax, Allah (Subhənəhu və Taala)'nın mərifətində (yəni, Onu tanımaqda) da, 2 yol vardır:

1. Əskik;

2. Qapalı.

1. Əskik yola gəlincə: Nəfslərimizdə bildiyimiz təşbih təriqi (yəni, özümüzdən bildiyimiz xüsuslara bənzətmə yolu) ilə, isim və sifətləri zikr›dir. (Məsələn): Biz, öz nəfslərimizi, qadir, alim, hayy və mütəkəllim olaraq bildik. Sonra, (bunların), Allah (azzə və cəllə)'nin sifətlərindən olduğunu eşitdik, ya da dəlil ilə bildik. (Lakin), eynilə özündən, qəndin ləzzətindən qiyas etməsi istənilən xədim'in cinsi münasibəti bilməsi kimi, əskik bir anlayış ilə bilmiş olduq. Hətta bizim həyatımız, qüdrətimiz, elmimiz, Allahın həyatından, qüdrətindən və elmindən, qəndin ləzzətinin cimanın ləzzətinə uzaqlığına nəzərən, daha çox uzaqdır. (Elə ki), bu 2 uzaqlıq arasında, heç bir münasibət belə yoxdur. Allah (azzə və cəllə)'nin bu vəsflərlə vəsfləndirilməsinin nəticəsi, yenə, iham, təşbih və isimdə şəriklikdir.

Ancaq, (Allah haqqındakı) təşbih, (bu ifadələrlə) kəsilmiş (bağlanılmış)'dır:

~ ***"Onun misli (və bənzəri) yoxdur.";***

~ ***"O, hayy'dır. Ancaq, digər həyat sahibləri kimi deyil.";***

~ ***"O, qadir'dir. Ancaq, digər qüdrət sahibləri kimi deyil."***

(Necə ki), ***"Cima, qənd kimi ləzzətlidir. Lakin, onun ləzzəti, buna bənzəməz. Lakin, ləzzət ismində, şərikdirlər."*** sözündə olduğu kimi...

Biz, Allah Taala'nın həyat sahibi, alim və qadir olduğunu eşitdiyimizdə, (ilk əvvəl), ancaq öz nəfsimizi bilərik; və Onu, yalnız öz nəfsimizdəki (bu sifətlər üzərindən) qavrayarıq. (Məsələn):

~ (Doğuşdan) kar olan birinin, ***"Allah, səmi'dir, hər şeyi eşidir."*** sözünü (n mənasını) başa düşməsi, təsəvvür edilə bilməz.

~ (Eyni şəkildə), kor bir adam da, ***"Allah, basir'dir, hər şeyi görür."*** sözümüzü başa düşməz.

~ (Eyni şəkildə), bir kimsə, ***"Allah (azzə və cəllə), əşyanı necə bilir?"*** deyə soruşduğunda; ona, ***"Sənin, əşyanı bildiyini kimi, O da bilir."***

~ (Yenə), ***"O, necə qadirdir?"*** deyə soruşduğunda, ona, ***"Sənin qüdrətli olduğun kimi, O da qüdrətlidir."*** deyərik.

O halda, bir kimsə, Allah haqqında bir şeyi, ancaq, özündə o şeyə münasib olan bir şey (sifət) varsa, başa düşə bilər. İnsan, ilk əvvəl, özünün nə ilə vəsfləndiyini bilir; ardından da, özündəki bu vəsfə qiyas edərək, başqalarını bilir. (O halda), əgər Allah (azzə və cəllə)›nin, bizimlə, - vələv ismən olsun; vələv qəndin ləzzətinin, cimanın ləzzətinə bənzərliyi qədər olsun-, bir münasibəti və şərikliyi olmayan bir vəsfi və xüsusiyyəti varsa, bu halda da, bu vəsfin hər hansı bir şəkildə təsəvvür edilməsi, mümkün olmayacaqdır.

(Bu halda), insan, (ilk əvvəl, ancaq) nəfsini bilər; sonra Allah Taala'nın sifətlərilə öz sifətlərini müqayisə edər. (Halbuki), Onun sifətləri, bizim sifətlərimizə bənzəməkdən ucadır. (Belə olunca da), bu, vəhm və təşbihin qələbə çaldığı əskik bir mərifət olmuş olar. Bu mərifətə,

~ təşbih (bənzərliy)'in heç bir şəkildə mövcud olmadığının mərifətilə;

~ isimdə şərikliyin olmasına rəğmən, münasibətin əslini nəfy edən mərifətin uyğun olması lazımdır.

2. Qapalı olan yola gəlincə: qulun, bir Rəbb (halına) gəlincəyə qədər, bütün rububiyyət sifətlərinin özündə meydana gəlməsini gözləməsidir, (necə ki), bir uşağın büluğ yaşına çatıb zikri keçən ləzzəti idrak etməsi kimi...Bu yol, qapalı və imkansızdır. Çünki, bəhsi keçən həqiqətin, Allah Taala xaricində birində meydana gəlməsi, imkan xaricindədir. Bu mühəqqiq (həqiqətə çatdıran) mərifətin yoludur, başqası deyildir. Və bu yol, Allah Taala xaricində olanlara, qəti şəkildə qapalıdır. Bu halda, Allah xaricindəkilərin, Allah Taala'nı haqqı ilə bilmələri, imkansızdır.

Hətta deyirəm ki, peyğəmbəri, peyğəmbərdən başqası belə bilə bilməz. Özündə nübüvvət olmayan, nübüvvətdən, ancaq (nübüvvət) ismini başa düşər. Nübüvvətin, insana məxsus bir xüsusiyyət olduğunu; bu xüsusiyyət sayəsində, digər insanlardan təmayüz etdiyini (ayrıldığını) başa düşər; lakin

bu xüsusiyyətin mahiyyətini, ancaq, peyğəmbər olan bilər. Peyğəmbər olmayan isə, peyğəmbərliyi, ancaq, öz nəfsində olan vəsflərə təşbih (bənzətmək) surətilə bilə bilər.

Daha iləri gedərək, bunu da deyirəm: Heç kim, ölmədən, cənnət və ya cəhənnəmə girmədən əvvəl, ölümün, cənnət və cəhənnəmin həqiqətini, bilə bilməz. Çünki cənnət, ləzzət verən səbəblərdən ibarətdir. Hələ heç bir ləzzət dadmamış birini fərz edək, onu cənnətə təşviq edəcək bir şəkildə, cənnətin nə olduğunu ona bildirməyimiz, imkansızdır. Cəhənnəm isə, əzab verici səbəblərdən ibarətdir. Əzabın nə olduğunu bilməyən birini fərz edək, ona, cəhənnəmi açıqlamağımız, imkansızdır. Əgər əzab çəkərsə, o vaxt, ona, çəkdiyi əzabın ən şiddətlisinin təşbihilə, onun cəhənnəm əzabını başa düşməsini təmin edərik. Bu isə, cəhənnəm atəşidir.

(Eyni şəkildə), həzlərdən bir şey idrak edən şəxsə, cənnəti, tanıdığı ən böyük həzlərə bənzətmək surətilə bildirməkdən başqa bir şey edə bilmərik, ki, bu həzlər də, yemək, nigah və mənzərədir. Əgər cənnətdə, bu ləzzətlərə bənzəməyən bir həzz vardırsa, o həzzi, yuxarıda zikr edilənlərə bənzətmək xaricində, başa salmağın bir yolu yoxdur, cinsi münasibətin ləzzətini, qəndin ləzzətinə bənzədərkən etdiyimiz kimi...Halbuki cənnət həzləri, dünyada idrak etdiyimiz hər bir ləzzətdən, -cima ilə qənd arasındakı nisbətdən- daha uzaqdır. Cənnət ləzzətlərindən bəhs edən ən səhih (doğru) ibarə, ***"heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi, heç bir insanın qəlbindən keçirmədiyi"*** (ibarəsi)'dir.(1)

Bu ləzzətləri dünya yeməklərinə bənzədəcəyimiz vaxt, ***"Burdakı yeməklər kimi deyil."*** deyərik; cinsi münasibəti bənzədəcəyimiz təqdirdə, ***"Dünyada bilinən cimalar kimi deyil."*** deyərik.

(Elə isə, bu halda), ***"Yer və göy əhalisinin, uca Allaha dair bildikləri, isim və sifətlərin mərifəti (biliyi)'ndən ibarətdir."*** sözümüzə təəccüb edənlər, niyə təəccüb edirlər?!

(Üstəlik, biz, bunu deyirik): Yer və göy əhalisində, cənnətin (mahiyyəti deyil), cənnətin isim və sifətlərinin mərifəti (biliyi) hasil olmuşdur.

Eyni şəkildə də, insanın, ismini və sifətini eşitdiyi, lakin dadmadığı, idrak etmədiyi, onun tam mənada nə olduğunu bilmədiyi (yəni, künhünə varmadığı), onunla vəsflənmədiyi hər şey üçün, bu, belədir.

Əgər, ***"Ariflərin, Allahın mərifətində çata biləcəkləri ən son həddi, nədir?"*** deyə soruşsan, belə cavab verərəm:

Ariflərin irfanının nəhayəti, mərifətdən aciz olduqlarıdır. Həqiqətdə, mərifətləri, Onu bilmədikləridir. Və Onu, əsla bilmə imkanları da, yoxdur.

(1) (Buxari, hədis no: 3244, 4779, 7498)

Allahı, rububiyyət sifətlərinin künhünü əhatə edəcək bir şəkildə həqiqi bir mərifətlə bilmək, Allahdan başqası üçün, imkansızdır. Bu xüsus, onlara, zikr etdiyimiz cəhətlə, bürhani (dəlilli) bir inkişaf ilə inkişaf edərsə, o vaxt, Onu bilərlər. Yəni, məxluqat haqqında mərifətullah (Allahı tanımaq) nə qədər mümkündürsə, onun nəhayətinə çatmış olarlar. Bu da, Siddiq'in işarət etdiyi, bu xüsusdur:***"İdrak, idrakdan aciz olmağı idrak etməkdir."***

Seyyidu'l-Bəşər (bütün insanlığın ağası)'nın buyurduğu kimi:

"Səni, haqqı ilə səna edə (tərifləyə) bilmərəm. Sən, Özünü tərifladiyin kimisən." Allah rəsulu (sallallahu aleyhi və səlləm), bu sözlərilə, bildiyi, lakin kəlimələrlə idrak edə bilmədiyi bir şeyi qəsd etmirdi. (Əksinə), O, bunu qəsd edirdi: ***"Mən, Sənin tərifə layiq vəsflərini, Uluhiyyət sifətlərini, əhatə edə bilmərəm. Bunları, Sən, yalnız Sən əhatə edə bilərsən."***

(Bu halda), hər hansı bir məxluqun, Onun Zatının həqiqətini qavramaqdakı nəsibi, heyrət və dəhşətdən başqası deyildir. Mərifətin genişləməsi isə, Onun isim və sifətlərinin mərifətində olur.

"Elə isə, əgər Onu bilmək təsəvvür edilə bilmirsə, mələklərin, peyğəmbərlərin və və vəlilərin Ona dair mərifətləri, nəyə görə fərqliləşir?" deyə soruşsan, belə cavab verərəm:

Mərifətin 2 yolu olduğunu öyrənmişdin, ki, bunlardan biri, həqiqi yol idi ki, Allah Taala xaricindəkilər üçün, bu yol qapalı idi. Məxluqatdan hər kim, Ona çatmaq və idrak etmək istərsə, cəlalının nurları, onu, heyrətə salar. Onu mülahizə etmək üçün boynunu uzadarsa, dəhşət, onun gözünü örtər.

İkinci yol isə, sifət və isimləri bilməkdir. Bu yol, məxluqlar üçün, açıqdır və bu yolda, (mərifətdəki) mərtəbələr, dərəcə-dərəcədir (yəni, fərqlidir).

~ Allah (azzə və cəllə)'ni mücməl olaraq alim və qadir olaraq bilən ilə;

~ səmavat (səmalar) və yerin mələkutundakı əcaib ayətlərini, ruhların və cəsədlərin yaradılışını müşahidə edən,

~ sənətinin qəribəliklərindən, mülkündəki bənzərsiz mövcudatdan xəbərdar olan,

~ təfsilatda dərinləşən,

~ hikmətin incəliklərinə dalan,

~ tədbirindəki gözəllikləri əhatə etmiş olan,

~ Allah (azzə və cəllə)'yə yaxınlaşdıran bütün mələki sifətlərlə vəsflənmiş olan,

~ bütün bu vəsflərə, özlərilə vəsflənmək surətilə nail olan kimsə,bir olmaz.

Əksinə, aralarında, hesablana bilməyəcək qədər böyük bir uzaqlıq vardır. Bax bunların təfsilatında və miqdarlarında, peyğəmbərlər və vəlilər, fərqliləşirlər. Bunu, ancaq, bir misal ilə başa düşə bilərsən.

وَلِلَّهِ ٱلْمَثَلُ ٱلْأَعْلَىٰ... ***"...ən uca misal isə, Allaha aiddir..."*** (1)

Lakin kamil təqva sahibi alimi, məsələn imam Şafi (rahiməhullah)'ı, evinin xidmətçisi də tanıyır, tələbəsi Muzəni də. Xidmətçi, Onu, ümumi olaraq, bir şəriət alimi, şəriət məsələlərində kitablar yazmış, xalqı Allaha irşad edən biri olaraq tanıyır. Muzəni'nin Şafi'ni tanıması isə, xidmətçinin tanıması kimi deyildir. Əksinə, o (yəni, Muzəni), məlumat və vəsflərini əhatə edəcək bir mərifətlə tanıyır. 10 elmdə vaqifliyi olan bir alimi, yalnız 1 elmi təhsil edən tələbəsi, onu, haqqı ilə bilə bilməz. Hələ qalsın, onun elmindən nəsibi olmayan xidmətçisi bilə bilsin. Əksinə, bu elmlərdən 1-ni təhsil edən kimsə, əgər bu elmdə, əskiksiz bir şəkildə o alimlə eyni olarsa, o vaxt, (müəllimini), həqiqi mənada, 1/10-i ilə bilmiş olar. Əgər bu elmdə, o alimə nəzərən əskikliklərı varsa, bu əskik olduğu cəhətlərə aid olaraq ümumi bir isim və ihamdan başqa bir şeyə sahib olmaz. Bu bilik də, əsasən, o alimin, özünün bildiyindən başqa bəzi şeyləri bildiyindən ibarətdir.

Eynilə bu şəkildə, məxluqatın mərifətullahdakı dərəcələrini belə bil.

~ Allah (azzə və cəllə)'yə dair məlumatın;

~ Onun qüdrətilə meydana gələn əcaib şeylərin;

~ dünya və axirətdə, mülk və mələkut aləmlərindəki bənzərsiz ayətlərinin, özlərinə inkişaf etməsi nisbətində, insanların mərifətləri fərqliləşər. Bununla bərabər, Allah (azzə və cəllə)›yə dair mərifəti artar və mərifətləri, o nisbətdə, Allah Taala›nın həqiqi mərifətinə yaxınlaşar.

Əgər desən: ***"Madam ki, insanlar, Zat'ın həqiqətini bilməyəcəklər və Onu bilmək də, imkansızdır. O halda, isim və sifətləri, tam və həqiqi mərifətlə bilə bilərlərmi?"***

Deyərəm ki: Heyhət! Bunları da, həqiqəti və kamalı ilə, ancaq, Allah (azzə və cəllə) bilə bilər. Necə ki, biz, bir zatın alim olduğunu bildiyimizdə, onun həqiqətini bilmiş olmayıb, mübhəm bir şəkildə, o zatın elm sifətinə sahib olduğunu bilirik. Əgər elm sifəti, bizə, həqiqətilə məlum olmuş olarsa, o vaxt, o zatın elm sahibi olduğunu, bu sifətin həqiqətilə bilmiş olarıq; yoxsa, bilə bilmərik. Allah (azzə və cəllə)'nin elminin həqiqətini, kimsə bilmir. Onun kimi bilən isə, müstəsnadır. Və belə bir şey isə, ancaq Allaha aiddir. Onun xaricində, kimsə Onu bilməz. Başqası, Onun elmini, ancaq özündə olan elmə təşbih edərək bilə bilər,

(1) (Nəhl/60)

daha əvvəl verdiyimiz qənd misalında olduğu kimi...Halbuki, Allah (azzə və cəllə)'nin elmi, məxluqların elminə, heç bir şəkildə bənzəməz. Bu səbəbdən, bu xüsusdakı mərifəti, tam və həqiqi olmayıb, ancaq vəhmi və təşbihi bir surətdə ola bilər.

Buna, təəccüb etmə! Çünki, Mən, deyirəm ki, sehrbazı, ancaq özü və ya ona bərabər, yaxud da onun fövqündə başqa bir sehrbaz bilə bilər. Sehr nədir, mahiyyət və həqiqəti nədir bilməyən bir kimsənin sehrbaza dair mərifəti (biliyi), ancaq, onun ismi və onun özünün bilmədiyi bir elmə və bir xüsusiyyətə sahib olduğu biliyindən ibarət qalar. Çünki o, nə sehrbazın bildiyini bilməkdədir, nə də o xüsusiyyətin nə olduğundan xəbərdardır. Hərçənd, o xüsusiyyətin, mübhəm belə olsa, elmlər cinsindən olduğunu bilir; səmərəsi (meyvəsi)'nin də,

~ qəlbləri dəyişdirmək; və

~ əşyanın vəsflərini təbdil etmək (dəyişdirmək);

~ ər-arvadın arasını ayırmaq olduğunu bilməkdədir.

Ancaq bunlar, onun həqiqətini bilməkdən, uzaqdır. Sehrin həqiqətini bilməyən, sehrbazın həqiqətini də bilə bilməz. Çünki sehrbaz, özündə, sehr xüsusiyyəti olan kimsə deməkdir.

Xülasə: Sehrbaz ismi, bu sehr sifətindən müştaqdır. Bu sifət bilinməyincə, o isim də bilinməz. Əgər o bilinirsə, bu da bilinər. Sehrbaz xaricindəkilər üçün, sehrdən məlum olan şey, mahiyyətdən uzaq ümumi bir vəsf olmaqdır ki, bu da, elmlər cinsinə mənsub olmaqdan ibarətdir. Çünki elm ismi, ona da itlaq edilə (verilə) bilər.

Bax, Allah (azzə və cəllə)'nin qüdrəti haqqında bizdə hasil olan da, buna bənzərdir.

Bu, bir vəsf olub, səmərə və təsiri, əşyanın vücuda gətirilməsidir. ***"Qüdrət"*** ismi, bu məna üçün istifadə edilir. Çünki, İlahi qüdrət ilə bizim qüdrətimiz arasında, -cimanın ləzzətilə qənd yeməyin ləzzəti arasındakına bənzər bir şəkildə- bir münasibət vardır. Ancaq, bütün bunlar, o qüdrətin həqiqətindən uzaqdır.

Bəli, qulun,

~ məqdurat (qüdrət sifətinin təəllüq etdiyi şeylər, təqdir edilənlər, qüdrət əsərləri)'nin təfsilatına;

~ göylərin mələkutunun vücuda gətirilməsindəki əcaibliyə (qeyr-i adiliyə) dair əhatə ediciliyi artdıqca, qüdrət sifətinə dair mərifətdən nəsibi, daha bol olar. Çünki, səmərə (meyvə), musmirə (meyvə verənə, ağaca)

dəlalət edər. Eynilə, bir tələbənin, ustadının (müəlliminin) elminin və əsərlərinin təfsilatına dair əhatə ediciliyi çoxaldıqca, ustadına dair biliyi, daha kamil; və ona qarşı hörmətinin daha böyük olacağı kimi...

Bax, ariflərin mərifətlərinin fərqliliyi, bu cəhətə racidir. Bundan dolayı, mərifətdə, sonsuz bir fərqlilik vardır. Çünki, insanın, Allah Taala'nın məlumatından öyrənə bilmədiklərinin nəhayəti yoxdur. Hər nə qədər, varlıq sahəsinə bir miqdar çıxsa da, eyni şəkildə, öyrənməyə müqtədir ola bildiyi qisim də, sonsuzdur. (Yəni) elmlərdən insana təqdir edilənin, sərhədi yoxdur.

Bəli, varlıq meydanına çıxan (elmlər), çoxluq və azlıq cəhətindən, bir-birindən fərqlidirlər. Və (insanların mərifət cəhətindəki dərəcə-dərəcə fərqliləşmələri), bu nöqtədə təzahür edir. Bu, eynilə, zənginlik cəhətindən insanlar arasında meydana gələn qüdrət fərqliliyinə bənzəyir. Birinin bir neçə qəpik-quruş və 1 dirhəmi vardır. Digərinin də, minlərlə dirhəmi... Bax, elmlər də, belədir. Hətta, elmlərdəki fərqlilik, daha böyükdür. Çünki, məlumatın, nəhayəti yoxdur. Malların ayanlar (fiziki varlıqlar)'ı isə, cisimdir; cisimlərin, sonu vardır. Sonu olmaması da, düşünülə bilməz.

Bu halda, xalqın, Allah (azzə və cəllə)'nin mərifət dənizində, necə dərəcə-dərəcə olduqlarını və bu mərifətdə bir həddolmadığını başa düşdün. Və ***"Allahı, ancaq Allah bilər."*** deyənin, doğru dediyini; ***"Allahdan başqa bir şey bilmirəm."*** deyənin də, sadiq olduğunu bildin. Çünki, varlıq sahəsində, Allah (azzə və cəllə)'dən və Onun fellərindən başqa bir şey yoxdur. Onun fellərinə, məhz Onun felləri olması cəhətindən nəzər edilsə, bu təqdirdə, nəzər edənin mərifəti, Rububiyyət Həzrəti'ndən xaricə çıxmamış olar və belə desə, yeridir: ***"Allahdan başqasını bilmirəm; Allahdan başqasını görmürəm."*** İndi, (bir şəxs təsəvvür edilsə ki), ***"Sadəcə günəşi və afaq (üfüqlər)'də yayılan işığını görürəm."*** deyir. Bu söz, doğru olar. Çünki, günəşdən çıxan işıq da, günəşdəndir, onun xaricindən deyildir.

Varlıq aləmində nə varsa, hamısında, əzəli qüdrət nurlarından bir nur, ondan bir əsər vardır. Eynilə, günəşin, hər aydınlıq şey üzərinə yayılmış işığın qaynağı olması kimi...

Burda qəsd edilən məna üçün, ibarə kifayət etmədi və zərurət gərəyi olaraq, ***"əzəli qüdrət"*** deyə təbir edildi. Halbuki, bu, hər mövcud üzərinə daşan varlıq qaynağıdır. Beləliklə, varlıqda, Allah (azzə və cəllə)'dən başqası yoxdur. Arifin, ***"Allahdan başqasını bilmirəm."*** deməsi də, caizdir.

~ Həm ***"Allahdan başqasını bilmirəm."*** deyənin;

~ Həm də ***"Allah (azzə və cəllə)'ni, ancaq Allah bilir."*** deyənin doğru söyləməsi, nə əcaibdir.

Ancaq o söz, bir cəhətlə; bu söz də, bir cəhətlə (doğrudur). Əgər etibar cəhətilə fərqli olduğu halda, mütənaqiz (bir-birinə zidd düşən) şeylər təkzib edilsəydi, o vaxt, Allah Taala'nın gələcək bu sözü, doğru olmazdı:

...وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَٰكِنَّ ٱللَّهَ رَمَىٰ...

"...atdığın zaman sən atmadın, Allah atdı..." (1)

Halbuki, ayə, doğrudur. Çünki ayətdə, ox atmada, 2 etibar vardır:

• Bir etibarla - qula;

• Digərilə də - Rəbb Taala'ya nisbət edilir.

Bu halda, (ayətdə), ziddiyyət yoxdur.

Burda, bəyan cilovunu tutaq. Çünki biz, burda, sahili olmayan bir dənizin dərinliklərinə daldıq. Halbuki, belə sirlərin kitablara əmanət edilməsi, uyğun olmaz. Ancaq madam ki, əsl məqsud olmayan arizi bir tərzdə sözümüzün mövzusu oldular. İndi, biz, bu tərəfdən üzümüzü çevirib əsmau'l-hüsna (Allahın gözəl isimləri)'nin təfsili (bir şəkildə) şərhinə qayıdaq.

* * *

(1) (Ənfal/17)

İkinci Fənn (Bölmə): Məqsəd və Qayələr haqqındadır.

Burda, 3 fəsil vardır:

• Birinci Fəsil: Allahın 99 isminin mənalarının şərhləri

Bu isimlər, əbu Hureyrə (radiyallahu anh)'dan gələn 1 rəvayətdə yer almaqdadır. Bu rəvayət, belədir:

Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurur:

"Allah (azzə və cəllə)'nin 99 ismi vardır. Bu isimləri sayan, cənnətə girər:

1. O, Özündən başqa ilah olmayan Allahdır;

2. ər-Rahmən;
3. ər-Rahim;
4. əl-Məlik;
5. əl-Quddus;
6. əs-Sələm;
7. əl-Mu'min;
8. əl-Muheymin;
9. əl-Əziz;
10. əl-Cabbar;
11. əl-Mutəkəbbir;
12. əl-Xaliq;
13. əl-Bari;
14. əl-Musavvir;
15. əl-Ğaffar;
16. əl-Qahhar;
17. əl-Vəhhab;
18. ər-Rəzzaq;
19. əl-Fəttah;
20. əl-Alim;
21. əl-Qabid;
22. əl-Basit;
23. əl-Xafid;
24. ər-Rafi;
25. əl-Muiz;
26. əl-Muzill;
27. əs-Səmi;
28. əl-Basir;
29. əl-Hakəm;
30. əl-Adl;
31. əl-Lətif;
32. əl-Xabir;
33. əl-Həlim;
34. əl-Əzim;
35. əl-Ğafur;
36. əş-Şəkur;
37. əl-Ali;
38. əl-Kəbir;
39. əl-Hafiz;
40. əl-Muqit;
41. əl-Həsib;
42. əl-Cəlil;
43. əl-Kərim;
44. ər-Raqib;
45. əl-Mucib;
46. əl-Vasi;
47. əl-Hakim;
48. əl-Vədud;

49. əl-Məcid;
50. əl-Bais;
51. əş-Şəhid;
52. əl-Haqq;
53. əl-Vəkil;
54. əl-Qavi;
55. əl-Mətin;
56. əl-Vəli;
57. əl-Həmid;
58. əl-Muhsi;
59. əl-Mubdi;
60. əl-Muid;
61. əl-Muhyi;
62. əl-Mumit;
63. əl-Hayy;
64. əl-Qayyum;
65. əl-Vəcid;
66. əl-Məcid;
67. əl-Vahid;
68. əs-Saməd;
69. əl-Qadir;
70. əl-Muqtədir;
71. əl-Muqaddim;
72. əl-Muaxxir;
73. əl-Əvvəl;
74. əl-Axir;
75. əz-Zahir;
76. əl-Batin;
77. əl-Vali

63. əl-Hayy;
64. əl-Qayyum;
65. əl-Vəcid;
66. əl-Məcid;
67. əl-Vahid;
68. əs-Saməd;
69. əl-Qadir;
70. əl-Muqtədir;
71. əl-Muqaddim;
72. əl-Muaxxir;
73. əl-Əvvəl;
74. əl-Axir;
75. əz-Zahir;
76. əl-Batin;
77. əl-Vali;
78. əl-Mutəali;
79. əl-Bərr;
80. ət-Təvvab;
81. əl-Muntəqim;
82. əl-Afuvv;
83. ər-Rauf;
84. Maliku'l-Mülk;
85. Zu'l-cəlali və'l-ikram;
86. əl-Muqsit;
87. əl-Cami;
88. əl-Ğani;
89. əl-Muğni;
90. əl-Mani;
91. əd-Darr;
92. ən-Nafi;
93. ən-Nur;
94. əl-Hadi;
95. əl-Bədi;
96. əl-Baqi;
97. əl-Varis;
98. ər-Raşid;
99. əs-Sabur.

(Tirmizi, hədis no: 3507)

* * *

1. «Allah» (isminin şərhi):

«Allah» isminə gəlincə, Haqq Mövcud, ilahlıq sifətlərini Özündə toplayan; Rububiyyət sifətlərilə vəsflənən; həqiqi varlıq ilə tək olan Varlığ'ın adıdır. Ondan qeyri heç bir varlıq, bizatihi (zatı ilə) varlığa sahib olmağa layiq deyildirlər. Varlığı, yalnız Ondan alırlar və öz zatları cəhətindən, həlak olucudurlar. Digər tərəfdən də, onlar, ancaq Allahın var etməsilə mövcuddurlar. Onun vəch (üz)'ündən başqa hər şey, yoxluğa məhkumdur. Ən uyğun olan, Allah isminin, aləm/xüsusi isimlərin dəlalət etdiyi tərzdə, bu mənaya dəlalət etməsidir. ***«Allah»*** isminin hansı kökdən necə meydana gəldiyi haqqında bütün zikr edilənlər isə, təsadüfilik və təkəllüfdən ibarətdir.

Fayda: Bil ki, bu isim, Allah (azzə və cəllə)'nin 99 ismi arasında, ən böyüyüdür. Çünki, bir istisna olmadan, bütün uluhiyyət sifətlərini özündə toplayan Zat'a dəlalət etməkdədir. Digər isimlər isə, elm, qüdrət, fel və başqaları kimi, tək mənalara dəlalət edirlər. İsimlərin ən xası olmasından dolayı, başqasına, nə həqiqətən, nə məcazən verilə bilməz. Digər isimlər isə, başqa varlıqlara, isim/ad olaraq verilə bilər. ***«Qadir», «Alim», «Rahim»*** və digərləri kimi. Bu 2 yöndən dolayı, bu isimlərin ən böyüyü olması, uyğundur.

İncəlik: Allah (azzə və cəllə)'yə və qullara itlaq edilmələri, başqa-başqa və bir-birinə müxalif olan yönlərdən olsa belə, ***«Rahim», «Alim», «Həlim», «Sabur»*** və ***«Şəkur»*** və digər isimlərin mənaları ilə qulların vəsflənmələri və onlara isim olaraq verilmələri, təsəvvür edilə bilər. Lakin ***«Allah»*** isminin mənası, heç kimin, nə məcaz, nə həqiqi mənada, şərik olmasının təsəvvür edilə bilməyəcəyi dərəcədə, xüsusidir. Bu xüsusilik səbəbilə, digər isimlər, Allah (azzə və cəllə)'nin ismi deyə vəsfləndirilərək, bu ismə izafə edilir, buna izafətlə tərif edilir və məsələn:

«Sabur, Şəkur, Məlik, Cabbar, Allah (azzə və cəllə)'nin isimlərindəndir.» deyilir. Ancaq, ***«Allah, Şəkur və Saburun isimləri arasındadır.»*** deyilmir. Çünki bu isim, Öz Zatı cəhətindən, ilahi mənaların künhünə ən dəlalətlisi, ən xasıdır. Bu səbəblə də, ən qüvvətlisi, ən məşhuru və ən zahir olanıdır.

Bu səbəbdən, başqasının tərifindən müstağni (zəngin)'dir. Digərləri, Ona izafətlə tərif edilirlər.

Tənbeh: Qulun, bu isimdən həzzi (yəni, nəsibi), ***«təəlluh»***dur. Bundan qəsd etdiyim isə,

~ qəlb və himmətinin, Allah (azzə və cəllə)'də müstəğraq olması; Ondan başqasını görüb, başqasına yönəlməməsi;

~ Ondan qeyrisinə, ümid və qorxu bəsləməməsidir.

Necə belə olmasın? Ki, bu ismin mənasından, Onun, həqiqi və haqq Mövcud olduğu, Ondan qeyri nə varsa, fane, həlak olucu və batil olduğu, fəhm edilmişdi. İlk əvvəl, Allah rəsulu (sallallahu aleyhi və səlləm)›in gördüyü kimi, Öz nəfsinin həlak və batil olduğunu görər. Belə ki, O, belə buyurmuşdur:

«Ərəblərin söylədiyi beytlər arasında ən doğrusu, Ləbid'in bu beytidir:

'Allahın xaricindəki hər şey, batil; hər nemət də, zail olmağa məhkumdur.»[1]

* * *

(1) Buxari, hədis no: 3841, 6147, 6489

2-3. “Rahmən” və “Rahim” (isimlərinin şərhi):

Rəhmətdən iştiqaq etmiş (meydana gəlmiş) 2 isimdir. Rəhmət isə, mərhumu (yəni, rəhmət ediləni) gərəkdirir və heç bir mərhum da yoxdur ki, möhtac olmasın.

~ Bir möhtacın, qəsd, iradə və inayət olmadan bir ehtiyacının qarşılanmasına vəsilə olana, ***«Rahim»*** deyilməz.

~ Möhtacın ehtiyacını ortadan qaldırmağı murad etməklə bərabər qarşılamayan şəxsə, əgər bunu qarşılamağa gücü çatırsa, ***«Rahim»*** deyilməz. Çünki, bu mövzudakı arzusu tam olsaydı, onu yerinə yetirərdi (yəni, mərhəmət edərdi).

~ Əgər bu ehtiyacı yerinə yetirməkdən acizdirsə, özündə ehtiva etdiyi mərhəmət və riqqət səbəbilə özünə ***«Rahim»*** deyilə bilməklə bərabər, bu rəhmət, nöqsandır.

Tam rəhmət, möhtaclar üzərinə xeyir yağdırmaq və onlara olan inayət səbəbilə (bu feli) iradə etməklə gerçəkləşir. Ümumi rəhmət, buna layiq olanları da, olmayanları da ehtiva edir. Allah (azzə və cəllə)’nin rəhməti, tam və ümumidir.

• Tam olmasına gəlincə, möhtacların ehtiyaclarının ortadan qaldırılmasını iradə etdiyində, bunu, yerinə yetirər.

• Ümumi olana gəlincə isə, buna layiq olanlara və olmayanlara, dünyaya və axirətə şamildir. Bu rəhmət, zərurətləri, (bu dərəcədə olmayan) hacətləri və bu ikisi xaricindəki xüsusları ehtiva edir. O, mütləq və haqq Rahim’dir.

İncəlik: Rəhmət, mərhəmət edən kimsəyə ariz olub, mərhəmət edilən şəxsin ehtiyacının ortadan qaldırılması xüsusunda o kimsəni təhrik edən, ələm/ağrı verici bir şəfqət olmaqdan, xali (boş, uzaq) deyildir. Rəbb (subhənəhu və taala), bundan münəzzəhdir. Bəlkə də sən, bunun, rəhmət sifətinin mənasında bir əskiklik olduğunu zənn edirsən. (Ancaq) bil ki, bu, rəhmətin mənasında bir əskiklik deyil, əksinə, bir kamaldır.

Bu, bir əskiklik deyildir. Çünki, rəhmətin kamalı, səmərənin (meyvə, nəticənin) kamalı ilədir. Möhtacın ehtiyacı tam mənası ilə qaldırıldıqdan sonra, rəhmət edənin bir kədər hiss etməsində, özünə mərhəmət edilən kimsə üçün, hər hansı bir fayda yoxdur. Mərhəmət edən, ancaq, nəfsindəki

zəiflik və əskiklik səbəbilə kədər hiss edər. Mərhəmət edənin zəiflik sahibi olması isə, ehtiyac sahibinin ehtiyacı tam mənası ilə qarşılandıqdan sonra, möhtacın məqsədi (cəhətindən), hər hansı bir fayda təmin etməz.

Mərhəmət edən şəxs, təəllüm (əzab, acı çəkmək) və riqqətdən dolayı, (bu) feli ilə, sanki riqqətin ələmini (acısını, ağrısını) nəfsindən dəf etməyi qəsd etməkdədir. (Beləcə), əslində, öz nəfsinə nəzər etmiş və öz məqsədini gerçəkləşdirməyə çalışmış olur. Bu isə, rəhmətin mənasını əskildən bir haldır. Əksinə, rəhmətin kamalı, rəhmət edilən şəxsə olan nəzər, (şəxsən) mərhəmət edilən üçün olmalı; öz nəfsindəki riqqətdən doğan kədər hissini ortadan qaldırmaq üçün deyil.

Fayda: Rahmən, Rahim›dən daha xüsusidir. Bundan dolayı, Allah (azzə və cəllə)›dən başqası, bununla təsmiyyə edilə (adlandırıla) bilməz. Rahim ismi isə, Allahdan qeyrisi haqqında da istifadə edilə bilər. Dolayısı ilə, Rahmən ismi, xüsusi isimlər kimi, sadəcə Allah Taala haqqında istifadə edildiyindən, Allah isminə daha yaxındır. Rəhmətdən qəti bir şəkildə meydana gəlsə belə...Bu səbəblədir ki, Allah (azzə və cəllə), bu 2 ismi (yəni, Allah və Rahmən isimlərini), bərabər zikr etmişdir:

...قُلِ ٱدْعُواْ ٱللَّهَ أَوِ ٱدْعُواْ ٱلرَّحْمَٰنَ ۖ أَيًّا مَّا تَدْعُواْ فَلَهُ ٱلْأَسْمَآءُ ٱلْحُسْنَىٰ

«De: ‹İstər Allah deyib çağırın, istərsə də Rahmən deyib çağırın. Necə çağırsanız da, hər halda, ən gözəl isimlər, Ona məxsusdur.»(1) Həm bu cəhətdən, həm də Allahın sayılan isimləri arasında təradüf (eyni mənalılıq) olmadığını bildirmiş olduğumuzdan dolayı, bu 2 ismin (Rahmən və Rahimin) mənalarını ayırd etmək lazımdır. O halda, Rahmən isminə uyğun olan məfhum, qulların qüdrətlərindən üstün olan bir növ rəhmətdir və uxrəvi (axirətə aid) səadətlə əlaqəlidir. (Dolayısı ilə), Rahmən isminin mənası:

~ ilk əvvəl, icad etmək;

~ ikinci olaraq, imana, səadət səbəblərinə hidayət etmək;

~ üçüncü olaraq, axirətdə səadətləndirmək;

~ dördüncü olaraq da, kərim vəchinə (üzünə) nəzər etmə nemətini vermək ilə, qullarına bir şəfqətdir.

Tənbeh: Qulun, ***«ər-Rahmən»*** ismindən nəsibi, Allahın qafil qullarına mərhəmət etməsidir. Onları, vaz və nəsihət və şiddət olmadan, lütflə, Allah (azzə və cəllə)'nin yoluna sövq etməsidir. Asi (Allaha, günahlarla üsyan edən qul)'lara, təhqir nəzərilə deyil, rəhmət nəzərilə baxmasıdır. Aləmdə cərəyan edən hər masiyyət (üsyan, günah)'ı, öz nəfsində, bir müsibət kimi görmək və bütün gücü ilə ortadan qaldırmağa çalışmasıdır.

(1) İsra/110

Qulun, **«ər-Rahim»** ismindən nəsibi, gücü çatdığı qədər kasıbların ehtiyacını ortadan qaldırmasıdır. Öz diyar və civarında, heç bir kasıb qoymadan, onların ehtiyacını ortadan qaldırmağı, öz öhdəsinə götürməsidir. Bunu da, ya malı, ya məqamı, ya da başqalarına şəfaətçi olmaq yolu ilə reallaşdırar. Bütün bunlardan aciz qalarsa, duası ilə kömək edər; və ona ehtiyacından dolayı, kədərini izhar edər; və bunu, ona, şəfqət və riqqətindən dolayı edər; zərər və hacətində, onunla, şərik kimi olar.

Sual və Cavabı:

Belə deyə bilərsən: *«Allah Taala'nın, Rahim və Ərhəmu'r-Rahimin (rəhimlilərin ən rəhimlisi) olmasının mənası, nədir? Rahim olan, bir bəlaya uğramış, zərər görmüş, əzaba uğramış və xəstəlik içərisində birini gördüyündə, onlarda olanları ortadan qaldırmağa gücü çatarsa, mütləq onları ortadan qaldırar. Rəbbimiz (subhənəhu və taala) isə, hər cür bəlanı, kasıblıq və qəmi, xəstəlik və zərəri yox etməyə qadirdir. Dünya isə, xəstəlik, çətinlik və bəlalarla dolub-daşmaqdadır. O isə, bütün bunları ortadan qaldırmağa qadirdir. (Ancaq), qullarını, müsibət və çətinlik ilə imtahan olunmağa tərk etmişdir...»*

Sualının cavabı, budur: Bəzən, kiçik bir uşağa, anası riqqət edər və hicama gərəkli ikən, buna icazə verməz. Lakin ağıllı olan ata, onu, zorla buna sövq edər. (Bunu görən) cahil zənn edər ki, rəhim olan, ata deyil, anadır. Ağıl sahibi isə, atanın, qan aldırmaq surətilə uşağa əzab verməsinin, onun, uşağına qarşı mükəmməl rəhmət və şəfqətindən dolayı etdiyini bilər. O ananın isə, siddiq (dost) surətində düşmən olduğunu bilər. Kiçik bir ağrı, böyük bir ləzzətə səbəb olarsa, şər deyil, xeyirdir.

Rahim, mərhum (özünə rəhmət edilən) üçün, mütləq, xeyir diləyər. Varlıqda heç bir şey yoxdur ki, zimnində bir xeyir mövcud olmasın. Əgər o şər ortadan qalxacaq olsa, zimnində (içində ehtiva etdiyi) o xeyir də, yox olar. Bundan dolayı, o xeyri içində ehtiva edən şərdən, daha böyük bir şər meydana gələrdi. Qanqren olmuş əli kəsmək, zahirdə bir şərdir; ancaq onun zimnində, böyük bir xeyir vardır ki, o da, bədənin salamat qalmasıdır. Əgər o əl kəsilməsə, bədən, həlak olar və meydana gələcək olan şər, daha böyük olar. Beləcə, bədənin salamat qalması üçün əlin kəsilməsi, zimnində xeyir ehtiva edən bir şərdir. Bununla bərabər, əli kəsənin nəzərində, ilk və əsas məqsəd, mütləq xeyir olan salamatçılıqdır. Salamat qalmağın yolu, əli kəsməkdən keçincə, bu məqsəd üçün, əli kəsmişdir. Beləliklə, salamat qalmaq, ilk olaraq, zatı üçün; ikinci olaraq da, özü xaricindəki (şeylər) üçün tələb edilmişdir. Bunların hər ikisi də, iradəyə daxil olub, biri, zatı üçün murad edilmiş; digəri, qeyrisi üçün murad edilmişdir. Zatı üçün murad edilən, başqası üçün murad ediləndən daha əvvəl gəlir. Bu səbəblə,

Allah (azzə və cəllə), belə buyurmuşdur: ***«Rəhmətim, qəzəbimi keçdi.»***[1]

Onun qəzəbi, şərri iradə etməsidir. Şər, Onun iradəsi ilədir. Rəhməti, xeyri iradə etməsidir. Xeyir, Onun iradəsi ilədir. Bununla birlikdə O, xeyri, (xeyrin) şəxsən özü üçün; və şərri də, (şərrin özü) üçün deyil, zimnində mövcud olan xeyir üçün iradə edincə, xeyir, şəxsən; şər isə, arazi olaraq yerinə gətirilmiş olub, hamısı da, qədərə tabedir. Bunda, əsla rəhmətə zidd bir şey yoxdur.

İndi, ağlına, altında xeyir olmayan bir şər növü gələr; ya da, o şərrin içində mövcud olan xeyri, başqa bir yoldan təhsil etməyin mümkün olduğu ağlına gələrsə, bu 2 düşüncədən dolayı, nöqsan olan ağlını töhmət altında saxla!

~ ***«Bu şərrin altında, heç bir xeyir yoxdur!»*** sözünə gəlincə, bunun mərifətində, ağıllar, nöqsan qalmaqdadır. Bu xüsusda, sən, məsələn, qan aldırmağı (hicamanı) sırf bir şər olaraq görən və ya qisasən adam öldürməyi mütləq şər olan düşünən bir axmaq kimisən. Çünki, (bu ağılsız şəxs), (öldürülməyin, özü haqqında sırf bir şərdən ibarət olduğu) məqtulun halına baxmaqla kifayətlənər; və bütün insanlar üçün hasil olan ümumi xeyrdən isə, qəflət edər. (O), xüsusi şər vasitəsilə ümumi xeyrə çatmaq, xeyir əhlinin ehmal etməməsi lazım gələn mütləq xeyir olduğunu bilməz.

~ İkinci (o şərrin içində mövcud olan xeyri, başqa bir yoldan təhsil etməyin mümkün olduğu) düşüncən xüsusunda da, ağlını töhmət et! Bu da, çox incə və qapalı məsələdir. Hər muhal/imkansız və ya mümkün olanın, mümkün və muhal olması, açıq şəkildə idrak edilə biləcək (mahiyyətdə) deyildir. Əksinə, əksəriyyətin bilə bilmədiyi dəqiq və incə bir nəzər ilə bilinə bilər. Bax, bu məsələdə, ağlını ittiham et, əsla şübhə etmə ki, O, ***«Ərhəmu'r-Rahimin»***dir. Və Onun rəhməti, qəzəbini keçmişdir. Şərri, xeyir üçün deyil, şər üçün iradə edənin də, rəhmət isminə layiq olmadığı xüsusunda, şübhən olmasın. Bu örtünün altında, şəriətin, ifşa edilməsini qadağan etdiyi bir sirr vardır. Bu halda, ima/işarət ilə qənaət et, tamamilə ifşaya tamah etmə. Rəmz və ima ilə tənbeh edildin; bu işin əhlisənsə, bunun üzərində bir düşün!

«Əgər dirini çağırsaydın, eşitdirərdin;

Ancaq nida etdiyində, həyat yoxdur.» [2]

Bunlar, əksəriyyət üçündür.

Ancaq sən, ey şər ilə muxatab olan qardaş! Mən, sənin, Allah (azzə və cəllə)'nin sirrinə vaqif olduğunu və belə tənbehlərə və vurğulara ehtiyacın olmadığını bilirəm.

* * *

(1) Buxari, «Bədiu›l-Xəlq», 1

(2) Şair Bəşşər b. Burdə

4. “Məlik” (isminin şərhi):

Zatında və sifətlərində, hər mövcuddan müstağni (zəngin, yəni, heç birinə ehtiyacı olmayan), hər mövcudun isə, Özünə möhtac olduğu (Zat)’dır. Heç bir varlıq, heç bir şey (xüsusunda), nə zatında, nə sifətlərində, nə vücudu (varlığı), nə də (varlığını) davam etdirməkdə, Ondan müstağni olmadığı kimi; hər şeyin varlığı, Ondandır; yaxud, Ondan olandandır. Ondan başqa hər şey, zatı və sifətləri xüsusunda, Onun məmluk’udur. O isə, hər şeydən müstağnidir. Mütləq Məlik, Odur.

Tənbih: Qulun mütləq məlik olması, təsəvvür edilə bilməz. Çünki o, hər şeydən müstağni deyildir. Şübhəsiz, qul, başqalarından müstağni olsa da, əbədiyyən Allah Taala’ya möhtacdır.

Bununla bərabər, hər şeyin, qula möhtac olması da təsəvvür edilə bilməz. Hətta, varlıqların əksəriyyəti, ondan müstağnidir. Ancaq, qulun, bəzi şeylərdən müstağni olub; bəzi şeylərin də ondan müstağni olmadığı təsəvvür edilə bildiyindən dolayı, onun, məliklikdən bir hissəsi vardır.

Qullar arasında məlik, odur ki, ona, ancaq Allah Taala malik olub; özü, Allah (azzə və cəllə) xaricində hər şeydən müstağni hala gəlmişdir. Bununla bərabər, o, ***«əsgərlər»***inin və ***«rəiyyət»***inin, içərisində özünə itaət etdikləri bir diyara sahibdir. Onun xüsusi diyarı, qəlbi və bədənidir.

~ **Əsgərləri:** arzusu (şəhvəti), qəzəbi və həvasıdır.

~ **Rəiyyəti isə:** dili, gözləri, əlləri və digər əzalarıdır.

Əgər o, bunlara malik olar və onlar, buna malik olmaz; bunlar, ona itaət edər və o, bunlara itaət etməzsə, bu adam, öz aləmində, məliklik dərəcəsinə nail olmuş deməkdir. Əgər bu dərəcəyə, bütün insanlardan müstağni olmağı da əlavə edər və bütün insanlar, özünə, acil (təcili, yəni dünya) və əcil (ertələnmiş, yəni axirət) həyatında möhtac hala gələrsə, bu şəxs, yer aləmində məlikdir. (Bax) bu, peyğəmbərlərin (Allahın salat və salamı, onların üzərlərinə olsun) mərtəbəsidir. Şübhəsiz, Onlar, axirət həyatına hidayət etmək xüsusunda, Allah (azzə və cəllə) xaric, hər kəsdən müstağni olub hər insan, Onlara möhtacdır. Məliklik xüsusunda, Onları, peyğəmbərlərin varisləri olan alimlər izləyir. Onların məlikliyi, insanları irşad etmədəki qüdrətləri və irşad tələb etmə xüsusundakı istiğnaları nisbətindədir.

Bu sifətlərlə, qul, mələklərin sifətlərinə və Allah Taala’ya yaxınlaşar. Belə bir mülk, mülkündə bir şəriki olmayan Haqq Məlik tərəfindən qula verilmiş bir ehsandır.

- Əmirlərdən biri, özünə: ***«Nə ehtiyacın varsa, mənə de!»*** dediyi vaxt, bəzi ariflərin söylədikləri, doğrudur: ***«Mənim, sənin seyyidin (ağaların) olan 2 nökərim var ikən, bunu mənə, sənmi söyləyirsən?!»***

- (Əmir): ***"Kimdir onlar?"*** (deyə soruşduğunda),

- Arif (kimsə): ***"Hərislik və həvadır. Mən, onlara qələbə çaldım, onlar sənə. Mən, onlara malik oldum, onlar sənə."*** (deyə cavab vermişdir).

Bəziləri, bəzi şeyxlərə: ***"Mənə tövsiyyə ver!"*** (deyə müraciət edir).

- Şeyx isə, belə cavab verir: ***"Dünyada, məlik ol; axirətdə də məlik olarsan."***

Bu sözün mənası, budur: ***"Dünyaya qarşı olan ehtiyacını və arzularını kəs. Şübhəsiz, mülkiyyət (mülk sahibi olmaq), azadlıq və istiğnadadır."***

* * *

5. Quddus (isminin şərhi):

~ Hisslərin idrak etdiyi;

~ xəyalın təsəvvür etdiyi;

~ vəhmə gələn;

~ qəlbə dolan;

~ təfəkkürün iqtiza etdiyi (gərəkdirdiyi) hər vəsfdən, münəzzəh olandır.

Mən demirəm, əskiklərdən və eyblərdən münəzzəhdir. Çünki, bunu demək belə, ədəbin tərkinə yaxındır. Çünki, birinin: **"Diyarın padşahı, hacamatçı və toxumaçı biri deyildir."** deməsi, ədəbdən deyildir. Şübhəsiz, bir şeyin varlığını nəfy etmək, onun var olmasının mümkün olduğunu vəhm etdirir; bu vəhm etdirmədə isə, qüsur vardır.

Əksinə, deyirəm ki, Quddus, insanların əksəriyyətinin kamal zənn etdikləri bütün kamal sifətlərindən münəzzəh olandır. Çünki, insanlar, ilk əvvəl, özlərinə baxıb öz sifətlərini bilmiş; və (bunların öz haqlarında, kamal və əskiklik olmaq üzərə, ikiyə) ayrıldığını idrak etmişlərdir. Kamal sifətləri olaraq qəbul etdikləri, məsələn, elm, qüdrət, səm (eşitmək), basar (görmək), kəlam (danışmaq), iradə və ixtiyar sifətləridir. Onlar, bu mənaların qarşısında bu ləfzləri vaz edib (qoyub) dedilər: ***"Bunlar, kamal isimlərdir."***

(Yenə, öz haqlarında nöqsanlıq ifadə edən) mənalar qarşısında da, cəhalət, acizlik, korluq, dilsizlik, karlıq ifadə edən ləfzlər vaz etdilər (qoydular).

Bu insanların, Allah Taala'nı səna etmək xüsusunda çata biləcəkləri son nöqtə,

~ özləri üçün vəsf etdikləri bu kamal sifətlərilə, -elm, qüdrət, görmək, eşitmək, kəlam- Onu vəsf etmək;

~ (yenə), özləri haqqındakı nöqsanlıq sifətlərindən də, Onu tənzih etmək olmuşdur.

Allah (subhənəhu və taala) isə, onların nöqsanlıq ifadə edən sifətlərindən olduğu kimi; kamal sifətlərindən də münəzzəhdir. Hətta, məxluqat üçün təsəvvür edilə biləcək bütün sifətlərdən və bunların bənzərlərindən, O, münəzzəh və müqəddəsdir. Əgər bunları söyləmək xüsusunda, ruxsat və icazə varid olmasaydı, bunların çoxunun söylənməsi, caiz olmayacaqdı. Bu sözümüzün mənasını, 4-cü fəslin ***"Müqəddimələr"*** bölməsində qavradığın üçün, yenidən təkrar etməyə ehtiyac yoxdur.

Qulun qüdsiyyəti, iradəsini və elmini tənzih etməsidir. (Belə ki):

~ **Elmini tənzih etməsi:** təxəyyülə, hisslərə və vəhmə (mövzu) olan və heyvanların idrak xüsusunda müşarəkət (şərik olduğu) hər şeydən, (elmini) tənzih etməsidir. Hətta, nəzəri və elmi, Özünə yaxınlaşıla bilməkdən və hisslərlə idrak edilməkdən; və yaxud da Özündən uzaqlaşılmaqdan və (beləliklə) hisslərə gizli qalmaqdan münəzzəh olan əzəli İlahi işlərin ətrafında tavaf edər (dönüb-dolaşar). Əksinə, (hətta), bütün təxəyyülatdan, məhsusat (hiss edilən)›lərdən, nəfsində təcərrüd etmiş olar. Elə elmlər əldə edər ki, əgər hiss və təxəyyül gücü əlindən alınacaq olsa, İlahi, külli, şərəfli elmlərlə dolmuş olaraq qalar. (Bu elmlər ki), əbədi və əzəli məlumat ilə əlaqəlidir. İmkansız və mütəğayyir (dəyişgən) şəxsiyyətlər (varlıqlar) ilə əlaqəli deyildir.

~ **İradəsini tənzih etməsi isə:** bəşəri həzlərin ətrafında döndüyü şeylərdən, iradəsini tənzih etməsidir. (Bəşəri həzlərə), şəhvət və qəzəb ləzzətləri, yemə, içmə, nikah, geyinmə, toxunma və baxmaq ləzzətləri və sadəcə hiss və qəlb vasitəsilə çatılan ləzzətlər də daxildir. Hətta Allah (azzə və cəllə)›dən başqasını murad etməz. Və özündə, Onun (Allahın) xaricində heç bir şeyə həzzi qalmaz. Və onda, sadəcə, Onun liqasına (yəni, Allaha qovuşmağa) şövq qalar. Və onda, sadəcə Ona qurbiyyət (yaxınlıq) ilə fərahlıq olar. Vələv ki, cənnət, hər şeyilə önünə ərz edilsə, onun himməti, onlara iltifat etməz. Və o ev (cənnət) ilə də qane olmaz. Sadəcə, o evin Rəbbi, ona kifayət edər.

Qısacası, xəyali və hissi idrak xüsusunda, heyvanlar da müştərəkdir (yəni, bunlar, heyvanlarda da mövcuddur). Bundan dolayı, bunları aşaraq, yalnız insani xüsusiyyətlərə yüksəlməlidir.

Bəşərin nəfsani arzularında da, heyvanlar şərikdirlər. (Elə isə), bunlardan da uzaqlaşmalıdır.

Mürid'in cəlallığı, muradının cəlallığı nisbətindədir. Himməti, qarnına girən şey qədər olanın qiyməti, qarnından çıxan şey qədərdir. Allah (azzə və cəllə)'dən başqa bir şeyə himməti olmayanın dərəcəsi də, himmətinə görədir. Hisslər və təxəyyülat (a mövzu olan şeylər)'dən elmini tərəqqi etdirən; və iradəsini də, şəhvətlərinin gərəkdirdiyindən təqdis edən, Hazirətu'l-Quds (Allahın mənəvi hüzuru)'nun ortasına enər (yəni, bura girmiş olar).

* * *

6. Salam (isminin şərhi):

~ Zatı, eyblərdən;

~ Sifətləri, nöqsanlıqdan;

~ Felləri də, şərdən salamat olan (Varlıq)'dır. Belə olunca, varlıqda heç bir salamatlıq yoxdur ki, Ona nisbət edilməsin; Ondan sadir olmasın. Allah Taala'nın fellərinin şərdən -yəni, özü üçün murad olunan mütləq şərdən; yoxsa, içində daha böyük xeyir saxlayan şərdən deyil- salamat olduğunu, daha əvvəl fəhm etmişdin. Özünə, daha əvvəl ima (işarət) edildiyi üzərə, bu sifət ilə, belə bir şər yoxdur.

Tənbeh:

~ Hilə, kin, həsəd və şərri istəmək (kimi şeylər)'dən, qəlbi;

~ Qadağan edilmiş şeyləri etməkdən, orqanları;

~ ***"İntikəs"*** və ***"in'ikəs"***dən, sifətləri salamat olan hər kəs, Allah Taala'ya, səlim qəlb ilə gələcəkdir. Qullar arasında salam sifətilə vəsflənən, bununla, haqq və mütləq olaraq salam olan, sifətlərində şərikliyin olmadığı (Zata) yaxın olar.

~ ***"İntikəs"*** ilə qəsdim, ağlının, şəhvət və qəzəbə əsir olmasıdır. Haqq olan isə, bunun əksidir. Yəni, şəhvət və qəzəbin, ağlın əsiri olmasıdır.

~ ***"İn'ikəs"*** etdiyi vaxt (yəni, qulun sifətləri, bunun əksinə döndüyü vaxt), "intikəs" gerçəkləşmiş olar. Əmir, məmur; məlik də, qul olduğunda, salamatlıq olmaz. Ancaq müsəlmanların əlindən və dilindən salamat olduğu şəxs, salam və islam olmaqla vəsf edilə bilər. (O halda), öz nəfsindən salamatda olmayan şəxs, necə ola bilər ki, bununla (yəni, salam sifətilə) vəsf edilə bilir?!

* * *

7. Mu'min (isminin şərhi):

Səbəblərini lütf etməsi və qorxu yollarını bağlaması cəhətindən, əmn və amanın Özünə nisbət edildiyi (Zat)'dır.

~ Qorxu məhəlli olmadan, əmn və aman;

~ Yoxluq, nöqsanlıq və həlak ehtimalı olmadan da, qorxu təsəvvür edilə bilməz. Mütləq Mu'min odur ki, əmn və aman, ancaq Onun vasitəsilə əldə edilə bilir. O da, Allah (subhənəhu və taala)'dır.

(Bu xüsus) gizli deyildir ki,

~ Kor, görmədiyi bir yöndən özünü həlak edəcək bir şeydən qorxar. Görən göz isə, insanı, belə bir təhlükədən qoruyar.

~ Qolu kəsilmiş bir adam, ancaq əllə qoruna biləcək bir afətdən qorxar. Sağlam əl isə, belə bir afətə qarşı, əmin-amanlıqdır.

~ Bütün hisslər və orqanlar da, belədir.

Mu'min isə, bunları yaradan, surət və qüvvət verəndir.

Tək başına olan və düşmənləri tərəfindən axtarılan bir insan düşünək. Bu insan, tənha bir yerə atılmış və əzaları da, zəifliyindən hərəkət edə bilməməkdədir. Hərəkət etsə belə, silahı yoxdur. Silahı olsa da, düşmənlərinə qarşı tək başına müqavimət edə bilmir. Əsgərləri olsa da, bölünüb-dağılmayacaqlarından, əmin deyildir. Və sığınacaq bir qala da tapa bilmir.

(İş belə ikən), bu adama kömək edəcək bir nəfər çıxır; zəifliyini müalicə edib gücləndirir; əsgərləri və silahları ilə onu dəstəkləyir; ətrafına sağlam qala inşa edir; və ona, əmin-amanlıq verir. Bu şəxsi, Mu'min deyə təsmiyyə etmək (adlandırmaq), yerindədir.

(Misalda olduğu kimi): Qul,

~ fitrəti etibarı ilə zəifdir;

~ xəstəliklərə, aclığa və susuzluğa məruzdur;

~ zahirində də, yandıran, boğan, yaralayan və kəsici afətlərə məruz qalmağa əlverişlidir.

Qulu,

~ bütün qorxulardan əmin qılan;

~ ondan, xəstəliklərini qaldıracaq faydalı dərmanları verən;

~ aclığını aparan yeməkləri; susuzluğunu aparacaq içəcəkləri; bədənini mühafizə edən orqanları; yaxınlaşan afətləri xəbər verən ***"hisslərdəki casuslar"***ı təmin edəndir.

İnsanın ən böyük qorxusu isə, axirətinin həlak olmasıdır. Onu bu həlakdan, kəlime-i tövhiddən başqası, qoruya bilməz. Allah Taala isə, bu qulu, bu kəliməyə tərğib edən (rəğbətləndirən)›dir. (Necə ki, O, belə buyurmuşdur):

"Lə iləhə illəllah, Mənim qalamdır. Mənim qalama girən kimsə, əzabımdan əmin olar." (1)

Aləmdə mövcud olan hər əmin-amanlıq, Allahın yaratdığı və istifadəsini öyrətdiyi səbəblərdən istifadə edilmişdir.

اَلَّذِيٓ أَعْطَىٰ كُلَّ شَيْءٍ خَلْقَهُۥ ثُمَّ هَدَىٰ...

"...Hansı ki, hər şeyə öz xilqətini verən; sonra da ona hidayət/doğru yolu göstərəndir!" (2)

(Bu halda), haqq, mütləq Mu'min, Odur.

Tənbeh: Qulun, bu isim və sifətdən nəsibi, bütün xalqın, ondan əmin-amanlıq içərisində olmasıdır. Hətta, din və dünya xüsusunda; və nəfsinin həlak olmasından qorxan hər kəsin, özündən bunları dəf etməsini umduğu (şəxs)'dir. Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurur:

"Allaha və axirət gününə iman edən, qonşusunu, fəlakətindən əmin qılsın." (3)

Qullar arasında ***«mu›min»*** isminə layiq olan, Allah (azzə və cəllə)'nin yoluna hidayət edən və nicat yoluna irşad edib xalqı, Allahın əzabından əmin olmağa səbəb olandır. Bax bu, Peyğəmbərlərin və alimlərin işidir. Bundan dolayı, Peyğəmbər (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"Sizlər, pərvanələr kimi atəşə atılırsınız. Mən isə, düşməyəsiniz deyə, paltarınızın ucundan tuturam." (4)

Xəyal və tənbeh: Sanki, belə sual verə bilərsən:

"Həqiqətdə, qorxu, Allah Taala'dandır. Ondan başqa qorxu verən yoxdur. Qullarını qorxudan da, qorxu səbəblərini yaradan da, Odur. Bu halda, Ona, əminlik necə nisbət edilə bilər?"

(1) əbu Nuaym, "Hilyətu'l-Övliya", lll, s. 192

(2) Taha/50

(3) Bənzər ləfzlərlə, Buxari, hədis no: 5185

(4) Bənzər ləfzlərlə, Buxari, hədis no: 6483

Cavabın, budur: Qorxu da, Ondandır, əmin-amanlıq da. Əminliyin də, qorxunun da səbəbini yaradan, Odur. Onun qorxu verən olması, Mu'min olmasına əngəl deyildir. Eynilə, zillət verən (Muzil) olmasının, izzət verən (Muiz) olmasına mane olmadığı kimi. O, əl-Muiz və əl-Muzil'dir. Alçaldan (əl-Xafid) olması, yüksəldən (ər-Rafi) olmasını əngəlləməz. O, əl-Xafid və ər-Rafi'dir. Eyni şəkildə, O, Mu'min və Muxavvif (qorxu verən)'dir. Lakin, xüsusilə -təvqifi olaraq- Allahın isimləri arasında, Mu'min yer almaqla birlikdə; Muxavvif, yer almamışdır.

* * *

8. Muheymin (isminin şərhi):

Allah (azzə və cəllə) haqqındakı mənası: (qullarının) əməlləri, ruziləri və əcəlləri üzərində qaim olması deməkdir. Onlar üzərində qaim olması, ittila, iṡtila və hifzi ilədir. Hər işin künhünə müşrif (nəzər edən), muṡtəvli (iṡtila edən), nafiz (nüfuz edən) şəxs, o şeyə muheymin'dir.

~ Müşrif olmaq (nəzarət, kontrol) - elmə raci (rücu edən, qayıdan)'dır;

~ İṡtila isə - qüdrətin kamalına;

~ Hifz isə - felə racidir.

Bu mənaları cəm edən, Muheymin ismidir.

Mütləq mənada və kamil surətdə bu mənalar, Allah (azzə və cəllə)'dən başqası üçün cəm ola bilməz. Bundan dolayı: ***"əl-Muheymin ismi, qədim kitablarda, Allah Taala haqqında yer alan isimlərdəndir."*** deyilmişdir.

Tənbeh: Qəlbini muraqabə (nəzarət, kontrol) edən və bununla bərabər; əhvalını və vəsflərini, düzəltməyə muṡtəvli (qüdrətli) olan; düzəltmənin iqtizasınca (gərəyincə) davamlı bir şəkildə qorumağa müvəffəq olan (hər qul, qəlbinə nəzərən) muheymin deməkdir.

İşraf (yəni, nəzəri) və muṡtəvli olması (yəni, qüdrəti) artarsa, bəzi qullarının zahirindən iṡtidlal və fərasət yolu ilə batinlərinə və sirlərinə ittila etdikdən (xəbərdar olduqdan) sonra, Allah (azzə və cəllə)›nin bəzi qullarını qoruya bilərlər. (Beləcə), bu isimdən nəsibi və həzzi (hissəsi) daha çox olar.

* * *

9. Əziz (isminin şərhi):

Bu isim,

~ bənzəri az olub çox mühim olan;

~ özünə ehtiyac çox şiddətli olan; və

~ Ona çatılması (qovuşulması) çox çətin olandır.

Bu 3 məna özündə cəm olmayana, ***"Əziz"*** deyilməz.

~ Neçə-neçə şeylər vardır ki, varlığı, az; lakin əhəmiyyəti və ya faydası, çox deyildir. Bundan dolayı, ***"əziz"*** deyə isimləndirilməz/adlandırılmaz.

~ Yenə, çox şey vardır ki, əhəmiyyət və faydası çox olmaqla bərabər, bənzəri də yoxdur. Lakin, özünə vüsul (qovuşmaq, çatmaq), çətin deyildir. Bundan dolayı, bu da, ***"əziz"*** deyə isimləndirilə bilməz. Məsələn:

Günəş, belədir, bir bənzəri yoxdur; yer üzü də, belədir. Bunların ikisinin də faydası, çox; özlərinə hiss edilən ehtiyac isə, şiddətlidir. Bununla bərabər, izzət sifətilə vəsf edilə bilməzlər. Çünki bunları müşahidə etməyə, hər hansı bir çətinlik yoxdur (Dolayısı ilə), bu 3 mənanın cəm olması lazımdır.

(Bununla bərabər), bu 3 mənadan hər birində, kamal və nöqsan vardır.

~ Az tapılan olmanın kamalı, birə raci olmaqdır; (çünki), birdən daha azı yoxdur. Bununla bərabər, bənzərinin olmasının muhal/imkansız olmasıdır. Bu da, Allah Taala'dan başqasında yoxdur. (Necə ki), günəş, varlıqda təkdir; lakin, imkan cəhətindən bir deyildir; eyni kamala sahib bənzərinin olması, mümkündür.

~ Özünə hiss edilən ehtiyacın şiddəti (xüsusun)'dakı kamal, hər şeyin hər xüsusunda, -varlığı, əbədiliyi və sifətləri də daxil olmaq üzərə- Özünə möhtac olunmasıdır. Bu (məna), Allah (azzə və cəllə)'nin xaricində, kamal dərəcəsində, başqasında ola bilməz.

~ Özünə çatmağın (qovuşmağın) çətinliyindəki kamal, künhünü əhatə etmək xüsusunda, imkansız olmasıdır. Bu da, kamal mənada, Allah (azzə və cəllə)'yə məxsusdur. (Necə ki), daha əvvəl, Allahı, ancaq Allahın bilə-biləcəyini bəyan etmişdik. O, mütləq və həqiqi Əziz'dir. Başqası, Ona bərabər ola bilməz.

Tənbeh: Qullar arasındakı əziz, o kimsədir ki, Allahın qulları, ən mühim işləri olan axirət həyatı və əbədi səadət haqqında, Ona möhtacdırlar. Belə şəxs də, heç şübhəsiz, azdır və ona çatmaq/qovuşmaq, çətindir. Bu, peyğəmbərlərin (salavatullahi aleyhim əcməin) rütbəsidir.

Öz əsrində, dərəcə etibarı ilə infirad edib (tək olub) peyğəmbərlərə yaxın olan xəlifələr və varis alimlər, onlara izzətdə müşarəkət (şəriklik) etməkdədirlər (yəni, bu izzətdən pay almaqdadırlar). Hər birinin nail olduğu izzət, bu sifətdən aldıqları paya bağlı mərtəbələrilə xalqı irşad etmədəki cəfa və çətinlik ölçüsü qədərdir.

* * *

10. Cabbar (isminin şərhi):

İradəsini, icbar yolu ilə bütün varlıqlar üzərində tənfiz edən (nüfuz etdirən); və heç kimin, Özü üzərində, iradəsini tənfiz edə bilmədiyi; əli (qüdrəti) xaricinə, kimsənin çıxa bilmədiyi; Özünün qoruduğu kimsələrə, əllərin çata bilmədiyi (Zat)›dır.

Mütləq Cabbar, Allah (subhənəhu və taala)'dır. O, hər şeyi məcbur edə bildiyi halda; heç bir varlıq, Onu məcbur edə bilməz. Onun haqqqında, 2 tərəfdə də, ikilik yoxdur (yəni, başqasına məcburi olaraq bir şeyi etdirən, Allah olduğu kimi; kimsənin, Özünə bir şeyi məcburi olaraq etdirə bilmədiyi Zat da, yenə Odur.)

Tənbeh: Qullar arasında cabbar olan kimsə,

~ başqasına tabe olma rütbəsindən çıxıb tabe olunan bir rütbəyə yüksələn;

~ mərtəbəsinin yüksəkliyi xüsusunda, təfərrüd edən (tək olan)'dır.

Elə ki, heyət və surətilə, xalqı, əxlaq və yaşayışı xüsusunda, özünə tabe olmağa məcbur buraxandır. Xalqa fayda verər, lakin onlardan istifadə etməz; Təsir edər, ancaq təsirlənməz; Özünə tabe olunar; lakin özü tabe olmaz. Onu görən hər kəs, nəfsini mülahizə etməkdən fane olar (yəni, onu tamaşaya dalıb özlərini unudarlar) və ona şövqü artar. Kimsə də, onu, özünə tabe etdirməyə və iqna etməyə (inandırmağa) tamah etməz.

Bu vəsflə nəsiblənən, seyyidu'l-bəşər Muhammməd (sallallahu aleyhi və səlləm)'dir. O, belə buyurur:

~ "Əgər Musa b. İmran həyatda olsaydı, Mənə tabe olmaqdan başqa bir yolu olmazdı." (1)

~ "Mən, Adəm oğullarının seyyidiyəm. Bunda, fəxr yoxdur." (2)

* * *

(1) Beyhaqi, "Şuabu'l-İman", 176

(2) İbn Macə, hədis no: 4308

11. Mütəkəbbir (isminin şərhi):

~ Zatına izafətən hər şeyi həqir görən;

~ Əzəmət və kibriyanı, sadəcə Özündə görən;

~ Özündən başqasına, məliklərin, qullarına baxdığı nəzər ilə baxan (Zat)'dır.

Əgər bu (görüş) doğrudursa, bu təkəbbür, haqdır. Sahibi də, həqiqi Mütəkəbbir›dir. Bu da, mütləq mənada, sadəcə Allah (azzə və cəllə) üçün təsəvvür edilə bilər.

Bu təkəbbür və isti'zam (böyüklənmə) batildirsə, əzəmətdəki təfərrüdü (yəni, əzəmət sahibi olmaqda tək olduğu şəklindəki görüşü), zənn etdiyi kimi deyildirsə, bu təkəbbür, batil və məzmum (zəmm edilən)'dir. Hər kim ki, əzəmət və kibriyanı, xüsusi olaraq, sadəcə öz nəfsində görərsə, bu görüşü, yalan; və nəzəri də, batildir. Allah (subhənəhu və taala) xaric.

Tənbeh: Qullardan mütəkəbbir olan, zahid olan ariflərdir. Arifin zühd sahibi olmasının mənası, sirrini, Haqqdan məşğul edən şeylərdən tənzih etməsi; Haqq (subhənəhu və taala) xaricindəki hər şeyə təkəbbür etməsidir. Beləliklə, dünya və axirəti, həqir görər; Haqq Taala'dan məşğul edən hər şeyin üzərinə çıxmış olar.

Arif olmayanın zühdü isə, muamələ və alış-verişdir. Çünki o, dünya malı ilə, axirət malını satın alar. Yəni, (mövcud olan) şeyi, daha sonra, qat-qat olanı qazanmaq üçün tərk edər. Bu da, sələm və alış-verişdir.

Yemək və nikah şəhvətinin nökərləşdirdiyi şəxs, -əgər bu arzusu davamlıdırsa- həqirdir. Mütəkəbbir, o kimsədir ki, heyvanların həzz və şəhvət təsəvvür etdikləri şeyləri, həqir görür.

Allah, ən gözəl biləndir...

* * *

12-13-14. Xaliq-Bari-Musavvir (isimlərinin şərhi):

Bəzən, bu isimlərin eyni mənalı olduğu və hamısının da, xəlq və ixtiraya raci olduğu zənn edilir. Ancaq belə olması, gərəkli deyildir. Çünki, yoxluqdan varlığa çıxan hər şeyin:

~ ilk əvvəl, təqdirə;

~ sonra, bu təqdirə uyğun olaraq, icada;

~ sonra da, təsvirə (surətə)

ehtiyacı vardır.

Allah (subhənəhu və taala) isə:

~ muqaddir (təqdir edici) olması cəhətindən - ***Xaliq;***

~ muxtəri (ixtira edən) və mucid (icad edən) olması cəhətindən - ***Bari;***

~ ixtira edilən şeylərin surətlərini ən gözəl bir şəkildə tərtib edici olması cəhətindən də - ***Musavvir***'dir.

Bu, eynilə, bir bina misalında olduğu kimidir. Çünki bina:

~ özü üçün gərəkli olan taxta, kərpic, ərazinin ölçüsü, binaların ədədi, uzunluq və genişliyi (kimi şeyləri) təqdir və təsvir edəcək birinə ehtiyac duymaqdadır. Bu işi isə, mühəndis üstlənər və binanı tərsim və təsvir edər (yəni, rəsmini çəkər və surət verər).

~ Sonra, binanın təməllərinin meydana gəlməsi üçün, binanın işlərini üstlənəcək bir bənnaya ehtiyac vardır.

~ Sonra, bənna xaricində, binanın surətini təzyin edən (bəzəyən) və zahirini nəqş edən bir müzəyyinə (bəzəyənə) ehtiyac vardır.

Təqdir, bina etmək və təsvirdəki adət, budur.

Allah (azzə və cəllə)'nin fellərində isə, (iş, hal), belə deyildir. Əksinə, təqdir də, icad da, təzyin edən də, Odur. (Bu halda), Xaliq, Bari və Musavvir, Odur.

Bunun misalı, insandır. İnsan, Onun məxluq (xəlq etdik)'lərindən biridir. İnsan:

~ varlıq (meydan)'ına çıxmaq üçün, ilk əvvəl, təqdir edilməyə möhtacdır. Çünki o, xüsusi bir cisimdir. İlk əvvəl, cisim halına gəlməsi lazımdır ki, müəyyən sifətlərlə xüsusiləşsin. Eynilə, bənnanın, bina tikmək üçün

alətlərə ehtiyac duyması kimi (yəni, bina tikmək üçün necə ki bənnanın, alətlərə ehtiyacı vardır; eynilə də, ilk əvvəl cisim var olmalıdır ki, daha sonra sifətləri müəyyənləşsin.)

~ Sonra, insan bünyəsi, su və torpaq olmadan (var) ola bilməz. Çünki, torpaq, tək başına qurudur, əyilib-bükülməz. Su, tək başına islaqdır, düz dayanmaz, əksinə, (sağa-sola) yayılar. Bu səbəblə, qurunun islaq ilə birləşməsi lazımdır ki, mötədil olsun. Və bu, "palçıq" deyə təbir edilir.

~ Sonra, bişirici bir istilik lazımdır, ki, su, torpaqla qarışsın; ondan ayrılmaz bir hala gəlsin. İnsan, sırf palçıqdan yaradılmış deyildir; faxxar (saxsı) kimi salsaldan (quru palçıqdan) yaradılmışdır. Faxxar, su ilə yoğrulub odda bişirilərək mizacı möhkəm hala gətirilmiş palçığa deyilir.

~ Sonra, su və palçığın, xüsusi miqdarda təqdir edilməsi lazımdır. Çünki, məsələn, əgər qarışqa kimi kiçik təqdir edilsə, insana məxsus felləri, edə bilməz; külək, sürükləyib aparar və ən adi bir şey belə, onu həlak edərdi. Dağ kimi bir palçığa da ehtiyac yoxdur. Bu qədəri, ehtiyac miqdarından çoxdur. Əlavə və nöqsan arası olan kifayət edici miqdarı, Allah (azzə və cəllə) bilir.

Bütün bunlar, təqdirə racidir (yəni, Allahın təqdirinə rücu etməkdə, dönməkdədir). O, bütün bu şeyləri:

~ təqdir etməsi etibarı ilə - ***Xaliq;***

~ təqdirə uyğun şəkildə icad etməsi etibarı ilə - ***Musavvir;***

~ mücərrəd icad və adəm (yoxluq)'dan varlığa ixrac etibarı ilə də - ***Bari***'dir.

Mücərrəd icad, bir şeyi təqdirə uyğun icaddan başqa bir şeydir.

Buna (yəni, bu açıqlamaya), xəlqi (yəni, yaradılışı), mücərrəd təqdirə irca etməyi uzaq görənlər ehtiyac duyarlar. Ancaq bunun, lüğətdə bir vəchi vardır. (Necə ki), ərəblər, ayaqqabıçıya, ayaqqabının bəzi parçalarını digərlərinin üzərində təqdir etmələri səbəbilə, ***"xaliq"*** deyirlər. Bir şair də, belə demişdir:

"Sən, təqdir etdiyini gözəl edirsən,

Bəziləri isə, təqdir etsə də, gözəl edə bilmir."

"Musavvir" isminə gəlincə: Əşyanın surətini, ən gözəl şəkildə tərtib edən və ən gözəl şəkildə təsvir edəndir. Bu isə, felin vəsflərindəndir. Bunun həqiqətini, aləmin surətini,

~ ilk əvvəl, ümumi olaraq;

~ daha sonra isə, təfsilatı ilə

biləndən başqası bilə bilməz. Çünki, bütün aləm, özündən hədəflənən məqsədə yönəlmiş olaraq, bir-birinə köməkçi olan əzalardan mürəkkəb bir şəxs hökmündədir. Aləmin əzaları və cüzləri (parçaları), göylər, yer(in qat)'ları, göy cisimləri, bunlar arasında olan su, hava və digərləridir. Aləmin əczaları, möhkəm bir tərtib üzərə tərtib edilmişdir. Əgər bu tərtib dəyişdiriləcək olsa, nizam, alt-üst olardı. (Bundan dolayı),

~ yuxarı cəhətdə olanın, yuxarıya yüksəlməsi;

~ alt cəhətdə olanın isə, daha aşağıya enməsi

təxsis edilmişdir.

Eynilə, bənnanın,

~ divarın aşağısına, daşları;

~ üstünə də, taxtanı

qoyması, təsadüfi deyil, (bunları), hökmünün iradəsi və qəsd və hikmətilə qoyması kimi... Çünki, əgər tam əksini etsə, (yəni)

~ daşları, yuxarı;

~ taxtanı da, aşağı

qoysa idi, bina yıxılardı. Binanın surəti də, sabit olmazdı.

Eyni şəkildə:

~ göy cisimlərinin, yuxarıda;

~ yer üzü və suların da, aşağıda

olmasının; yenə, aləmin digər böyük cüzləri (parçaları) arasındakı tərtibin səbəbi, belə başa düşülməlidir.

Əgər aləmin cüzlərini kəşf etməyə və saymağa çalışsaydıq; və onların tərkibindəki hikməti zikr etməyə başlasaydıq, söz uzanardı.

Hər kimin, bu təfsilata dair elmi daha genişdirsə, ***"əl-Musavvir"*** isminin mənasını, daha çox əhatə edər.

Bəhsini etdiyimiz tərtib və təsvir, aləmin hər bir cüzündə, -vələv ki, qarışqa və zərrə kimi və hətta qarışqanın bir orqanı kimi çox kiçik olsun- mövcuddur.

Canlıların ən kiçik üzvü olan gözün heyətlərini, şəkillərini, miqdarlarını, rənglərini və ondakı hikmət cəhətini bilməyən, onun surətini də, surət verənini (yəni, onun Musavvirini) də, -mücməl bir isim xaricində- bilə bilməz.

(Bu danışılanlar), hər bir heyvan və bitkilərin surəti və cüzləri üçün, məqbuldur.

Tənbeh: Qulun, bu isimdən nəsibi, öz nəfsində,

~ bütün varlığın surəti və heyətini, tərtibilə hasil etməsi; (elə ki), bütün aləmin heyət və tərtibini, ona nəzər edirmişcəsinə əhatə etməsidir.

~ Sonra, küll (bütün)'dən təfsilata enərək, insan surətinə, bədən və cismindəki əzalara, növlərini, ədədlərini, tərkiblərini, yaradılışlarındakı hikmətləri və tərtiblərini biləcək şəkildə yönəlməsi;

~ Daha sonra da, -idrak və iradələri, özlərilə mümkün olan- mənəvi sifətləri və şərəfli mənalarını, göz önünə gətirməsidir.

Və beləcə, zahiri və batini olaraq, heyvanların və bitkilərin surətlərini, gücü çatdığı qədər tanıması; (elə ki), hər birinin rəsm və surətlərini qəlblərinə nəqş etməsidir. Bütün bunlar, cismani varlıqların surətlərini bilməyə racidir. Bunlar isə, ruhani (varlıqlar)'ın tərtibini bilməyə nəzərən, müxtəsər bir mərifət (bilik)'dir. Buna, mələklər və onların mərtəbələrinin mərifəti daxildir. Hər birinin:

~ səmalar və ulduzlardakı;

~ bəşərin qəlblərindəki irşad və hidayət; sonra da,

~ bütün canlıları hadi (hidayət edən) ilhamlar ilə ehtiyaclarını ortadan qaldırmaqdakı təsərrüfünü bilmək də, (bu mərifətə) daxildir.

Qulun, bu isimdən nəsibi, varlığın surəti üçün uyğun olan elmi surəti qazanmaqdır. Çünki elm, şübhəsiz, nəfsdə, məluma uyğun olan surətdir. Allah (azzə və cəllə)'nin surət haqqındakı elmi (biliyi), ayanda (xarici aləmdə), surətlərin varlıq qazanma səbəbidir. Ayanda mövcud olan surətlər isə, insan qəlbindəki elmi surətlərin hasil olmasına səbəbdir. Bax, bu yolla, qul, Allah (subhənəhu və taala)'nın isimlərindən ***"əl-Musavvir"*** isminin mənası haqqında bilik əldə edə bilər. Bununla bərabər, nəfsində (haqqında danışılan) surəti iqtisab etməsilə (əldə etməsilə), -məcaz yolu ilə olsa belə- sanki, musavvir kimi olmuş olar. Şübhəsiz ki, o elmi surətlər, həqiqətdə, Allah Taala'nın xəlq və ixtirası ilə, qulun feli xaricində meydana gəlir. Qul isə, Allah Taala'nın rəhmətinin bol-bol gəlməsi üçün, səy göstərər.

...إِنَّ ٱللَّهَ لَا يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّىٰ يُغَيِّرُوا۟ مَا بِأَنفُسِهِمْ...

"...Həqiqətən də, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz..." (1)

(1) Ra'd/11

(Bundan dolayı), Peyğəmbər (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur: ***"Sizin günləriniz içində, Rəbbinizin rəhmət yelləri(ni verdiyi günlər) vardır. Diqqət edin! Bundan faydalanmağa çalışın."*** (1)

"əl-Xaliq" və "əl-Bari"yə gəlincə: Qulun bu isimlərdən nəsibi, yenə uzaq bir məcazdan başqa bir şey deyildir. Bunun vəchi, budur:

Xəlq və icad, elmin gərəyincə qüdrəti istifadə etməyə racidir (yəni, yaratmaq, elm sifətinə uyğun olaraq, qüdrət sifətinin iş görməsinə bağlıdır). Allah Taala da, qulda, bir elm və qüdrət yaratmışdır. Beləcə, qul, elminə müvafiq olaraq, qüdrəti daxilindəki şeyləri təhsil edir.

Mövcudat (ikiyə ayrılır):

1. *Meydana gəlməsində, qulun qüdrətinin əsla rolu olmayanlar.* (Buna misal olaraq): səma, göydəki ulduzlar, heyvanlar, yer, bitkilər və digərləri.

2. *Qulun qüdrəti olmadan, meydana gəlməyənlər.* Bunlar isə, qulların əməllərinə racidir. (Buna): sənət, siyasət, ibadət, mücahidələr (misal verilə bilər). Qul, riyazət yolu ilə, nəfsilə cihad etməklə, nəfsinə və xalqa (xeyir yoluna çevirib təkamül etdirmək mənasında) siyasət edə-edə, elə bir mərtəbəyə çatar ki, daha əvvəl istinbat edilməyən işləri, tək başına istinbat edə bilər; bu xüsuslar üzərində, fel yolu ilə də təsirli olmağa müqtədir olub başqalarını da tərğib edə (yəni, bu işlərə rəğbətləndirməyə, təşviq edə) bilər. Beləcə, daha əvvəl varlığı olmayan bir şeyi, yoxdan var edən ***"muxtəri"*** kimi olar. Məsələn, şahmatı icad edən üçün, ***"Onu, var etdi.", "Onu, ixtira etdi."*** deyirlər. Çünki, daha əvvəl olmayan bir şey meydana gətirmişdir. Ancaq, özündə xeyir olmayan bir şeyi vaz etmək (meydana çıxarmaq), mədh sifətləri arasında sayılmaz.

Xeyirlərin qaynağı olan riyazətlər, mücahidələr, sənətlər, (bir növ) surətlər və tərtiblərdir. İnsanlar, bunları, bir-birilərindən öyrənərlər. Şübhəsiz ki, bu (silsilə), bunları ilk istinbat və vaz edənə qədər gedər. Bunları ilk dəfə vaz edənlər, beləliklə, sanki, o surəti ixtira, xəlq və təqdir edən kimi olarlar. Hətta məcazi olaraq ***"xaliq"*** ismini onlara vermək, caiz olar.

Allah Taala'nın isimlərindən bəziləri, məcazən, qullar üçün də istifadə edilə bilər; bir çox isim, belədir. Bunlardan bir qismi, -Sabur və Şəkur kimi- qul haqqında həqiqət olub, Allah Taala haqqında isə, məcazdır. Bu halda, isimdəki müşarəkətə (isim bənzərliyinə) diqqət edib, zikr etdiyimiz fərqliliyi nəzərdən qaçırmamaq lazımdır.

* * *

(1) Taberani, "əl-Mu'cəmu'l-Kəbir", l, 250

15. Ğaffar (isminin şərhi):

Gözəli izhar edib çirkini örtəndir. Günahlar da, Onun örtdüyü çirkinliklər cümləsindəndir. (Günahlar):

~ dünyada, üzərini örtdüyü;

~ axirətdə də, cəzalandırmaqdan vaz keçdiyi çirkinliklərdəndir.

"Ğafr", "örtmək" deməkdir. (Allahın) qulları üstündəki:

• **İlk örtməsi:** *bədəninin içində olan və gözlərin çirkin görəcəyi şeyləri, zahirin camalı (gözəlliyi) ilə örtməsidir.*

Camal və çirkinlikdə, təmizlik və kirlilikdə, insanın daxili ilə xarici arasında, nə böyük fərq vardır! Onun, bir izhar etdiyinə; bir də gizlədiyinə nəzər et!

• **İkinci örtməsi:** *çirkin əzmlərini və məzmum (zəmm edilən, pislənən) düşüncələrini qəlbində gizləyib başqa kimsənin bu sirdən xəbərdar olmamasını təmin etməsidir.*

Xalq, əgər insanın vəsvəsə növündən ağlından keçənləri; və insanlar haqqında könlündəki hilə, xəyanət və su-i zənləri biləcək olsaydılar, ondan nifrət edər; hətta, onu öldürməyə səy göstərər və tələf edərlərdi. Bu halda, bax, nəzər et ki, insanların sirləri və nöqsanlıqlarını, necə örtmüşdür.

• **Üçüncü örtməsi:** *xalq arasında rəzil olmağa layiq günahlarını əfv etməsidir.*

Hətta (O), iman üzərə öldüyü təqdirdə, günahlarının çirkinliklərini, həsənatının (gözəl əməllərinin) savabı ilə sətr etmək (örtmək) üçün, günahlarını, həsənatlarına dəyişdirməyi vəd etmişdir.

Tənbeh: Qulun, bu isimdən nəsibi, öz (eyb və qüsurlarını) sətr etməsi lazım gəldiyi kimi; özü də, başqalarının (eyb və qüsurlarını) örtməlidir. Peyğəmbər (sallallahu aleyhi və səlləm)›in buyurduğu kimi:

"Kim, (dünyada) bir möminin eyibini örtərsə, Allah (azzə və cəllə) də, qiyamət günü, onun eyibini örtər." (1)

Qeybətçi, mütəcəssis (insanların gizli hallarını araşdıran), bir günaha mükafat verən kimsələrin, bu isimdən nəsibləri yoxdur. Bu isimlə müttəsif olan, Allah Taala'nın qullarının əhvalından ən gözəllərini ortaya çıxaranlardır.

(1) Buxari, hədis no: 2442

Hər məxluqun, kamal, nöqsan, qubh (çirkin) və hüsn (gözəl) (sifətləri) vardır. Kim çirkinliklərdən təğafül edib (yəni, çirkinliklərə göz yumub) məhasini (gözəl tərəfləri) zikr edərsə, onun, bu vəsfdən nəsibi vardır.

İsa (əleyhissəlam) haqqında rəvayət edildiyi kimi: O, həvarilərilə bərabər gedərkən, iylənmiş bir it leşi görürlər.

- Həvarilər: ***"Nə pis iyli bir leş!"*** deyirlər.

- İsa (əleyhissəlam) isə: ***"Nə gözəl ağ dişləri vardır."*** deyir.

Onun bunu söyləməkdəki məqsədi: hər şeyin ən gözəl tərəfini zikr etməyin gərəkliliyinə dair bir tənbehdir.

* * *

16. Qahhar (isminin şərhi):

Düşmənlərindən cabbar olanların bellərini qıran; onları öldürmək və zəlil etmək surətilə qəhr edəndir. Hətta, heç bir şey yoxdur ki, Onun qəhr və qüdrəti altında musaxxar (boyun əymiş) və ovucunda olmasın.

Tənbeh: Qullardan qahhar olan, düşmənlərini qəhr edəndir. İnsanın ən böyük düşməni isə, 2 yanı arasındakı nəfsidir. (Elə ki), düşmənliyindən həzər edildiyimiz şeytandan, daha böyük düşməndir. İnsan, nə qədər nəfsinin şəhvətlərini qəhr edərsə; şeytanı da, o qədər qəhr etmiş olar. Çünki şeytan, insanı, şəhvətləri vasitəsilə həlaka aparır. Şeytanın tələlərindən biri, qadınlardır. Qadınlara qarşı şəhvətindən qurtulanın, bu tələyə düşməsi təsəvvür edilə bilməz. Eyni şəkildə, bu arzusunu, dinin qüvvəti və ağlın işarətilə qəhr edən də, belədir. Şəhvətlərini nə qədər qəhr edərsə, (özünə qarşı gələn) bütün insanları da qəhr etmiş deməkdir. Artıq heç kim, ona güc çatdıra bilməz. Çünki, düşmənlərin qayəsi, onun bədənini həlak etməyə səy etməsidir. Bu (yəni, şəhvəti qəhr etmək) isə, ruhu ihya etmək (diriltmək)'dir. Hər kim, həyatında, şəhvətləri (xüsusunda) ölü kimi olarsa, ölümündə də yaşayar (yəni, ölməklə, ölməmiş, əksinə, dirilmiş olar).

وَلَا تَحْسَبَنَّ ٱلَّذِينَ قُتِلُوا۟ فِى سَبِيلِ ٱللَّهِ أَمْوَٰتًۢا ۚ بَلْ أَحْيَآءٌ عِندَ رَبِّهِمْ يُرْزَقُونَ • فَرِحِينَ بِمَآ ءَاتَىٰهُمُ ٱللَّهُ مِن فَضْلِهِۦ...

«Allah yolunda öldürülənləri, əsla ölmüş sanma. Əksinə, onlar, diridirlər; özlərinin Rəbbi yanındaz onlara ruzi verilir. Onlar, Allahın Öz lütfündən onlara verdiyi nemətlərə sevinirlər...»(1)

Tərcüməçinin notu:

İmamın sözlərində, ***«Şəhidlər, ölmüş olduqları halda, necə ola bilər ki, ayət, onları diri saymaqdadır?»*** deyə əqli şübhə içində olanlara da cavab vardır.

Çünki, şəhvətlərini tərk edən kimsələrin, mənən dirildikləri, təcrübə ilə də sabitdir. Necə ki, yuxarıda, imam buna toxundu. Əgər bir qulun, şəhvətinin istəklərini tərk etdiyi halda, mənən dirildiyi, həqiqətdirsə

(1) Al-i İmran/169-170

-ki, elədir- Allah yolunda nəfsin şəhvətlərindən daha iləri olan canı ilə öldüyündə də, (bundan daha iləri dərəcədə olan bir dirilməklə) diriləcəyi, ağıldan uzaq deyildir və olmamalıdır. Az bir əməl qarşılığında mükafat verənin, çox əməl müqabilində çox mükafat verməməsi, imkansızdır.

Şəhidin diri olma keyfiyyətini idrak edə bilmədiyində, mənən dirilməyin keyfiyyətini xatırla! (yəni, bunu da zatən idrak edə bilmirsən. Halbuki, inkar da etmirsən.)

* * *

17. Vəhhab (isminin şərhi):

«Hibə» kəliməsi, *«məqsədsiz və qarşılıqsız atiyyə (hədiyyə, ehsan)»* deməkdir. Bu (vəsf)'ə sahib hədiyyələr çoxaldığında, sahibinə, ***«Cavad»*** və ***«Vəhhab»*** deyilir.

Comərdlik və hibə, həqiqi mənası ilə, sadəcə Allah Taala'da təsəvvür edilə bilər. Çünki, hər möhtaca ehtiyacı olanı, qarşılıqsız, acil (yerində, dərhal) və əcil (gələcəkdə, iləridə) məqsədi olmadan verən, ancaq, Odur.

Kim, hibə edər və bu hibəsində, *«acil»* və *«əcil»* bir məqsədi varsa,

- məsələn:

~ tərif, ya da mədh edilmək; və ya

~ sevgi qazanmaq; və ya

~ məzəmmətdən xilas olmaq; ya da

~ şərəf və xatırlanmaq kimi- onun bu muaməlәsi, qarşılıqlıdır və bu şəxs, nə Vəhhab'dır, nə də Cavvad...

Qarşılıqla əldə edilən hər şeyin, müşəxxəs bir şey olması, lazım gəlməz (yəni, qarşılıq, daim, əldən alınan müşəxxəs bir nəsnə deyildir). Əksinə, əldə olmayan və hibə edənin, hibə etməklə əldə etməyi güddüyü hər şey, qarşılıqlıdır.

Hər kim, hibə edər; comərdlik göstərər; bununla da, şərəf qazanmağı, ya səna edilməyi, yaxud zəmm edilməməyi murad edərsə, bu (əməl), qarşılıqlı (bir işdir). Həqiqi cavad, o kimsədir ki, özünə (yəni, fayda verənə) qayıdan bir mənfəəti olmaz; faydalar isə, özündən istifadə edənə bol-bol gələr. Əgər o şeyi etməzsə, bundan dolayı təqbih ediləcək (pislənəcək) bir şəxs, bunu etməklə (pislənməkdən) xilas olarsa, bu, bir qarşılıq və məqsəddir.

Tənbeh: Qul haqqında, cud (comərdlik) və hibə, təsəvvür edilə bilməz. Çünki, bir felin edilməsi, edilməməsindən əvla olmadığı müddətcə, qul, o feli işləməyə yönəlməz. Ona yönəlməsi isə, nəfsinə aid bir məqsədlə olmuş olur. Ancaq bir kimsə, bütün malik olduqlarını, hətta ruhunu belə, cənnət nemətlərinə çatmaq və ya cəhənnəm əzabından qorunmaq üçün, ya da bəşəri həzlərdən sayılan acil və əcil həzlər olmadan, sadəcə Allah (azzə və cəllə) üçün olarsa, o vaxt o, Vəhhab və Cavvad isimlərilə isimləndirilməyə layiq olar. Bunun altında isə, cənnət nemətlərinə çatmaq üçün comərdlik edən gəlir. Qarşılığında, əldən alınan müşəxxəs bir nəsnə

olmadan hibə edən kimsə, yalnız və yalnız, ayan (xarici, fiziki varlığı olan nəsnələr) xaricində qarşılıq olmadığını zənn edənlər nəzdində, cavad diyə isimləndirilər. (Yəni, insanlar, qarşılığın, sadəcə maddə olduğunu zənn edirlər. Halbuki, maddi olmayan, mənəvi olan qarşılıqlar da vardır. Yəni, bu adam, hər nə qədər zahirən qarşılıqsız bir yaxşılıq etmiş və insanlar nəzərində cavad deyə adlandırılmış olsa belə, əslində belə deyildir.)

Əgər deyilsə ki:

«Malik olduğu hər şeyi, acil və ya əcil bir həzz gözləntisi olmadan, xalis olaraq Allah Taala üçün verirsə, necə ola bilir ki, bu adam cavad sayılmır?»

Buna, belə cavab verərəm: Onun məqsədi, Allah Taala'dır, Onun liqası (Ona qovuşmaq)'dır, Onun razılığıdır və Ona çatmaqdır. Bu isə, insanın, ixtiyari fellərilə qazana biləcəyi bir səadətdir. Müqabilində, bütün digər məqsədlərin kiçik sayılacağı bir məqsəddir.

Əgər soruşsan ki:

«Elə isə, 'Allahı bilən, Allaha, Allah üçün qulluq edər. Bunun fövqündə bir məqsədi olmaz.' sözünün mənası nədir? Qulun felinin, mütləq bir məqsədi olacaqdır. Bu halda, Allaha sırf Allah üçün qulluq edənlə, başqa bir məqsəd üçün qulluq edən arasında, nə fərq qalır?»

Bil ki, məqsəd, əksəriyyət nəzdində, məşhur olan qarşılıq və məqsədlərdən ibarətdir. Kim bunlardan qurtular və Allah Taala'dan başqa məqsədi qalmazsa, *«Məqsədlərdən təbərri etdi.»* deyilir, ki, bu, *«İnsanların məqsəd olaraq saydığı məqsədlərdən təbərri etdi.»* deməkdir. Bu, eynilə, insanların bu sözləri kimidir:

Nökər, ağasına, ağası üçün deyil; ondan özünə çatacaq nemət və ikram kimi şeylər üçün xidmət edər. Ağa da, nökərinə, nökəri üçün deyil; ondan özünə gələcək xidməti üçün baxar (yəni, qoruyar, himayə edər). Ata isə, oğluna, əldə edəcəyi bir məqsəd üçün deyil; sırf oğlu olduğu üçün qoruyar. Elə ki, əslində, oğlundan gələcək heç bir məqsəd olmasaydı belə, onu qorumağa davam edərdi. Bir şeyi, o şey üçün deyil; başqa bir şey üçün tələb edən kimsə, sanki, əslində, o şeyi tələb etmir kimidir. Çünki, tələbinin məqsədi, o şey deyil; başqasıdır. (Məsələn), qızılı tələb etmək, belədir: Çünki qızıl, özü üçün deyil; özü vasitəsilə geyim və yemək təmin etmək üçün tələb edilir. Geyim və yemək də, özləri üçün deyil; özləri vasitəsilə ləzzəti cəlb və kədəri dəf etmək məqsədilə istənilir. Ləzzət isə, özü üçün istənilir; fövqündəki başqa bir məqsəd üçün deyil. Kədəri dəf etmək də, belədir. Bu halda:

~ qızıl, yemək üçün vasitə --->

~ yemək, ləzzət üçün vasitə --->

~ ləzzət isə, başqa bir şeyin vasitəsi olmayıb, özündə bir məqsəddir.

Oğul da, bunun kimi, ata cəhətindən vasitə olmayıb, atanın mətlubu, oğlunun, özü üçün salamatçılığıdır. Çünki, ata nəzərində, onun məqsədi, oğlunun özüdür.

Eynilə bunun kimi, kim, Allah (azzə və cəllə)'yə, cənnət üçün qulluq edərsə, o vaxt, Allah (subhənəhu və taala)'nı, tələbi üçün vasitə etmiş olar. Onu (yəni, Allahı), mətləbi (arzusu)'nun məqsədi etməmiş olar.

Vasitənin əlaməti isə, budur: Əgər fayda, vasitəsiz hasil olarsa, o vaxt, vasitə tələb edilməz. Əgər məqsəd, qızılsız hasil olsa, qızıl, nə məhbub (səvilən), nə də mətlub (tələb edilən, istənilən) olardı. Burda həqiqi məhbub, qızılsız əldə edilən mətlub qayələrdir. Eyni şəkildə, əgər (Allaha), cənnət üçün ibadət edən şəxs, Allah (azzə və cəllə)'yə ibadət etmədən cənnəti əldə edə bilsəydi, Allaha ibadət etməzdi. O halda, (belə adamın) məhbubu və mətlubu, cənnətdir; başqa şey deyildir. Ancaq, Allah (azzə və cəllə)'nin xaricində məhbub və mətlubu olmayan; əksinə, məqsədi, Allah Taala'nın liqası ilə çox sevinmək; Ona yaxınlıq qazanmaq; və Onun hüzurunda məlәu'l-ə'lə'dəki muqarrəblərinə rəfiq olmaq olan kimsə üçün, *«O, Allah Taala'ya, Allah üçün qulluq edir.»* deyilə bilər. Bu söz, hər hansı bir məqsədi tələb etmədiyi mənasında deyil; məqsədinin, ancaq Allah (azzə və cəllə) olduğu və Ondan başqa heç bir nəsibə talib olmadığı mənasındadır.

Kim, Allah (azzə və cəllə)'nin:

~ liqasının;

~ mərifətinin (yəni, Allahı bilməyin);

~ Ona yaxınlaşmağın

gözəl ləzzətinə inanmazsa, Ona iştiyaq (şiddətli istək) duymaz. Ona şiddətli istək duymayanın nəsibi isə, Allah olmaz. Və bunun, onun məqsədi olması da, təsəvvür edilə bilməz. Bundan dolayı, Allah Taala'ya ibadət edərkən, pis bir işçi kimi olar ki, tamah etdiyi ücrət olmasa, çalışmaz.

Xalqın əksəriyyəti, bu ləzzəti dadmamış və bilməmişlərdir. Allah (azzə və cəllə)'nin vəchinə nəzər ləzzətini, başa düşməmişlərdir. Bu xüsusa dair imanları, dildə söyləməyin fövqünə çıxmaz. Batinləri isə, hurilərlə qovuşmaq ləzzətinə meyl edər və sadəcə, bunu təsdiq edərlər.

Allah Taala'ya qovuşmağı və Ona yaxın olmağı, (nəfsin lehinə) bir məqsəd (həzz) olaraq isimləndirən kimsələrdənsənsə, bil ki, (nəfsin

lehinə olan) bir məqsəd (həzz)'dən bəri olmaq, imkansızdır. Məqsəd (həzz), əksəriyyətin bildiyi və qəlblərin meyl etdiyi şeylərdən ibarətdirsə, bu (yəni, Allaha qovuşmaq ləzzəti), bu qismə girməz. Yox əgər qul haqqında, varlığı, yoxluğuna tərcih edilən şey deyə başa düşəcək olsaq, bu, məqsəd (həzz)'dir.

* * *

18. Razzəq (isminin şərhi):

~ Ruziləri və ruzilənləri yaradan;

~ Ruziləri onlara çatdıran;

~ Ruzilənənlər üçün, faydalanma səbəblərini yaradandır.

Ruzi, 2 cürdür. Bunlardan:

1. *Qida və yeməklər olaraq, zahiri ruzilərdir.* Bunlar, zahiri olanlar üçündür ki, onlar da, bədənlərdir.

2. *Mərifətlər və kəşflər olaraq batini ruzilərdir.* Bu da, qəlb və sirlər üçündür.

İki ruzidən ən üstün olanı, batini olanlardır. Çünki, meyvəsi, əbədi həyatdır. Zahir ruzinin meyvəsi isə, sonu yaxın olan bir müddətə qədər, bədənin qüvvətidir.

İki cür ruzi yaratmağı Öz üzərinə götürən; bu ruziləri yerinə çatdırmaqla lütf edən, Allah (azzə və cəllə)›dir. Ancaq O, ruzisini, istədiyinə bol verər, istədiyinə də azaldar.

Tənbeh: Qulun bu vəsfdən nəsibi, nəhayətdə iki şeydir. Onlardan:

1. Bu vəsfin həqiqətini və buna Allahdan başqasının haqq sahibi olmadığını bilmək; ruzinin, Ondan başqasından gözlənməyəcəyini, bu xüsusda, ancaq Ona təvəkkül ediləcəyini (yaxşı bilmək)'dir.

Rəvayətə görə, Xatəmu'l-Əsam (rahiməhullah)'dan, bir nəfər: ***«Hardan yeyirsən?*** (Yəni, ruzin hardan gəlir?)» deyə soruşur; Xatəm isə: ***«Onun xəzinəsindən.»*** deyə cavab verir.

- Adam: ***«Ruzi, sənə, göydənmi gəlir?»*** deyə soruşur;

- Xatəm isə: ***«Əgər yer üzü Onun olmasaydı, ruzini göydən endirərdi.»*** deyə cavab verir.

- Adam: ***«Kəlam (söz) edirsən.»*** (Yəni danışdıqların, ancaq sözdən ibarətdir.) deyincə,

- Xatəm: ***«Çünki göydən, sadəcə kəlam enmişdir.»*** deyə cavab verir.

- Bunun üzərinə adam: ***«Mən, sənin cədəlləşə bilmərəm.»*** deyincə,

- Xatəm: ***«Çünki batil, haqla bərabər, haqqın yanında güclü qala bilməz.»*** deyə cavab verir.

2. Onun, özünü hidayət edən bir elm; irşad edən və öyrədən bir dil; infəq və təsəddüq edən bir əl ilə ruziləndirməsidir. Beləliklə,

~ sözləri və əməllərilə, şərəfli ruzilərin qəlblərə;

~ fellərilə də, zahiri ruzilərin bədənlərə çatması üçün bir səbəb olar.

Allah, bir qulunu sevdiyində, qulların ona olan ehtiyacı artar. Qul da, Allah ilə insanlar arasında, ruzilərin onlara çatdırılmasında nə qədər vasitə olarsa, bu sifətdən bir nəsib əldə etmiş olar.

Peyğəmbər (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

«Özünə əmr ediləni mükəmməl şəkildə -könül xoşluğu ilə yerinə yetirib (sədəqəni) veriləcək adama çatdıran, (başqasının malını) qoruyan etibarlı müsəlman, sədəqə verən 2 nəfərdən 1-i hesab olunar (yəni, sədəqəni verən adam qədər savab qazanar).»[1]

Qulların əlləri, Allahın xəzinələridir. Hər kimin:

~ əli, bədənlərin ruzilərinə;

~ dili də, qəlblərin ruzilərinə

xəzinə qılınmışdırsa, özünə, bu sifətdən bir hissə verilmiş deməkdir.

* * *

(1) Buxari, hədis no: 1438

19. Fəttah (isminin şərhi):

Hər bağlı olan şey, inayət (yardımı) ilə; və hər müşkil, hidayətilə açılan, (Odur). Bəzən peyğəmbərləri üçün diyarlar fəth edib düşmənlərinin əllərindən alar və belə buyurar: إِنَّا فَتَحْنَا لَكَ فَتْحًا مُّبِينًا ***«Şübhəsiz, Biz, sənə, açıq bir fəth açdıq (verdik).»***[1]

Bəzən də, vəlilərin qəlblərindən hicabı qaldırar; səmanın mələkutunun və kibriyasının camal qapılarını, onlar üçün açar və buyurar:

مَّا يَفْتَحِ ٱللَّهُ لِلنَّاسِ مِن رَّحْمَةٍ فَلَا مُمْسِكَ لَهَا...

«Allah, insanlar üçün, nə rəhmət açarsa, onu əngəlləyəcək bir şey olmaz...»[2]

Bu halda, qeybin və ruzinin açarları əlində olan, ***«Fəttah»*** isminə layiq olar.

Tənbeh: Qulun,

~ dililə, İlahi müşküllərin, qapalılıqların açılmasına;

~ yardımı ilə, xalqın çətinlik çəkdiyi dini və dünyəvi işlərin asanlaşmasına səy göstərməsi lazım gələr, ta ki, Fəttah ismindən bir nəsibi olsun.

* * *

(1) Fəth/1

(2) Fatir/2

20. Alim (isminin şərhi):

Mənası, zahirdir. (Elminin) kamalı isə:

~ zahiri və batinilə;

~ incəsi və irisi ilə;

~ əvvəli və sonrası ilə;

~ aqibəti və başlanğıcı ilə, hər şeyi əhatə etməsidir. Bu da, məlumatın çoxluğu ilə əlaqəlidir ki, bunun da sonu yoxdur.

Sonra elm, Onun Zatı haqqında, vazehlik və açıqlıq cəhətindən, mümkün ola bilənin ən mükəmməl mərtəbəsindədir. Elə ki, Onun elmindən daha zahir bir müşahidə və kəşf (açıqlıq) təsəvvür edilə bilməz.

Sonra, Onun elmi, məlumatlardan istifadə (əldə) edilməyib; əksinə, məlumatlar(ın qaynağı), Ondan istifadə edər (yəni, bütün məlumatların qaynağı, Onun elmidir).

Tənbeh: Qulun elm vəsfindən nəsibi olduğu, gizlənə bilməz. Ancaq, qulun elmilə Allah Taala'nın elmi arasında, 3 xüsusiyyət cəhətindən fərqlilik vardır:

1. Məlumatların (bilinənlərin) çoxluğu. Çünki, qulun məlumatı nə qədər genişləsə də, qəlbində məhsur (məhdud)'dur. Nəhayəti olmayan bir şey (yəni, sonsuz elmlər), necə ona (insana) nisbət edilə bilər?!

2. Qulun bir şeyi bilməsi, hər nə qədər açıq olsa da, bu, o açıqlığın fövqündəki açıqlığa çatacaq səviyyədə deyildir. Əksinə, insanın əşyanı müşahidə etməsi, sanki, incə bir pərdə ardından onları seyr etməsinə bənzəyir. Kəşfin (bilikdəki açıqlıq) dərəcələrini inkar etmə! Çünki, batini bəsirət, zahiri göz kimi olub günəş ilk doğarkən vazeh olan/bilinən şeylə, gündüz ortasında vazeh olan şey, bir deyildir.

3. Allah (subhənəhu və taala)'nın əşya haqqındakı elmi, əşyadan istifadə (əldə) edilmiş deyildir; (əksinə, bütün əşya), Onun elmindən istifadə edər. Qulun əşya haqqındakı elmi isə, əşyaya tabedir və əşyadan hasil olmuşdur.

Bu fərqi başa düşmək sənə çətin gələrsə, şahmat oynamağı öyrənən kimsədəki elmi, şahmatı düzəldən kimsənin (şahmat haqqındakı) elminə qiyas et. Şahmatı düzəldənin şahmat haqqındakı elmi, şahmatın varlıq səbəbidir. Şahmat öyrənənin şahmat haqqındakı elminin varlıq səbəbi isə,

şahmatın varlığıdır. Şahmatı düzəldənin elmi, şahmatdan əvvəldir. Şahmatı öyrənənin elmi isə, şahmatın varlığından sonradır.

Bax, bunun kimi də, Allah (azzə və cəllə)'nin əşya haqqındakı elmi, əşyanın varlığından əvvəldir və onların varlıq səbəbidir. Bizim əşya haqqındakı elmimiz isə, bunun əksidir.

Qulun əldə etdiyi elmdən dolayı şərəf qazanması, elmin, Allah (azzə və cəllə)'nin sifətlərindən biri olmasından dolayıdır. Ən şərəfli elm, məlumatının ən şərəfli olduğu elmdir. Məlumatın ən şərəflisi isə, Allah Taala'nı bilməkdir. Bundan dolayı, mərifətullah (Allahı bilmək), ən fəzilətli mərifətdir. Hətta digər (yəni, Allah xaricində olan) şeyləri bilmək:

~ Allahın fellərini bilməyə səbəb olduğu üçün; və ya

~ qulu, Allah (azzə və cəllə)'yə yaxınlaşdıran yolu tanıtdığı; ya da

~ Allahı bilməyə çatdırdığı və ya Allaha yaxınlaşmağı hasil edən xüsusları təmin etdiyi üçün,

şərəf qazanar (şərəflənər). Bunun xaricində qalan mərifətlərdə, çox da şərəf yoxdur.

* * *

21-22. Qabid və Basit (isimlərinin şərhi):

~ Ölüm əsnasında, ruhları bədənlərdən qəbz edən;

~ Həyat əsnasında, ruhları bədənlərdə bast edən (genişlədən, yayan)'dır.

~ Sədəqələri varlılardan qəbz edib ruziləri zəiflərə (kasıblara) bast edəndir. Ruzini, varlılar üçün, ehtiyac ortadan qalxacaq şəkildə bast edər (genişlədər); kasıblar üçün isə, taqətləri qalmayacaq dərəcədə qəbz edər.

~ Qəlbləri qəbz edər, elə bir daraldar ki, özünün nə qədər əhəmiyyətsiz; İlahi ucalıq və cəlalın isə, nə dərəcə böyük olduğu inkişaf edər (yəni, insan üçün bu mənalar açılar). Qəlbləri elə bir bast edib genişlədər ki, lütfü, ehsanı və camalı, (insan üçün) yaxınlaşar (yəni, bilinər).

Tənbeh: Qullardan qabid və basit olanlar bunlardır ki, özlərinə bədi (bənzərsiz) bir şəkildə hikmət ilham edilmiş və *cəvamiu›l-kəlim* (1) verilmişdir. Beləcə, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in etdiyi kimi, gah Allah (azzə və cəllə)'nin nemətlərini, onlara zikr edərək onların qəlblərini bast edərlər; gah da onlara, Allahın cəlalından, kibriyasından, əzab və bəla növlərindən və düşmənlərindən intiqam almasını xatırladaraq, onların qəlblərini qəbz edərlər. Necə ki, O (sallallahu aleyhi və səlləm), səhabənin qəlblərini ibadətə qarşı həris olmaları üçün qəbz etmişdi. (Onlara, belə buyurmuşdu):

Qiyamət günü,

*- Uca Allah: **"Ey Adəm!"** deyə buyuracaq.*

*- Adəm deyəcək: **"Buyur, hüzurundayam, əmrinə müntəzirəm. Xeyir, yalnız Sənin əlindədir."***

---

(1) **Cəvamiu'l-kəlim, nədir?**

əbu Hureyrə (radiyallahu anh)›dan nəql edildiyinə görə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"Mən, cəvamiu'l-kəlim ilə göndərildim." (***Buxari, hədis no: 7273***)

İbn Həcər Asqalani, "Fəthu'l-Bari"də, bu hədisin şərhində, deyir:

Qısaca söyləmək lazım gəlsə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), sözləri, az; ancaq ifadə etdiyi məna, çox olan bir ifadə ilə danışardı.

Zühri'dən başqası isə, cəvamiu'l-kəlim'dən məqsədin, "buistu = göndərildim" cümləsinin qərinəsilə, bunun (yəni, cəvamiu›l-kəlimin), "Quran" olduğunu söyləmişdir. Quran da, qısa söz və geniş məna cəhətindən, bir zirvədir.

- *Allah buyuracaq:* ***"Cəhənnəmə vasil olacaq kimsələri ayır!"***

- *Adəm deyəcək:* ***"Cəhənnəmə vasil olacaqların sayı, nə qədərdir?"***

- *Allah buyuracaq:* ***"Hər 1000 nəfərdən 999-u."***(1)

Bunu eşidən səhabənin qəlbləri narahat oldu və ibadətə qarşı tənbəlləşdilər. Sabah olunca, Peyğəmbər (sallallahu aleyhi və səlləm), onları, qəbz və fütr (bezginlik, tənbəllik) halında gördüyündə, onların qəlblərini rahatlatdı və baŝt etdi. Onlara, (onların saylarının), əvvəlki sair ümmətlərə görə, ağ bir öküzün dərisindəki qara bir xal kimi olacağını söylədi.

* * *

(1) Buxari, hədis no: 3348

23-24. Xafid və Rafi (isimlərinin şərhi):

~ Kafirləri bədbəxt edərək alçaldan;

~ Möminləri isə, bəxtiyar edərək yüksəldəndir.

Müşahidəsi, məhsusat (hiss edilə bilənlər) ilə xəyal edilənlərin fövqünə; iradəsi, zəmm edilən (pislənən) şəhvətlərdən yuxarı yüksələn şəxs, müşahidələrini, muqarrəb (Allaha yaxın) mələklərin üfqünə doğru yüksəltmişdir.

Hər kim də, müşahidələrini, məhsusat ilə; himmətini də, heyvanlarla müştərək olduğu şəhvətlərlə məhdudlaşdırmışdırsa, müşahidəsini, əsfəl-i safilinə doğru alçaltmış deməkdir. Bunu da, sadəcə Allah Taala edər. O, Xafid və Rafi'dir.

Tənbeh: Qulun bu (isimdən) nəsibi, haqqı yüksəldib batili alçaltmasıdır. Bunu da, haqlıya dəstək olub haqsızı əngəlləməklə, Allah düşmənlərinə, onları alçaltmaq üçün düşmənlik edib Allah dostlarına onları yüksəltmək üçün dostluq etmək surətilə edər. Allah Taala, bundan dolayı, vəlilərindən bəzilərinə, belə buyurmuşdur:

«Dünyaya qarşı zühdünün qarşılığını, nəfsini rahatladaraq, dərhal almış oldun. Məni zikr etməklə, şərəf qazandın. (Bəs) Mənim üçün:

~ vəlilərimdən birilə dostluq; və

~ düşmənimə düşmənlik etdinmi?»

* * *

25-26. Muizz və Muzill (isimlərinin şərhi):

Mülkü, istədiyinə verən və istədiyindən də məhrum edəndir. Həqiqi mülk isə:

~ ehtiyac zillətindən xilas olmaqla;

~ şəhvət, cəhalət ləkəsini qəhr etməklə (mümkün) olur.

(Allah), kimin qəlbindən hicab (pərdəsi)'ni qaldırıb Həzrətinin camalını müşahidə etdirər; onu, qənaət ilə ruziləndirib məxluqatından zəngin (tox gözlü) qılar; nəfsani sifətlərinə hakim olacaq şəkildə, özünə, qüvvət və dəstəkləmək ilə mədəd verərsə (yəni, yardım edərsə), o vaxt, onu izzətləndirmiş və acil (dərhal, yəni dünyada) mülk bəxş etmiş deməkdir. Axirətdə də yaxınlaşdırmaq surətilə izzətləndirəcək və belə nida edəcəkdir:

يَـٰٓأَيَّتُهَا ٱلنَّفْسُ ٱلْمُطْمَئِنَّةُ • ٱرْجِعِىٓ إِلَىٰ رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً • فَٱدْخُلِى فِى عِبَـٰدِى • وَٱدْخُلِى جَنَّتِى

«O gün möminə deyiləcəkdir: 'Ey tətmin olunmuş nəfs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Mənim qullarımın cərgəsinə keç! Cənnətimə daxil ol!» (1)

Kimin də baxışını xalqa çevirib onlara möhtac edər; və ona hərisliyi qalib edib o şəxs də qənaət etməz hala gələr; məkr ilə onu istidrac edib (bu adam da) nəfsilə aldanıb cəhalət zülmətində (qaranlığında) qalan bir hala gələrsə, o vaxt, onu zillətə düçar etmiş; mülkü ondan almış deməkdir. Ki, bu da, Allah (azzə və cəllə)'nin işidir. O, istədiyini, istədiyi kimi edər. Bu halda, Muizz də, Odur; Muzill də. İstədiyini, izzətləndirər; istədiyini də, zillətə düçar edər. Zəlil etdiyi, özünə bu şəkildə xitab ediləndir:

يُنَادُونَهُمْ أَلَمْ نَكُن مَّعَكُمْ ۖ قَالُوا۟ بَلَىٰ وَلَـٰكِنَّكُمْ فَتَنتُمْ أَنفُسَكُمْ وَتَرَبَّصْتُمْ وَٱرْتَبْتُمْ وَغَرَّتْكُمُ ٱلْأَمَانِىُّ حَتَّىٰ جَآءَ أَمْرُ ٱللَّهِ وَغَرَّكُم بِٱللَّهِ ٱلْغَرُورُ • فَٱلْيَوْمَ لَا يُؤْخَذُ مِنكُمْ فِدْيَةٌ

(1) Fəcr/27-30

«Münafiqlər onları haraylayıb deyəcəklər: 'Məgər biz, sizinlə birlikdə deyildikmi?' Möminlər deyəcəklər: 'Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək, xülyalar, sizi yoldan çıxartdı. Tovlayan şeytan, Allah barəsində sizi yaman aldatdı. Bu gün nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz.» (1)

Bu isə, zillətin sonudur. Dili və əlilə izzət səbəblərinin asanlaşdırılması xüsusunda istifadə edilən qul, bu vəsfdən nəsib sahibidir.

* * *

(1) Hədid/14-15

27. Səmi (isminin şərhi):

Səmi, idrakından, -nə qədər gizli olsa belə- eşidilənlərin, iraq qala bilmədiyi (Zat)'dır. Sirri də, fısıltını da; hətta bunlardan daha gizli və incəsini də eşidər. Qaranlıq gecədə sərt qayadakı qara qarışqanın səsini belə idrak edər. Həmd edənlərin həmdlərini eşidər, onlara mükafat verər; dua edənlərin dualarını eşidər, onlara icabət edər (cavab verər).

(Allah), qulaq olmadan eşidər; eynilə, orqanlar olmadan fel işlədiyi; dil olmadan danışdığı kimi...

Onun eşitməsi, hudusa təmas etməkdən (yəni, sonradan yaradılmış olmaqdan) münəzzəhdir.

Səmi olan (eşidən) Allahı,

~ eşidilənlərin hadisliyindən (sonradan yaradılmışlığından) qaynaqlanan dəyişmələrdən tənzih; və

~ hər hansı bir qulaq və ya alət vasitəsilə eşitməkdən təqdis edərsənsə, eşitməyin, Onun haqqında, eşidilənlərin vəsflərinin kamil mənada inkişaf etdiyi bir sifətdən ibarət olduğunu bilərsən. Bu xüsusda incə nəzərli olmayan, zəruri olaraq, təşbihin özünə düşər. Bundan həzər et və nəzərini, bunda dərinləşdir.

Tənbeh: Qulun, hiss cəhətindən, eşitmə sifətindən nəsibi vardır. Ancaq, nöqsandır. Çünki insan, bütün eşidilə bilənləri idrak edə bilməz; yalnız, yaxındakı səsləri eşidə bilər.

Sonra, onun idrakı, afətlərə məruz qala biləcək alət və orqanlar ilədir. (Belə ki), səs:

~ gizli olunca, idrakı nöqsan olur;

~ uzaq olunca, eşidə bilmir;

~ çox yüksək olunca da, eşitmə hissini itirə bilir.

(Qulun), bu eşitmə sifətindən nəsibi, 2 şeydir:

1. Allah (azzə və cəllə)'nin səmi (eşidən) olduğunu bilib dilini, (bundan dolayı) qorumasıdır.

2. Özündəki bu eşitmə hissinin, Allah (azzə və cəllə)›nin endirdiyi kitabı və Rəsulun hədisini eşitməsi üçün verildiyini bilməsi və bu hissindən, sadəcə, Allah (azzə və cəllə)›nin yolu olan hidayətdə istifadə etməsidir.

* * *

28. Basir (isminin şərhi):

Müşahidə edən və görəndir. (Elə ki), yerin altındakı şey belə, Ondan gizlənə bilməz. Onun görməsi:

~ göz bəbəyi və qapaqları ilə gerçəkləşməkdən münəzzəh;

~ surət və rənglərin, -insanın göz bəbəyinə əks etdiyi kimi- Zatına əks etməsindən müqəddəsdir.

Şübhəsiz ki, bunlar, hadis (sonradan yaradılan) olmağı gərəkdirən təğayyur (dəyişmə) və təsirlənmək cümləsindəndirlər. O, hadis olmağı gərəkdirən bütün bu nöqsanlıqlardan münəzzəh olunca, Onun haqqındakı basar/görmək sifəti, Özü vasitəsilə görülənlərin vəsflərinin, kamal mənada inkişaf etdiyi (açıldığı, bilindiyi) bir sifət demək olur. Bu isə, nöqsan gözün, görülənlərin zahirini idrak etməsindən başa düşdüyün mənaya nəzərən, daha açıq və daha vazehdir.

Tənbeh: Qulun, hiss cəhətindən, basar/görmə sifətindən nəsibi, zahirdir. Ancaq, zəif və nöqsandır. Çünki bu hiss, uzaq olana çata bilmir; yaxın olanın da batininə işləyə bilmir. Ancaq zahir olanları ələ alıb, sirrlər və batinlərdən nöqsan qalır.

Dini cəhətdən, qulun, bu sifətdən nəsibi, 2 cürdür:

1. Gözün, (İlahi) ayətləri, mələkut və səmaların qeyr-i adiliklərini görməsi üçün yaradılmış olduğunu bilməsidir. Bu halda, nəzəri, ancaq ibrət üçün olmalıdır.

- İsa (əleyhissəlam)'dan belə soruşurlar: ***«Xalq içində, Sənin kimisi vardırmı?»***

- İsa (əleyhissəlam), belə cavab verir: ***«Kimin nəzəri, ibrət; sükutu, fikir; kəlamı da, zikr olarsa, o, Mənim kimidir.»***

2. Qulun, Allah (azzə və cəllə)'nin özünü gördüyünü və eşitdiyini bilməsi; və Allahın, onu görüb-bilməsini xəfifə almamasıdır. Allahdan gizlətmədiyini başqasından gizlədən, Allahın nəzərini xəfif görməkdədir.

Bu sifətin imani meyvələrindən biri, muraqabə (özünü kontrol etmək)'dir. Allah (azzə və cəllə)'nin, özünü gördüyünü bildiyi halda, bir günaha yaxınlaşan kimsə, necə cəsur və hüsrandadır?! Allah Taala'nın, özünü görmədiyini zənn edən kimsə, necə zalım və küfr içərisindədir?!

* * *

29. Hakəm (isminin şərhi):

O, hökm edən hakimdir. O, (elə bir) müsəlləm (təslim edilmiş) qazıdır ki, kimsə, Onun hökmünü rədd edə (geri çevirə) və qəzasını, nəticəsiz buraxa bilməz. Qullar haqqındakı hökmlərindəndir: İnsan üçün, səyindən (çalışmasından) başqa bir şey yoxdur və onun səyi, sonra görüləcəkdir. (Ayətdə buyurulduğu kimi):

وَأَن لَّيْسَ لِلْإِنسَٰنِ إِلَّا مَا سَعَىٰ • وَأَنَّ سَعْيَهُۥ سَوْفَ يُرَىٰ

«İnsan üçün, ancaq səy etdiyi şey vardır. Və şübhəsiz ki, onun səyi, ilərida görüləcəkdir.» (1)

إِنَّ ٱلْأَبْرَارَ لَفِى نَعِيمٍ • وَإِنَّ ٱلْفُجَّارَ لَفِى جَحِيمٍ

«Həqiqətən, əbrar (yaxşı qullar), nemət içində olacaqlar. Şübhəsiz, facirlər (günahkarlar) cəhənnəmdə olacaqlar.» (2)

əl-Hakəm olan Allahın, yaxşılıq edənlər üçün, səadətə; facirlər üçün isə, bədbəxtliyə hökm etməsinin mənası, yaxşılığı və pisliyi, sahiblərini səadət və bədbəxtliyə sövq edən səbəblər qılmasıdır. Eynilə, dərmanları və zəhərləri, istifadə edənlər üçün, şəfa və ya həlak səbəbi qılması kimi...

Onun hökm etməsinin hikmətinin mənası, səbəbləri tərtib edib müsəbbəbata (nəticələrə) yönləndirmək olunca, o vaxt, bunun ilə vəsf olunan, mütləq Hakəm demək olur. Çünki, bütünü və təfsilatı ilə bütün səbəbləri səbəb qılan, (Allah)'dır.

«Qəza» və ***«qədər»***in qaynağı, əl-Hakəm'dir. Müsəbbəblərə (nəticələrə) yönəlmələri üçün, səbəbləri əsl olaraq vaz etmə (qoyma) tədbiri, Onun hökmüdür. Külli, əsli, sabit, müstəqar (qərar qılmış, istiqrar qazanmış), zavala uğramayan və dəyişməyən səbəbləri, -məsələn, yeri, 7 göyü, ulduzlar (və ya planetləri) və fələkləri, bunların daimi və münasib, yazılmış olan kitab vədəsinə çatana qədər dəyişməz və yox olmaz hərəkətlərini-qoyması, Onun qəzasıdır. Allah Taala'nın, bu ayədə buyurduğu kimi:

فَقَضَىٰهُنَّ سَبْعَ سَمَٰوَاتٍ فِى يَوْمَيْنِ وَأَوْحَىٰ فِى كُلِّ سَمَآءٍ أَمْرَهَا...

«O, iki gündə, onları, 7 göy kimi yaratdı və hər göydə, ona aid əmri/işi vəhy etdi.» (3)

(1) Nəcm/39-40

(2) İnfitar/13-14

(3) Fussilət/12

Bu səbəbləri, mütənasib, məhdud, müqəddər, hesab edilmiş (sayılmış) hərəkətlərilə, bu səbəblərdən meydana gələn müsəbbəblərə (nəticələrə) anbaan yönləndirməsi isə, qədəridir.

(Buna görə), hökm, ilk külli tədbir, bir göz açıb bağlamaq kimi bir vaxtda cərəyan edən əzəli əmrdir. ***«Qəza»***sı, daimi və külli olan səbəbləri, külli bir şəkildə vaz etməsidir. ***«Qədər»*** isə, tədqir edilmiş və məhdudlaşdırılmış hərəkətlərilə bərabər, külli səbəbləri, artıb-azalmayacaq şəkildə, məlum miqdardakı müəyyən və məhdud saydakı nəticələrə yönləndirməsidir. Bax bundan dolayıdır ki, heç bir şey, Onun qəza və qədərinin xaricinə çıxa bilməz.

Bu söylədiklərim, ancaq, bir misalla başa düşülə bilər:

Bəlkə də, namaz vaxtlarını göstərən su saatını görmüsən. Əgər görməmisənsə, qısaca belə deyim:

~ İlk əvvəl, içinə müəyyən bir miqdar su ala bilən silindir şəklində bir nəsnə lazımdır.

~ Sonra, bu nəsnənin içərisinə, suyun üzərinə gələcək şəkildə yerləşdiriləcək içi boş bir alət lazımdır. (Bununla bərabər)

~ Bir ucu, içi boş alətə; digər ucu da, silindrin üzərinə yerləşdirilmiş kiçik bir qabın alt tərəfinə bağlanmış bir ip lazımdır.

~ Silindrin içərisində, kürə şəklində bir nəsnə və bunun altında da bir tas olmalıdır. O şəkildə ki, kürə, hər düşdüyündə, tasın içinə düşəcək və səsi eşidiləcəkdir.

~ Sonra, silindrin alt tərəfindən, müəyyən bir böyüklükdə, bir deşik açılacaq; su isə, bundan, az-az tökiləcəkdir.

~ Su azaldığında, suyun üstünə yerləşdirilən içi boş alət də, aşağı enəcək və ona bağlanan ipi də çəkəcəkdir. Beləliklə, içində kürə olan qabı da, hərəkət etdirəcəkdir. Qab, hərəkətlənincə, sağa-sola doğru yuvarlanacaq və içindəki kürə, tasın içinə düşüb səs çıxaracaqdır. Hər saatın tamamlanması ilə bərabər, bu şəkildə, 1 dəfə düşəcəkdir.

2 düşmə arasındakı vaxt, suyun çıxması və səviyyəsinin düşməsinə görə təqdir edilir. Bu da, suyun çıxdığı dəliyin genişliyinə görə təqdir edilir. Bu isə, hesab yolu ilə bilinir. Beləliklə, miqdarı, müəyyən və məlum suyun axması, genişliyi müəyyən dəliklərə görə gerçəkləşəcəkdir. Suyun üst qismindəki səviyyənin azalması, buna görə olacağı kimi; içi boş alətin enmə səviyyəsi də, buna görə təqdir ediləcəkdir. İpin dartılması və içərisində kürə olan qabda meydana gələn hərəkət də, yenə, buna görə gerçəkləşəcəkdir. Bütün bunlar, səbəbinə görə təqdir edilir və səbəbinə tabe olaraq, nə azalır, nə də artır. Kürənin tasın içinə düşməsinin, başqa

bir hərəkətin səbəbi olacaq şəkildə nizamlanması, mümkündür. Bu digər hərəkətin də, üçüncü bir hərəkətin səbəbi olması, kürənin, bu şəkildə düşməsindən, bir çox məhdud miqdarlarla müqəddər (təqdir edilmiş) qeyr-i adi hərəkətlər meydana gəlməsi, mümkündür. Bunların ilk səbəbi isə, suyun, məlum bir miqdar ilə enməsidir.

Bu surəti təsəvvür etdiyində, bunu vaz edənin/qoyanın, 3 şeyə ehtiyac duyduğunu bilmiş olarsan:

1. Tədbirdir. Bu isə, meydana gətirilmək istənilən nəticə üçün, hansı alət, səbəb və hərəkətlərin gərəkli olduğuna, hökm etməkdir. Bax bu, ***«hökm»***dür.

2. Əsllər məsabəsində olan bu alətləri meydana gətirməkdir ki, bunlar:

~ içinə su qoyulan silindr;

~ suyun üzərinə qoyulan içi boş alət;

~ ona bağlanan ip;

~ içərisinə kürə qoyulan qab; və

~ kürənin də içərisinə düşəcəyi tasdır.

Bu da, ***«qəza»***dır.

3. Təqdir edilmiş, hesablanmış, məhdudlaşdırılmış bir hərəkəti gərəkdirəcək səbəbi meydana gətirməkdir. Bu isə, (içi boş) alətin alt tərəfinə, müəyyən bir şəkildə deşik açmaqdır. Beləliklə, suyun axması ilə suyun səthində, bir hərəkət meydana gəlir. Bu hərəkət, suyun üzərinə yerləşdirilən içi boş alətdə, hərəkətə səbəb olur. Bu alətin hərəkəti ---> ipin hərəkətinə; ip ---> içərisində kürə olan qabın hərəkətinə; qab ---> kürənin hərəkətinə; kürə ---> içinə düşdüyü tasın hərəkət edib səs çıxarmasına səbəb olur. Bu səs də ---> orda hazır olanların, bunu eşidib tənbeh edilməsinə; bu da ---> vaxtın doğduğunu başa düşüb, namaz və əməllər ilə məşğul olmalarına səbəb olur. Bütün bunlar isə, məlum bir qədər və təqdir edilmiş bir miqdarla olur. Bu da, bütünü suyun hərəkətindən ibarət olan ilk hərəkətin ölçüsü ilə təqdir edilir.

Hərəkətin gerçəkləşməsi üçün, bu alətlərin əsas olduğunu; və hərəkətin də, səbəb olacağı şeyin müqəddər olması/təqdir edilə bilməsi üçün müəyyən bir ölçüdə təqdir edilməsi gərəkdiyini başa düşdüyündə; eynilə bunun kimi,

Vaxtı gəldiyində, yəni, səbəbi mövcud olduğunda, iləri keçməyən və ya dala qalmayan müəyyən bir təqdirdəki varlıqların mövcud olduğunu və bütün bunların da, məlum bir miqdarla olduğunu başa düşərsən. Çünki,

Allah, murad etdiyi şeyi, mütləq edər. Çünki Allah, hər şeyə bir miqdar təyin etmişdir.

~ Səmalar, fələklər, planetlər, yer, dəniz, hava və bu aləmdəki əzəmətli cisimlər = o su saatındakı alətlər kimidirlər.

~ Fələkləri, planetləri, günəş və ayı, məlum bir hesab ilə hərəkətə keçirən səbəb = suyun müəyyən bir miqdarda axmasını təmin edən o deşik kimidir.

~ Günəşin, ayın və planetlərin hərəkətlərinin yer üzündə bəzi şeylərin hudusuna (meydana gəlməsinə) səbəb olması = suyun hərəkətinin, kürənin düşməsinə və beləliklə, saatın sonlandığının bilinməsini təmin etməyə bənzəyir.

Səmadakı hərəkətlərin, yer üzündəki dəyişikliklərə nə şəkildə təsir etdiyinə, belə bir misal verilə bilər:

Günəş, şərqə doğru hərəkət etdiyində, aləm işıqlanır; insanların, (ətrafı) görməsi və iş-gücləri ilə məşğul olmaları, asanlaşır. Qərbə doğru hərəkət etdiyində isə, bunları edə bilmədikləri üçün, evlərinə qayıdırlar.

Səmanın ortasına yaxınlaşıb yer üzünün məskun bölgələrindəki insanların baş hizasına gəldiyində, hava isinir; quraqlıq şiddətlənir; meyvələr dəyir. Uzaqlaşdığında, qış gəlir; soyuq şiddətlənir; orta məsafədə olarsa, hava mötədil olur; bahar gəlir; bitkilər böyüyür; və yer üzü yaşıllaşır.

Bax, bu məşhur və yaxşı bildiyin şeylərə, bilmədiyin nadir şeyləri də qiyas et! Bütün bu mövsümlərdəki fərqliliklər, məlum bir ölçüyə görə təqdir edilmişlərdir. Çünki hamısı, günəş və ayın hərəkətlərinə bağlıdır.

ٱلشَّمْسُ وَٱلْقَمَرُ بِحُسْبَانٍ

«Günəş və ay, müəyyən bir ölçü ilə hərəkət edir.»[1]

İkisinin hərəkəti, məlum bir hesabladır və bu, «qədər»dir. Külli səbəbləri vaz etmək, qəza; göz açıb-bağlamaq kimi bir müddətdə gerçəkləşən ilk tədbir isə, hökmdür. Allah Taala, bu xüsuslara etibarla, Hakəm və Adl›dır.

Necə ki, alətin, ipin və kürənin hərəkətləri, su saatını düzəldənin iradəsinin xaricində olmayıb bu aləti meydana gətirməklə bütün bunları iradə etmişdir. Eyni şəkildə də, aləmdə gerçəkləşən bütün hər şey, xeyir olsun - şər olsun; fayda olsun - zərər olsun; Allah (azzə və cəllə)'nin iradəsinin xaricində deyildir. Bütün bunlar, Allah Taala'nın muradıdır. Bundan ötürü, səbəblərini tədbir etmişdir ki, ...وَلِذَٰلِكَ خَلَقَهُمْ...

(1) Rahmən/5

«...Allah, onları, bunun üçün yaratdı...»[1] ayətinin mənası da, budur.

İlahi işləri, örfi misallarla açıqlamaq, çətindir. Və lakin, o misallardan qəsd olunan, tənbehdir. Bu halda, misalı bir tərəfə qoy; məqsədə diqqət et! Təmsil və təşbehdən də həzər et!

Tənbeh: Qul ilə əlaqəsi nisbətində, hökm, tədbir, qəza və təqdir, nə deməkdirsə; zikri keçən misaldan bilmiş oldun. Və o, asan bir işdir. Bu xüsusdə çətin olan, mücahidə və riyazəti tədbir etmək; din və dünya maslahatları üçün olan siyasəti təqdir etməkdir. Və bunun ilə, Allah, qullarını, yer üzündə xəlifə qılmış; yer üzünü məmur etmələrini (işləmələrini); və necə əməl edəcəklərini görmək istəmişdir.

Allah Taala'ya aid olan bu (əl-Hakəm) vəsfini müşahidəsindən, qulun nəsibi, budur:

Qulun, işlərin, qəti olaraq Ondan gəldiyini və təsadüfən olmadığını bilməsidir. Olacaq şeylər xüsusunda, qələm qurumuş; səbəblər, nəticələrinə yönləndirilmişlərdir. Vaxtları gəldiyində, səbəbin nəticəyə yönəlib onları meydana gətirməsi, vacibdir. Varlıq sahəsinə çıxan hər şey, vacibdir. (Yəni, Allah, bir şeyin varlığını iradə etmişdirsə, o şey, mütləq var olacaqdır. Bu cəhətdən, varlıq meydanına çıxan hər şeyin varlığı, vacib olmuş olur.) (O halda), varlığın, varlıq meydanına çıxması, zatı gərəyi vacib deyilsə də, geri çevrilə bilməyən əzəli qəza səbəbilə, vacibdir.

Beləcə, qul, bilməlidir ki, təqdir edilən şey, olacaqdır; və kədərlənmək, boşunadır. (Dolayısı ilə), insan, ruzisini axtararkən, mötədil olmalı; mutmain (tətmin olunmuş) bir nəfsə sahib olmalı və qəlbi, izdirablı olmamalıdır.

Əgər desən ki: *"Burdan, 2 işkəl (problem, məsələ) çıxır. (Onlardan):*

1. *Bu kədər, necə boşuna ola bilər? Ki, bu da təqdir edilmişdir. Çünki, kədər üçün bir səbəb təqdir edildiyinə görə; bu səbəb gerçəkləşincə, kədərin meydana gəlməsi də vacib olacaqdır.*

2. *Madam ki, hər şey təqdir edilmişdir. Əbədi səadət və bədbəxtliyin də səbəbləri təyin edildiyinə görə, əmələ nə gərək vardır?"*

• **Birincinin cavabı:** ***"Hər şey, müqəddərdir; kədərlənmək isə, boşunadır."*** sözü, kədərin, təqdir edilmişlərin xaricində olduğu mənasında deyil; faydasız olduğu mənasındadır. Çünki kədər, təqdir ediləni dəf edə bilməz. Gerçəkləşməsi gözlənilən bir şeyə kədərlənmənin səbəbi, məhz cəhalətdir. Çünki:

(1) Hud/119

~ Əgər gözlənilən bu şeyin gerçəkləşməsi təqdir edilmişdirsə, kədər və həzər ilə bunu əngəlləmə imkanı yoxdur. Bu halda, kədər, ağrının meydana gəlməsi qorxusu ilə, başqa bir növ ağrını dəvət etməkdir.

~ Yox əgər meydana gəlməsi təqdir edilməmişdirsə, bu halda da, kədərin bir mənası, yoxdur.

(Elə isə), hər 2 halda da, kədər, boşunadır.

• **(İkinciyə, yəni) əməllə bağlı sualın cavabına gəlincə,** (cavabı), Peyğəmbər (sallallahu aleyhi və səlləm)'in bu hədisidir:

"Əməl edin! Hər kəs, nə üçün yaradılmışdırsa, (səbəbləri), onun üçün asanlaşdırılar." (1)

Bu hədisin mənası:

~ Özü üçün əbədi səadət təqdir edilmiş olan kimsə üçün, bunun səbəbləri də təqdir edilib asanlaşdırılar (deməkdir) ki, bu səbəblər də, itaətdir.

~ Özü üçün əbədi bədbəxtlik təqdir edilmiş kimsə üçün, (Allah qorusun), bunun səbəbləri də, təqdir edilmiş (demək)'dir ki, bu da, itaət səbəblərini yerinə yetirməmək, tənbəllik etməkdir. Bəzən, bu bədbəxtliyə yol açan bu tənbəlliyin səbəbi, qəlbində,

"Əgər mən səid/xoşbəxt isəm, əmələ ehtiyacım yoxdur; şaqi (bədbəxt) isəm, əməl, mənə fayda verməz." tərzində bir düşüncənin yer etməsidir. Və bu, cəhalətdir. Çünki,

~ Əgər səid/xoşbəxt olacaqsa, belə olmasının, elm və əməl şəklindəki səadət səbəblərinə bağlı olduğunu;

~ Əgər elm və əməl özünə müyəssər olmasa, bunun da, öz bədbəxtliyinin əlaməti olduğunu bilməməkdədir.

Dində imamlıq dərəcəsinə çatacaq şəkildə bir fəqih olmağı arzulayan birinə, ***"Çalış, öyrən və davamlı et!"*** deyildiyində, o kimsənin:

"Əgər Allah (azzə və cəllə), mənim üçün əzəldə imamlığı təqdir etmişdirsə, səy göstərməyə ehtiyacım yoxdur. Yox əgər mənim üçün cəhaləti təqdir etmişdirsə, səy göstərmək, mənə fayda təmin etməz." deyəcək olsa, ona, belə cavab verilər:

Əgər belə bir düşüncə, sənə təsəllüt etdirildisə, bu, sənin haqqında, cəhalət təqdir edildiyinə dəlalət edir. Çünki, əzəldə, biri üçün dində imamlıq mərtəbəsini təqdir etmişdirsə, bunun səbəblərini də təqdir etmişdir. Beləliklə, səbəbləri onda cari qılar və onu, (dini üçün) istifadə edər (çalışdırar). Özündən, tənbəlliyə aparan düşüncələri dəf edər. Çalışmayan

(1) Muslim, "Qədər", 1

şəxs, imamlıq dərəcəsinə, əsla çata bilməz. Çalışan və özü üçün bu mərtəbə asanlaşdırılan kimsə isə, ömrünün sonuna qədər, səyi əldən verməz və yolunu kəsəcək bir əngəl ilə qarşılaşmazsa, məqsədinə çatmaq arzusunda sadiq bir kimsə olar.Bunu da başa düşməlidir ki, Allaha, ancaq, səlim qəlb ilə gedən şəxs xoşbəxt olar. Qəlb salamatı isə, eynilə, nəfs fiqhi və imamlıq sifəti kimi səy ilə iktisab edilən bir sifətdir. Aralarında, heç bir fərq yoxdur.

Qullar, ***"əl-Hakəm"***i müşahidə etmək cəhətindən, dərəcə-dərəcədirlər. (Belə ki):

~ Özü üçün necə bir sonun olduğuna nəzər edənlər;

~ Əvvəlinə baxanlar. Yəni, əzəldə özü üçün təqdir edilmiş olana baxan şəxs. (Bu ikincisi), daha üstündür. Çünki xatimə, əvvələ tabedir.

~ Keçmiş və gələcəyi tərk edib ***"ibnu'l-vaqt / zamanın oğlu"*** olanlar. Onlar, ona (yəni, vaxtlarına) baxıb Allah (azzə və cəllə)'dən zühur edən və Onun təqdir etmiş olduğu şeylərdən razıdırlar. Və bu (mərtəbə) isə, əvvəlki (mərtəbələr)'dən üstündür.

~ Bəziləri də vardır ki, halı, keçmişi və gələcəyi tərk etmiş; qəlbi, ***"əl-Hakəm"*** ilə dopdoludur. Onun şuhudunda, daimdir. Bu isə, ən üst dərəcədir.

* * *

30. Adl (isminin şərhi):

Mənası, adil deməkdir. Adil isə, Özündən, zülmün ziddi olan adl felinin sadir olduğu (Zat) deməkdir. Ədalətini bilməyən ---> Adili bilə bilməz; felini bilməyən də ---> ədalətini bilə bilməz. Bu vəsfi başa düşmək istəyənin, göylərin mələkutundan yer üzünün sonuna qədər, Allah Taala'nın fellərini, elm cəhətindən əhatə etməsi lazımdır. Ta ki,

~ Rahmən'in yaratmasında, heç bir nizamsızlıq müşahidə edə bilməyincəyə; sonra,

~ Gözünü təkrar çevirincə, hər hansı bir qüsur görə bilməyincəyə; sonra

~ Bir də dönüb o göz, aciz və zəif olaraq sənə geri qayıdıncaya qədər.

O gözü, Rububiyyət həzrətinin camalı qamaşdırmış; etidal və intizamı, heyrətə sövq etmişdir. Bax ancaq o vaxt, Allah Taala və təqaddəsin ədalətinin mənalarından bir şeyi fəhm edərək gözəl qoxu ala bilər.

Allah,

~ cismanisi - ruhanisi;

~ kamili - nöqsanı ilə, cümlə mövcudatın qisimlərini yaratdı. Hər bir şeyə, yaradılışını verdi ki, bax O, bununla, Cavad'dır. Sonra --->

Yaratdığı hər bir şeyi, Özünə münasib olan mövqeyə yerləşdirdi. O, bax bununla da, Adl'dır. Aləmdəki bəzi böyük cisimlər arasında, yer üzü, su, hava, ulduzlar vardır. O, bütün bunları yaratdı və yerlərinə yerləşdirdi. Necə ki,

~ yer üzünü, bunların ən aşağı tərəfinə yerləşdirmiş;

~ suyu, onun üstünə;

~ havanı, suyun üstünə;

~ səmaları da, havanın üstünə yerləşdirmişdir.

Əgər bu tərtib (sıra) əksinə olsaydı, nizam pozulardı. Ədalət və nizamdakı tərtibin istihqaq (layiqlik) vəchini şərh etmək, bir çox fəhmlər üçün çətin gələ bilər. Bu etibarla, avamın dərəcəsinə enir və belə deyirəm:

İnsan, bir öz bədəninə baxsın. O, müxtəlif əzalardan mürəkkəbdir. Eynilə, aləmin müxtəlif cisimlərdən mürəkkəb olması kimi. (Bəhsi edilən) aləmdən fərqlilik, ilk əvvəl, Allahın, insanı, sümük, ət və dəridən tərkib etməsilə başlayır.

~ Sümükləri, içəridə qalan bir sütun;

~ Ətləri, sümüklərin ətrafını çevrələyən qoruyucu;

~ Dərini də, ətlər üçün bir qoruyucu qılmışdır.

Əgər bu tərtibin əksi olsa; daxildəki, xaricdə olsaydı, nizam pozulardı.

Əgər bu məsələ sənin üçün qapalı qaldısa, insan üçün əl, ayaq, göz, burun və qulaq kimi fərqli əzalar yaradılmışdır. O, bütün bu orqanları yaratması ilə, Cavad›dır. Bunların hər birini, özünə məxsus mövqeyə yerləşdirməsi etibarı ilə, Adl›dır. Necə ki:

~ Gözü, bədənin ən əvla yerinə yerləşdirmişdir. Əgər gözü, ənsəyə; ayaqların və əllərin üzərinə; və ya başın üstünə qoysaydı, bir tərəfdən, nöqsanlıq olar; digər tərəfdən də, afətlərə məruz qalardı.

Eyni şəkildə,

~ Əlləri, çiyinlərə yerləşdirmişdir. Əgər onları, başa, böyürlərə, yaxud dizlərə yerləşdirmiş olsaydı, o vaxt, bundan xələl doğardı.

~ Başa yerləşdirilən hislər də, belədir. Bu hislər, bütün bədəni təftiş edən casuslar (kimi)'dirlər. Məsələn, bu hisləri ayaqlara yerləşdirmiş olsaydı, nizam, qəti şəkildə pozulardı. Hər bir üzvü şərh etmək, uzun gedər.

Qısacası bilməyin lazımdır ki, hər bir şey, ancaq və ancaq, özünə aid yerdə yaradılmışdır. Əgər özü üçün təyin edilən yerdən sağda, solda, aşağıda və ya yuxarıda yaradılmış olsaydı, ya nöqsan, ya batil, ya çirkin, ya da uyğun olmaqdan xaric və görüntü olaraq da, xoş olmazdı. Eynilə,

~ Üzün ortasında yaradılmış olan burnun, alında və ya yanaqda yaradılmış olsaydı, faydasına nöqsan toxunardı.

Əgər fəhmin, Onun hikmətini idrak cəhətindən qüvvətlənərsə, bil ki, O,

~ Günəşi də, 7 səmanın ortası olan 4-cü səmada yaratmamışdır. Əksinə, onu, özündən güdülən faydalar hasil ola bilsin deyə, onu, layiq olduğu mövqe haradırsa, orda yaratmışdır.

Ancaq sən, ondakı hikməti dərk etməkdən aciz qala bilərsən. Çünki sən, səmanın və yerin məlakutu və bunlardakı qeyr-i adiliklər haqqında, az təfəkkür edirsən. Əgər onlara nəzər etsən, qeyr-i adi olduqlarını görərsən. Beləcə, öz bədənindəki qeyr-i adilikləri, kiçik görərsən. Necə belə olmasın ki?!

لَخَلْقُ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ أَكْبَرُ مِنْ خَلْقِ ٱلنَّاسِ

"Həqiqətən, göylərin və yerin yaradılması, insanların yaradılmasından daha böyükdür." (1)

(1) Ğafir/57

Kaş ki, nəfsinin qeyr-i adiliyinin mərifətini, kamil bir şəkildə bilsəydin; sonrasında, nəfsin qeyr-i adilikləri və cisimləri əhatə edən xüsuslar haqqında təəmmül etsəydin; Allah (azzə və cəllə)'nin, onlar haqqında söylədiyi kimsələrdən olsaydın:

سَنُرِيهِمْ ءَايَٰتِنَا فِى ٱلْءَافَاقِ وَفِىٓ أَنفُسِهِمْ...

"Biz, dəlillərimizi, onlara, həm kainatda, həm də onların nəfslərində, mütləq göstərəcəyik..." (1)

Dünya qayğısı və həva və hərisliyin nökərləşdirdiyi bir kimsəyə, səmaların qapıları, necə açılar?!

Bax bu, bir ismi bilməyin yolunun başlanğıcının rəmzidir. Bunun şərhi, cildlərlə kitaba möhtacdır. Eyni şəkildə, hər bir ismin mənasının şərhi də, belədir. Yaradılmış hər şey, Allah Taala'nın felləridir. Bunları, təfsilən və ya icmalən bilməyən kimsə də, bu isimlərin, sadəcə təfsirlərini və lüğət mənalarını bilər. Bunların təfsilatını bilməyə isə, tamah edilə bilməz. Çünki, təfsilatları, sonsuzdur. Qul üçün, bunları icmal olaraq bilməsinə, bir yol vardır. İsimlərdən mərifətinin nəsibi, qulun mərifətinin genişliyi qədərdir. Bu da, bütün elmləri ehtiva etməkdədir. Əlinizdəki bu kitab kimi kitabların məqsədi isə, bu xüsusların açarlarına və bəzi qapalılıqlarına bir işarətdir.

Tənbeh: Qulun, əl-Adl ismindən nəsibi, gizli deyildir. əl-Adl'dan ilk nəsibi, nəfsinin sifətlərindədir. (Yəni): Şəhvət və qəzəbini, ağıl və dinin işarəti altında əsir etməkdir. Nə vaxt ki, ağlını, şəhvət və qəzəb üçün bir xidmətçi edərsə, o vaxt, zülm etmiş olar. (İnsanın) öz nəfsi haqqında edəcəyi bütün ədaləti, bundan ibarətdir. Təfsili isə, şəriətin bütün hüduduna riayət etməsidir. İnsanın hər bir orqanındakı ədaləti, o orqanı, şəriətin icazə verdiyi şəkildə istifadə etməsidir. Ailəsi və rəiyyəti haqqındakı ədaləti, -əgər vəlayət əhlindən / vəliliyə sahibdir- isə, gizli deyildir.

Bəziləri, bəlkə də, zülmün, əziyyət vermək; ədalətin isə, insanlara fayda verməkdən ibarət olduğunu zənn edə bilərlər, ki, bu, belə deyildir. Əksinə, əgər bir hökmdar, silahlar, kitablar və fərqli-fərqli mallardan meydana gələn xəzinəsini açsa;

~ malları, varlılara;

~ silahları, alimlərə ehsan edib, qalaları onlara təslim etsə;

~ kitabları da, hərb əhli döyüşçülərinə hədiyyə edib məscid və mədrəsələri onlara təslim etsə, doğrusu, insanlara fayda təmin etmiş olsa da, ədalətdən ayrılmış və zülm etmiş olar. Çünki, hər bir şeyi, özünə layiq

(1) Fussilət/53

olmayan yerə yerləşdirmişdir.

(Buna müqabil), xəstələrə dərman vermək; qan almaq; hicama etmək; belə şeylərə məcbur etmək surətilə onlara əziyyət vermək; yaxud da, caniləri, qətl, orqan kəsmək və ya vurmaq surətilə cəzalandıraraq əza vermək isə, ədalətdir. Çünki, şeyləri (belə etməklə) yerli-yerinə yerləşdirmişdir.

Dini cəhətdən, qulun bu Adl vəsfini müşahidədən həzzi (nəsibi), Allah (azzə və cəllə)'nin ədalətinə inanmaqdan ibarətdir. Tədbiri, hökmü və digər fellərində, istər öz muradına uyğun olsun; istər olmasın, Ona etiraz etməməsidir. Çünki, hamısı, ədalətlidir və olması lazım gəldiyi kimidir. Əgər etdiyini etməmiş olsaydı, başqa bir şey hasil olardı və bu da, hasil olandan daha zərərli olardı. (Məsələn), bir xəstə, hicama etdirməsəydi, hicamanın ələminə/ağrısına nəzərən daha böyük zərərə düçar olardı.

Bax beləcə, Allah Taala, əl-Adl olmaqdadır. Və buna iman etmək də, həm zahirdə, həm batində, inkar və etirazın önünü kəsməkdir. Bu imanın tamamlayıcısı da, dəhrə söyməmək; əşyaları fələyə nisbət etməmək və -adətdə cari olduğu kimi- etiraz etməməkdir. Əksinə, bütün bunların, musaxxar edilmiş (boyun əydirilmiş) səbəblərdən ibarət olduğunu; bəzi nəticələrə, -ən gözəl bir surətdə, ən yüksək bir ədalət və lütf təzahürü olmaq üzərə- tərtib və təvcih edilmiş olduğunu (yönləndirildiyini) bilməkdir.

* * *

31. Lətif (isminin şərhi):

Bu ismə layiq olan, maslahat (fayda)'ların incəliklərini və gizliliklərini; daha incələrini və lətiflərini bilən; və bunları, əhlinə (yəni, fayda verilmək istənilən şəxsə), sərtliklə deyil; yumşaq yolla çatdıran (Zat)'dır. Feldə yumşaqlıq ilə idrakda lətiflik (incəlik) birləşdiyində, lütfün mənası tamamlanmış olur.

Həm elmdə, həm də feldə, bunun kamalı, ancaq, Allah (subhənəhu və taala) haqqında təsəvvür edilə bilər. Onun, incəlikləri və gizlilikləri əhatə etməsinin təfsilini verməyə, imkan yoxdur. Gizli olan şey, Onun elmində, açıq olan şey kimidir. Ona nəzərən, arada bir fərq yoxdur. Fellərindəki yumşaqlığı və (felləri) içindəki lütfü, hasr edilə (yəni, məhdudlaşdırıla) bilməz. Çünki, feldəki lütfü, sadəcə fellərin təfsilatını və fellərindəki yumşaqlığı bilən bilər. İnsanın əl-Lətif isminin mənasına dair mərifətinin genişlənməsi, insanın mərifətinin genişliyi qədərdir. Bunu şərh etmək, uzun gedər. Onlarla cild yazılsa belə, kifayət etməsi, təsəvvür edilə bilməz. Ancaq, bəzi cümlələrinə tənbeh edilə bilər. (Belə ki):

~ Cənin (ana bətnindəki uşağ)'ı, 3 qaranlıq içərisində yaratması;

~ Orda mühafizə etməsi;

~ Anasından ayrılıb müstəqil bir şəkildə ağzı ilə yeyincəyə qədər, göbək bağı vasitəsilə bəsləməsi, Onun lütfündəndir. Sonra,

~ Doğulduqdan sonra, gecə qaranlığında belə, təlim və müşahidə olmadan, ona, (anasının) sinəsindən əmməsini ilham etməsi də, Onun lütfündəndir. Cücə də, yumurtadan çıxar-çıxmaz, o əsnada, yerdəki toxumları yeməsi, özünə ilham edilir.

~ Sonra ---> (uşağın) dişinin yaradılışını, ilk başda (yəni, dünyaya gəldiyi vaxtlarda) deyil; dişlərə ehtiyac duyacağı vaxta qədər ertələyir. Çünki, südlə bəslənərkən, dişə ehtiyac yoxdur.

~Sonra ---> yeməyi çeynəmək ehtiyacından dolayı, dişi çıxarır.

~Sonra ---> əzmək üçün, geniş dişlər; qırmaq üçün, azı dişlər; kəsmək üçün də, sivri/iti dişlər olmaq üzərə, bunların bir-birindən ayrılması, eyni şəkildə, Onun lütfündəndir.

~ Sonra, əsli vəzifəsi danışmaq olan dili, eynilə bir kürək kimi, yeməkləri üyüdən dişlərə yönləndirməsi də, Onun lütfündəndir.

Əgər insanın çətinlik çəkmədən yediyi loxmanın asanlığındakı lütfü zikr edilməyə çalışılsa,

-ki, torpağı islah edənindən; əkənindən; sulayanından; biçənindən; təmizləyənindən; əzənindən; (unu) yoğuranından; çörək halına gətirənindən; və daha neçə-neçə başqalarına qədər, sayları bilinməz bir çox insan, bu loxmanın hazırlanmasında köməkləşmişdirlər- bunun şərhi, kamil mənada mümkün olmaz.

İcmal olaraq:

• İşləri tədbir etmə cəhətindən, O - Hakəm'dir;

• Onları vücuda gətirməsi cəhətindən - Cavad'dır;

• Tərtibləmək cəhətindən - Musavvir;

• Hər bir şeyi, öz yerinə yerləşdirməsi cəhətindən - Adl;

• Rifq'in (yumşaqlığın) incə yönlərini tərk etməməsi cəhətindən isə - Lətif'dir.

Bu fellərin həqiqətini bilməyən kimsə, bu isimlərin də həqiqətini bilməz.

~ Qullarına, kifayət edən miqdardan daha çoxunu ehsan etməsi; və

~ Onların taqət gətirə biləcəklərindən daha azı ilə mükəlləf tutması, Onun lütfündəndir.

~ Az bir zamanda, xəfif bir səy ilə əbədi səadətə çatdırmağı asanlaşdırması da, Onun lütfündəndir. Az bir zamandan məqsəd, ömürdür ki, əbədiyə nisbətlə, bir heç kimidir.

~ Qan ilə ifrazat arasından, təmiz süd;

~ Sərt daşlardan, dəyərli cövhərlər;

~ Arıdan, bal;

~ İpək qurdundan, ipək; və

~ Sədəfdən, inci çıxarması da, yenə,

~Onun lütfündəndir.

~Bunlardan da əcaib olanı,

~ Kirli nütfədən, mərifətini əldə etməyə iśtedadlı; əmanətini yüklənməyə uyğun; səmaların mələkutunu müşahidə edə bilən bir varlıq yaratmasıdır ki, bu lütflər, sayıla bilməyəcək qədər çoxdur.

Tənbeh: Qulun, bu vəsfdən payı, Allah (azzə və cəllə)›nin qullarına qarşı yumşaq bir şəkildə davranması; onları, Allah Taala›ya çağırarkən, axirət səadətinə yönləndirərkən, xor görəcək bir şəkildə, şiddət və təəssüb

və düşməncəsinə deyil, lütflə (incəliklə) davranmasıdır. Lütfün ən əhsən vəchi (cəhəti) isə, haqqın qəbulu üçün, Allahın razı olduğu əxlaq, fəzilət və saleh əməllərlə cəzb etməkdir. Çünki bunlar, müzəyyən/bəzəkli ləfzlərdən, daha lətif və daha həqiqidir.

* * *

32. Xabir (isminin şərhi):

Gizli xəbərlərin, Özündən gizli qalmadığı (Zat)'dır.

~ Mülk və mələkutda cari olan hər bir şey;

~ Hərəkət edən və sakit olan hər bir zərrə;

~ İzdirab çəkən və mutmain olan nə qədər nəfs

varsa, hər birinin xəbəri, Ondadır. Bu isim, Alim (isminin) mənasındadır. Lakin, elm, batini gizliliklərə izafə edildiyində, ***"xibra"*** adlanır. Sahibinə də, ***"Xabir"*** deyilir.

Tənbeh: Qulun, bu isimdən nəsibi, öz aləmində cari olan xüsuslardan xəbərdar olmasıdır. Öz aləmi isə, qəlbi və bədənidir. Qəlbin vəsfləndiyi:

~ aldatma;

~ xəyanət;

~ (qəlbin), dünya işləri ətrafında tavaf etməsi;

~ şərri gizləyib xeyri izhar etməsi;

~ əslində iflas ikən, zahirini ixlas ilə gözəlləşdirməsi

kimi gizli vəsflərdən xabir/xəbərdar olmasıdır. Bunları, ancaq, dərin ***"xibrə"*** sahibi bilə bilər. Çünki o, nəfsindən xəbərdar olmuş və onu müalicə etmişdir. Nəfsinin tələlərini, aldatma və hilələrini bilmişdir. Bu vəsflərdən, həzər etmiş və başqalarını da həzər etdirmiş; düşmənlərilə, canla-başla mücadilə etmişdir. Bax qullar arasından belə biri, ***"Xabir"*** deyə adlandırılmağa layiqdir.

* * *

33. Həlim (isminin şərhi):

~ Asilərin məsiyyətini (Allaha günahla üsyan edənlərin günahlarını) müşahidə edən;

~ Əmrə müxalifət etdiklərini gördüyü halda, qəzəblənməyən;

~ Ən böyük qüdrətə sahib olduğu halda, müşahidə etdikləri, Özünü, tələskənlik və səbrsizliyə qapdırıb intiqam almağa sövq etməyən(Zat)'dır.

Eynilə buyurduğu kimi:

...وَلَوْ يُؤَاخِذُ ٱللَّهُ ٱلنَّاسَ بِظُلْمِهِم مَّا تَرَكَ عَلَيْهَا مِن دَآبَّةٍ

"Əgər Allah, insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə, heç bir canlını sağ qoymazdı..."(1)

Tənbeh: Qulun, əl-Həlim vəsfindən nəsibi, açıqdır. Çünki hilm (şiddətə təhəmmül etmək; gücü çatdığı halda bağışlamaq), qulların gözəl xislətlərindəndir. Dolayısı ilə, şərh edib uzatmağa ehtiyac yoxdur.

* * *

(1) Nəhl/61

34. Əzim (isminin şərhi):

Bil ki, Əzim ismi, ilk olaraq, cisimlər üçün vaz edilmiş (qoyulmuş)'dur. (Məsələn), ***«Bu cisim, əzimdir.»*** deyilir. Yaxud, bir cismin en, uzunluq və hündürlükdə sahəsi daha geniş olarsa, o vaxt, ***«Bu cisim, digər cisimdən daha əzimdir.»*** də deyilməkdədir.

Əzim olan cisimlər də:

~ Gözün əhatə edə bildiyi (yəni, hər tərəfini görə bildiyi) ilə;

~ Gözün, bütün ətrafını əhatə etməsinin təsəvvür edilə bilmədiyi -yer və səma kimi- cisimlər olaraq, 2 qismə ayrılır. Məsələn:

~ Fil, əzimdir. Ancaq göz, onu, hər tərəfilə əhatə edə bilir. Belə olunca, fil, ondan daha kiçik cisimlərə izafətlə əzim olmuş olur.

~ Yeri isə, -eynilə səmada olduğu kimi- bütün ətrafı ilə əhatə etməsi, təsəvvür edilə bilməz. Bax, gözün idrakı cəhətindən mütləq əzim olan, budur.

Bil ki, bəsirətlərin idrak etdiklərində, fərqliliklər vardır. (Elə varlıqlar) vardır ki, ağıllar, onun həqiqətini, künhü ilə əhatə edə bilirlər. Ağılların, onu (idrakdan) nöqsan olan (varlıqlar da) vardır. Ağılların, özünü idrakdan nöqsan olduqları (varlıqlar) da, 2 qismə ayrılırlar:

1. Bir çox ağılların əhatə edə bilməməsilə bərabər, bəzilərinin əhatə edə bildiyi (varlıqlar);

2. Həqiqətinin künhünü, hər hansı bir ağlın əhatə etməsinin təsəvvür edilə bilmədiyi (varlıq).

Ağlın bütün hüdudlarını aşan, künhünü əhatə etmək təsəvvür edilə bilməyən mütləq əzim, Allah Taala'dır. Bunun bəyanı, «**1-ci Fənn**»də keçmişdi.

Tənbeh: Qullardan əzim olan kimsələr, Peyğəmbərlər və alimlərdir, ki, ağıl sahibi bir kimsə, onların sifətlərindən bir şey bilərsə, onun sinəsi və qəlbi, boş bir yer qalmayacaq bir şəkildə, heybətlə dolar.

~ Peyğəmbər, Öz ümmətinə nəzərən;

~ Mürşid, müridinə nəzərən;

~ Müəllim, tələbəsinə nəzərən,

əzimdir. Çünki (bunların: ümmət, mürid və tələbənin) ağılları, onların sifətlərini əhatə etməkdən naqisdir. Əgər bunlar (yəni, ümmət, mürid və

tələbə), Onların vəsflərinə bərabər olsa; yaxud Onları keçsələrdi, onlar, bunlara nisbətlə əzim olmayacaqlardı.

Allah (azzə və cəllə) xaricində təsəvvür edilə biləcək hər əzim varlıq, bir şəkildə naqisdir və mütləq şəkildə əzim deyildirlər. Çünki, Allah Taala'nın əzəməti xaricində, bir şey(in əzəməti), (başqa bir şeyə) izafətlə zühur edər. Ancaq (Allah'ın əzəməti), (başqa bir varlığa) izafət yolu ilə deyildir. Çünki O, mütləq əzimdir.

* * *

35. Ğafur (isminin şərhi):

Ğafur, Ğaffar mənasındadır. Ancaq, Ğaffar›ın xəbər vermədiyi başqa bir növ mübaliğədən də xəbər verməkdədir. (Yəni, bu isim), məğfirətə izafətlə, təkrar-təkrar məğfirətdəki mübaliğəni ifadə etməkdədir. Faal vəzni, felin çoxluğundan; fəul vəzni isə, felin keyfiyyət, kamal və şümulundan xəbər verir. (O halda), məğfirət və ğufranının əskiksiz və kamil olması; məğfirət dərəcələrinin ən üst dərəcəsinə çatması cəhətindən, (O), Ğafurdur. Buna dair kəlam, daha əvvəl keçmişdi.

* * *

36. Şəkur (isminin şərhi):

Az bir ibadətə qarşı, məhdud günlərdəki əməllər ilə, axirətdə, məhdud olmayan nemətlər verən (Zat)'dır.

~ Kim, bir yaxşılığa qarşı qat-qat qarşılıq verərsə, o şəxsə, ***«O yaxşılığa qarşı artıqlaması ilə qarşılıq verdi.»*** mənasında ***"şakir"*** deyildiyi kimi;

~ Bir yaxşılıq edəni tərifləyən kimsə üçün də, ***«Ona təşəkkür etdi.»*** mənasında ***"şakir"*** deyilir.

• Qarşılıqdakı əlavəyə nəzər edildiyində, mütləq Şəkur, ancaq Allah (azzə və cəllə)'dir. Çünki, Onun, yaxşılığa verdiyi qarşılıqdakı əlavələrin, həddi-hüdudu yoxdur. Çünki, cənnət nemətlərinin sonu yoxdur. Allah (subhənəhu və taala), belə buyurur:

كُلُوا۟ وَٱشْرَبُوا۟ هَنِيٓـًٔۢا بِمَآ أَسْلَفْتُمْ فِى ٱلْأَيَّامِ ٱلْخَالِيَةِ

«Onlara: 'Keçmiş günlərdə etdiyiniz əməllər qarşılığında, nuş-i canlıqla yeyin-için!'– deyiləcəkdir.»(1)

• ***«Səna/tərif»*** sözünün mənasına nəzər edərsənsə, hər səna/tərif edənin sənası, digərinin felinə mütəvəcihdir (yəni, ona yönəlmiş olduğunu görərsən). Ancaq, Rəbb (azzə və cəllə), qullarının əməllərini səna etdiyində, əslində, Öz felinə səna etmiş olmaqdadır. Çünki, qullarının əməllərini yaradan, Odur. Özünə bir şey verildiyində səna edən, ***«şəkur»*** deyə adlandırılırsa; verən və verənə səna edən, ***«Şəkur»*** olmağa daha layiq olar. Bu ayətlər, Allah Taala'nın, qullarını səna etməsinə misaldır:

...وَٱلذَّٰكِرِينَ ٱللَّهَ كَثِيرًا وَٱلذَّٰكِرَٰتِ...

«...Allahı çoxca zikr edən kişilərlə çoxca zikr edən qadınlar...»(2)***;***

...نِعْمَ ٱلْعَبْدُ ۖ إِنَّهُۥٓ أَوَّابٌ ***«...O, nə gözəl qul idi. Davamlı Allaha üz tutardı."***(3)

Bu və bunun kimi ayətlərdə, (Allah, qullarını səna etməkdə olub), bunların hamısı, Allahdan bir hədiyyədir.

Tənbeh: Qulun, bir başqa qul haqqında şəkur olması, (belə) təsəvvür edilə bilər:

(1) Haqqa/24
(2) Əhzab/35
(3) Sad/30

~ Bəzən, ona etdiyi yaxşılığı tərifləmək surətilə;

~ Bəzən də, ona etdiyinə qarşı daha gözəl bir qarşılıq verməsindən dolayı. Bu isə, tərifə layiq xislətlərdəndir. Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"İnsanlara qarşı təşəkkür etməyən, Allaha da təşəkkür etməz." (1)

Ancaq qulun, Allah (azzə və cəllə)'yə qarşı şükrü, ancaq məcaz və təvəssü (məna genişlənməsi) növündəndir. Çünki qul, Allahı səna etdiyində, bu sənası, naqisdir. Çünki O, haqqı ilə səna edilə bilməz. Ona itaət etdiyində, bu itaət, Allah tərəfindən başqa bir nemətdir. Hətta şükr etməsi də, özü səbəbilə şükr edilən nemətin fövqündə, başqa bir nemətdir. Qulun, Allah (azzə və cəllə)'nin nemətlərinə qarşı şükrünün ən gözəli, (bu nemətləri), masiyyət/günah'da deyil; itaət yolunda istifadə etməsidir, ki, bu da, ayrıca, Allahın yardımı; və qulu, Rəbbinə şükr etmədə müyəssər qılması ilədir. O kəlamı (yəni, qulun, Rəbbinə qarşı şükr edən bir qul olması; və bunun) təsəvvür edilə bilməsi, çox incədir. Bunu, ***"İhya-u Ulumi'd-Din"*** kitabının ***«Şükr»*** babında zikr etdik. Ora müraciət edilsin. Çünki bu kitab, bunu yüklənə bilməz.

* * *

(1) Tirmizi, "Sünən", hədis no: 2082

37. Aliyy (isminin şərhi):

Mərtəbəsinin fövqündə başqa bir mərtəbə olmayan; bütün mərtəbələr, Onun mərtəbəsinin altında olan (Zat)'dır. Çünki, ***"əl-Aliyy"***, uluvv/ucalıq'dan müştaq (meydana gəlmiş)'dir. Uluvv/ucalıq isə, alt/aşağı mənasındakı sufl'un müqabili olan ***"ulv"***dan gəlməkdədir. Bu uluvv:

~ Ya məhsus (hisslərlə idrak edilə bilən) dərəcələrlə əlaqəli ola bilər ki, pilləkən, nərdivan və üst-üstə qoyula bilən bütün cisimlər belədir.

~ Yaxud da, bir növ əqli tərtib ilə tərtib edilmiş varlıqlarda bəhs mövzusu olan məqul/əqli mərtəbələrlə əlaqəli ola bilər.

Məkan cəhətindən üstün olan hər bir varlıq, məkani uluvvda/ucalıqdadır. Rütbə cəhətindən fövqiyyəti olan hər varlığın da, rütbə cəhətindən uluvvu/ucalığı vardır. Əqli dərəcələndirmə də, eynilə, hissi dərəcələndirmə kimi başa düşülə bilər.

Əqli dərəcələrə misal:

• səbəb ilə nəticə;

• illət ilə məlul;

• fail ilə qabil;

• kamil ilə naqis arasındakı (dərəcə) fərqliliyidir.

Məsələn, ikinci bir şeyə səbəb olan bir şey təsəvvür etsən, bu ikinci şey, üçüncüyə; üçüncü, dördüncüyə; bu şəkildə, onuncuya qədər getsə, burda 10-cu olan, sonuncu və alt mərtəbədə yer almış olar. Birinci isə, səbəbiyyətdə ilk və ən üst dərəcəyə sahib olmuş olar. Birincinin ikinciyə olan fövqiyyəti, məkani deyil, mənəvidir. ***"Uluvv/ucalıq"***, beləliklə, fövqiyyətdən ibarətdir.

Əqli dərəcələndirmənin nə demək olduğunu başa düşdünsə, bil ki, varlıqlar, ağılda, hər nə vaxt fərqli dərəcələrə bölünsə, belə bir bölgünün edilə bilməsi, Haqq (subhənəhu və taala), bu dərəcələrin -bunun daha üstündə bir dərəcə olması təsəvvür edilə bilməyəcək şəkildə- ən üstündə olmadıqca, mümkün ola bilməz. Bax O, (beləcə), mütləq Aliyy›dir. Onun xaricindəki bütün hər şey, öz mədun (aşağısındakı)›lara nisbətlə, aliyy; fövqündəkilərə nisbətlə isə, aşağıdadırlar.

Əqli cəhətdən, (mərtəbə) bölgüsünün misalı, budur:

Varlıqlar, səbəb və müsəbbəb olaraq, 2 qisimdirlər. Səbəb, müsəbbəbdən, rütbə cəhətindən üstündür. Mütləq fövqiyyət isə, Müsəbbibu'l-əsbab (bütün səbəblərə səbəb olan)'a aiddir. Eyni şəkildə, varlıqlar da, diri və ya ölü olaraq ikiyə ayrılırlar. Diri olanlar da:

~ sırf hissi idrak sahibi olan heyvanlar ilə;

~ hissi idrak ilə bərabər əqli idraka da sahib olan varlıqlar şəklində, iki qismə ayrılırlar.

Əqli idrak sahibi olan varlıqlar isə:

1. İdraklarında şəhvət və qəzəb qüvvələrinin müxalifətinə məruz qalan insan ilə;

2. İdrakını bulanıqlaşdıran təsirlərdən səlim qalanlar olmaq üzərə, ikiyə ayrılırlar.

Bu ikinci qisimdəki varlıqlar da:

2.1. Mələklər kimi belə bir müxalifət ilə sınanması mümkün ikən bundan salamat qalmaqla ruziləndirilənlər ilə;

2.2. Özü haqqında, (bəhsi keçən) təsirlərə məruz qalması mümkün olmayan Allah (subhənəhu və taala)'dır.

Bu təqsim (bölgü) və tədric (dərəcələndirmə)'dən aşkar olur ki, mələk, insanın; insan isə, heyvanın fövqündədir. Allah (azzə və cəllə) isə, hamısının fövqündədir. O, mütləq Aliyy'dir. Həyat verən Hayy'dır. Alimlərin elmini yaradan Xaliq'dir. Hər cür nöqsanlıqdan müqəddəs və münəzzəhdir. Diri olmayan, kamal dərəcələrinin ən aşağısındakı dərəcədə qalarkən; digər tərəfdə (yəni, ən üst mərtəbədə) isə, Allah Taala vardır. Beləcə, Onun, fövqiyyət və uluvv'unu bilmək lazımdır.

Bu isimlər, ilk olaraq, göz idrakına izafətlə vaz edilmiş (qoyulmuş)'lardır, ki, bu (yəni, gözlə idrak dərəcəsi), avamın dərəcəsidir. Daha sonra, xavass (xasslar), bəsirət idraklarının fərqinə varıb, bəsirət ilə basar (göz) idrakları arasındakı müvazinələr tapınca, basar (göz) idrakları üçün vaz edilmiş (qoyulmuş olan) bu mütləq ləfzləri, bəsirət üçün istifadə etmək üzərə, istiarə etdilər. Bu mənaları, xass'lar fəhm etdilərsə də, idrakları, heyvanların mərtəbəsi olan; hisslərlə idrakı aşa bilməyən avam, inkar etdilər. Sahə ölçüsü xaricində, əzəməti başa düşə bilmədilər; uluvv/ucalıq və fövqiyyəti isə, sadəcə məkan ilə fəhm etdilər.

Əgər bunu fəhm edə bildinsə, o vaxt, Onun, ərşin fövqündə olmasının mənasını da fəhm etmisən deməkdir. Cisimlərin hüdud və miqdarları ilə məhdudlaşdırılmaqdan və təqdir edilməkdən münəzzəh olan Varlıq, mərtəbəcə, bütün cisimlərin fövqündədir. Ancaq ayədə, ərşin xüsusilə zikr

edilmiş olması, ərşin, bütün cisimlərin fövqündə olmasından dolayıdır. Belə olunca da, ərşin fövqündə olan, cümlə cisimlərin də fövqündə olar, deməkdir. Qailin (söz söyləyənin), bu sözündə olduğu kimi: ***"Xəlifə, sultanın fövqündədir."*** Bu söz, xəlifə, -sultanın fövqündə olduğuna görə-, mərtəbələri sultandan aşağı olan digər insanların da fövqündədir mənasına gəlir. Fövqiyyətdən, sadəcə məkan cəhətindən fövqiyyət başa düşən haşəviyyə'yə (1), ancaq heyrət edilər. Bununla bərabər, böyüklərdən 2 şəxs haqqında:

"Məclisin baş tərəfində, bu ikisi, necə (bir sıra ilə) oturacaqlar?" deyə soruşulduğunda, ***"Bu, o birinin fövqündə oturacaq."*** deyə cavab verəcəkdir.

Bunu deyərkən də, çox yaxşı bilir ki, biri, digərinin yanında oturmaqdadır. (Çünki), həqiqi mənası ilə fövqündə oturmuş olsaydı, başının üzərində və ya başının üzərində bina edilmiş bir məkanda oturmuş olması lazım gələrdi.

Bu Haşəviyyə'yə: ***"Yalan danışdın. O, o birinin üstündə və ya altında deyil, yanında oturdu."*** deyilsə, bu etirazdan dolayı, narahat olar və: ***"Mən, mərtəbə cəhətindən və baş tərəfə yaxınlıq mənasında fövqiyyət qəsd edirdim. Baş tərəfə ən yaxın olan, baş tərəfdən uzaq olana izafətlə, onun fövqündədir."*** deyə cavab verəcəkdir.

Buna baxmayaraq, bu haşəvi, hər bir tərtibdə (mərtəbələndirmədə), 2 tərəfin mövcud olduğunu;

~ bu tərəflərdən birinə: uluvv və fövq;

~ digər tərəfə də, müqabili olan kəlimələrin söylənəyəcəyini, başa düşməz.

Tənbeh: Qulun, mütləq Aliyy olması, təsəvvür edilə bilməz. Çünki, varlıqda, onun çata biləcəyi hər dərəcənin fövqündə, bir dərəcə vardır. Bu da, Nəbilər və mələklərin dərəcələridir. Bəli, qulun, insan cinsindən

---

(1) **Haşəviyyə:** Dini mövzularda ağıl yürütməyən, nasların zahirinə bağlı qalmaq surətilə təşbih və təcsimə qədər varan anlayışı mənimsəyənlərə verilən addır. Bu məfhumu ilk istifadə edən, Həsən əl-Basri və Ömər b. Əbdü'l-Əziz'dir. İkisi də, məsələlərdə dərinləməsinə nüfuz etmək bacarığına sahib olmayan kimsələri qəsd etmişlərdir.

Haşəviyyə'nin ümumi olaraq nasları ilk oxuyuşda ağla gələ biləcək mənaları ilə ələ aldıqları, misal üçün, Allaha nisbət edilən əl, üz kimi ifadələri zahiri mənaları ilə qəbul etdikləri və bunun nəticəsində antropomorfist bir İlah anlayışı mənimsədikləri görülür. Bu səbəblə, bənzər baxış tərzləri olan Müşəbbihə və Mücəssimə kimi məzhəb mənsubları, Haşəviyyə qrupu içində mütaliə edilir.)

kimsənin çata bilməyəcəyi bir dərəcəyə nail ola biləcəyi, təsəvvür edilə bilər. Bu da, Peyğəmbərlərin dərəcəsidir.

Ancaq, bu dərəcə də, mütləq uluvv'a/ucalığa nəzərən, 2 cəhətdən nöqsandır:

1. Bu dərəcə, varlıqlardan bəzilərinə izafətlə uluvv/ucalıq'dır.

2. Bu dərəcə isə, vücuda (varlığa) nəzərəndir; vücuba (varlığının vacibliyinə, zəruriliyinə) nəzərən deyildir. Əksinə, başqa bir insanın, (onun) fövqündə varlığı, mümkündür.

Mütləq Aliyy, izafətsiz fövqiyyəti olandır. Və bu, vücuba (vacibliyə, zəruriliyə) görədir (yəni, fövqiyyəti, Varlığının vacib, zəruri olmasından dolayıdır); vücuda (varlığa) görə deyildir (yəni, Ona müqabil olan zidd bir varlığa üstünlüyünə nəzərən deyildir).

* * *

38. Kəbir (isminin şərhi):

O, Kibriya sahibidir. Kibriya isə, Zat'ın kamalından ibarətdir, ki, Zat'ın kamalı deyərkən də, varlığın kamalını qəsd edirəm. Varlığın kamalı isə, bu 2 şeyə, raci (qayıtmaqda, dönməkdə)'dir:

1. ***Əzəli və əbədi olaraq, davamlı olmasıdır.*** Əvvəli və sonrası olan hər varlıq isə, kəsik və nöqsandır.

Varlıq (ömür) müddəti uzanan insan üçün, ***"böyük"***, yəni, ***"yaşca kəbir/böyük"*** deyilir. Bununla, varlığının, uzun olduğu deyilmək istənilir. Lakin buna, yaş etibarı ilə, ***"əzim/böyük"*** deyilməz. ***"Kəbir"*** kəliməsi, ***"Əzim"***in istifadə edilmədiyi yerlərdə istifadə edilir.

Davamlılığı məhdud da olsa, varlıq müddəti uzanan kimsə üçün ***"kəbir"*** deyilərsə; əzəli və əbədi olaraq daim olub, yoxluğu imkansız olan Zat'ın ***"kəbir"*** olması, əlbəttə, əvladır.

2. Onun varlığı, həqiqi varlıqdır ki, bütün varlıqlar, Onun varlığından sudur etməkdə (meydana gəlməkdə)'dir. Varlığı, (digər varlıqlara nəzərən deyil), yalnız özü cəhətindən tamamlanmış olana, ***"kamil"*** və ***"kəbir"*** deyilərsə; bütün mövcudatın varlığı Özündən olan Zat'ın kamil və kəbir olması, əvladır.

Tənbeh: Qullardan ***"kəbir"*** olan, kamal sifətlərinin yalnız özü ilə məhdud qalmayıb başqalarına da sirayət etdiyi kimsədir. Onunla oturub (duran) kimsələr, (mütləq) o kimsənin kamalından bir şey əldə edər. Qulun kamalı isə, ağlında, təqvasında və elmindədir. Bu halda, Allah qullarından ***"kəbir"*** olan:

~ alim;

~ müttəqi (təqva sahibi);

~ xalqı irşad edən;

~ nurları və elmlərindən istifadə edilməyə layiq olan öndər, saleh kimsələrdir. Bundan dolayıdır ki, İsa (əleyhissəlam), belə buyurmuşdur:

"Kim, bilər və əməl edərsə, beləcə, səma mələkutunda, əzim olaraq çağırılar."(1)

* * *

(1) əbu Nuaym, "Hilyətu'l-Övliya", 6/93

39. Hafiz (isminin şərhi):

Çox mühafizə edən (qoruyan)›dır. Hafizin mənasını başa düşmək üçün, hifzin mənasını başa düşmək lazımdır. Bu, 2 vəch/cəhət üzərədir (yəni, bunu, 2 cəhətdən açıqlamaq, mümkündür). (Belə ki):

• **Birinci cəhət:** *Mövcudatın varlıqlarını davamlı qılmaqdır.* Bunun ziddi isə, edam (yox etmək)'dir. Allah Taala, yaşama müddəti uzun olan səmalar, yer, mövcudat və mələklərin; yaşama müddəti uzun olmayan heyvanlar, bitkilər və bənzərlərinin Hafiz'idir.

• **İkinci cəhət:** -ki, bu, hifzin (qorumağın) mənaları arasında, ən zahir olanıdır- *bir-birinə zidd və düşmən olan varlıqları, bir-birindən qorumaqdır.*

Bu düşmənlikdən qəsdim, su ilə atəş arasındakı düşmənlikdir. Çünki bu ikisi, təbiətləri gərəyi, bir-birinə düşməndirlər. Ya su, atəşi söndürəcəkdir; ya da -əgər qələbə qazanarsa- atəş, suyu buxarlaşdırıb havaya çevirəcəkdir.

Ziddlik və düşmənlik, istilik və soyuqluq arasında, açıqdır. Çünki, həmişə, biri, digərinə qələbə çalmaqdadır. Bu, rütubət və quruluq arasında da belədir. Yer üzündəki bütün cisimlər, bu bir-birilə düşmənlik üsuluncadırlar. Çünki, hər canlıda:

~ Ğarizi (fitri, təbii) bir hərarətin mövcud olması lazımdır. Bu fitri hərarət sonlandığında, həyatı da sonlanır. Canlıda,

~ Qan, ya da qan kimi ona qida ola biləcək rütubətli şeylərin də olması lazımdır. Yenə, canlıda,

~ Xüsusilə sümük kimi sərt olan əzaların, bir-birinə sarılması (bir-birini tutması) üçün, quruluğun da olması lazımdır.

~ Canlının bədənindəki istiliyin, (orqanları) yandırmaması; içdəki rütubətin sürətlə nüfuz etməməsi üçün, etidalı təmin edəcək bir şəkildə, soyuqluğun olması da, şərtdir.

Bax, bütün bu düşmənliklər, bir-birilə uyuşmayan ünsürlərdir.

Allah (azzə və cəllə), bir-birilərilə zidd və uyuşmaz vəsfdəki ünsürləri,

~ insan dərisinin altında;

~ heyvan və bitkilərin bədənində; və

~ digər mürəkkəb varlıqlarda

cəm etmişdir.

Allah Taala'nın hifzi olmasaydı, (bunlar), bir-birini itələyər və bir-birindən uzaqlaşardılar. Bu təqdirdə də, canlının mizacı pozular və tərkibi də, yox olub gedərdi. Tərkib və mizacı sayəsində, qəbul etməyə istedadlı olduğu məna (yəni, sirr) də, batil olardı. Allah Taala'nın, bunları mühafizə etməsi,

~ bəzən, onların qüvvələrini etidallı qılması yolu ilə;

~ bəzən də, bunlardan məğlub düşənə imdad etməsi surətilə gerçəkləşir.

• **Etidallı qılmaq (surətilə mühafizə):** məsələn, soyuğun qüvvətinin, istinin qüvvətinə bərabər olmasıdır. Bu 2 qüvvət, qarşı-qarşıya gəldiklərində, biri, digərinə qalib ola bilməz. Əksinə, bunlar, mücadilə edərlər. Çünki, bunlardan birinin digərinə qalib olması, məğlub olmasından əvla deyildir. Beləliklə, bir-birilərinə müqavimət göstərməyə davam edərlər və mürəkkəbin balans içində olması da, onların bu qarşılıqlı müqavimətləri və bərabərə qalmaları sayəsində mümkün olur. Bax, mizacın etidalı dediyimiz şey də, budur.

• **Məğlub olanı dəstəkləmək şəklindəki mühafizəsi isə:** onun qüvvətini, qalib gələnə müqavimət edə biləcək şəkildə, əvvəlki halına gətirməsidir. Məsələn, bədəndəki hərarət, rütubəti yox edib onu qurudur. Hərarət qalib gəlincə, soyuqluq və rütubət zəifləyir, (və bədəndə), hərarət və quruluq, hakim olur. Burda zəif olana kömək etmək, soyuq və rütubətli bir cisim yolu ilə olacaqdır ki, bu da, sudur. Susuzluq da, zatən soyuq və rütubətli olana qarşı ehtiyac deməkdir. Allah Taala, soyuq və rütubətli olanı (yəni, suyu), soyuqluq və rütubət məğlub olduqlarında, bunlara imdad olsun deyə yaratmışdır. Eyni şəkildə, yeməkləri, dərmanları, bir-birinə zidd olan cövhərləri və s. -əgər bunlardan biri, digərinə qələbə çalarsa, qalib olan, ziddilə qarşılaşıb etidal halına qayıtsın deyə- yaratmışdır. Və imdad dediyimiz şey də, bax budur, ki, bu da, yeməkləri, dərmanları, islah edici alətləri və bunları istifadə etməyə vəsilə olacaq mərifəti (yəni, canlıda, bu biliyi) yaratması ilə olur. (Bütün bunlar), Allah (azzə və cəllə)'nin, canlıların bədənlərini və mürəkkəb varlıqları, onların ziddlərindən hifz etməsidir. Bu səbəblər, insanı, daxili həlakdan mühafizə etməkdədir.

Ancaq insan, xarici bəzi səbəblərlə də həlak ola bilər. Yırtıcı heyvanlar(ın hücumu) və ya düşmənlər kimi...Allah, insanı bunlardan hifz etmək üçün, düşmənin yaxınlaşdığını xəbər verən göz, qulaq və digərləri kimi bəzi *"casuslar"* yaratmışdır. Sonra, insan üçün, (özünü) qoruyucu əllər, zireh və qalxan kimi müdafiə (vəzifəsi görən) silahlar; öldürmək üçün qılınc və bıçaq kimi silahlar yaratmışdır. Bütün bu silahları istifadə edib özünü müdafiədən aciz qaldığı hallar üçün də, qaça bilməsi məqsədilə, onlara, bəzi üzvlər vermişdir. Bunlar, yeriyən canlılar üçün, ayaqlar; və uçan canlılar üçün də, qanadlardır. Beləliklə, qüdrəti uca olanın hifzi, göylərin mələkutu

və yerin bütün zərrələrinə qədər şamildir. (Hətta) yerdə bitən həşişin (otun) özünü, sərt qabığı vasitəsilə; təravətini isə, rütubətlə mühafizə edər.

Mücərrəd qabıq ilə (yəni, sadəcə qabığı ilə) qoruna bilməyənləri, özündən çıxan tikanlarla müdafiə edər; və özünü tələf edəcək bəzi canlıları, tikanları ilə dəf edər. Bitkilər üçün, tikan; heyvanlar üçün, buynuzlar, -pəncələr və kəsici dişlər kimi- silahdırlar. Hətta, hər bir su damlasını, özünə zidd olan havaya qarışmaqdan hifz etmək üzərə, bir mühafiz mələk vardır. Çünki, su, bir qaba qoyulub bir müddət eləcə buraxılsa, havaya çevrilər; suya zidd olan hava, onun maiyyət (sululuq) sifətini səlb edər (ortadan qaldırar). Barmağını suya batırıb sonra çıxarsan və tərsinə çevirsən, (barmağın ucunda), aşağıya doğru bir su damlasının titrəyib durduğunu və şənində aşağı düşmək lazım gəldiyi halda, orda, eləcə qaldığını görərsən. Lakin, daha kiçik ikən, barmaqdan ayrılıb düşsəydi, hava, bu damlanı istila edər və onu, havaya (yəni, buxara) çevirərdi. İslaqlığın geri qalanının gəlib bununla birləşməsinə və damlanın böyüməsinə qədər, orda, tərpənməyə davam edər. Damla beləcə böyüyüb düşərkən, havanı sürətlə deşib keçər və hava, bunu istila edib onu buxara çevirə bilməz. Bunun belə olması, o damlanın öz zəifliyini və ziddinin qüvvətini bilərək, islaqlığın geri qalanından yardım istəmək surətilə özünü qoruma istəyindən dolayı deyil; əksinə, bu damladakı bir mənadan dolayı buna müvəkkəl qılınmış bir mələyin qoruması vasitəsilə gerçəkləşir. Bir xəbərdə, belə varid olmuşdur: ***"(Yer üzünə), bir yağış damlası enməz ki, onun ilə bərabər, onu, gedəcəyi yerə çatana qədər qoruyan bir mələk olmasın."***

Bu, haqqdır. Bəsirət sahiblərinin batini müşahidələri, buna dəlalət və irşad etmişdir. Onlar, bu xəbərə təqlidən deyil; bəsirətlərilə iman etmişlərdir.

Allah Taala'nın, göyləri, yeri və aralarındakı varlıqları mühafizəsini şərh etməkdə, -sair fellərində olduğu kimi- söz uzanıb gedər. Ancaq, Hafiz isminin mənası,

-bu kəlimənin iştiqaqını (yəni, hansı kəlimədən meydana gəldiyini) və kəlimənin icmal olaraq mənasını vəhm etməklə deyil-; (yuxarıdakı açıqlama) yolu ilə bilinə bilər.

إِنَّ ٱللَّهَ يُمْسِكُ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ أَن تَزُولَا ۚ وَلَئِن زَالَتَآ إِنْ أَمْسَكَهُمَا مِنْ أَحَدٍ مِّنۢ بَعْدِهِۦٓ...

«Həqiqətən, Allah göyləri və yeri, tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa, onları heç kəs tutub saxlaya bilməz...» (1)

(1) Fatir/41

Tənbeh: Qullardan hafiz olan kimsə, orqanlarını və qəlbini qoruyan; dinini, qəzəbin qalibiyyətindən; şəhvətin, nəfsin və şeytanın aldatmasından mühafizə edəndir. Çünki qul, (bu dünyada), bir atəş çuxurun kənarındadır. Özünü mühafizə etmədiyi təqdirdə, onu yoxluğa aparan həlak edici şeylər tərəfindən çevrələnmiş olacaqdır.

* * *

40. Muqit (isminin şərhi):

• (Bu ismin bir mənası), qidaları yaradıb bədənlərə, yeyəcək; qəlblərə də, mərifət olaraq çatdırandır. (Beləcə, bu isim), Razzəq mənasında olmuş olur. Ancaq, (Razzəq ismindən) daha xüsusidir. Çünki ruzi, qida olana da, olmayana da şamildir. Qida isə, bədənin yaşamağa davam etməsi üçün, ehtiyacı olan (şey)'dir.

• (Bu ismin) başqa bir mənası da, bir şeyə mus̱təvli (bir şeyi is̱tila etmək, hakim olmaq) və müqtədir olmaqdır. İs̱tila isə, qüdrət və elmlə tamamlanır. Allah (azzə və cəllə)'nin bu ayəti, buna dəlildir:

وَكَانَ ٱللَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ مُّقِيتًا...

Və kənəllahu, alə kulli şəyin muqitən.

«Allah, hər şeyə muqit (hər şeyi bilən və müqtədir)'dir.»[1]

(Beləcə), hər şeydən xəbərdar və qadir olandır. (Bunun) mənası isə, qüdrətə və elmə raci (dönməkdə, qayıtmaqda)'dır. Elm sifətindən, daha əvvəl bəhs etmişdik; qüdrət isə, ilərdə gələcəkdir.

Bu məna ilə, yəni, Muqit ilə vəsf edilməsi, tək qadir və tək alim ilə vəsf edilməsindən daha tamdır. Çünki, 2 mənanı özündə toplamağa dəlalət edir. Beləliklə də, bu (Muqit) ismi, mütəradiflikdən (digər isimlərlə eyni mənalı olmaqdan) çıxar.

* * *

(1) Nisa/85

41. Həsib (isminin şərhi):

Bu isim, ***«kifayət edən»*** deməkdir. O (yəni, Allah), Özünə aid olan hər şeyə kifayət edəndir. Allah Taala, hər kəsə, həsib və kafi (kifayət edən)'dir.

Bu vəsf, həqiqi mənada, başqası üçün təsəvvür edilə bilməz. Çünki, kifayətə ehtiyac duyan (bir varlıq), buna:

~ varlığında;

~ varlığının davamında; və

~ varlığının kamalında

ehtiyac duyar.

Varlıqda, Allah (azzə və cəllə)'dən başqa, bir şeyə, tək başına kifayət edən bir şey yoxdur. Şübhəsiz, O, tək başına, bəzi şeylərə deyil; hər şeyə kifayət edəndir. Yəni, O, tək başına, əşyanın (yəni, şeylərin),

~ vücuda gəlməsi (yəni, varlıq qazanması);

~ varlıqlarının davam etməsi; və

~ varlıqlarının kamillik qazanması üçün,

kifayət edəndir.

Zənn etmə ki, yeyəcək və içəcəyə, yer üzünə, səmaya, günəş və digər şeylərə ehtiyac duyduğunda, Ondan başqasına ehtiyac duydun və O, sənə kifayət etmədi. Çünki O, yeyəcək və içəcəyi, yeri, göyü və günəşi yaratmaq surətilə, sənə kifayət edəndir.

Zənn etmə ki, uşağın, özü ilə maraqlanacaq və onu əmizdirəcək bir anaya ehtiyac duymasından dolayı, Allah, o uşağa kifayət edən deyildir. Əksinə, Allah (azzə və cəllə), ona, həsib və kifayət edəndir. Çünki:

~ anasını və anasındakı südü yaradan;

~ uşağa, anasını əmməsini hidayət edən;

~ anasının qəlbində şəfqət və sevgini yaradaraq uşağı bəsləməsini, daşımasını və ehtiyaclarını qarşılamasını, mümkün qılmışdır. Kifayət, ancaq, bu səbəblərlə hasil olmuşdur. Bu səbəbləri uşaq üçün xəlq edən də, mütəfərrid (tək) olan Allah Taala'dır.

Sənə: ***«Ana, tək başına uşağa kifayət edir.»*** deyilsə, bunu, təsdiq edərdin. Ancaq: ***«O, uşağa kifayət deyildir. Çünki, uşaq, südə möhtacdır.***

Əgər anada süd yoxdursa, uşağa necə kifayət edəcəkdir?!» deməzdin. Lakin: ***«Bəli, südə möhtacdır. Lakin, süd də, anadandır. Beləliklə, uşaq, anadan başqasına möhtac olmamış olar.»*** deyərdin.

Ancaq bil ki, süd, anadan deyildir; əksinə, süd də, ana da, ancaq Allah (subhənəhu və taala)'dandır. Onun fəzlindən və comərdliyindəndir.

O, tək başına, hər bir varlığa kifayət edər. Varlıqda, Ondan başqa, tək başına, hər bir varlığa kifayət edən yoxdur. Əşyalar, bir-birilərilə əlaqəlidirlər və hamısı da, Allah (subhənəhu və taala)'nın qüdrətilə əlaqəlidirlər.

Tənbeh: Qul üçün, bu vəsfə giriş (yəni, bu isimdən həzzi, nəsibi) yoxdur. Sadəcə:

1. Uzaq bir məcaz; və

2. Ağla ilk gələn düşüncə və avamın zənninə izafət ilə (təsəvvür edilə bilər).

1. Məcaz olmasına gəlincə:

Məsələn, ana, balasının ehtiyaclarını görməkdə uşağına; və bir müəllim də, tələbəsini öyrətməklə tələbəsinə, başqa birindən yardım almağa gərək qalmayacaq şəkildə kifayət etsələr belə, əslində, kifayət cəhətindən, yalnız vasitə olmuş olar və özləri, kifayət edən olmazlar. Çünki, kifayət edən, Allah (subhənəhu və taala)'dır. Bir ana və bir müəllim, öz varlıqlarında belə, özlərilə qaim və özlərinə kifayət etmədikləri halda, başqa birinə necə kifayət edə bilərlər?!

2. Sabiq (əvvəl keçən) zənnə izafətlə qulun həsib olması isə, belədir:

Qulun, kifayət etmək cəhətindən vasitə olmayıb müstəqil olduğu fərz edilsə belə, o, tək başına kifayət edən deyildir. Çünki, felinə və kifayətinə əlverişli bir məhəllə ehtiyacı vardır. Bu isə, ehtiyac duyulan şeylərin, ən azıdır (yəni, əks təqdirdə, qulun edəcəyi bir fel üçün, ehtiyac duyduğu çox şərt vardır. Dolayısı ilə, qul, tək başına, başqa bir şeyə kifayət etməz).

İlk olaraq, elmin məhəlli olan qəlb lazımdır ki, (özünün kifayət etdiyini zənn edən şəxs), təlim (öyrənmək) xüsusunda, müstəqil ola bilsin. Yeməklərin müstəqarrı (qərar qıldıqları yer) olan mədənin, qətiliklə, yeyəcəkləri bədənə çatdırması xüsusunda da kifayət etməsi lazımdır. Bunlar, özünə ehtiyac duyulan sayıla bilməyəcək qədər çox şeyin arasında yer alır və (onların işləyişləri), insanın ixtiyarına bağlı da deyildir. Ən aşağı dərəcədən olan hər hansı bir fel, ən azından, bir fail ilə bir qabilə (felin, üzərində gerçəkləşdiyi məhəllə) ehtiyac duyur; qabil olmadan, fail, əsla kifayət etməz. Bu isə, (yalnız) Allah (azzə və cəllə) haqqında caizdir.

Çünki, O:

~ felin də;

~ qabil olan məhəllin də;

~ (məhəllin feli) qəbul etmə şərtlərinin də; və

~ (felin var olması üçün) digər bütün ünsürlərin də Xaliqidir.

Lakin, ağla ilk gələn düşüncə, bəzən, yalnız faili nəzərə alır; onun xaricindəkilərini isə, ağlına gətirmir. (Beləliklə), zənn edir ki, fail, (bu feli işləməkdə), tək başına kifayət edir. Ancaq, (həqiqət), belə deyildir.

Bəli, qulun (bu isimdən) nəsibi, öz himməti və iradəsilə, Allahın, tək başına, ona kifayət etdiyini (bilməsidir). Bu kifayət etmə də, qulun, Allah (azzə və cəllə)'dən başqa heç bir şeyi istəməməsi; nə cənnəti istəməsi; nə cəhənnəm ilə qəlbini məşğul edib ondan həzər etməsidir; əksinə, bütün himmətilə, Allah Taala ilə müstağraq olmasıdır. Allahın cəlalını kəşf edərsə:

"O, mənə kifayət edər. Ondan başqasını istəmirəm. Ondan başqasını itirmişəm və ya itirməmişəm, buna əhəmiyyət vermirəm." deyər.

* * *

42. Cəlil (isminin şərhi):

Cəlal sifətlərilə məvsuf olan (Zat)'dır. Cəlal vəsfləri isə:

~ izzət;

~ mülk (yəni, hakimiyyət);

~ müqəddəs (yəni, bütün nöqsan sifətlərdən münəzzəh) olmaq;

~ elm;

~ istiğna (yəni, zənginlik);

~ qüdrət; və (daha əvvəl) zikr etdiyimiz

sifətlərdir.

Bütün bu cəlal vəsflərini (Özündə) cəm edən, mütləq Cəlil'dir. Bunlardan bəzilərilə müttəsif olan (vəsflənən)'in cəlaləti (yəni, cəlilliyi) isə, nail olduğu sifətlər miqdarıncadır. Buna görə, mütləq Cəlil, yalnız Allah (azzə və cəllə)'dir.

• **"Kəbir"** ismi: *(Allahın) Zat'ının kamalına;*

• **"Cəlil"** ismi: *(Allahın) sifətlərinin kamalına;*

• **«Əzim»** ismi isə: *(Allahın) həm Zat, həm də sifətlərinin kamalına* racidir ki, cəlal, bəsirəti əhatə edib; bəsirət, cəlalı əhatə edə bilmədiyində, bəsirətin idrakına nisbətlə, belədir. Sonra, cəlal sifətlərinə gəlincə:

Bunları idrak edən bəsirətə nisbət edildiyində, ***"camal"*** deyə təsmiyyə edilir (adlandırılır). Bu vəsflə müttəsif olana da, ***"cəmil"*** deyilir. ***"Cəmil"*** ismi, əsl vazı (qoyuluşu) etibarı ilə, göz ilə idrak edilən surətə deyilmişdir. Elə ki, göz, ona (yəni, zahiri surətə) müvafiq və uyğun olmuşdur. Sonra, (cəmil) bəsirət ilə idrak edilən surətlərə də nəql edildi (yəni, onlar üçün də istifadə edilməyə başlanıldı). Hətta deyilir ki: ***"Onun sirəti (daxili surəti), həsən və cəmildir."*** Və (ya) deyilir ki: ***"Onun əxlaqı, cəmildir."*** Və bunlar, bəsirətlərlə idrak edilir; göz ilə idrak edilməz.

Batini surət, kamil, mütənasib, bütün layiq olduğu mükəmməllikləri cəm edici və gərəkdiyi kimi olarsa, bu surəti idrak edən batini bəsirətə izafətlə, cəmil olar. Və bəsirətə, elə münasib, elə uyğun olar ki, bunu idrak edən şəxs, bunu mütaliə etdiyi vaxt; zahir göz ilə gözəl surətə nəzər edib idrak edəndən daha çox ləzzət, həyəcan, bir titrəmə yaşayar.

Həqiqi mənada və mütləq olaraq ***"Cəmil"*** olan, yalnız Allah (subhənəhu və taala)'dır. Çünki, aləmdə mövcud olan camal, kamal, gözəllik, hüsn, Onun Zat'ının nurlarından və sifətlərinin əsərlərindəndir. Ondan qeyri, bir ikincisinin olmayacağı bir şəkildə, -nə vücubi/vaciblik, nə də imkan cəhətindən- mütləq kamal sahibi başqa bir (varlıq) yoxdur. Bundan dolayı, arif olan, Onun camalına nəzər edən, sevinc, səadət, ləzzət, xoşbəxtlik idrak edər. Bununla bərabər, cənnətin nemətlərini və gözlə görülən gözəl surətləri, həqir görər. Elə ki, zahiri surətlərin gözəlliyi ilə; bəsirətlər tərəfindən idrak edilən batini surətlərin gözəlliyi arasında, bir münasibət yoxdur. Biz, bu "mənanın örtüsü"nü, -***"İhya-u Ulumi'd-din"*** adlı əsərimizin ***"Məhəbbət"*** adlı babında- qaldırdıq.

(Allahın), Cəlil və Cəmil olduğu; və hər cəmilin (gözəlin), camalını idrak edənin nəzdində məhbub (sevilən) və məşuq (aşiq olunan) olduğu sabit olunca, bu səbəblə, Allah (azzə və cəllə) də, ariflər nəzdində, məhbubdur. (Necə ki), zahiri cəmil (gözəl) surətlər, korlarca deyil, görənlərcə məhbubdursa; Allah (azzə və cəllə) də, ariflər nəzdində, məhbubdur.

Tənbeh: Qullardan cəlil və camal olanlar, batini sifətləri gözəl olanlardır ki, bunlardan, bəsirət sahibi qəlblər ləzzət alarlar. Ancaq, zahiri camalın qədr-qiyməti isə, aşağıdır.

* * *

43. Kərim (isminin şərhi):

~ Gücü çatdığı halda, əfv edən;

~ Vəd etdiyində, vəfalı olan;

~ Verdiyində, ümid ediləndən artığını verən;

~ Nə qədər və kimə verdiyinə baxmayan (yəni, saymayan);

~ Başqasına bir ehtiyac ərz edilməsinə razı olmayan;

~ Özündən uzaqlaşanı azarlayan, ancaq ifrata varmayan (Zat)'dır. O, Özünə sığınıb iltica edənin güvənini boş çıxarmaz; onu vəsilələr və şəfaətçilərdən qəni (zəngin) qılar.

Təkəllüfsüz olaraq özündə bütün bunlar cəm olan, mütləq Kərim'dir. Bu da, sadəcə Allah (subhənəhu və taala) üçün mümkündür.

Tənbeh: Qul, bu xislətləri kəsb etmək surətilə, gözəlləşə bilər. Ancaq, bu, bəzi işlərdə və təkəllüf ilə ola bilər. Beləliklə, kərim olmaqla vəsf edilə bilər. Lakin, mütləq Kərimə nisbətlə, naqis bir şəkildə.

Qul, bu sifətlə necə vəsf edilmiş ola bilməsin ki, Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"Üzüm ağacına, 'kərm' deməyin. Çünki 'kərm', müsəlman (şəxs)'dir." (1)

Deyilər ki: Çünki, üzüm ağacı, -xurma ağacının əksinə-

~ lətif bir ağac;

~ meyvəsi, dadlı;

~ toplanması, asan;

~ yeyilməsi, rahat;

~ tikan və əziyyət verici səbəblərdən uzaq olması səbəbilə, ***"kərm"*** deyə vəsf edilmişdir.

* * *

(1) Bənzəri mənada bir hədis, Buxaridə, [hədis no: 6183] keçməkdədir.

44. Raqib (isminin şərhi):

Alim və Hafiz olan (Zat)'dır. Bir şeyə,

~ ondan qafil olmadan riayət edən;

~ nəzərində saxlayan;

~ daimi və lazimi bir şəkildə diqqətlə mülahizə edən şəxsi, o şeyin özündən qorunduğu şəxs tanıdığı təqdirdə, o şeyə yönələ bilməyəcək hala gəlmişdirsə, o şəxs, ***"raqib"*** deyə təsmiyyə edilir (adlandırılır).

Sanki, Raqib ismi, elm (bilmək) və hifzə (qorumağa) racidir. Ancaq, Raqib isminin elm və hifz ilə açıqlanması, hifz və kontrolun davamına və özündən qorunan şeyə izafətlə olur. Bu hifz və kontrol altındakı şey, özünə çatmağa çalışandan qorunmuş olur.

Tənbeh: Qulun, bu muraqabə (kontrol etmə) vəsfi, -əgər qul, bu muraqabəsini, Rəbbinə və qəlbinə edərsə-, tərifə layiq olar. Bu isə, insanın, Allah Taala'nın:

~ hər bir halında, onu kontrol və müşahidə etdiyini; və ya

~ nəfsinin və şeytanın özünə düşmən olduğunu; və

~ nəfs və şeytanın da, özünü qəflət və müxalifətə daşımaq üçün fürsət axtardığını bilməsilə olur.

(Bunları bilib) hər ikisindən (yəni, nəfs və şeytandan) həzər etməsi; onların hardan özünə gəldiklərini, təlbislərini (bilməsi); hətta onların hər ikisinə mənfəz və yollarını bağlaması, qulun muraqabəsidir.

* * *

45. Mucib (isminin şərhi):

~ İstəyənlərin istəklərinə yardım ilə qarşılıq verən;

~ Dua edənlərin duasına icabət edən (cavab verən);

~ Çətində qalanların çətinliklərinə kifayət edən (Zat)'dır.

Hətta, nida (yəni, dua)'dan əvvəl nemət verən; duadan əvvəl ehsan edəndir. Bu (sifət), Allah (azzə və cəllə)'dən başqası üçün deyildir. Çünki O, möhtacların ehtiyaclarını, onlar istəmədən əvvəl, hətta əzəldən bilməkdədir. Yemək və qidaları yaradaraq, ehtiyacların kifayət etmə səbəblərini tədbir edəndir. Mühim olan xüsuslara çatdıran səbəb və alətləri asanlaşdırandır.

Tənbeh: Qulun, ilk əvvəl, Rəbb Taala'sının əmr və nəhy etdiyi, vəzifələndirdiyi və dəvət etdiyi (yəni, çağırdığı) xüsuslara qarşı, mucib (yəni, icabət edən, cavab verən) olması lazımdır. Sonra da ---> Allah (azzə və cəllə)'nin, özünü nemətləndirdiyi və bunlarda digərlərinə müqtədir qıldığı nemətlərlə, özündən istəyən hər kəsə gücü nisbətincə kömək etməli; əgər gücü çatmazsa da, gözəl cavab verməlidir. Allah (azzə və cəllə), belə buyurmaqdadır: وَأَمَّا ٱلسَّآئِلَ فَلَا تَنْهَرْ ***«Səndən kömək diləyəni, qovma!»*** [1]

Peyğəmbər (sallallahu aleyhi və səlləm) də, belə buyurmaqdadır: ***«Məni qoyun ayağı yeməyə dəvət etsələr, gedərəm; Mənə qoyun ayağı hədiyyə etsələr, qəbul edərəm.»***[2]

Peyğəmbər (sallallahu aleyhi və səlləm)'in dəvətlərə qatılması və hədiyyələri qəbul etməsi, Özündə son dərəcədə olan ikram və icabdandır.

Neçə-neçə həqir və təkəbbürlü adamlar vardır ki, hər hədiyyənin qəbulundan özünü ucaldar (yəni, hər hədiyyəyə tənəzzül etməz); əksinə, öz mövqeyini və kibirini qoruyar; onu dəvət edənin, özündən bir şey istəyənin qəlbinin əziyyət görməsinə də, əhəmiyyət verməz. Belələrinin, bu ismin mənasından nəsibi yoxdur.

* * *

(1) Duha/10

(2) Buxari, hədis no: 2568

46. Vasi (isminin şərhi):

Bu isim, ***«genişlik»*** mənasındakı ***«səa»***dan meydana gəlmişdir. ***«Səa»***:

~ bəzən, çox geniş olub bir çox məlumatı əhatə etməsi etibarı ilə, elmə;

~ bəzən də, nemətləri genişlətmə cəhətindən, ehsana izafə edilir.

(Bu kəlimə), necə təqdir edilərsə edilsin; hansı şey üzərinə nazil olarsa olsun, mütləq Vasi, Allah (subhənəhu və taala)'dır. Çünki:

~ Əgər Onun elminə nəzər edilsə, Onun *«məlumat dənizi»*nin sahili yoxdur. Hətta dənizlər, Onun kəlimələrinə mürəkkəb olsalardı, tükənərlərdi.

~ Əgər Onun ehsan və nemətlərinə nəzər edilsə, Onun məqduratı (təqdir etdiyi) şeylərin, nəhayəti yoxdur.

Hər genişlik nə qədər əzəmətli də olsa, bir yerdə bitər. Genişliyi bir yerdə bitməyən isə, ***«səa»*** isminə daha çox haqq sahibidir. Buna görə, Allah (subhənəhu və taala), mütləq Vasi'dir. Çünki, hər bir vasi, özündən daha geniş olana nəzərən, dardır. Hər genişliyin, bir nəhayəti vardır. Bundan əlavəni (yəni, bu nəhayəti olan nemətlərin, elmin fövqünü) təsəvvür etmək, mümkündür. Nəhayəti olmayanın fövqünü təsəvvür etmək isə, mümkün deyildir.

Tənbeh: Qulun genişliyi:

~ mərifətində (yəni, elmində); və

~ əxlaqında olur.

(Qulun):

~ Elmi artarsa, elminin genişliyi miqdarınca, vasi olar.

~ Əxlaqı, kasıblıq qorxusunun, həsədçinin qəzəbinin, hərisliyin qalib gəlməsinin və digər (bənzəri) sifətlərin özünü daraltmayacağı bir yerə qədər genişləyərsə, bu cəhətdən vasi olar.

Bütün bunların (yəni, qulun elmi və əxlaqının genişləyib dayanacağı) bir nəhayət vardır. Həqiqi Vasi olan isə, Allah Taala'dır.

* * *

47. Hakim (isminin şərhi):

"Hakim": "hikmət sahibi" deməkdir.

"Hikmət": "əşyanın ən fəzilətlilərinin mərifətini, ən fəzilətli elmlə bilmək" deməkdir. Əşyaların ən əcəlli (cəlallısı, ucası), Allah (subhənəhu)'dur. -Daha əvvəl də zikr etdiyimiz kimi- Onun künhünün mərifətini, Özündən başqası bilə bilməz. O, haqq Hakim'dir. Çünki, əşyaların ən əcəllini, ən əcəll (uca) elmlərlə bilir. Elmlərin ən ucası, zavalı təsəvvür edilə bilməyən daimi, əzəli olan; şübhə və gizliliyin özünə çata bilmədiyi məluma uyğun olan elmdir. Bununla, ancaq, Allah (subhənəhu və taala)'nın elmi vəsflənə bilər. Sənətləri, incəlikləri ilə bilib; möhkəm və sağlam bir şəkildə edə bilən şəxsə, ***"hakim"*** deyilir. Və bunun kamalı da, sadəcə Allah Taala'dadır.

Tənbeh: Bütün əşyanı bilib, Allah (azzə və cəllə)'ni bilməyən, ***"hakim/ hikmət sahibi"*** deyə adlandırılmağa layiq deyildir. Çünki, əşyanın ən əcəllini və əfdalını bilməmişdir. Hikmət, elmlərin ən əcəllidir. Elmin ucalığı, məlumun ucalığı miqdarıncadır. Allah (azzə və cəllə)'dən daha əcəll isə, yoxdur. Allah Taala'nı bilən, hakim'dir. Vələv ki, sair yazılı elmlərdə

~ qavrayışı, zəif;

~ dili, ağır (yavaş); və

~ bəyanda, nöqsan olsa da...

Ancaq, qulun hikmətinin, Allah Taala'nın hikmətinə nisbəti, qulun, Allah haqqındakı elminin, Allahın Öz Zatına dair elminə nisbəti kimidir. Bu 2 mərifət və 2 hikmət arasında da, nə qədər fərq vardır. Ancaq, bu fərqə baxmayaraq; o (mərifətullah, yəni, Allahı bilmək), mərifətlərin ən gözəli və ən xeyirlisidir. Hər kimə hikmət verilmişdirsə, ona, çox xeyir verilmişdir.

Bəli, Allahı bilənin kəlamı, başqasının kəlamından fərqlidir. O, cüziyyatdan az bəhs edər; əksinə, kəlamı, külli olar. Acil (dünyəvi) maslahatlara deyil; əksinə, daha çox, aqibətə faydalı olan şeylərə toxunar. Və bu, Allah (azzə və cəllə)'nin mərifətinə sahib hakimlərin (hikmət sahiblərinin) əhvalından insanlar nəzdində zahir olduğundan dolayı, bəlkə də, insanlar, bunun kimi külli kəlimələrə, ***"hikmət"*** ismini vermiş; və

belə danışanlara da, ***"hakim/hikmət sahibi"*** demişlərdir. Bəşərin seyyidi (Rahmən'in salat və salamı, Onun üzərinə olsun), belə buyurur:

• ***"Hikmətin başı, Allah qorxusudur."*** (1)

• ***"Ağıllı kimsə, nəfsini boyun əydirib ölüm sonrası üçün əməl edəndir. Aciz isə, nəfsini, həvasına tabe edib Allahdan təmənni edəndir."*** (2)

• ***"Az olub kifayət edən şey, çox olub diqqət dağıdan şeydən daha xeyirlidir."*** (3)

• ***"Hər kim, bədəni, sağlam; qəlbi, amanda; günlük azuqəsi, yanında sabahlamışdırsa, dünya, sanki, bütünü ilə ona verilmişdir. "*** (4)

• ***"Vəra (təqvanın iləri dərəcəsi) sahibi ol ki, insanların ən abidi olasan. Qənaət sahibi ol ki, insanların ən şükr edəni olasan."*** (5)

• ***"Bəla, dilə müvəkkəldir."*** (6)

• ***"Mənası olmayan şeyləri tərk etməsi, insanın İslamının gözəlliyindəndir."*** (7)

• ***"Səid kimsə, başqasından ibrət alandır."*** (8)

• ***"Susmaq, hikmətlidir. Lakin susan, azdır."*** (9)

• ***"Qənaət, bitməyən bir maldır."*** (10)

• ***"Səbr, imanın yarısı; yəqinlik isə, hamısıdır."*** (11)

Bu və misli olan ibarələr, ***"hikmət"*** deyə adlandırılır. Sahibinə də, ***"hakim"*** deyilir.

* * *

(1) Beyhaqi, "Şuabu'l-İman", no: 728
(2) Tirmizi, hədis no: 2459
(3) İbn Hibban, "Sahih", hədis no: 3329
(4) Tirmizi, hədis no: 2346
(5) ibn Macə, hədis no: 4217
(6) Acluni, "Kəşfu'l-Xafa", 1/343
(7) Tirmizi, hədis no: 2317
(8) ibn Macə, hədis no: 46
(9) Beyhaqi, "Şuabu'l-İman", 4672
(10) "Kəşfu'l-Xafa", 2/133
(11) əbu Nuaym, "Hilyətu'l-Övliya", 5/34

48. Vədud (isminin şərhi):

Xeyri, bütün məxluqatı üçün sevən; onlara, ehsan və səna edən (Zat)'dır. Vədud'un mənası, Rahim'in mənasına yaxındır. Ancaq, rəhmət, mərhuma (rəhmət edilən)'ə izafə edilir; mərhum isə, möhtac və çarəsizdir. Rahimin felləri, zəif bir mərhumu tələb edir; Vədudun felləri isə, bunu istəməz. Əksinə, ən başdan (yəni, əvvəlində bir şey olmadan, səbəbsiz) inam (ehsan) etmək, Vədudun nəticələrindəndir.

Allah (subhənəhu və taala)'nın rəhmətinin mənası, mərhuma xeyir iradə etməsi və Ona kifayət etməsi deməkdir. O, rəhmətin riqqətindən münəzzəhdir. Eyni şəkildə, Onun vudd'u, quluna şərəf və neməti iradə etməsi; və ona, ehsan və inam etməsidir. O, məvəddətin və rəhmətin meylindən münəzzəhdir. Məvəddət və rəhmət, məvvəddət və rəhmət edilən şəxslər haqqında, riqqət və meyl üçün deyil; nəticəsi və meyvəsindən dolayı murad edilmişdir. Fayda, rəhmət və məvəddətin özü və ruhudur. Bax, Allah (subhənəhu və taala) haqqında, -onlara muqarin olmadan və ifadədə şərt qoşulmadan- təsəvvür edilə biləcək olan da, budur.

Tənbeh: Qullardan vədud olan, özü üçün istədiyini, Allahın məxluqatı haqqında da istəyəndir. Bundan daha üstünü isə, digər insanları, öz nəfsinə tərcih edəndir. Onlardan biri, belə demişdir: ***"Atəşin üzərində bir körpü olum ki, insanlar, atəşdən əziyyət çəkmədən, üzərimdən keçə bilsinlər."***

Bunun kamalı isə, insanlardan gördüyü qəzəb, kin və digər əziyyət (verici səbəblər)'in, onun isar (başqasını nəfsinə tərcih etməsinə) və ehsanına əngəl olmamasıdır. (Necə ki) Peyğəmbər (sallallahu aleyhi və səlləm)'in dişi qırılıb üzündən qan axdığında: ***"Allahım, qövmümü bağışla. Çünki onlar, bilmirlər."***(1) buyurmuşdu.

İnsanların Ona etdikləri pisliklər, onlar haqqında xeyir diləməsinə mane olmamışdı. Eyni şəkildə, Peyğəmbər (sallallahu aleyhi və səlləm)'in, Əli (radiyallahu anh)'a əmr etdiyi kimi:

"Əgər muqarrəbləri (Allaha daha yaxın olan qulları) keçmək istəyirsənsə,

(1) Buxari, hədis no: 3477, 6929

~ (sənin ilə bağını) kəsən ilə, (bağını) birləşdir;

~ səni məhrum edənə, ver;

~ sənə zülm edəni isə, bağışla." (1)

* * *

49. Məcid (isminin şərhi):

~ Zatı, şərəfli;

~ Felləri, cəmil;

~ Ətası isə, çox olan'dır.

Sanki, Zatın şərəfi, felin hüsnü ilə birləşincə, ***«məcd»*** olaraq adlandırılır. Eyni zamanda, ***«Macid»*** deyə də adlandırılır. Lakin, ikisindən biri, mübaliğəyə dəlalət edir. Məcid ismi, sanki, Vəhhab və Kərim isimlərinin mənalarını cəm edir. Bunun haqqında, danışılmışdı.

* * *

(1) Əhməd, "Müsnəd", 4/158

50. Bais (isminin şərhi):

Nəşr günü, məxluqatı dirildəcək; qəbrdəkiləri ba's edəcək (dirildəcək); və sinələrdə olanları çıxaracaq olan (Zat)'dır. Ba's, axirətdəki nəşət (diriliş)'dir.

Bu ismin mərifəti, ba's həqiqətinin mərifətinə bağlıdır. Bu da, mərifətlərin ən qapalısıdır. Əksər insanların, bunda mücməl təvəhhümləri və mübhəm təxəyyülləri vardır.

Onların qayələri:

~ ölümü, yoxluq olaraq;

~ ba'sı isə, ilk yaradılışdakı kimi yoxluqdan sonrakı yeni bir yaradılış olaraq təxəyyül etmələridir. İnsanların, ölümü, bir yox olma şəklində zənn etmələri, xətalı olduğu kimi; ikinci yaradılışı ilk yaradılış kimi zənn etmələri də, xətalıdır.

• İnsanların, ölümü bir yox olmaq şəklindəki zənnləri, batildir. Çünki, qəbr, ya cəhənnəm çuxurlarından bir çuxur; yaxud da cənnət baxçalarından bir baxçadır. Ölən insanlar:

~ ya səid (bəxtiyar)'dırlar ki, (bunlar), ayədə də ifadə edildiyi kimi (Al-i İmran/169-170), diridirlər və Rəbləri yanında onlara ruzi verilməkdədir;

~ ya da şaqi (bədbəxt)'dirlər ki, onlar da diridirlər. Bu səbəblədir ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm), Bədr vaqiəsində, müşriklərə belə xitab etmişdi: ***"Rəbbinizin sizə vəd etdiyini haqq olaraq tapdınızmı? Şübhəsiz Mən, Rəbbimin mənə vəd etdiyini, haqq olaraq tapdım."*** (1)

Sonra, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'ə: *"Çürüyən insanlara, necə xitab edirsən?"* deyildiyində, belə buyurdu: ***"Siz, onlardan daha yaxşı eşitmirsiniz. Ancaq onların, cavab verməyə gücləri yoxdur."***

Batini müşahidə, bəsirət sahiblərinə, insanın, əbəd üçün yaradılmış olub, onun üçün, yoxluq, bəhs mövzusu olmadığını göstərməkdədir. Bəli, zaman gəlir, insanın bədəni üzərindəki təsərrüfü kəsilir və onun haqqında: *"öldü"* deyilir. Bəzən də, zaman gəlir, təsərrüfü yenidən verilir, bu səfər də, *"dirildildi və ba's edildi"* deyilir. Yəni, bu, *"Cəsədi dirildildi."* deməkdir. Və bunu həqiqətilə kəşf etməyi, bu kitab, qaldıra bilməz.

(1) Muslim, Cənnət/18

• İnsanların, ba’s’ın ikinci icad olmayıb birincinin bir bənzəri olduğunu zənn etmələri də, səhih deyildir. Əksinə, ba’s, heç bir şəkildə, birincisinə münasib olmayan, yeni bir inşadır. İnsanın, yalnız 2 inşası deyil; bir çox inşaları vardır. Bundan dolayı, Allah Taala, belə buyurmuşdur:

وَنُنشِئَكُمْ فِى مَا لَا تَعْلَمُونَ...

Və nunşiəkum fi mə lə tə’ləmun.

Yəni: ***“...bilmədiyiniz bir şəkildə sizi yaradarıq.”***(1)

Bundan dolayı, laxtalanmış qan, (bu qandan sonra) bir parça ət və digərlərinin yaradılmasından sonra, belə buyurdu:

ثُمَّ أَنشَأْنَٰهُ خَلْقًا ءَاخَرَ ۚ فَتَبَارَكَ ٱللَّهُ أَحْسَنُ ٱلْخَٰلِقِينَ...

“...Sonra, onu, başqa bir yaradılışla inşa etdik. Yaradanların ən yaxşısı olan Allah, nə mübarəkdir!”(2)

Nütfə, torpaqdan bir nəşət (qaynama, doğma, yaradılma); laxtalanmış qan, nütfədən; bir ət parçası, laxtalanmış qandan; ruh, bir ət parçasından nəşətdir.

Ruhun nəşəti (doğuşu, yaradılması)’nın şərəfi və ucalığı, Rabbani bir əmr olması etibarı ilə, Allah, belə buyurur:

ثُمَّ أَنشَأْنَٰهُ خَلْقًا ءَاخَرَ ۚ فَتَبَارَكَ ٱللَّهُ أَحْسَنُ ٱلْخَٰلِقِينَ

“Sonra, onu, başqa bir yaradılışla inşa etdik. Yaradanların ən yaxşısı olan Allah, nə ucadır!” (3)

Bir başqa ayədə də, belə buyurur:

وَيَسْـَٔلُونَكَ عَنِ ٱلرُّوحِ ۖ قُلِ ٱلرُّوحُ مِنْ أَمْرِ رَبِّى

“Səndən ruh haqqında soruşurlar. De: ‘Ruh, Rəbbimin əmrindəndir.” (4)

Ruhun əslinin yaradılışından sonra, hissi idrakların xəlqi, başqa bir nəşət (yaradılış)’dır. 15 yaş civarında ağlı yaratması, ayrı bir nəşət’dir. Hər nəşət isə, yeni bir mərhələdir. (Bu ayətdə, buna işarət edilməkdədir):

وَقَدْ خَلَقَكُمْ أَطْوَارًا ***“O, sizi, mərhələlərdən keçirərək yaratdı.”***(5)

---

(1) Vaqiə/61
(2) Mu’minun/14
(3) Mu’minun/14
(4) İsra/85
(5) Nuh/14

Sonra, vəlayət (vəlilik) xüsusiyyətilə ruziləndirdiyi kimsələr üçün, vəlayət mərhələsinin zühuru, başqa bir nəşət; bundan sonra nübüvvət xüsusiyyətinin zühuru, başqa bir nəşətdir. Nübüvvət də, bir növ ba's'dır. Allah (subhənəhu və taala), nəşr günü insanları ba's edəcəyi kimi; rəsulları da ba's edəcəkdir.

Təmyiz çağına girməmiş uşağa, təmyizin həqiqətini fəhm etdirmək çətin olduğu kimi; müməyyiz (təmyiz çağını keçmiş)'ə də, ağlın həqiqətini və o mərhələdə olan qeyr-i adiliklərin inkişafını fəhm etdirmək, çətindir. Eyni şəkildə, ağıl mərhələsində, vəlayət və nübüvvət mərhələsini fəhm etdirmək də, çətindir. Çünki, ağlın, təmyiz nəşətinin fövqündə bir kamal mərtəbəsi; təmyizin də, hisslər (ilə idrakın) nəşətinin fövqündə bir kamal mərhələsi olduğu kimi; vəlayət də, ağıl nəşətinin fövqündə bir kamillik mərhələsidir. İnsanların təbiətində isə, çata bilmədikləri və nail ola bilmədikləri şeyləri inkar vardır. Hətta, hər bir şəxs, müşahidə etmədiyini və özündə hasil olmayanı inkar edər; və özünə qaib olan şeyə iman etməz. Və bunların təbiətindəndir ki, vəlayət və qeyr-i adiliklərini; və nübüvvət və qeyr-i adiliklərini inkar edərlər. Hətta onların təbiətindəndir ki, ikinci nəşəti (dirilişi) və axirət həyatını inkar edərlər. Çünki onlar, (hələ) ona çata bilməmişlərdir. Əgər müməyyizə, ağıl mərhələsi aləmi və ordakı əcaibliklər zahir olsaydı, onu inkar edəcək və varlığını muhal/imkansız görəcəkdi. Kim ki, özünə çatmayana iman edərsə, o vaxt, qeybə iman etmiş olar. Və bu da, (bütün) səadətlərin açarıdır. Necə ki, ağıl mərhələsi, onun idrak və nəşəti, daha əvvəlki idraklardan uzaq bir münasibət içindədirsə; axirət nəşəti də, bunun kimidir. Hətta, daha da uzaqdır. (Bunun üçün), axirət nəşətini, ilk nəşət ilə müqayisə etməmək lazımdır. Bütün bu nəşətlər, tək (eyni) zatın mərhələləri və kamal dərəcələrinə çıxan pilləkənlərdir. Ta ki, bütün kamalların sonlandığı (İlahi) hüzura yaxınlaşana qədər...Burda, (insan), Allah (azzə və cəllə qatında) rədd və qəbul; hicab və vüsul (arasında) olur. Qəbul edilərsə, ala-yı illiyyinə (ucaların ən ucasına) tərəqqi edər; qəbul edilməzsə, əsfəl-i safilinə (aşağıların ən aşağısına) düşər. Burdakı məqsəd, 2 nəşət arasında, isim xaricində bir münasibətin olmadığıdır. Nəşət və ba'sı bilməyən, Bais isminin mənasını da bilə bilməz. Və bunun şərhi isə, uzun gedər. Onun üçün, bunun üstündən keçirik.

Tənbeh: Ba's'ın həqiqəti, ölüləri, başqa bir nəşətlə inşa edib ihya etməyə (diriltməyə) racidir (rücu etməkdə, qayıtmaqda)'dır. Cəhalət, ən böyük ölüm; elm, ən şərəfli həyat (diriliş)'dir. Allah (subhənəhu və taala), əziz kitabında, elm və cəhaləti, həyat və ölüm olaraq adlandırmışdır. Hər kim, başqasını cəhalətdən mərifətə tərəqqi etdirərsə, onu, başqa bir nəşət ilə inşa etmiş və gözəl bir həyat ilə, onu diriltmişdir. Əgər qul, insanlara elm ilə fayda verər

və onları Allah Taala'ya dəvət edərsə, bu da, ihyanın (dirilişin) bir növüdür. Bu isə, Peyğəmbərlər və Onlara varis olan alimlərin mərtəbəsidir.

* * *

51. Şəhid (isminin şərhi):

Bu ismin mənası, Alim isminə rücu etmək (qayıtmaq) ilə bərabər, Alimdən fərqli olaraq, xüsusi bir izafətə sahibdir. Çünki, Allah (azzə və cəllə), qeybi və şəhadəti biləndir. Qeyb, batin olan; şəhadət isə, zahir olandan ibarətdir. Və o (şəhadət), şəhadət (şahidlik) edilən zahirdən ibarətdir.

Elm,

~ Mütləq olaraq etibara alındığında, O, Alim;

~ Qeybə və batini işlərə izafə edildiyində, Xabir;

~ Zahiri işlərə izafə edildiyində isə, O, Şəhid'dir.

Bununla bərabər, qiyamət günündə, məxluqatı bilib müşahidə etdiyindən dolayı, Şəhid'dir. Bu ismə dair kəlam, Alim və Xabir isimlərindəki kəlama yaxın olduğu üçün, təkrar etməyəcəyik.

* * *

52. Haqq (isminin şərhi):

✓ Haqq, batilin müqabilidir.

Əşya (şeylər), ziddlərilə bilinir. Haqqında xəbər verilən şey isə:

~ ya mütləq batil;

~ ya mütləq Haqq;

~ ya da bir cəhətdən, haqq; bir cəhətdən də, batildir.

• Zatı etibarı ilə mumtəni (imkansız) olan şey, mütləq batildir.

• Zatı etibarı ilə vacib (zəruri olan, yəni, olmaması mümkün olmayan), mütləq Haqq'dır.

• Zatı etibarı ilə mümkün olub qeyri ilə vacib olan isə, bir cəhətdən, haqq, bir cəhətdən isə, batildir. (Belə şey), zatı etibarı ilə vücudu/varlığı olmayıb, batildir. (Bu şey), Qeyrisi tərəfindən varlıq əldə etmişdir. Özünü var edən (yəni, Allah tərəfindən) bu şey mövcud olub, bu cəhətlə haqq; öz nəfsi (zatı) cəhətindən isə, batildir. Necə ki, Allah Taala buyurmaqdadır:

...كُلُّ شَيْءٍ هَالِكٌ إِلَّا وَجْهَهُ...

"Onun vəchindən/üzündən/zatından başqa hər şey, həlak olandır." (1)

(Allah), müəyyən bir zaman dilimində belə deyil; əzəli və əbədi olaraq belədir. Çünki, Ondan başqa hər şey, əzəli və əbədi olaraq, öz zatları etibarı ilə varlığa haqq sahibi olmayıb; Allah cəhətindən varlığa haqq qazanmışlardır (yəni, Allaha nisbətlə varlıq əldə etmişlərdir). Belə olunca da, özləri cəhətindən deyil; başqası cəhətindən haqq olmuşlardır. Burdan bilinir ki, mütləq Haqq, zatı etibarı ilə həqiqi Mövcuddur. Hər haqq, öz həqiqətini, Ondan almışdır.

✓ Bəzən, ağlın, mövcud olan məqula (əqlən idrak edilən şeyə) təsadüf edib ona müvafiq olmasına da, ***"haqq"*** deyilir. Bu şey, öz zatı cəhətindən, mövcud; bunu olduğu kimi idrak edən ağıla izafətlə də, ***"haqq"*** deyə adlandırılır. O halda, haqq sahibi olmağa ən çox haqq sahibi olan varlıq, Allah Taala'dır. Mərifətlər (biliklər) içində haqq olmağa ən layiq olanı isə, Allah (azzə və cəllə)'nin mərifətidir. Şübhəsiz bu (mərifət, bilik), öz nəfsində haqqdır. Yəni, əzəli və əbədi olaraq, məluma müvafiqdir və bu müvafiqlik, lizatihi (öz zatı üçün) olub, liğayrihi (başqası üçün) deyildir.

(1) Qasas/88

Yəni bu, başqasının varlığını bilmək (kimi) deyildir. Çünki o şey (yəni, Allahdan başqasının varlığını bilmək), başqası (yəni, bu şeyin özü) mövcud olmağa davam etdikcə var olar; (bu varlıq) yox olarsa, bu etiqad da batil olar. Çünki o, öz zatı üçün var deyildir. Əksinə, başqası üçün vardır (yəni, Başqasının var etməsilə var olmuşdur).

✓ Haqq və batil, bəzən də, sözlər üçün istifadə edilir; ***"haqq bir söz"*** və ***"batil bir söz"*** deyilir. Bundan dolayı, sözlərin ən haqq olanı, ***"lə iləhə illəllah"***dır. Çünki, əzələn və əbədən doğrudur. O, başqa bir şeyə nisbətlə deyil; öz zatı üçün doğrudur.

Buna görə, ***"haqq"*** ləfzi:

~ ayandakı (xarici aləmdəki) varlıq;

~ zehndəki varlıq -ki, mərifətdir-;

~ dildəki varlıq -ki, sözdür- üçün istifadə edilir.

Haqq olmağa ən çox haqq sahibi olan varlıq:

~ varlığı lizatihi əzələn və əbədən, sabit;

~ mərifəti, əzələn və əbədən, haqq;

~ Özünə ediləcək şəhadət isə, əzələn və əbədən haqq olandır.

Bütün (bu vəsflər) də, həqiqi Mövcudun Zatı üçün olub, Ondan qeyrisi üçün (mümkün) deyildir.

Tənbeh: Qulun bu isimdən nəsibi, özünü batil görüb, Allah (azzə və cəllə) xaricində heç bir şeyi, haqq görməməsidir. Qul, (hər nə qədər) haqq olsa da, (onun haqq olması), öz nəfsindən deyildir; (əksinə), Allah (azzə və cəllə) ilə haqq'dır. Çünki, o, öz zatı ilə deyil; Onun ilə mövcuddur. Əgər Haqq, onu icad etmiş (yaratmış) olmasaydı, öz zatı etibarı ilə batil olmuş olardı. (Dolayısı ilə), ***"ənə'l-haqq/mən, haqqam"*** deyən (Hallac Mənsur), bu sözü, bu 2 təvildən birinə görə söyləməmişdirsə, xəta etmişdir:

1. (O), ***"ənə'l-haqq"*** deyərkən, ***"haqq ilə olmağı"*** (yəni, özünü, Haqq olan Allahın meydana gətirdiyini (qəsd etmişdir).

Bu təvil, uzaqdır. Çünki, (ənə'l-haqq) ləfzi, bu mənanı ifadə etmir. Digər tərəfdən, bu mənası ilə haqq olmaq, yalnız bu sözü söyləyənə məxsus olmayıb; əksinə, Allah xaricindəki hər varlıq, Haqq ilə (yəni, Allahın var etməsilə) mövcuddur.

2. (O), ***"ənə'l-haqq"*** deyərkən, Haqq'da qərq olmağı; elə ki, özündə, Haqq'dan başqa bir varlığa yer qalmamış olmağı qəsd edə bilər.

Bir şey, başqa bir şeydə qərq olduğunda, ***"Bu, odur."*** deyilə bilər. Şairin dediyi kimi: ***"Mən, sevdiyim (şəxs)'əm. Sevdiyim də, mən."***

Yəni, (şair), bununla, qərq olmağı (yəni, sevdiyi şəxsin sevgisində qərq olub, özünü itirmiş olduğunu) ifadə etməkdədir.

• Tasavvuf əhlində (sufilərdə) qalib olan (hal), özlərini, öz zatları etibarı ilə fane (Haqqın varlığında fane olmuş) gördükləri üçün, onların dillərində söz və hal olaraq ən çox cari olan, Allah Taala'nın isimlərindən ***"əl-Haqq"***dır. Çünki onlar, həqiqi Zatı mülahizə edər; özlərində həlak olacaq olanı (yəni, öz zatlarını) mülahizə etməzlər.

• Kəlam əhli isə, fellərlə istidlal etmə xüsusunda iləri getdikləri üçün, onların dillərində cari olan, əksəriyyətlə, Xaliq ismilə eyni mənalı olan ***"əl-Bari"***dir.

• Məxluqatın (xüsusilə insanların) əksəriyyəti, Onun xaricindəki şeyləri görər; və Ona (yəni, Allaha), öz gördüklərilə istişhad edərlər (yəni, şahid gətirərlər). Bunlar, bu ayənin muxatabıdırlar:

أَوَلَمْ يَنظُرُوا۟ فِى مَلَكُوتِ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ وَمَا خَلَقَ ٱللَّهُ مِن شَىْءٍ...

"Onlar, göylər və yerin məlakutuna, Allahın yaratdığı şeylərə heç baxmadılarmı?"(1)

• Siddiqlər isə, Ondan başqa bir şey görməzlər. Ona, yenə Onunla dəlil gətirərlər. Bunlar isə, bu ayətin muxatabıdırlar:

أَوَلَمْ يَكْفِ بِرَبِّكَ أَنَّهُۥ عَلَىٰ كُلِّ شَىْءٍ شَهِيدٌ...

"Rəbbinin hər şeyə şahid olması, kifayət etmirmi?"(2)

* * *

(1) Əraf/185

(2) Fussilət/53

53. Vəkil (isminin şərhi):

İşlərin, Özünə vəkil edildiyi (Zat)›dır. Vəkil qılınanlar da, 2 qisimdir:

1. Bəzi xüsuslarda vəkil qılınanlar ki, bunlar, naqisdirlər.

2. Bütün xüsuslarda vəkil qılınan (Zat) ki, bu, ancaq, Allah (subhənəhu və taala)›dır.

Bir də, vəkil qılınanlar, başqa bir etibarla, 2 qisimdirlər ki, bunların:

• **bir qismi:** zatları cəhətindən deyil; təvkil (vəkil qılmaq) və təfvid (həvalə etmək) yolu ilə, vəkalətə haqq qazanarlar. Belələri, vəkalət cəhətindən, naqisdirlər. Çünki, vəkil ola bilmək üçün, təvfidə və təvliyəyə (vəlayətə) möhtacdırlar.

• **digəri isə:** bir başqasının təvfidi və təvliyəsinə ehtiyac duymayıb; işlərin Özünə həvalə edilməsinə; və qəlblərin, Özünə təvəkkül etməsinə Zatı etibarı ilə haqq sahibidir ki, bax, mütləq vəkil olan da, Budur.

Vəkillər, bir də, vəkil qılındığı xüsusları:

~ kamil və qüsursuz şəkildə yerinə yetirən ilə;

~ tam olaraq yerinə yetirə bilməyən

şəklində də ikiyə ayrılır.

Mütləq vəkil, işlər Özünə vəkalət edilən və bunu, etina ilə yerinə yetirəndir. Və onu, tamamilə yerinə yetirməyə də, qadirdir. Bu da, ancaq, Allah Taala'ya məxsusdur. Bu ismin mənasına dair danışdıqlarımızdan, qulun bu isimdən hissəsinin miqdarını da başa düşmüş oldun.

* * *

54 və 55. Qavi və Mətin (isimlərinin şərhi):

Qüvvət kəliməsi, tam qüdrətə; mətanət isə, qüvvətin şiddətinə dəlalət edir.

Allah (subhənəhu və taala):

~ *qüdrətinin əskiksiz olması* cəhətindən: ***«Qavi»;***

~ *qüdrətinin şiddətli olması* cəhətindən isə: ***«Mətin»***dir.

Bunlar, qüdrətin mənalarına racidir (qayıtmaqdadır) və ilərıdə gələcəkdir.

* * *

56. Vəli (isminin şərhi):

«Sevən» və ***«kömək edən»*** deməkdir. Allahın məvəddət və məhəbbətinin mənası, daha əvvəl keçmişdi. Köməyinin mənası, zahirdir. O:

~ din düşmənlərinə mane olar;

~ övliyasına (vəlilərinə) isə, kömək edər.

Allah (subhənəhu və taala), belə buyurur: ٱللَّهُ وَلِيُّ ٱلَّذِينَ ءَامَنُوا۟ *Allahu vəliyyulləzi əmənu.*

Yəni: ***"Allah, iman edənlərin vəlisidir."***(1)

ذَٰلِكَ بِأَنَّ ٱللَّهَ مَوْلَى ٱلَّذِينَ ءَامَنُوا۟ وَأَنَّ ٱلْكَٰفِرِينَ لَا مَوْلَىٰ لَهُمْ

Zəlikə biənnəllahə məvləlləzinə əmənu və ənnə'l-kəfirinə lə məvlə ləhum.

Yəni: ***"Bu, ona görədir ki, Allah möminlərin Mövlasıdır. Kafirlərin isə, heç bir Mövlası yoxdur."***(2)

كَتَبَ ٱللَّهُ لَأَغْلِبَنَّ أَنَا۠ وَرُسُلِىٓ ۚ إِنَّ ٱللَّهَ قَوِىٌّ عَزِيزٌ

"Allah belə yazmışdır: 'Mən və elçilərim, hökmən qalib gələcəyik!' Həqiqətən, Allah, qavi (qüvvətli) və əzizdir."

(1) Bəqərə/257

(2) Muhammməd/11

Tənbeh: Qullardan vəli olanlar, Allah (azzə və cəllə)'ni və Onun dostlarını (vəlilərini) sevən; ona (yəni, Allahın dininə) və dostlarına kömək; düşmənlərinə isə, düşmənlik edəndir. Onun düşmənlərindən, nəfs və şeytan vardır. Hər kim bunlara tabe olmayıb onları köməksiz buraxar; Allahın əmrini yerinə yetirər; vəlilərilə dostluq edər və düşmənlərinə düşmənlik edərsə, qullar arasında vəli olan, odur.

* * *

57. Həmid (isminin şərhi):

Özünə həmd və sənа ediləndir. Allah (azzə və cəllə):

~ (həm) əzəli olaraq Öz Zatına həmd etməsi;

~ (həm də) əbədi olaraq qulları tərəfindən Özünə həmd edilməsi cəhətindən, Həmid'dir.

Bu isim, cəlal, uluvv (ucalıq) və kamal sifətlərinə raci olub zikr edənlərin zikrinə nisbət edilir. Çünki həmd, kamal vəsflərinin, kamal vəsfləri olmaq cəhətindən zikr edilməsidir.

Tənbeh: Qullardan həmid olan, əqidəsi, əxlaqı və sözləri, -ikinci bir kimsədə (misalı) olmayacaq dərəcədə- tərifləndir. Bu da, Muhammməd (sallallallahu aleyhi və səlləm) ilə Ona yaxın olan Nəbilər və bunlar xaricində də, vəlilər və alimlərdir. Bunlardan hər biri də, tərifə layiq əqidə, əxlaq, əməl və sözləri nisbətincə, həmiddir.

(Bu halda), nə qədər tərifə layiq vəsfləri olarsa olsun, heç kim, məzəmmət və qüsurdan bəri olmadığına görə, mütləq Həmid, Allah Taala'dır.

* * *

58. Muhsi (isminin şərhi):

"Alim" mənasındadır. Lakin elm (məfhumu), məlumat (məlum olanlar)›ı:

~ saymaq;

~ ədədlərini bilmək; və

~ onları əhatə etmək cəhətindən

ələ alındığında, ***"ihsa/saymaq"*** deyə adlandırılır.

Mütləq Muhsi, elmində, hər bir məlumun həddi (sərhədi), ədədi və məbləği aşkar olandır. Qul isə, bəzi məlumatı elmilə saymağa imkanı olsa da, bunlardan bir çoxunu həsr etməkdən, acizdir. (Bu halda), qulun bu isimdən nəsibi, elm sifətindəki nəsibi kimi, zəifdir.

* * *

59. və 60. Mubdi və Muid (isimlərinin şərhi):

Bu isimlər, mucid/icad edən mənasındadırlar. Ancaq icad (feli):

~ əgər daha əvvəl bir misli olmazsa, *«ibda»*;

~ əgər daha əvvəl bir bənzəri varsa, *«iadə»*

deyə adlandırılır.

Allah (subhənəhu və taala), insanları yaratmaqla başladı; sonra O, onları, *«iadə»* edib haşr edəcək olan (Zat)'dır. Bütün əşya, Ondan başladı və Ona dönəcəkdir. Onun ilə başladı (zühur etdi) və yenidən Onun ilə iadə ediləcək/geri dönəcəkdir.

* * *

61. və 62. Muhyi və Mumit (isimlərinin şərhi):

Bunlar da, icad (felinə) racidir. Lakin mövcud olan şey:

~ həyatdırsa, buna *"ihya/həyat vermə"*;

~ ölümdürsə, buna da *"imatə/öldürmə"* deyilir.

Allah (subhənəhu və taala)'dan başqa, ölümün də, həyatın da başqa yaradıcısı yoxdur. Allah (azzə və cəllə)'nin xaricində, nə Muhyi (həyat verən), nə də Mumit (öldürən) yoxdur. Daha əvvəl, *"Bais"* ismində, həyatın mənasına işarət edilmişdi. Bundan dolayı, təkrar edilməyəcəkdir.

* * *

63. Hayy (isminin şərhi):

Felləri və idrakı olan (Zat)'dır. Hətta felləri və idrakı olmayan, ölüdür.

İdrakın ən aşağı dərəcəsi, idrak edənin, öz nəfsinin şüurunda olmasıdır. Nəfsinin şüurunda olmayan, cansız və ölü kimidir.

Mütləq və kamil Hayy (həyat sahibi):

~ bütün idrak edilənlər, idrakının;

~ bütün mövcudat, felinin muhtəvasında olan; elə ki, elmindən, heç bir idrak edilən; felindən də, heç bir məful (felin üzərində təsir buraxdığı şey) istisna olmayan (Zat)'dır. Bu da, ancaq Allah (azzə və cəllə)'dir. Mütləq Hayy, Odur. Ondan başqa hər bir həyat sahibinin həyatı, idrakı və feli nisbətindədir; və bu idrak və fellər isə, az və məhduddur.

Sonra, bu xüsusda, həyat sahibləri, fərqli-fərqlidirlər. Mərtəbələri də, fərqliliklərinə görədir. Daha əvvəl, mələklərin, insanların və heyvanların (həyat) mərtəbələrində, buna işarət edilmişdi.

* * *

64. Qayyum (isminin şərhi):

Bil ki, əşya (şeylər), bir məhəllə:

~ ehtiyac duyanlar ilə;

~ ehtiyac duymayanlar olmaq üzərə, 2 qismə ayrılırlar.

Bir məhəllə ehtiyac duyanlar, arazlar və cövhərlər kimidirlər. Bunlar haqqında, ***«öz başlarına qaim ola bilməyənlər»*** deyilir. Öz başlarına qaim olanlara misal isə, cövhərlərdir. Ancaq, cövhər, bir məhəldə iqamət etməkdən müstağni (zəngin) olub öz nəfsilə qaim olsa da; varlığı, labüd və var olmasının şərti olan şeylərdən müstağni deyildir. Belə olunca, cövhər, əslində, öz başına qaim olmuş sayılmaz. Çünki, hər nə qədər (araz kimi) bir məhəllə ehtiyacı yoxdursa da, varlıqda qaim olmaq üçün, özü xaricində başqasının varlığına ehtiyacı vardır. Əgər varlıqda,

~ zatı, öz zatına kifayət edən;

~ varlığının qaim olması, bir başqası ilə olmayan;

~ varlığının davamlılığı, başqa bir varlığı şərt qoşmayan

bir varlıq var isə, bax o, mütləq mənada özü ilə qaim olandır.

Bir də, bununla bərabər,

~ digər bütün varlıqların varlığı, Onunla qaimdirsə, -elə ki, heç bir şeyin, onsuz var olması da, varlığını davam etdirməsi də mümkün deyilsə- bax, Qayyum, yalnız Ona deyilir. Çünki, Özünün qaim olması, Öz Zatı ilə olduğu kimi; hər bir şeyin qaim olması da, Onun ilədir. Bu isə, ancaq Allah (subhənəhu və taala)'ya aiddir.

(Tənbeh): Qulun bu isimdən nəsibi, Allahdan başqasından müstağni olması nisbətindədir.

* * *

65. Vacid (isminin şərhi):

Heç bir şey, Onu möhtac qoya bilməz. ***«Faqid/yoxsul, itirən»*** (sözünün) ziddidir. Varlığına ehtiyac duymadığı bir şeyin keçib getməsinə ***«faqid»*** deyilməsi, ümid edilməz. Nə zatına, nə də zatının kamalı ilə əlaqəli olmayan bir şeyi nəzdində saxlayana da, ***«vacid»*** deyilməz. Əksinə, Vacid, özündə mövcud olması labüd olan şeylər xüsuslar arasında, heç bir şeyin Özünü möhtac qoya bilmədiyi (Zat)'dır. Uluhiyyət və kamal etibarı ilə lüzumlu olan hər şey, Allah (subhənəhu və taala)'da mövcuddur. (Bu etibarla), O, Vacid'dir. (Hətta) mütləq Vacid'dir. Onun xaricindəkilər isə, kamal (sifətləri) və (bunların) səbəbləri xüsusunda bəzi şeylər özlərində mövcud olsalar da, bir çox şeydə, faqiddirlər. Bu səbəblə də, ancaq, izafi olaraq vacid ola bilərlər.

* * *

66. Macid (isminin şərhi):

Məcid ilə eyni mənalıdır. Âlim'in, *«alîm»* mənasında olması kimi. Lakin faîl vəzni, daha çox mübaliğə ifadə edir. Mənası isə, daha əvvəl keçmişdi.

* * *

67. Vahid (isminin şərhi):

• Təcəzzi etməyən (bölünməyən);

• İkincisi olmayan deməkdir.

~ **Təcəzzi etməməsinə gəlincə:** bölünə bilməyən bir cövhər (atom) kimidir.(1) *«Bu, vahiddir.»* deyildiyində, *«cüzü yoxdur»* deyilmək istənilir. Cüzü (parçası) olmaması cəhətindən, nöqtə də, belədir. Allah Taala, Zatında bölünə bilmə təsəvvürünün imkansızlığı cəhətindən, Vahiddir.

~ **İkincisinin olmamasına gəlincə:** bir bənzəri olmayan deməkdir. Məsələn, günəş, cisim olması cəhətindən zatında cüzlərdən mütəşəkkil olub vəhmdə cüzlərə ayrılmağı qəbul etsə də, bir bənzəri yoxdur (2). Ancaq, bir bənzərinin mümkün olması, imkan daxilindədir. Əgər varlıqda, varlığın xüsusiyyəti cəhətindən bir olub bu xüsusiyyət cəhətindən özünə şərik bir başqa varlığın mövcudluğu heç bir şəkildə təsəvvür edilə bilmirsə, əzələn və əbədən mütləq Vahid, Odur.

(Tənbeh): Bir qul, xeyirli xislətlərdən bir xislətə sahib olar; həmcinsində bənzəri olmazsa, o, ***«vahid»*** sayılar. Və bu, həmcinsinə və zamana nisbətlədir. Çünki, başqa bir vaxtda bənzərinin zühur etməsi, imkan daxilindədir. Bir də, bu, bəzi xislətlərə izafətən belədir. Bütün xislətlərə nəzərən deyil. Mütləq mənada vəhdət, ancaq Allaha Taala üçündür.

* * *

(1) **Cövhər:** ***«var olma cəhətindən, sifətlər kimi mövsufuna möhtac olan varlıqlardan fərqli olaraq, tək başına qaim olan varlıqlar»*****a** deyilir. Lakin burda, imam, mütləq mənada cövhəri deyil, cövhər-i fərdi qəsd etməkdədir. Bir kəlam termini olaraq *«cövhər-i fərd»* isə, varlıqlarda parçalara bölünməyən ən kiçik cüz mənasındadır.

(2) İmamın cövhər və günəş nümunələrilə demək istədiyi, budur: Allah Taala xaricindəki bəzi varlıqlar, bəzi yönlərilə tək olsalar da, Allah Taala kimi hər mənada tək ola bilməzlər.)

68. Saməd (isminin şərhi):

Bütün ehtiyaclar xüsusunda, Özünə ehtiyac duyulan və rəğbət edilən şeylər xüsusunda da qəsd ediləndir. Çünki, seyyidlik (hakimiyyət və şərəf), Özündə sonlanmaqdadır.

(Tənbeh): Allah Taala:

~ din və dünya işlərinin mühimlərində, qullarının məqsədi qıldığı (yəni, ona yönəldikləri);

~ xalqın ehtiyaclarını, onun əli və dili vasitəsilə ortadan qaldırdığı qullarını, bu vəsfin mənasından bir nəsib ilə nemətləndirmişdir. Lakin, mütləq Saməd, bütün ehtiyacların Özünə ərz edildiyi Allah (subhənəhu və taala)'dır.

* * *

69 və 70. Qadir və Muqtədir (isimlərinin şərhi):

Bu 2 ismin mənası, ***«qüdrət sahibi»*** deməkdir. Lakin əl-Muqtədir, Qadir'ə görə, daha çox mübaliğə ifadə edir.

«Qüdrət»: «bir şeyin, iradə və elm sifətlərinin təqdirilə və bu ikisinin uyğun bir şəkildə varlıq meydanına çıxmasını təmin edən məna»dır.

«Qadir», bir şeyi istərsə, edər; istəməzsə də, etməz olandır. Qadirin diləməsi də, şərt deyildir. Şübhəsiz, Allah, hal-hazırda, qiyaməti qoparmağa qadirdir. Çünki, əgər istərsə, bunu edə bilər. Əgər etmirsə, bunu istəmədiyindən dolayıdır. Onun əzəli elmində, qiyamətin gerçəkləşəcəyi vaxt təqdir edildiyi üçün, hal-hazırda gerçəkləşməsini istəməz. Bunu, hal-hazırda istəməməsi isə, (bu xüsusdakı) qüdrətinə, xələl gətirməz.

Mütləq Qadir, hər bir mövcudu tək başına ixtira edən və bu ixtira xüsusunda, qeyrisinin yardımından zəngin olandır. Və O, Allah Taala'dır.

(Tənbeh): Qula gəlincə, ümumi olaraq bir qüdrəti vardır. Ancaq, bu qüdrəti, naqisdir. Sadəcə, bəzi mümkinləri (varlığı və yoxluğu bərabər

olan, Allahdan qeyri hər şeyi) ələ alar; ixtira üçün də, səlahiyyəti yoxdur. Qul, öz qüdrəti vasitəsilə, məqdur (təqdir etdiyi, qüdrətinin əlaqəli olduğu şey)'in varlıq səbəblərinin hamısını təmin etdiyində, onun məqdurlarını da yoxdan yaradan, yenə ancaq Allah Taala'dır. Bunun altında, belə bir kitabın qaldıra bilməyəcəyi bir dərinlik vardır.

* * *

71 və 72. Muqaddim və Muaxxir (isimlərinin şərhi):

«əl-Muqaddim» və ***«əl-Muaxxir»*****:** ***«yaxınlaşdıran»*** və ***«uzaqlaşdıran»*** deməkdir.

~ Yaxınlaşdırdığını, təqdim etmiş;

~ Uzaqlaşdırdığını isə, təxir etmiş deməkdir.

• Peyğəmbərlərini və vəlilərini, yaxınlaşdırmaq və hidayət etmək surətilə təqdim etmiş;

• Düşmənlərini isə, uzaqlaşdırmaq və Özü ilə onların arasına pərdə qoymaq surətilə təxir etmişdir. Məsələn:

Padşah, 2 nəfəri özünə yaxınlaşdırıb bunlardan birini, digərinə nəzərən daha yaxın qılsa, buna, ***«Onu təqdim etdi.»*** deyilir. Yəni, onu, digərlərindən qabağa çəkmiş oldu.

«Quddəm» (iləridə olmaq), bəzən məkanda, bəzən isə mərtəbə/rütbədə olur. Rütbə ilə iləridə olan, önündə olduğu şeyə nəzərən, öndə olmuş olur. O halda, burda, qayə deyilən bir məqsəd olmalıdır ki, iləri keçən, ona bağlı olaraq iləri keçsin; arxada qalan da, yenə ona bağlı olaraq arxada qalsın. Məqsəd isə, Allah (subhənəhu və taala)'dır. Allah Taala nəzdində, muqəddəm olan (iləri keçirilən), muqarrəb (Ona yaxın) olan kimsədir. O, mələkləri təqdim etmiş; sonra Peyğəmbərləri; sonra vəliləri; sonra da alimləri. Hər mutəaxxir (arxada qalan) isə, önündə olana nəzərən təxir edilmiş (ertələnmiş, axıra buraxılmış); arxasında olana nəzərən isə, təqdim edilmiş (iləri çəkilmiş)'dir. Muqaddim də, Muaxxir də, Allah (subhənəhu və taala)'dır. Çünki, əgər sən, qulların təqaddum (iləri çıxmalarını) və təaxxur (geri qalmalarını), müvəffəq olmalarına və ya təqsirlərinə, fərqli vəsflərdəki kamal və ya nöqsanlıqlarına bağlayacaq olarsansa:

~ onların arzu və motivasiyalarını elm və ibadətdə müvəffəq olacaq şəkildə yönləndirən, Kimdir?

~ yaxud da, arzularını, (öz kisblərilə) doğru yolun ziddinə yönləndirmək surətilə təqsirli olmalarına səbəb olan, Kimdir?

Bunların hamısı, Allah Taala'dandır. Muqaddim də, Muaxxir də, Odur. Burdakı təqdim və təxir, mərtəbə/rütbə cəhətindəndir. Burda, iləri çıxmış olanın, elmi və əməli ilə deyil; Allah (azzə və cəllə)'nin iləri çıxarması ilə iləri çıxdığına işarət vardır. Mutəaxxir də, eyni şəkildə. Allah Taala'nın bu ayələri, bunu açıqlamadadır:

إِنَّ ٱلَّذِينَ سَبَقَتْ لَهُم مِّنَّا ٱلْحُسْنَىٰٓ أُوْلَٰٓئِكَ عَنْهَا مُبْعَدُونَ

"Əzəldən ən gözəl aqibət yazılmış insanlara gəldikdə isə, onlar, Oddan uzaqlaşdırılmış olacaqlar." (1)

وَلَوْ شِئْنَا لَءَاتَيْنَا كُلَّ نَفْسٍ هُدَىٰهَا وَلَٰكِنْ حَقَّ ٱلْقَوْلُ مِنِّى لَأَمْلَأَنَّ جَهَنَّمَ مِنَ ٱلْجِنَّةِ وَٱلنَّاسِ أَجْمَعِينَ

"Əgər Biz istəsəydik, hər kəsi doğru yola yönəldərdik. Lakin Mənim: 'Cəhənnəmi mütləq bütün günahkar cin və insanlarla dolduracağam!' Sözüm yerinə yetəcək." (2)

Tənbeh: Qulun, feli sifətlərdən nəsibi, zahirdir. Bu səbəblə, mövzunu uzatmaqdan həzər etmək üçün, hər isimdə, bu məsələni təkrar etməyəcəyik. Çünki, dilə gətirdiyimiz qisimlərdə, kamal yolunun tərifi mövcuddur.

* * *

(1) Ənbiya/101

(2) Səcdə/13

73. və 74. Əvvəl və Axir (isimlərinin şərhi):

~ ***"Əvvəl"*:** bir şeyə nəzərən əvvəl;

~ ***"Axir"*:** bir şeyə nəzərən axir olur.

Bir şeyin, başqa bir şeyə, bir cəhətdən həm əvvəl, həm də axır olması, təsəvvür edilə bilməz. Varlığın tərtibinə nəzər etsən və tərtib edilmiş mövcudatı mülahizə etsən, Allah Taala, onlara izafətlə, əvvəldir. Çünki, bütün mövcudat, öz varlığını, Ondan almışdır. Ancaq Ona gəlincə, O, Zatı ilə mövcuddur və varlığını, qeyrisindən almamışdır.

Süluk (Allah yolunda getməy)'in tərtibinə nəzər etsən; və Ona doğru gedən (salik)'lərin mənzillərinin mərtəbələrini mülahizə etsən, O, axırdır. Çünki O, arifl ərin çıxa biləcəyi ən son mərtəbədir. Onun mərifətindən əvvəl əldə edilən hər mərifət, mərifətullah üçün bir pilləkəndir. Dolayısı ilə, ən uca mənzil, Allah (subhənəhu və taala)'nın mərifətidir. Bu halda, Allah:

~ süluka izafətlə, axır;

~ varlığa izafətlə də, əvvəldir.

Başlanğıc, əvvələn Ondandır. Dönüş də, axirən yenə Ona olacaqdır.

* * *

75-76. Zahir və Batin (isimlərinin şərhi):

Bu 2 vəsf də, izafi'dir. Necə ki, zahir (olan bir varlıq), bir şeyə nəzərən zahir ikən; başqa bir şeyə nisbətən də batin olur. Tək bir cəhətlə, həm zahir, həm də batin ola bilməz. Əksinə, idraka izafətlə bir cəhətdən zahir olarkən; başqa bir cəhətdən də batin olur. Çünki zahir və batin olmaq, idraklara izafətlə bəhs mövzusudur. Allah (subhənəhu və taala), əgər:

~ hisslərin idrakı və xəyal xəzinəsi vasitəsilə tələb edilərsə, ***"batin";***

~ ağıl xəzinəsi və istidlal təriqi ilə tələb edilərsə, ***"zahir"***dir.

Əgər: *"Allahın, hisslərlə idraka nisbətlə batin olması, açıqdır. Lakin ağıla nəzərən zahir olması isə, qapalı. Çünki zahir olan, haqqında şübhə olmayan və insanların, idrakında ixtilaf etmədiyi (şeyə) deyilir. Halbuki, bir çox insan, bu xüsusda, şübhəyə düşmüşdür. Bu halda, O, necə zahir ola bilər?"* deyə soruşsan, bil ki:

Şübhəsiz Onun, zühuruna/zahir olmasına baxmayaraq xafi/gizli olması, zühurunun/açıq olmasının şiddəti səbəbilədir. Onun zühuru/zahir olması, batin olmasının səbəbidir. Onun nuru, nuruna hicab/örtü olmuşdur. Həddini aşan hər şey, ziddinə çevrilər. Bəlkə, bu sözümdən təəccüb edər və bunu, uzaq görə bilərsən. Ancaq bunu, bir misal ilə fəhm edə bilərsən. Deyirəm:

Bir katibin yazdığı bir kəliməyə nəzər etsən, bu kəlimə ilə, katibin, elm, qüdrət, eşidən və görən olduğuna istidlal edərsən. Bu kəlimə ilə, bu sifətlərin varlığına dair yəqinlik əldə edərsən. Hətta, yazılmış bir kəlimə görsən, bunun vasitəsilə, səndə, bu kəliməni yazmış olanın, elm, qüdrət, eşitmə, görmə və həyat sifətlərinə sahib bir katib olduğu şəklində, qəti yəqinlik hasil olar. Bunlara, sadəcə bir kəlimənin, sadəcə bir surəti dəlil olmuşdur. Necə ki, bu kəlimə, katibinin vəsflərinə qəti bir şəkildə dəlalət edirsə; göylərdə və yerdə heç bir zərrə, heç bir fələk, ulduz, günəş, ay, heyvan, bitki, hər hansı bir sifət ilə məvsuf bir varlıq yoxdur ki, varlığı ilə:

~ özünü tədbir edən Müdəbbirinə möhtac olmasına;

~ özünü Yaradan, təqdir edən və xüsusi sifətləri ona təxsis edən/xas qılan Yaradanına dəlalət etməsin.

Hətta insan, üzvlərindən bir üzvünə, bədən parçalarından bir parçasına zahirən və batinən baxsa; hətta sifətlərindən bir sifətinə; və ya üzərində qeyr-i ixtiyari bir qəhrin cərəyan etdiyi hallardan bir halına nəzər etsə, nəzər etdiyi hər nədirsə,

~ Xaliqinə (yaradanına);

~ Qahirinə (qəhr edəninə); və

~ Müdəbbirinə (tədbir edəninə) şəhadət ilə natiq olduğunu (danışdığını) görəcəkdir.

Belə də, bütün hislərilə zatında və zatı xaricində idrak etdiyi, bu şəkildədir.

Əgər əşya (şeylər), şahidlik etmə xüsusunda müxtəlif olsaydı, bəziləri, (Yaradanın) varlığına şəhadət edərkən; bəziləri etməsəydi, hər kəs üçün, yenə yəqinlik hasil edərdi. Ancaq şəhadətlər çox olub hamısı da dəlalət etməsi cəhətindən birləşincə, zühurunun zahir olması səbəbilə, bu dəlalət, qapalı qaldı. Bunun misalı, budur:

Əşyaların ən zahiri, hisslərlə idrak edilənidir. Bunlar arasında ən zahir olanı ---> görmə hissilə (yəni, gözlə) idrak edilənidir. Görmə hissilə idrak edilənlər arasında ən zahir olanı da ---> bütün cisimlərə doğan, hər şeyin özü ilə zahir olduğu günəşin nurudur.

Hər şeyin, özü vasitəsilə zahir olduğu bir şey, necə ola bilər ki, zahir olmasın?! Bu xüsus, bir çox insana müşkül oldu və belə deyildi: *"Rəngli əşyalarda, qaralıq, qırmızılıq kimi rənglərdən başqa, bir şey mövcud deyildir."*

Bu cisimlərdə, rənglə bərabər rəngə qonşu olan işıq və nurun varlığını qəbul etmədilər. Belələrinə, işığın rəngli cisimlərdə mövcudiyyəti üçün, nəsnələrin:

~ kölgə altında idrakı ilə işıq altındakı idrakı;

~ gecə ilə gündüz əsnasındakı idrakları arasındakı fərqə diqqət çəkmək lazımdır. Çünki, günəş, gecə görünmədiyində; yaxud da gündüz qaranlıq cisimlərə vurmadığında, rəngli cisimlərdəki izi, kəsilir. Beləliklə, işıq görən cisimlə; qaranlıq, işıq görməyən cisim arasındakı fərq, idrak edilmiş oldu.

Əgər yoxluq halı, varlıq halına izafə edilərsə; nurun varlığı, nurun yoxluğu ilə bilinər. Hər 2 halda da rənglər var olmasına baxmayaraq, 2 hal arasındakı fərq, bilinmiş oldu.

Əgər günəşin nuru, bir şəxs cəhətindən, bütün zahiri cisimlərə, aradakı bu fərqlilik idrak edilməyəcək dərəcədə davamlı surətdə vurmuş olub heç batmayacaq olsaydı, bu şəxs, nurun ən zahir əşyalardan olması ilə bərabər, rənglərə zaid/əlavə bir mövcud olmasının mərifəti/biliyi xüsusunda, məzur/üzrlü olardı. Halbuki, onun ilə (yəni, günəş ilə) bütün əşyalar zühur edir/görünür.

Allah (taala və təqaddəs) üçün, bəzi şeylərdə yoxluq və ya itib-batmaq təsəvvür edilsəydi, göylər, yer və Onun nurunun kəsildiyi hər şey, çökərdi. Beləcə də, 2 hal arasındakı fərqlilik idrak edilər və Onun varlığı, qəti şəkildə

bilinmiş olardı. Ancaq bütün əşyalar, (Allahın varlığına) şəhadət xüsusunda ittifaq halında olub bütün hallar da, həmişə eyni tərz/nizam içərisində olmaları səbəbilə, bu, Onun bəzilərinə gizli qalmasına səbəb oldu.

Məxluqatından, nuru ilə pərdələnən; zühurunun şiddəti səbəbilə onlardan gizli qalan, nə Sübhandır! O, Özündən daha zahiri olmayan Zahir; daha batini olmayan Batin'dir.

Tənbeh: Allah (taala və təqaddəs)'in bu sifətləri haqqında söylənənlərdən, təəccüblənmə! Çünki insanın, sayəsində insan olduğu məna, zahir və batindir.

~ Əgər insana, nizamlı, tərtibli fellərilə istidlal edilsə, o, zahirdir;

~ Əgər insan, hissləri vasitəsilə tələb ediləcək olarsa, o, batindir.

Çünki hiss, ancaq, insanın zahiri siması ilə əlaqəlidir (yəni, hisslər, ancaq, insanın fiziki görünüşünü idrak edər). İnsan isə, özündən görülən bu sima (yəni, fiziki tərəfi) ilə insan deyildir. Əgər insanın görünən tərəfi, dərisi və bədənin digər qisimləri, başqa qisimlər ilə dəyişdiriləcək olarsa, yenə, o olacaqdır. Dəyişən, yalnız, bədənin parçaları olmuş olardı. İnsanın böyüdükdən sonrakı parçaları, kiçikliyindəki kimi deyildir. Zamanın keçməsilə, bu parçalar həll olur və qida almaq səbəbilə, bənzərlərilə dəyişdirilir. Ancaq hüviyyəti isə, əsla dəyişməz. Bax:

~ hüviyyəti, hisslərdən batin;

~ əsər və felləri isə, -ona istidlal yolu ilə-, ağla zahirdir.

* * *

77. Vali (isminin şərhi):

Məxluqatın işlərini tədbir və təvliyə edən, yəni, vəlayətilə, onların işlərini, diqqət və etina ilə üstlənəndir. *«***Vəlayət***»* (kəliməsi), sanki, tədbir, qüdrət və felə işarət edir. Bunların hamısı, (birində) cəm olmazsa, (o şəxsə) ***«vali»*** deyilməz. İşlərin valisi, ancaq Allah (subhənəhu və taala)'dır. Şübhəsiz O:

~ ilk əvvəl: hər şeyi tədbir etməkdə birdir;

~ ikincisi: tədbirini, təhqiq ilə tənfiz edən (nüfuz etdirən, gerçəkləşdirən)'dir;

~ üçüncüsü isə: (var etdiklərinin) var olmağa davam etmələrini təmin edəcək şəkildə (üzərlərində) qaim olandır.

* * *

78. Mutəali (isminin şərhi):

«Aliyy» mənasında olmaqla bərabər, bir növ mübaliğə ifadə edir. (əl-Aliyy)'in mənası, daha əvvəl keçmişdi.

* * *

79. Bərr (isminin şərhi):

Muhsin olan (yaxşılıq edən)'dir. Mütləq Bərr, hər yaxşılıq və ehsanın Özündən (qaynaqlandığı Zat)'dır. Qul, birr/yaxşılıq ilə davrandığı nisbətdə ***«bərr»*** olur. Və xüsusilə də, ata-anasına, ustadına, şeyxlərinə etdiyi yaxşılıq miqdarınca bərr'dir.

Rəvayət edilir ki, Musa (əleyhissəlam), Rəbbilə danışdığında, ərşin yanında dayanan bir adam gördü. Və onun məkanının ucalığına təəccüb etdi və belə dedi:

«Ey Rəbbim! Bu qul, bu yeri (məqamı) necə əldə etdi?»

Allah, belə buyurdu: ***«O, qullarıma verdiklərimdən dolayı, onlara həsəd etməzdi və o, ata-anasına qarşı bərr idi.»***[1]

Bu, qulun birridir. Allah Taala'nın məxluqatına dair birr'inin təfsilatının şərhi, uzun gedər və zikr etdiklərimizdən bəzilərində (yəni, bundan əvvəlki bəzi isimlərin şərhində), bu xüsusa dair tənbeh vardır.

* * *

80. Təvvab (isminin şərhi):

Qullarının tövbə edib Özünə dönməsinin səbəblərini bir-biri ardınca asanlaşdıran (Zat)'dır. Bunu, onlara:

~ ayələrini izhar edərək;

~ sövq etdiyi tənbehlərlə;

~ özlərini xəbərdar etdiyi qorxutma və çəkindirmələrlə

edər. Ta ki, qullar, Onun bildirməsi səbəbilə, günahlarının ağırlıqlarını bilər; Onun qorxutması sayəsində qorxusunu hiss edər və dərhal tövbəyə dönərlər. Allahın fəzli də, onlara, qəbul şəklində rücu edər/qayıdar.

Tənbeh: Rəiyyətinin, dostlarının, tanışlarının xətalarına dair üzrlərini, bir-biri ardınca qəbul edən kimsə, bu ismin əxlaqı ilə əxlaqlanmış və ondan bir nəsib götürmüşdür deməkdir.

* * *

(1) Beyhaqi, «Şuabu'l-İman», 6201

81. Muntəqim (isminin şərhi):

~ Təkəbbürlü insanların belini qıran;

~ Caniləri (günahkarları) cəzalandıran;

~ Tüğyan edənlərin əzabını şiddətli qılan (Zat)'dır.

Bu isə:

~ məzur (üzrlü) qılındıqdan;

~ xəbərdarlıq edildikdən;

~ möhlət və imkan verildikdən

sonra gerçəkləşir. Bu şəkildəki intiqam, tələsərək cəzalandırmaqdan daha şiddətlidir. Çünki cəzalandırılmada tələsildiyi vaxt, xətaya çox diqqət edilməz. Bu da, cəzada kifayət qədər əzabın olmasını gərəkdirməz.

Tənbeh: Qulda tərifl ənən intiqam, Allah Taala'nın düşmənlərindən intiqam almasıdır. Onun ən böyük düşməni isə, onun nəfsidir. Nəfsin haqqı da, hər günah işlədiyində; yaxud da bir ibadəti etmədiyində, ondan haqqını almasıdır (yəni, nəfsini cəzalandırmasıdır). Bəyazid Bis̱tami (rahiməhullah)'dan nəql edildiyi kimi: ***«Nəfsim, bəzi gecələrdə bəzi virdlərini (zikrlərini) yerinə yetirərkən, tənbəllik etdi. Mən də, 1 il, onu sudan məhrum etdim.»***

Qul, bu şəkildə intiqam yolunda süluk etməlidir.

* * *

82. Afuvv (isminin şərhi):

Günahları silən və günahları keçən (Zat)'dır.

Bu isim, Ğafur isminə yaxındır. (Ancaq), ondan, daha mübaliğəlidir. Çünki:

~ **Ğufran:** ***"örtmək"***dən;

~ **Afuvv isə:** ***"silmək"***dən

xəbər verir.

Tənbeh: Qulun bu isimdən alacağı hissə, gizlənə bilməz (yəni, açıqdır). Bu da, özünə zülm edən hər kəsi əfv etməsi, hətta, ona yaxşılıq etməsidir. (Necə ki), qul, Allah Taala'nın, dünyada, asi və kafirlərə qarşı muhsin (yaxşılıq edən) olduğunu; onları dərhal cəzalandırmadığını; hətta tövbə etmələrilə onları əfv etdiyini görməkdədir. Günahkarlar tövbə etdiklərində, Allah da, onların tövbəsini qəbul edib günahlarını silməkdədir. Çünki, günahından tövbə edən, heç günah işləməmiş kimidir. Bax, cinayətlərin silinməsinin son nöqtəsi, budur.

* * *

83. Rauf (isminin şərhi):

«Rə'fət sahibi» deməkdir. ***«Rə'fət»: «şiddətli mərhəmətlilik»***dir**.** Və Rauf, mübaliğə ilə bərabər, Rahim mənasındadır. Əvvəl, bundan bəhs edilmişdi.

* * *

84. Maliku'l-Mülk (isminin şərhi):

O ki, məşiət (iradəsi) ilə, məmləkətində, istədiyi kimi icad (var) etmək, yox etmək, əbədiləşdirmək və fane etmək kimi (felləri) tənfiz edən (tətbiq, gerçəkləşdirən)'dir.

«Əl-mulk», burda, ***«məmləkət»*** mənasındadır. Malik isə, ***«qüdrəti tam olan qadir Şəxs»*** mənasındadır. Bütün mövcudat, bir məmləkətdir və O, onların Malik'i və Qadir'idir. Bütün mövcudatın bir məmləkət olmasının səbəbi, bir-birilə rabitəli olmasından dolayıdır. Çünki, varlıqlar, bir cəhətlə (yəni, sayca) çoxluq təşkil edirlərsə də; başqa bir cəhətdən də, bir birlik təşkil edirlər.

Bunun misalı, insan bədənidir. Bədən, insan həqiqəti cəhətindən, bir məmləkətdir. Müxtəlif bir çox əzadan meydana gəlməkdədir. Ancaq, həqiqətdə, bir Müdəbbir (tədbir edən)'in istəyilə, bir-birilərilə müavinət (yardımlaşma) içindədirlər. (Bu şəkildə), bir məmləkət olmuşlardır. Bunun kimi, bütün aləm də, bir şəxs kimidir. Aləmin parçaları, onun əzası

kimidir. Bir məqsəd xüsusunda, müavinət içindədirlər. Bu (məqsəd) də, Allahın comərdliyinin gərəkdirdiyi şəkildə, vücudu/varlığı mümkün olan ən böyük xeyri tamamlamaqdır. (Aləm), uyğun tərtib üzərə olan intizamı və bir rabitə ilə irtibatlanması üçündür ki, bir məmləkət olmuşdur. Allah Taala isə, onun tək Malik'idir.

Tənbeh: Hər qulun məmləkəti, ona məxsus olan bədənidir. Qulun iradəsi, qəlb və orqanlarının sifətləri üzərində nafiz (nüfuz edən, təsirli) olarsa, o vaxt, özünə verilən qüdrət nisbətində, məmləkətinə malik olar.

* * *

85. Zu'l-cəlali və'l-ikram (isminin şərhi):

Özünə aid olmayan nə bir cəlal, nə də bir kamal mövcud olan; şərəf və kərəm (mənasında) nə varsa, Özündən meydana gələn (Zat)›dır. Cəlal, Onun Zatındadır. Kərəm isə, məxluqlarına, Ondan çıxmaqda (axmaqda)›dır. Onun, məxluqatına olan kərəmi, inhisar altına alına bilməz və nəhayəti yoxdur. Buna, Allah Taala›nın bu sözü dəlildir:

...وَلَقَدْ كَرَّمْنَا بَنِيٓ ءَادَمَ

"Və ləqad kərramnə bəni Adəmə = ***Biz, Adəm oğlunu, şərəfli qıldıq."***(1)

* * *

86. Muqsit (isminin şərhi):

Zalımdan, məzlumun haqqını alandır. Bunun kamalı isə, məzlumu razı etməklə bərabər zalımı da razı edə bilməkdir. Bu, ədalət və insafın ən üst mərtəbəsədir. Buna, Allah (subhənəhu və taala)'dan başqası müqtədir deyildir. Bunun misalı, Ənəs (radiyallahu anh)'ın Nəbi (sallallahu aleyhi və səlləm)'dən bu rəvayətidir:

Peyğəmbər (sallallahu aleyhi və səlləm), bir gün otururkən, azı dişləri görülənə qədər gülməyə başladı.

(1) İsra/70

- Ömər (radiyallahu anh): "Atam-anam Sənə fəda olsun, ey Allahın rəsulu! Səni güldürən, nədir?" deyə soruşdu.

- Peyğəmbər (sallallahu aleyhi və səlləm), belə buyurdu: "Ümmətimdən 2 adam, Rabbu'l-izzətin hüzuruna gətirildilər. Onlardan biri: 'Ey Rəbbim! Qardaşımdan, mənim haqqımı al.' dedi. Allah (təbarəkə və taala) da, ona: 'Qardaşına haqqını ver!' deyə buyurdu. O da: 'Ey Rəbbim! Mənim yaxşı əməllərimdən heç bir şey qalmadı.' deyincə, Allah (azzə və cəllə): 'Qardaşın üçün nə edəcəksən? Onun yaxşı əməllərindən heç bir şey qalmıyıb.' deyə buyurdu. (O vaxt), həmin adam: '(Elə isə), mənim günahlarımı yüklənsin, ey Rəbbim!' dedi."

Peyğəmbər (sallallahu aleyhi və səlləm)'in gözləri doldu, ağlayaraq belə buyurdu:

"O gün, əzəmətli bir gündür. O gün insanların, öz günahlarını, başqalarına yüklətməyə möhtac olacaqları bir gündür."

Sonra belə davam etdi:

"Allah (azzə və cəllə), məzlum şəxsə (xitabən): 'Gözünü qaldır, bu cənnətlərə bax.' buyurar. Adam: 'Ey Rəbbim! Gümüşdən, şəhərlər; incilərlə taclandırılmış qızıldan saraylar görürəm. Bura, hansı Peyğəmbər, yaxud hansı siddiq və şəhidə aiddir?' deyə soruşar. Allah (azzə və cəllə): 'Bura, qarşılığını verənə aiddir.' buyurar. O qul: 'Ey Rəbbim! Bunun qarşılığını verməyə kim malikdir?' deyə soruşar. Allah: 'Sən, buna maliksən.' buyurar. Adam: '(Elə isə), ey Rəbbim! Mən də, onu bağışladım.' deyincə, Allah (azzə və cəllə): 'Qardaşının əlindən tut və onu cənnətə daxil et.' buyurar."

Sonra Peyğəmbər (sallallahu aleyhi və səlləm): "Allahdan qorxun və aranızı islah edin. Çünki Allah (təbarəkə və taala), qiyamət günündə, möminlərin arasını islah edəcəkdir." (1)

Bax, haqsızdan haqq almağın və insafın yolu, budur. Və bunun bənzərinə, Rabbu'l-ərbab xaricində heç kim müqtədir deyildir.

(Tənbeh): Bu isimdən ən böyük hissə alan qul, ilk əvvəl, özünün etmiş olduğu haqsızlıqları, haqq sahiblərinə verərək, özündə ədalət edən; sonra da, başqasından (özünə aid deyil) yenə bir başqasına aid haqqı alandır.

* * *

(1) Hakim, "əl-Müstədrək", 4/576

87. Cami (isminin şərhi):

• Bir-birinə bənzəyənləri;

• Bir-birindən fərqli olanları;

• Bir-birinə zidd olanları cəm edəndir.

(Belə ki):

• Onun, bir çox insanı yer üzündə cəm etməsi və onları qiyamət günü həşr etməsi, Allahın, bir-birinə bənzəyənləri cəm etməsinə misaldır.

• Bir-birindən fərqli olanları cəm etməsinə misal: göylər, ulduzlar, hava, yer üzü, dənizlər, heyvanlar, bitkilər və müxtəlif mədənləri cəm etməsidir. Bütün bunların şəkilləri, rəngləri, dadları və vəsfləri, bir-birindən fərqlidir. Bunların bir çoxunu, yerdə; hamısını isə, aləmdə cəm etmişdir. Yenə, eyni şəkildə, sümük və sinirləri, damar və əzələləri, beyin, dəri, qan və axlatı (bədən mayelərini), insanın və digər canlıların bədənində toplaması da, buna misaldır.

• Bir-birinə zidd olanları cəm etməsinə isə: canlıların mizacında hərarət və soyuqluğu, rütubət və quruluğu cəm etməsi, misal verilə bilər. Bunlar, bir-birinə müxalif, bir-birinə "düşmən" (olan ünsürlər)'dir. Və bu, cəm etməyin ən bəliğ vəchi (cəhəti)'dir.

Onun cəm etməsinin təfsilatını, ancaq dünya və axirətdəki məcmuat (cəm edilənlər)'in təfsilatını bilən bilər. Bunların hamısının şərhi isə, uzun gedər.

Tənbeh: Qullardan cami (cəm edən, cəm edici) olanlar, orqanlarında zahiri ədəblər ilə qəlblərində batini həqiqətləri cəm edənlərdir. Mərifəti, kamil; sirəti (davranışı, əxlaqı), gözəl olan kimsə, camidir. Bundan dolayı, *"Kamil olan şəxsin mərifətinin nuru, vərasının (təqvanın daha iləri mərtəbəsi) nurunu söndürməz."* deyilmişdir.

Səbr ilə bəsirəti toplamaq, çətindir. Bundan dolayıdır ki, zühd və vəra xüsusunda səbrli olanı, bəsirətsiz; bəsirətli adamı da, səbrsiz görərsən. Cami olan isə, səbr ilə bəsirəti birləşdirəndir. Və's-salam.

* * *

88-89. Ğani və Muğni (isimlərinin şərhi):

● **əl-Ğani:** nə Zatında, nə də Zatının sifətlərində, başqası ilə əlaqəsi olmayan (yəni, zəngin olan)›dır. Hətta, başqaları ilə əlaqədən münəzzəhdir.

Kimin zatı və ya zatının sifətləri, zatından xaric bir işə təəllüq edər (yəni, başqası ilə əlaqəli olar); və varlığı və kamalı, bu xarici (bir hala) bağlı olarsa, bu şəxs, (ehtiyac duyduğu şeyi) əldə etməyə möhtac olan bir fağır (möhtac) ‘dır. Allah (subhənəhu və taala)’dan başqa mütləq Ğaniyy, təsəvvür edilə bilməz. Ğani, ancaq Odur.

● Allah (azzə və cəllə), eyni zamanda, **əl-Muğni**›dir.

Ancaq Onun mustağni (yəni, zəngin, ehtiyacsız) qıldığının mütləq Ğani olması, təsəvvür edilə bilməz. Çünki, bu varlıq, ən azından, özünü mustağni (zəngin) qılana möhtac olacaqdır ki, beləliklə də, (mütləq mənada) Ğani olmazsa da, Allah xaricindəkilərdən mustağni ola bilər. Bu da, Allahın, ondan, ehtiyacın əslini kəsmək surətilə deyil; ehtiyac duyduğu şeyləri özünə vermək surətilə gerçəkləşir.

Həqiqi Ğani, hər hansı birinə və ya bir şeyə hec cür ehtiyacı olmayandır. Başqa şeylərə ehtiyac duyub və ehtiyac duyduqları da yanında olanlar, məcazi olaraq ğani’dirlər. Allah (subhənəhu və taala) xaricindəkilər üçün, imkan sahəsindəki ən son həddi, budur. Ancaq, ehtiyacın tamamilə ortadan qalxması, mümkün deyildir. Allahdan başqa heç bir varlığa ehtiyacı olmayana, (bu mənada), ğani deyilir. Yoxsa, əgər ehtiyacın əsli qul üçün tamamilə ortadan qalxa bilsəydi, bu ayə, (haşa) doğru olmazdı:

...وَٱللَّهُ ٱلْغَنِىُّ وَأَنتُمُ ٱلْفُقَرَآءُ...

Vallahu’l-Ğaniyyu və əntumu’l-fuqara.

Yəni: ***“Allah, Ğaniyy’dir. Siz isə, kasıb.”*** (1)

Qulun, Allah (azzə və cəllə)’dən başqa hər şeydən zəngin ola bilməsi mümkün olsaydı, Allah üçün Muğni deyə vəsfləndirilməsi, səhih olmazdı.

* * *

(1) Muhammməd/38

90. Mani (isminin şərhi):

Dini və bədəni xüsuslarda, bunları hifz edici (qoruyucu) səbəbləri yaratmaq surətilə, həlak və nöqsanlıq səbəblərini mən edən (əngəlləyən)'dir.

Hifzin mənası isə, əvvəl keçmişdi.

Hər hifzin, zəruri olaraq mən (əngəlləmə) və dəf etmə (mənası) vardır.

~ Mən (əngəlləmə) - həlak edici səbəbə;

~ Hifz isə - həlakdan qorunmaq istənilən şeyə izafətlə istifadə edilir ki, mən etməyin (yəni, əngəlləməyin) məqsəd və qayəsi də, budur. Çünki, mən etmək, hifz üçün tələb edilir; hifz isə, mən üçün murad edilməz. Buna görə, hər hafiz, mani (mən edən, əngəlləyən)'dir; ancaq hər mani, hafiz deyildir. Ancaq, bütün həlak və nöqsanlıq səbəblərini mütləq mənada mən edən biri üçün, hifz də, zəruri olaraq hasil olacaqdır.

* * *

91-92. Darr və Nafi (isimlərinin şərhi):

Xeyir və şər; fayda və zərər, Özündən südur edən (Zat)'dır. Bütün bunlar isə:

~ ya mələklər, insanlar və ya cansız varlıqlar vasitəsilə;

~ yaxud da vasitəsiz olaraq, Allaha Taala'ya mənsubdur.

Zənn etmə ki,

~ öldürən və zərər verən, zəhərin;

~ doyuran və fayda verən, yeməyin özüdür.

Mələk, insan, şeytan, -yaxud da hansı cinsdən olursa olsun-, məxluqlardan hər biri, fələk, ulduz və ya başqa birinin, bir xeyrə və ya şərrə; bir fayda və ya zərərə, öz başına müqtədir olduğunu sanma!

Əksinə, bunların hamısı, musəxxər (təsxir etdirilmiş, boyun əydirilmiş) səbəblərdir. Bunlardan, ancaq, təsxir edildiyi şey südur edər. Bütün bunlar da, eynilə, -ammi (avam)›ın etiqadınca, qələmin katibə olan nisbəti kimi-

əzəli qüdrətə nisbət edilir. Bir sultan, veriləcək bir mükafat və ya cəzanı imzaladığında, heç kim, mükafat və cəzanı, qələmdən deyil; qələmin, əmrində olduğu kimsədən bilir. Bax, digər səbəb və vəsilələr də, bu şəkildədir.

"Avamın etiqadınca" dedik. Çünki, cahil, qələmin, katibə musəxxər olduğunu görəndir. Arif isə, qələmin, katibin əlində, Allah (subhənəhu və taala) üçün musəxxər olduğunu; katibin də, Ona (yəni, Allaha) musəxxər olduğunu biləndir. Necə ki, O, katib ilə ondakı gücü və tərəddüd etməyəcəyi qəti iradəni yaradınca, istər-istəməz, bu şəxsin barmağı və qələmi, hərəkət edəcəkdir. Hətta, istəməməsi də, mümkün deyildir. Elə isə, insanın əli və qələmilə yazan, (həqiqətdə) Allah Taala'dır. İxtiyar sahibi canlıda bunun belə olduğunu bildinsə; bu, cansız varlıqlarda, daha zahirdir.

* * *

93. Nur (isminin şərhi):

Hər zühurun (zahir olanın), Özü ilə zahir olduğu (Zat)'dır. Özündə zahir olub başqasını da izhar edənə, ***"Nur"*** deyilir.

Hər nə vaxt ki, vücud (varlıq) ilə adəm (yoxluq) qarşılaşdırılar (yəni, müqayisə edilər)'sə, qaçılmaz bir şəkildə, zühur, vücuda (yəni, varlığa) aid olar.

Adəm (yoxluq)'dan isə, daha qaranlıq bir zülmət yoxdur. Buna görə, adəm (yoxluq) zülmətindən, hətta yoxluq imkanından bəri olub bütün əşyanı (şeyləri) adəm zülmətindən (yəni, yoxluq qaranlığından) vücud (varlıq) zühuruna çıxaran, ***"Nur"*** adlandırılmağa daha layiqdir. Vücud (varlıq), elə bir nurdur ki, bütün əşyaya, Onun Zatının nurundan fışqırar. Beləcə, O, göylərin və yerin nurudur.

Necə ki, günəşin nurundan hər zərrə, münəvvər olan (işıqlandıran) günəşin vücuduna (yəni, varlığına) dəlildir; eynilə bu cür də, göylər, yer və arasında olanlardan hər bir zərrə də, varlığının mümkün olması ilə, Mucid (icad edən)'inin vücudunun (yəni, varlığının) vücubuna (vacib olmasına) dəlildir.

Zahir (isminin) mənası haqqında zikr etdiklərimiz, sənə, Nur isminin də mənasını fəhm etdirər. Və bu ismin mənası haqqında dilə gətirilən təəssuf (zorakı təvillər)'dən səni zəngin qılar.

* * *

94. Hadi (isminin şərhi):

~ Qullarının xaslarını, ilk əvvəl, Zat'ının mərifətinə; beləliklə də, bütün əşyaya, Onunla şahidlik etməyə;

~ Qullarının avamlarını da, məxluqları tanıyıb, onlar (yəni, məxluqlar) vasitəsilə Zat'ına şahidlik etmələrinə hidayət edəndir.

(O), hər bir məxluqa, ehtiyacını ortadan qaldırmaq üçün zəruri olanı öyrənməyə hidayət etmişdir. Məsələn:

~ uşağa, doğulduqdan dərhal sonra, anasının sinəsini əmməyi;

~ quşun balasına, yumurtadan çıxar-çıxmaz, yerdəki dənələri yeməyi;

~ arıya, yuvasını 6 bucaqlı inşa etməyi hidayət etmişdir -ki, 6 bucaq, arı bədəni üçün, ən müvafiq və ən (yaxşı) qoruyucudur. (Bununla bərabər, 6 bucaq), pətək cəhətindən də, aralarda boşluğun meydana gəlməsinə ən uzaq olan şəkildir [1].

Bunun şərhi, uzun gedər. Allah Taala'nın bu ayələri, bunu ifadə etməkdədir: قَالَ رَبُّنَا ٱلَّذِىٓ أَعْطَىٰ كُلَّ شَىْءٍ خَلْقَهُۥ ثُمَّ هَدَىٰ

Qalə: Rabbunəlləzi ə'ta kullə şey in xalqəhu, summə hədə.

Yəni: ***"(Musa) dedi: 'Rəbbimiz, hər şeyə öz xilqətini verən, sonra da hidayət edəndir (yəni, yaratdıqlarına doğru yolu göstərəndir)."*** [2] **;**

وَٱلَّذِى قَدَّرَ فَهَدَىٰ

Vəlləzi qaddəra fəhədə.

---

(1) Arılar, pətəklərini, altı bucaq yerinə, 5 bucaq və ya başqa şəkillərdə düzəltsəydilər, aralarda istifadə edilməyən boşluqlar ortaya çıxması səbəbilə, pətəklərdə, daha az bal depolamağa məcbur olacaqlardı. 3 bucaq və ya 4 bucaq şəkillərdə də, boşluq qalmadan, bal düzəldə bilərdilər. Ancaq bu fərqli geometrik şəkillərdən, kənarları, ən qısa; və dolayısı ilə ən az ləvazimat istifadə edilən şəkil, 6 bucaqdır. Bu səbəblə, 6 bucaq hüceyrələrdən meydana gələn bir pətək, ən az bal mumu ilə, ən çox depolama sahəsi təmin edən şəkildir. Bu da, əl-Hadi isminin ən böyük təzahürlərindən, təcəllilərindən olub, Onun əl-Hadi olmasının ən böyük dəlillərindəndir.)

(2) Taha/50

Yəni: ***"(O Rəbbin ki), hər şeyin müqəddəratını müəyyən edərək hidayət etdi (yol göstərdi)."***(1)

Tənbeh: Qullardan hudat (hadi olanlar), insanları, axirət səadətinə irşad edən peyğəmbərlər və alimlərdir. Onlar, Allahın doğru yoluna hidayət edənlərdir. Əslində isə, Allah, onları (insanları), onların dililə hidayət etməkdədir. Onlar isə, Onun qüdrət və tədbiri altında boyun əymişdirlər.

* * *

95. Bədi (isminin şərhi):

Özündən əvvəl bir misli keçməmiş olandır. Əgər bir varlıq, nə zatı, nə sifətləri, nə də felləri, nə də bütün bunlara raci olan digər hər hansı bir xüsusda misli keçməmişdirsə, mütləq Bədi, Odur. Bu sayılanlardan hər hansı birində bir misli keçmişdirsə, mütləq Bədi deyildir.

Beləliklə, bu isim, mütləq mənada, ancaq Allah (subhənəhu və taala)'a layiq olur. Onun əvvəlində bir varlıq yoxdur ki, bir misli keçmiş olsun. Hər bir mövcud, Ondan sonradır və Onun icadı (vücuda gətirməsi) ilə hasil olmuş olub özünü icad edənin bir misli (bənzəri) deyildir. Beləliklə, əzələn və əbədən Bədi, ancaq Odur.

(Tənbeh:) Özünə, öz dövründə və ya digər zamanlarda, bənzəri olmayan bir peyğəmbərlik və ya vəlilik ya da elm verilən hər bir qul, tək olduğu o xüsusa və mövcud olduğu zamana nəzərən, ***"Bədi"*** deyə isimləndirilir.

* * *

(1) Əla/3

96. Baqi (isminin şərhi):

Varlığı, Zatı ilə vacib olan Mövcud'dur.

Lakin bu, zehndə,

~ gələcəyə izafə edilərsə, ***Baqi***;

~ keçmişə izafə edilərsə, ***Qədim***

deyə təsmiyyə edilir (adlandırılır).

• Mütləq Baqi, varlığının, gələcəyə dair təqdirində bir son olmayan deməkdir ki, bu mənada, ***"əbədi"*** deyilir.

• Mütləq Qədim də, varlığının keçmişə dair davamlılığında sonu olmayandır ki, buna da, bu mənada, ***"əzəli"*** deyilir.

"Zatı ilə Vacibu'l-Vücud / varlığı zəruri" sözün, bütün bunları ehtiva edir. Bu isimlər, bu varlığın, zehndə, keçmişə və ya gələcəyə nisbəti haqqında bəhs mövzusu olur. Keçmişə və ya gələcəyə, yalnız mütəğayyir (dəyişgən)›ə tabe olan varlıqlar daxildir. Çünki, bu ikisi, zamandan ibarət olub; zamana isə, sadəcə təğayyur (dəyişmə) və hərəkət daxildir. Necə ki, hərəkət, öz varlığı etibarı ilə, (tamamlanmış hərəkət və meydana gələcək hərəkət şəklində) keçmiş və gələcəyə ayrılır. Dəyişgən olan hər varlıq, zamana, dəyişgənlik vasitəsilə daxil olur. (Bu halda), dəyişgənlik və hərəkətdən uca olan bir varlıq, zamana daxil deyildir. Onda, keçmiş və gələcək, bəhs mövzusu deyildir. Onun üçün, qidəm, bəqadan (yəni, əzəliyyət, əbədiyyət)›dan ayrılmaz. Keçmiş və gələcək, ancaq bizim üçün, bizə nəzərən var olurlar. Bəzi hadisələr, bizimlə əlaqəli olaraq, bizdə təsir etmək surətilə keçib-gedər; və bəziləri də, bizə nəzərən hələ vaqe olmamış, daha sonra vaqe olacaqlardır. Buna görə, ard-arda meydana gələn hadisələrin mövcud olması labüddür ki, zaman:

1. Bitmiş;

2. Hazır;

3. Hələ meydana gəlməmiş

olub vaqe olması gözləntisi içində olunan olmaq üzərə, qisimlərə ayrıla bilsin. Bu halda, yenilənmə və sonlanma yoxdursa, zaman da yoxdur.

Necə belə olmasın ki?! Haqq (subhənəhu və taala), zamandan əvvəl var idi. Və zamanı yaratdığında da, Öz Zat'ında bir dəyişiklik meydana gəlmədi. Zamanı yaratmadan əvvəl, zamanın, Onun üzərində bir təsiri yox idi. Və zamanı yaratdıqdan sonra da, əvvəlkisi kimi davam etdi.

Bəqa (əbədilik) sifətinin, Allahın baqi (əbədi) olan Zat'ına zaid bir sifət olduğunu deyənin sözü, nə qədər uzaqdır. Bundan daha uzaq olanı isə, qidəm sifətinin, qədim olan Zat üzərinə zaid bir sifət olduğunu deyənin sözüdür. Bu sözün fəsadına burhan (dəlil) olaraq, bəqa ilə bərabər digər sifətlərin də bəqasının; və eyni şəkildə, qidəm və digər sifətlərin də qidəminin lazım gəlməsidir.

* * *

97. Varis (isminin şərhi):

Maliklər, fəna (yox) olduqdan sonra, mülklərin Özünə rücu etdiyi (Zat)'dır. Və O, Allah (subhənəhu və taala)'dır. Çünki, məxluqatın fənasından sonra əbədi qalacaq olan, Odur. Hər bir şeyin dönüşü və mərci'i, Onadır. Bunu buyuran, Odur: لِّمَنِ ٱلْمُلْكُ ٱلْيَوْمَ ***"Bu gün mülk, kimindir?"*** (1)

Mucib (buna cavab verən) də, (yenə) Odur: ٱلْوَٰحِدِ ٱلْقَهَّارِ ***"Vahid, Qahhar olan Allahındır."*** (2)

Bu, əksəriyyətin zənninə görədir. Çünki, əksəriyyət, özünü, milk (üzərində təsərrüf edilən yer) və mülk sahibi zənn etməkdədir. O gün, halın həqiqəti, onlara açılacaqdır. Və bu nida (yəni, mülk, bu gün kimindir? nidası), o gün, özləri üçün inkişaf etmiş (açılmış olan) həqiqətdən ibarətdir. Bəsirət sahibləri isə, şübhəsiz, bu nidanın mənasını, əbədiyyən müşahidə edər; və səssiz və hərfsiz şəkildə dinləyərlər. Mülkün, Vahid və Qahhar olan Allaha aid olduğunu, yəqinliklə, hər gün, hər saat, hər an bilərlər. Və bu, əzəli və əbədi olaraq da, belə idi. Bunu, ancaq, tövhidin həqiqətini felən idrak edən şəxs idrak edər. (Bunlar), mülk və məlakutda feli olaraq münfərid olanın, Vahid (olan Allah) olduğunu bilərlər.

Biz, buna, *"İhya-u Ulumi'd-din"* adlı əsərimizin *"Təvəkkül"* kitabının baş qismində işarət etdik, ora müraciət edilsin. Çünki bu kitab (yəni, *«əl-Maqsadu›l-Əsna»* əsəri), bunu daşıya bilməz.

* * *

(1) Ğafir/16

(2) Ğafir/16

98. Rəşid (isminin şərhi):

Yol göstərici qanunlar üzərinə, tədbirləri,

~ işarət edənin, işarəti olmadan;

~ yol göstərənin, yol göstərməsi olmadan;

~ bir mürşidin, irşadı olmadan, güdülən qayələrinə sövq edən (Zat)'dır. Və O, Allah (subhənəhu və taala)'dır.

(Tənbeh): Hər qulun rüşdü, din və dünya məqsədləri cəhətindən (meydana gətirdiyi) tədbirlərin (planların), doğruya isabət etməsi cəhətindən çatdığı hidayət nisbətindədir.

* * *

99. Sabur (isminin şərhi):

Tələsməyin, hələ vaxtı gəlmədən əvvəl bir feli işləməyə, Özünü sövq edə bilmədiyi (Zat)'dır. Əksinə, işləri, məlum bir ölçüyə görə, (sərhədləri) məhdud bir üsulla icra edər. Təqdir edilmiş əcəlləri (zamanları), -tənbəlin təxir etdiyi/ertələdiyi kimi- təxir etməz. -Tələskənin təqdim etdiyi (iləri keçirdiyi) kimi-, əcəlləri (zamanları) iləri keçirməz. Əksinə, hər şeyi, olması gərəkdiyi cəhətilə, layiq olduğu şəkildə edər. Bunların heç biri də, iradəsinə zidd bir saiq (sövq edən)'in məcbur etməsilə deyildir.

Tənbeh: Qulun səbrinə gəlincə, (qulun səbri), başqalarının məcbur etmələrindən xali (uzaq, boş) deyildir. Çünki, (insanın) səbrinin mənası, din və ya ağıl saiqinin, şəhvət və ya qəzəb saiqi qarşısında mətanət göstərməsi deməkdir. Əgər bir-birinə zidd 2 saiq qulu cəzb edər (yəni, özünə çəkər), qul da, dərhal işə girişməyi gərəkdirən saiqə qarşı gəlib təxir saiqinə meyl edərsə, ona, ***«sabur (səbrli)»*** deyilər. Çünki, (o), tələsmə saiqini məhv etmişdir.

Tələsmə saiqi, Allah (subhənəhu və taala) haqqında, mədum (yox)'dur. (Bundan dolayı), Onun tələsməyə olan uzaqlığı; belə bir saiqi olub ona qalib gələnin tələsməyə olan uzaqlığına nəzərən, daha çoxdur. Və o -saiqlərin tənaquzu (bir-birinə ziddiyyəti) və mücahidə yolu ilə bunlara səbr etməsi (məsələsini) nəzər-i etibardan xaricə çıxardıqdan sonra- bu ismə layiq olan, odur.

* * *

Bu fəslin sonu və bir üzrxahlıq:

Bil ki, məni, haqqında danışılan isim və sifətlərin davamında, bu tənbehləri dilə gətirməyə sövq edən səbəb, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in, bu hədisləridir:

~ ***"Allah Taala'nın əxlaqı ilə əxlaqlanın.";***

~ ***"Allahın, belə, belə əxlaqı vardır. Kim, bunlardan biri ilə əxlaqlanarsa, cənnətə girər."***

Sufilərin dillərində dolaşan bəzi kəlimələr, bizim zikr etdiyimizə işarət edər. Ancaq, (bu), muhassal olmayan (elm və mənəviyyatda dərinləşməmiş) adamlarda, bir cəhətdən hulul və ittihadı vəhm etdirə bilər. Belə bir məna (yəni, hulul və ittihad mənası)'nın qəsd edilməsi, deyil mükaşəfənin xüsusiyyətlərində təmayüz etmiş olanlardan, ağıl sahibi deyilə biləcək hər hansı bir kimsədən də gözlənilməz.

Şeyx əbu Əli əl-Farmadi›nin, ustadı əbu›l-Qasim əl-Cürcani›dən (qaddəsallahu ruhəhumə), belə nəql etdiyini eşitdim:

"99 isim, süluk etməkdə olan qul üçün, o, hələ sülukda ikən (yəni, sülukunu tamamlamadığı halda), bir vəsf halına gələr."

Bu, onun zikr etdiyidir. (O, bu sözlərilə) bizim yazdığımıza münasib bir şey iradə etmişdirsə, səhihdir. Və ondan, bundan başqası da zənn edilə bilməz. (Onun, istifadə etdiyi bu) ləfzdə, bir növ genişlik və istiarə vardır. Çünki, isimlərin mənaları, Allah Taala'nın sifətləridir. Onun sifətləri isə, bir başqasına sifət ola bilməz. Lakin, bunun mənası, ***"O kimsə üçün, bu sifətlərə uyğun vəsflər hasil olar."*** deməkdir. Eynilə: ***"Filan kimsə, ustadının elmini əldə etdi."*** deyildiyində, (əslində), ustadın elmini bir başqasının əldə etməsinin mümkün olmaması, lakin tələbədə, bunun bir bənzərinin hasil olması kimi...

(İndi) biri, qəsd edilən mənanın, bizim zikr etdiyimiz kimi olmadığını zənn edəcək olarsa, bu zənni, qətiliklə batildir. Mən isə deyirəm ki: ***"Allah (subhənəhu və taala)'nın isimlərinin mənaları, salikin vəsfləri halına gələr."*** sözündə,

1. Ya, bu sifətlərin özləri qəsd edilmişdir;

2. Yaxud da, bu sifətlərin misli qəsd edilmişdir.

Əgər misli qəsd edilmişdirsə,

2.1. Ya, bu, (qulda hasil olacaq) sifətlərin mütləq olaraq və hər cəhətdən İlahi sifətlərə bənzəməsi bəhs mövzusudur;

2.2. Yaxud da, İlahi sifətlərin mislləri (bənzərləri), mənalarının xüsusiyyətləri iradə edilmədən, yalnızca sifətlərin müştərək mənaları və isim bənzərliyi cəhətindən, qulların vəsflərinə bənzərlik ərz edəcəkdir.

Bu (yəni, ikinci ehtimal, öz içində), beləcə 2 qisim oldu. (Əgər o), bu sifətlərin özünü qəsd etmişdirsə, (bu halda da), bu,

1. Ya, sifətlərin, Rəbb'dən qullara intiqal (keçməsi) təriqi ilədir;

2. Yaxud da, intiqalsız (yəni, sifətlərin özləri, qullarda hasil) olacaqdır.

İntiqalsız olarsa, bu halda, qulun zatı ilə Rəbbin Zatının ittihad etməsi (birləşməsi) ilə olar; hətta, ***"O, O olar."*** O vaxt, Onun sifəti, onun (qulun) sifəti olar.

3. Ya da bu, hulul təriqi ilə olar.

(Beləliklə), bu (birinci ehtimal) da, ***intiqal, ittihad*** və ***hulul*** olmaq üzərə, öz içərisində, 3 qismə ayrılmış oldu. İlk 2 qisim ilə birlikdə isə, cəmi 5 qisim oldu. Bu 5 qisimdən

~ **Biri** səhihdir ki, o da, ***qulda, bu sifətlərdən, ümumi mənada Allahın sifətlərinə uyğun və isim cəhətindən Onun sifətlərilə müştərək olan bəzi mənaların sabit olmasıdır.*** Ancaq, tənbehlərdə zikr etdiyim kimi, tam bir mümasələt (bənzərlik) ilə bənzərlik yoxdur.

~ **İkinci qisim**, -ki, İlahi sifətlərin bənzərlərinin, həqiqi mənada qulda hasil olmasıdır- də, qəti olaraq imkansızdır. Çünki bu təqdirdə, bu sifətlər cümləsindən olmaq üzərə, onda, bütün məlumatı əhatə edən bir elmin olmasıdır. Hətta, nə göylərdə, nə də yer üzündə, bir zərrə, ondan uzaq qalmayacaq. Və onda, bütün məxluqata şamil bir qüdrət olacaqdır. Hətta o, o (qüdrət) ilə, səmaların, yerin və arasındakı hər şeyin xaliqi olacaqdır. Və bu, Allah Taala'dan qeyrisində, necə təsəvvür edilə bilər?! Qul, məxluqlar cümləsindən ikən, necə ola bilər ki, göylərin, yerin və arasındakıların yaradanı olsun?! Necə ola bilər ki, öz nəfsinin xaliqi olsun?!

Sonra, deyək ki, bu sifətlər 2 qul üçün sabit olsa, o vaxt, hər biri, digərinin yaradıcısı olacaq. (Əgər belə olsa), ikisindən hər biri, özünü yaradanın yaradıcısı olacaqdır. Bütün bunlar, batil və imkansız şeylərdir.

~ **Üçüncü qisim** isə: -ki, bu, Rububiyyət sifətlərinin eynisinin qula intiqalı idi- bu da, muhaldır. Çünki, sifətlərin, məvsuflardan ayrılıb başqasına intiqal etməsi, imkansızdır. Bu, qədim Zat›a məxsus da deyildir. Zeydin elminin eynisinin, Amr›a intiqalı, təsəvvür edilə bilməz. Hətta

sifətlər (aid olduqları) xüsusi məvsufları olmadan, (öz başlarına) qaim də ola bilməzlər. Çünki, intiqal, özündən intiqal edilən yeri boş buraxar. Bu halda isə, Rububiyyət sifətlərinin özündən ayrılıb intiqal etmiş olduğu Zat›ın, bu sifətlərdən və rububiyyətdən xali qalması lazım gələcəkdir ki, bu da, imkansızlığın açıq-aydın olmasıdır.

~ **Dördüncü qisim**: -ki, ittihad idi- bunun batilliyi, daha açıqdır. Çünki, *"Qul, Rəbb oldu."* sözü, özündə, mütənaqiz (bir-birinə zidd) bir sözdür. Hətta, Rəbb (subhənəhu və taala) haqqında, belə imkansız nümunələri, dildə cərəyan etməkdən tənzih etmək lazımdır. Biz, mütləq bir söz olaraq deyirik ki, *"bir şeyin, başqa bir şey olması"*, mütləq mənada muhaldır. Çünki, məsələn, Zeyd, tək başına; və Amr da, tək başına əql edildiyində, sonra da, *"Amr, Zeyd oldu. İkisi birləşdi."* deyilsə, bu ittihad (birləşmə) əsnasında, ya, hər ikisi mövcud, ya ikisi də mədum/yox olacaq; yaxud, Zeyd və Amr, mədum; yaxud da, bunun əksi olacaqdır. Bu dördünün xaricində başqa qismin olması, imkansızdır.

Hər ikisinin də mövcud olması halında, bunlardan biri, digərinə çevrilməmiş olur; əksinə, hər birisinin öz zatı, özü olaraq qalır. Bundan qayə, məkan cəhətindən bir ittihaddır, ki, ancaq, bu da ittihadı gərəkdirməz. Çünki, məsələn, elm, iradə və qüdrət sifətləri, məhəlləri fərqli olmadan, bir tək zatda, birləşə bilir. Qüdrət də, nə elmin özü olur, nə də iradənin. Bu sifətlərin heç biri, digərilə birləşmiş də olmaz.

Hər ikisinin də mədum olması halında, bunlar ittihad etmiş, bir olmuş olmazlar; əksinə, ikisi də, yox olmuş olub zühur edən şey, bunların xaricində üçüncü bir şey olmuş olur. Biri mədum, digəri mövcud olacaq olsa, yenə, ittihaddan söz edilə bilməz. Çünki, mövcud ilə mədum, birləşə bilməz.

O halda, 2 fərqli şeyin ittihad etməsi, mütləq mənada imkansızdır. (Bu hökm), bir-birinə bənzər varlıqlarda belə caridir, ki, fərqli zatlarda (varlıqlarda) da, bu, belədir. Necə ki, bu qaralığın, bu ağlıq və ya bu elm halına gəlməsi, necə imkansızdırsa; burdakı qaralığın, burdakı digər bir qaralıq halına gəlməsi də, eləcə imkansızdır. Qul ilə Rəbb arasındakı başqalıq isə, qaralıq ilə elm arasındakı başqalıqdan, çox daha böyükdür. (Bu halda), ittihadın əsli-əsası, batildir.

Buna görə, bir yerdə, ***"ittihad"***dan bəhs edilib, ***"O, Odur."*** deyildiyində; burda, ancaq, sufilərin və şairlərin adətinə uyğun olaraq, bir məna genişliyi və məcaz bəhs mövzusu ola bilər. Çünki, onlar, sözü, (insanların) fəhmlərində gözəlləşdirmək üçün, istiarə yolundan gedirlər. Şairin dediyi kimi:

"Mən, sevdiyim; sevdiyim də, mənəm,

Bədən olaraq biz, hulul etmiş 2 ruhuq."

Bu ifadə, şair nəzdində, təvil edilmişdir. Çünki, şair, burda, həqiqətən də, sevdiyi şəxs halına gəldiyini deyil; sanki, onun kimi olduğunu qəsd etməkdədir. Özünü sevməsində müstağraq olduğu kimi; onun sevgisində də müstağraq olmuşdur. Bu hal, məcaz yolu ilə, ittihad olaraq adlandırılmaqdadır.

Əbu Yezid Bistami (rahiməhullah)›ın sözü də, buna həml edilməlidir:

"İlan dərisindən soyuldum; bir də gördüm ki, o olmuşam."

Onun, bu sözünün mənası, budur: Nəfsin şəhvətlərindən, pisliklərindən, kədərindən sıyrılan kimsənin, orda (yəni, qəlbində), Allah xaricində bir şeyə yer qalmaz. Allah (subhənəhu və taala)'nın xaricində, bir himməti qalmaz. Qəlbdə, Allahın cəlal və camalı xaricində bir şey qalmaz; hətta Onda müstağraq olarsa, sanki, o, O olmuş olar. Ancaq, o, həqiqi mənada O, olmaz.

"O, Odur." sözü ilə, ***"Sanki Odur."*** sözü, bir-birindən fərqlidir. Bununla bərabər, bəzən, ***"O, Odur."*** deyərkən; ***"Sanki, o, Odur."*** mənasını qəsd edərik. Eynilə, şairin, bəzən, ***"Sanki, sevdiyim şəxsəm."***; bəzən də, ***"Mən, sevdiyim şəxsəm."*** deməsi kimi...Bu isə, ayaqların zəlləyə (xətaya) düşdüyü yerdir. Məqulat (əqli məsələlərdə) rasix qədəm olmayan (dərinləşməyən) kimsə, bu 2 ibarə arasındakı fərqi, ayıra bilməyə bilər. Sonra, öz zatındakı kamala baxıb, Haqqın hilyəsi (gözəlliklərilə) zinətlənmiş olaraq görüncə, özünü, O olmuş zənn edib, ***"ənə'l-həqq / Mən, Haqq'am"*** deyər. Bunu söyləyən şəxs, xristiyanların düşdüyü xətaya düşdü. Çünki, onlar, bu sayılan vəsfləri, İsanın zatında gördülər, onun haqqında ilah dedilər. Hətta belə bir kimsə, güzgüyə baxan bu kimsənin düşdüyü xətaya düşmüşdür: Bu şəxs, aynada, özünün rənglərinə görə rənglərə bürünən bir surət görər, bu surətin, aynanın surəti, o rənglərin də, aynanın rəngləri olduğunu zənn edər. Ancaq heyhət (həqiqətdən nə qədər uzaq)! Aynanın zatında, rəng yoxdur. Bir cəhətdən surətlərin rənglərini qəbul etmək, aynanın şanındandır. Aynaya baxanlara görə, o işlərin zahiri, o aynanın surəti olaraq təxəyyül edilir. Hətta, bir uşaq, aynada bir insan gördüyündə, o insanın, aynanın içində olduğunu zənn edəcəkdir.

Bax qəlb də, nəfsində, surətlərdən, şəkillərdən xali (boş)'dur. Onun heyətləri, heyətin mənalarını, surət və həqiqətlərini qəbul etməkdir. Qəlbə hulul edən, sanki onunla ittihad etmiş kimi olar. Yoxsa, həqiqi mənada onunla ittihad etmiş olmaz.

Şüşə və şərabı tanımayan şəxs, içində şərab olan bir şüşə görsə, bu ikisini, bir-birindən ayıra bilməz. Bəzi vaxtlar, ***"Şərab, yoxdur."*;** bəzi vaxtlar da, ***"Şüşə, yoxdur."*** deyər. Şairin də söylədiyi kimi:

"Şüşə incəldi, şərab saflaşdı,

Bir-birilərinə bənzədilər, iş müşkülləşdi.

Sanki şərab var, qədəh yox,

Yaxud qədəh var, şərab yox."

Onlardan ***"ənə'l-həqq"*** deyənin sözünün mənası, şairin, ***"Mən, sevdiyim; sevdiyim də, mənəm."*** (sözünün) mənası kimidir. Ya da, xristiyanların, lahut (uluhiyyət) ilə nasut (insaniyyət)›in ittihadı zənlərindəki xətaya bənzər bir xətadır. əbu Yezid əl-Bistami›nin, -əgər özünə aiddiyyəti səhihdirsə- ***"Mən, Subhanam, şanım, nə ucadır."*** sözü,

~ ya Allah (azzə və cəllə)'yə aid (bir həqiqəti) nəql etmək üçün, dilindən cari olmuşdur ki,

إِنَّنِيٓ أَنَا ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱعْبُدْنِى...

"Həqiqətən, Mən, Allaham. Məndən başqa, heç bir məbud yoxdur. Mənə ibadət et..."[1] ***(***ayətində olduğu kimi, bu ayət, birinin oxuduğu eşidildiyində, Allaha aid bir kəlamı nəql etmə (mənasına) həml edilir.

~ yaxud da, özü, (Quddus sifətini açıqlayarkən, tənbeh qismində dilə gətirdiyimiz kimi), qüds sifətindən həzzinin kamalını müşahidə edib mövhumat və məhsusatdan mərifətilə tərəqqi edərək; və himmət ilə də, nəfsin həzləri və şəhvətlərindən yüksəlmək surətilə, nəfsinin qudsundan xəbər verərək, ***"Subhani/Subhanam."*** demiş; xalqın ümumunun şanına izafətlə, öz şanının böyüklüyünü görüb, ***"Mə əzəmu şə'ni/Şanım, nə ucadır!"*** **demişdir**. Ancaq, bununla bərabər, özünün qudsiyyətinin və şanının ucalığının xalqa nisbətlə bəhs mövzusu olduğunu, Rəbb Taala'nın qudsiyyət və şanının ucalığı ilə özününkü arasında bir nisbət olmadığını da, çox yaxşı bilməkdədir. Bu ləfz, sekr və halın qələbəsi zamanı olmuş ola bilər. Sahv və itidal halına dönmək, bu tərz mövhum ləfzlərdən dili qoruyar. Bu hal isə, sekr halında baş verməz.

Əgər bu 2 təvildən ittihada keçiləcək olarsa, bu, qəti şəkildə muhaldır. İmkansız bir xüsusu təsdiq cəhətində, sözün sahibinin məqamına baxılmaz. Əksinə, insanları, haqqa görə tanımaq lazımdır; haqqı, insanlara görə deyil.

~ **Beşinci qisim** -ki, hulul idi- Hulul haqqında, belə deyildiyi təsəvvür edilə bilər: ***"Rəbb (təbarəkə və taala), qula hulul etdi."*** Yaxud da, ***"Qul, Rəbbə hulul etdi."*** Ərbabın Rəbbi olan Rəbb, zalımların sözlərindən nə qədər ucadır! Əgər bu söz səhihdirsə, ittihadı (qul ilə Rəbbin birləşməsini) gərəkdirməz və qulun, Rəbbin sifətilə müttəsif olmasını da lazım qılmaz. Çünki hulul edənin sifəti, hulul etmiş olduğu məhəllin sifətləri (halına)

(1) Taha/14

gəlməz. Əksinə, hulul edənin sifətləri olaraq qalar. Hululun hansı cəhətdən imkansız olduğu, ancaq, hulul (məfhumunun) mənasını bilmək surətilə başa düşülə bilər. Müfrəd (tək) mənalar, təsəvvür yolu ilə idrak edilmədiyi təqdirdə, nəfy və isbatlarının başa düşülmələri, mümkün deyildir. Bu halda, ***"hulul"***un mənasını bilməyən şəxs, hululun mövcudluğunu, ya da muhallığını, hardan biləcək?! Bundan dolayı, deyirik ki, hululdan, 2 şey başa düşülür:

• ***Birincisi:*** cisim ilə, cismin içərisində olduğu məkan arasındakı nisbətdir. Bu isə, ancaq, 2 cisim arasında mümkündür. Cisimlik mənasından bəri olan haqqında isə, bu məna, imkansızdır.

• ***İkincisi:*** araz ilə cövhər arasındakı nisbətdir. Arazın qiyamı, cövhər ilə olur. Bundan dolayı, bəzən, arazın cismə hulul etdiyi deyilir. Özü ilə qaim olan varlıqlar üçün isə, bu məna, muhaldır. Elə isə, Rəbb Taala'nı, bu şəkildə zikr etməyi tərk et! Çünki, Öz başına qaim olan hər hansı bir varlığa, nəfsi ilə qaim olan bir digərinin hulul etməsi, -cisimlər arasında vaqe olan qonşuluq yolu xaric- imkansızdır. Buna görə, 2 qul arasında hulul təsəvvür edilə bilmədiyi halda; qul ilə Rəbb arasında hulul, necə təsəvvür edilə bilər?!

Hulul, intiqal, ittihad və Allah (subhənəhu və taala)'nın sifətlərilə həqiqi mənada qulun ittisaf etməsi (yəni, vəsflənməsi) batil olunca, o vaxt, onların sözlərindən, bizim, tənbehlərdə işarət etdiyimiz mənalar qalır. ***"Allah Taalanın isimlərinin mənaları, qulun vəsfləri olar."*** sözünü, mütləq mənada söyləmək, qadağan edilər. Sadəcə, vəhm (və ya xəyal)›dan xali təqyid növündən biri ilə ola bilər. Belə olmazsa, o vaxt, bu ləfz, mütləq mənada vəhmdir.

Əgər desən ki, onun (şeyx əbu Əli əl-Farmadi›nin) bu sözü: ***"Qul, hələ vasil olmamış ikən, süluk əsnasında, bütün bunlarla müttəsif olar."*** Bu sözdəki, süluk və vüsul, nə mənaya gəlir?

Bunu bil ki:

~ ***Süluk'un mənası***, əməlləri və mərifətləri, təhzib etmək (yəni, bunların yalnışlarını düzəltmək)'dir. Bu isə, (qulun), zahir və batinini imar ilə məşğul olması sayəsində reallaşır. Qul, bu məşğuliyyət içərisində ikən, öz nəfsilə məşğul olduğu üçün, Rəbbindən qafildir. Çünki, Rəbbinə vasil olmağa iſtedad qazanmaq üçün, təsfiyə ilə məşğuldur.

~ ***"Vüsul"*** isə, Haqqın açıqlığı özünə münkəşif olmaq və onda müstağraq olmaq deməkdir. Elə ki, mərifətinə nəzər etdiyində, Allahdan başqasını bilməyəcək, himmətinə də baxdığında, Ondan başqa bir himməti olmayacaqdır. Müşahidə və himmət (qayə) cəhətindən, varlığının bütün

külliyyətilə, Onunla məşğuldur. (Bu hal içərisində ikən), zahirini, ibadətlə; batinini, əxlaqını təhzib ilə imar etmək üçün, öz nəfsinə yönəlməkdədir. Bütün hər şey, təharət (təmizlənmək) və bidayət (başlanğıc)›dır. Nəhayət isə, nəfsindən, külliyyən insilax (soyulub çıxarılmaq) və təcərrüddür. Sonunda, sanki O olar. Onun nəzdində, vüsul, budur.

Əgər, *"Sufilərin sözləri, vəlayət mərtəbəsindən özlərinə açılmış olan müşahidələr haqqında xəbər vermək qəbilindəndir. Ağıl isə, bunları idrak etməyə qasir (nöqsan)'dır. Halbuki, dilə gətirdiyimiz şeylər də, ağıl sərmayəsilə edilən təsərrüfdür."* deyiləcək olsa, belə cavab verərəm:

Bil ki, ağlın, muhal olduğuna hökm etdiyi bir şeyin, vəlayət mərtəbəsində zühur etməsi, caiz (mümkün) deyildir. Bəli, ağlın, özündən qasir olduğu şeyin, yəni, mücərrəd ağılla edilə bilməyən bir şeyin (vilayət mərtəbəsində) zühur etməsi isə, caizdir. Bunun misalı, məsələn, bir vəliyə, filan kimsənin sabah öləcəyi, kəşf yolu ilə bildirilə bilər. Belə bir məsələ isə, yalnız ağıl sərmayəsilə idrak edilə bilməz. Hətta ağıl, bundan qasir/nöqsan qalar. (Ancaq bir vəliyə), Allah (subhənəhu və taala)'nın özünün bir bənzərini yaradacağı şəklində (bir biliyin) kəşf yolu ilə gəlməsi, mümkün deyildir. Çünki, belə bir şey, ağlın qasir qaldığı üçün deyil, muhal gördüyü üçün caiz deyildir.

Yuxarıdakı sözdən daha uzaq olanı isə, *"Allah (təbarəkə və taala), məni, Özü kimi qılacaqdır."* sözüdür. Çünki, bunun mənası, *"Mən, hadis (sonradan yaradılmış)'am. Allah (taala və təqaddəs) isə, məni, qədim qılacaqdır. Mən, göylərin və yerin xaliqi deyiləm. Ancaq, Allah, məni, göylərin və yerin xaliqi qılacaq."* deməkdir.

Əbu Yezid Bisṭami›nin: ***"Baxdım ki, mən, O olmuşam."*** sözü təvil edilməz (yəni, zahirinə həml edilər)'sə, söz, bu mənaya gələr.

Bu cür (imkansız) sözləri təsdiq edən kimsə, ağıl qərizəsindən çıxmış; və artıq onda, bildiyi ilə bilmədiyi arasındakı təmyiz qalxmışdır, deməkdir. O vaxt, bu kimsə, bir vəliyə, İslam şəriətinin batil olduğu; yaxud haqq olsa belə, Allahın, onu batilə çevirə biləcəyi və bütün peyğəmbərlərin sözlərini təkzib edəcəyi bir kəşf gələ biləcəyini də təsdiq etsin! Çünki, ***"Sidqin kizbə çevrilməsi, muhaldır."*** deyən kimsə, bu sözü, ağıl sərmayəsilə söyləməkdədir. Sidqin kizbə çevrilməsi, hadisin, qədimə; qulun, Rəbbə çevrilməsindən daha uzaq deyildir. Ağlın muhal gördüyü şey ilə, ağlın tək başına qavramağa gücünün çatmadığı şeyləri, bir-birindən ayırd edə bilməyən kimsə, xitab edilmək üçün ən alçaq adamdır. Və cəhalətilə baş-başa buraxılmalıdır.

* * *

NOT

Dəyərli oxuycu! Bu bölmede keçen bəzi istilahların açıqlamalarını qeyd etmək ehtiyacı hiss etdik. Bunun üçün də kitaba əlavə olaraq bu hissədə qeyd edirik.

1.Kəşf nədir?

Lüğətdə, "***pərdəni və örtünü qaldırmaq; qapalı olan bir şeyi açığa çıxarmaq; var olan, lakin keyfiyyəti bilinməyən şey haqqında bilik əldə etmək***" kimi mənalara gələn "***kəşf***" kəliməsi, Quranda, törəmələrilə birlikdə, "sıxıntını qaldırmaq və çarəsizliyi sonlandırmaq" mənasında istifadə edilir.(1).

أَمَّن يُجِيبُ ٱلْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ ٱلسُّوٓءَ وَيَجْعَلُكُمْ خُلَفَآءَ ٱلْأَرْضِ ۗ أَءِلَٰهٌ مَّعَ ٱللَّهِ ۚ قَلِيلًا مَّا تَذَكَّرُونَ

"***Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, sıxıntısını qaldıran və sizi yer üzünün varisləri edən, Kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz, necə də az düşünürsünüz?***"(2) ayətində, "kəşf", bu mənada istifadə edilmiş və Allaha, "Kaşif/sıxıntını sonlandıran" deyilmiş(3);

Bir ayətdə də,

لَّقَدْ كُنتَ فِى غَفْلَةٍ مِّنْ هَٰذَا فَكَشَفْنَا عَنكَ غِطَآءَكَ فَبَصَرُكَ ٱلْيَوْمَ حَدِيدٌ

"***Sən, bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni, Sənin üzündən qaldırdıq. Sən, bu gün çox yaxşı görürsən!***"(4) buyurulmuşdur.

Ölümlə axirətə gedən şəxsin gözünü örtən pərdə qalxdığı üçün, daha əvvəl qeyb olan xüsusları açıqca görər.

"***Kəşf***", hədislərdə də bu mənalarda istifadə edilmiş; qeybi və axirət hallarını görməyə əngəl olan pərdənin (hicabın) açılması ilə, qiyamət günü

(1) Rağib əl-İsfahani, "əl-Mufrədat", "kəşf" maddəsi

(2) Nəml/62

(3) bax: Ənam/17; Yunus/107

(4) Qaf/22

hər şeyin görüləcəyinə işarət edilmişdir. Bir hədisdə, Allah ilə məxluqları arasında, nurdan pərdələr olduğu, bunların açılması halında, Zatından gələn nurların, bütün məxluqları yandırıb külə çevirəcəyi bildirilmişdir. (1)

Sufilər, "***kəşf***" terminini, həm "***pərdə arxasında və ağlın fövqündə olduğu üçün qaib olan bəzi şeyləri bilmə***"; həm də, "***Allahın təcəlliləirini kəşf etmə***" mənasında istifadə etmişlərdir. Çünki, hər 2 hal da, pərdənin qalxması və ya aralanması nəticəsində reallaşır.

İlk sufilərdən etibarın, fərasət, fəth, inkişaf, müşahidə, muayənə, yəqin və ilham kimi terminlər də, buna yaxın mənalarda istifadə edilmiş; tasavvuf kitablarında, bu terminlərin birləşdikləri və üst-üstə düşdükləri, yaxud ayrıldıqları və fərqli hala gəldikləri cəhətlər üzərində durulmuşdur.

"***2 şey arasındakı pərdənin qalxması və bu 2 şeyin bir-birinə qarşı açılması***" mənasına gələn "***mükaşəfə***" terminin də, çox dəfə, "***kəşf***" mənasında istifadə edildiyi görülməkdədir.

Tasavvufa, "***mükaşəfə***" elmi; sufilərə də, "***əhl-i mükaşəfə***" və ya "***əhl-i kəşf***" deyilməsi, kəşfin bu sahədəki əhəmiyyətini ifadə etməsi cəhətindən, diqqət çəkicidir.

Kəşfi, "***üstü qapalı olan şeyin açılması və gözlə görülən hala gəlməsi***" şəklində tərif edən əbu Nasr əs-Sərrac(2) , mükaşəfəni də, yəqin olaraq başa düşdüyünü zikr etmişdir.

Səhabədən Harisə'nin, "***Rəbbimin ərşini görür kimiyəm.***"(3) ifadəsi, qəlbin mükaşifəsinə; "***Rəbbinə, Onu (sanki) görürmüş kimi ibadət et.***" hədisi də, sirlərin müşahidəsinə işarət edir. (4)

Kəşf və mükaşifə məfhumlarını genişcə ələ alan imam əbu Həmid əl-Ğazzali, mükaşifənin, müşahidədən daha üstün olduğunu söyləməkdədir. (5) Ona görə, tasavvufla bağlı elmlər, mükaşifə elmi və muamələ elmi olmaq üzərə, ikiyə ayrılır. Muamələ elminin mövzusu, səbr, şükr, ixlas və bunların zidləri olan tələskənlik, nankorluq və riya kimi qəlbin hallarına bağlı biliklərdir. Mükaşifə elmi isə, təmizlənən qəlbdə bir nurun zühur etməsi və ya ilahiyyatla bağlı xüsuslarda, pərdənin açılıb haqq olanın gözlə görülərcəsinə açıq-aydın ortaya çıxmasıdır. İnsanın cövhərində, belə bir qabiliyyət vardır. Mükaşifə elmi, kitablara yazılmaz.

---

(1) Muslim, İman/293; ibn Macə, Müqəddimə/14

(2) "əl-Luma", s. 422

(3) Heysəmi, "Məcmau'z-Zəvaid", l, 57

(4) Kələbazi, "ət-Taarruf", s. 108

(5) "əl-İmla", l, 79

Bu elmi bilənlər, ancaq, öz səviyyəsində olanlarla bunu müzakirə edər, başqalarına ifşa etməzlər. Kəşf ilə öyrənilən elm, budur.(1)

Ğazzali, "***əl-Munqiz minə'd-dalal***"da, ağlın kifayət etmədiyi metafiziki bəzi həqiqətlərin kəşf ilə bilinə biləcəyini, bu yolla, bir vəlinin, mələyi görə biləcəyini və səsini eşidə biləcəyini söyləyir. Məqbul olan və olmayan təvildən söz edərkən də, bu mövzuda, mötədil davranışını mənimsəyənlərin, biliyə mövzu olan şeyləri eşitmə olmadan, ilahi bir nurla idrak etdiklərini, daha sonra, hadisələrin sirləri, özlərinə kəşf yolu ilə bildirilincə, bu biliyi, vəhyin ləfzlərilə qarşılaşdırdıqlarını, bunlardan yəqin nuru ilə müşahidə etdiklərilə uyğun olanları, eynilə mənimsədiklərini, uyğun olmayanları isə, təvil etdiklərini bildirir.(2)

Ğazzali kimi, ibnu'l-Arabi də, mükaşifənin, müşahidədən daha mükəmməl olduğunu; müşahidə ilə mahiyyətin; mükaşifə ilə ilahi həqiqətlərin təmsili mənalarının idrak edilə biləcəgini söyləməkdədir. Ona görə, Allahın mahiyyəti idrak edilə bilməyəcəyindən dolayı, bu mövzuda mükaşifənin verdiyi bilik, daha əhəmiyyətlidir. Müşahidə, biliyə götürən yol; kəşf isə, bu yolun son nöqtəsidir. Bu da, nəfsdə elmin hasil olmasıdır.

İbn Xaldun'a görə, hislərdən meydana gələn pərdə, riyazət, xəlvət və zikirlə, yavaş-yavaş açılır; beləcə, kəşf halı gerçəkləşir. Kəşf ilə, varlığın həqiqəti idrak edilir və bir çox hadisə, (Allahın iznilə) meydana gəlmədən əvvəl bilinə bilir.(3) ("Təqiyuddin ibn Teymiyyə, fövqə'l-adi halların bir qisminin, feli olduğunu və bunlara, kəramət deyildiyini; digər qisminin isə, biliklə bağlı olduğunu söyləməkdədir. Ona görə, bir kimsənin, başqalarının eşitmədiyi bir səsi eşitməsi, görmədiyi şeyi görməsi, bilmədiyi şeyləri fərasət və ilham yolu ilə bilməsi kimi hadisələr, biliklə bağlı fövqə'l-adi hallardır. Bunlara, kəşf deyildiyini; Quran və sünnətdə kəşfin nümunələri olduğunu söyləyən ibn Teymiyyə, kəşfin, dini və ya mübah olan dünyəvi bir fayda təmin edərsə, nemət; harama vəsilə olarsa, günah olacağına diqqət çəkir. Ona görə, bir vəlinin, kəşf yolu ilə qeybdən xəbərdar olmaması, onun, Allah qatındakı mərtəbəsinin yüksək olmasına əngəl təşkil etməz. Hətta bu hal, onun haqqında, daha faydalı ola bilər. Kəşfin, əqli, hissi, nəzəri, zəruri növləri üzərində duran ibn Teymiyyə, bunların bir qisminin, qəti; bir qisminin isə, zənni bilik verdiyini qeyd etməkdədir.(4)

İslam alimlərinin böyük əksəriyyəti kimi, ibn Teymiyyə də, kəşfi, kökdən rədd etməməkdə, əqli biliklər kimi, kəşfi biliklərin də, Allah rəsulu

(1) "İhya-u Ulumi'd-din", l, 27; lV, 134

(2) "İhya", l, 104

(3) Şifau's-Sail", s. 30-39; "Müqəddimə", s. 422, 1100-1113)

(4) "Məcmuatu'r-Rəsail", V, 154-226

(sallallahu aleyhi və səlləm)'in xəbər verdiklərilə üst-üstə düşməsi şərtilə doğru biliklər olduğunu bildirməkdədir. Hətta buna, Qurandan dəlillər göstərməkdə, bu ölçüyə uyğun düşmədiyi halda, əqli bürhanlar və ya ilahi müşahidələr olaraq iləri sürülən görüşləri isə, fasid xəyallar və batil vəhmlər şəklində vəsf etməkdədir.(1)

İbnu'l-Qayyim əl-Cevziyyə, kəşfi, "***Allahın, qulun qəlbində meydana gətirdiyi bir bilik olub, qul, bu biliklə, başqalarına qapalı olan xüsusları bilər.***" şəklində tərif etdikdən sonra, biri, bilik; digəri isə, görmə ilə bağlı 2 kəşfdən bəhs etmişdir. Ona görə, biliyin, bilinənə uyğun olması, bir kəşf olduğu kimi; bilinənin, qəlb ilə müşahidə edilməsi də, bir kəşfdir. Allaha, Onu görürmüş kimi ibadət etmək, qəlbin açıq kəşfidir. Bir də, qeyr--i müsəlmanla müsəlman arasında müştərək olan cüzi bir kəşf vardır. Görünməyən və bilinməyən bəzi xüsusların xəbər verilməsi, belədir. Necə ki, ibn Sayyad, Əsvəd əl-Ansi və Haris əl-Mütənəbbi kimi qeyr-i müsəlmanlarda, belə bir kəşf görülmüşdür. Məcusilərdə, bütpərəstlərdə, xristiyan rahiblərində, kahinlərdə, sehrbazlarda da, buna bənzər bir kəşf, görülə bilər.(2)

Kəşfin dəlilləri:

Rəvayət edilir ki, (bir dəfə), gecə, Useyd b. Hudayr, Bəqərə surəsini oxuyurdu. Atı da, onun yanında, yerə bağlanılmışdı. Birdən, at, təşvişə düşüb şahə qalxdı. (Bunu görəndə), Useyd, susdu, at da sakitləşdi. Sonra o, oxumağına davam etdi və at, yenə təşvişə düşüb şahlandı. O, susdu; at da, sakitləşdi. Bundan sonra o, daha oxumadı. Həmin vaxt (Useydin) oğlu Yəhya, atın yaxınlığında idi və o, qorxdu ki, at, onu tapdalayar. Useyd, uşağı yanına çəkdikdən sonra, başını göyə qaldırdı, lakin, aydın bir şey görə bilmədi. Səhəri gün, o, bu hadisəni, Peyğəmbər (sallallahu aleyhi və səlləm)'ə danışdı.

*- Peyğəmbər (sallallahu aleyhi və səlləm), ona: "**Oxu, ey ibn Hudayr! Oxu, ey ibn Hudayr!**" deyə buyurdu.*

- Useyd dedi: "Ey Allahın rəsulu! Yəhya, atın yanında idi və mən, qorxdum ki, at, onu tapdalayar. Odur ki, başımı qaldırıb, ona tərəf getdim. Sonra başımı göyə qaldırıb buluda oxşar bir şey, içərisində də, qəndillər (asma çıraqlar)'a bənzər şeylər gördüm. Sonra, onlar, yox olub getdilər."

*- Peyğəmbər (sallallahu aleyhi və səlləm) soruşdu: "**Bilirsənmi, o nə idi?**"*

- Useyd: "Xeyr!" deyə cavab verdi.

---

(1) "Məcmuatu'r-Rəsaıı", V, 350, 356-357

(2) "Mədaricu's-Salikin", lll, 230-241

- Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurdu: "***Bu, mələklər idi. Sənin səsinə yaxınlaşmışdılar. Əgər sən, oxumağa davam etsəydin, səhər tezdən, hamı onları görərdi və onlar, insanlardan gizlənməzdilər.***"(1)

İmam Əşrəf Əli Təhanəvi, belə deyir:

Təhqiq əhlinin açıqlamalarına görə, vəlilər, mələkləri görə bilərlər. Ayrıca, mələklərin danışmalarını və salamlamalarını da eşidə biləcəklərini söyləmişlərdir. Hədisdə, bu kəşfin meydana gəldiyi, açıqca zikr edilmişdir.

Muslim'in "Səhih"indəki rəvayətdə, mələklərin, İmran b. Husayn'a salam verdikləri nəql edilmişdir.

Bir digər dəlil, budur:

Səhl b. Sə'd (radiyallahu anh), Allah rəsulu (sallallahu aleyhi və səlləm)'dən belə rəvayət edir:

"Bir müsəlman təlbiyyə gətirdiyində (yəni, ləbbeyk, Allahummə ləbbeyk dediyində), onun sağında və solundakı, hətta şərq və qərbindəki yerlərə çatana qədər, hər şey təlbiyyə gətirər."(2)

Bu hədis, kəşf əhlinin, cansız varlıqlarla hiss, şüur və danışmaq kimi hallarının kəşfini dəstəkləməkdədir.(3)

Bir digər dəlil, budur:

ibn Abbas (radiyallahu anh)'dan belə rəvayət edilir:

Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in əshabından biri, qəbr olmadığını zənn etdiyi yerə, bir çadır qurur. Belə ikən, məzardakı bir insanın, Təbarəkə (surəsini) oxuduğunu (görür). O kimsə, hətta, Təbarəkə surəsini sonuna qədər oxuyur. Bunun üzərinə, Nəbi (sallallahu aleyhi və səlləm)'in yanına gəlir və bunu, Ona xəbər verir. Nəbi (sallallahu aleyhi və səlləm), dinlədikdən sonra, belə buyurur:

"***Təbarəkə surəsi, əngəlləyicidir. Oxuyanı, cəhənnəm əzabından qurtarar.***" (4)

Şeyx Əşrəf Əli Təhanəvi, belə deyir:

Qəbrlərin kəşfi, bəzən, bu səhabə kimi, istəmədən əldə edilir. Bundan dolayı, sufilər, bunu, hala daxil etmişlərdir. Ara sıra, bu hal, istəyərək və riyazət (nəfsi təmizləmək) ilə olur. İstənilən halda, qəbrlərinin kəşfinin mümkün olduğu, bu hədisdən başa düşülməkdədir.

(1) Buxari, hədis no: 5018

(2) Tirmizi, "Həcc", 14, hədis no: 828

(3) Əşrəf Əli Təhanəvi, "Həqiqətu't-Təriqa min Sünnəti'l-Əniqa", 71-ci hədis

(4) Tirmizi, "Fədailu'l-Quran", 9, hədis no: 2890

Qəbr əhlindən batini, mənəvi feyz:

Heç şübhə yoxdur ki, Quran dinləmək, batini faydanın səbəbidir, mənəvi bir lütfdür. Hədisdə zikri keçən səhabə, bu lütfü əldə etmişdir. Hədisdə, qəbr əhlinin də feyzinin olacağı isbat edilməkdədir.(1)

2. Müşahidə nədir?

Yuxarıdakı "kəşf" maddəsinə bax.

3. Mükaşifə nədir?

Yuxarıdakı "kəşf" maddəsinə bax.

4. İstiğraq nədir?

Salikin, İlahi sevginin istilası altında, özü və maddi aləm haqqında, heç bir hiss, idrak və şüura sahib olmaması mənasında tasavvuf terminidir.

5. Məlәu'l-ə'lə nədir?

"**əl-Məlәu'l-Ə'lə**":

Kəlimənin tərkibindəki,

~ "**mələ**" kəliməsi, lüğətdə, "***bir görüş və düşüncə ətrafında birləşən topluluq***" mənasına gəlir. Bəzi təfsir qaynaqlarında, kəlimənin, həm mütləq olaraq "***camaat***", həm də "***şərəf və etibar sahibi topluluq***" mənasında istifadə etdiyi bildirilir.(2)

~ "***ə'lə***" isə, "***çox uca, çox şərəfli***" deməkdir.

"əl-Məlәu'l-Ə'lə" kəliməsi, Quranda, 2 yerdə keçməkdədir. Belə ki, Allah (subhənəhu və taala), Öz əzəmətli kitabında buyurur:

لَّا يَسَّمَّعُونَ إِلَى ٱلْمَلَإِ ٱلْأَعْلَىٰ وَيُقْذَفُونَ مِن كُلِّ جَانِبٍ

"***Onlar, artıq, ali topluma qulaq asa bilməzlər və hər tərəfdən, üstlərinə yandırıb-yaxan alovlar yağdırılar.***"(3);

مَا كَانَ لِيَ مِنْ عِلْمٍۭ بِٱلْمَلَإِ ٱلْأَعْلَىٰٓ إِذْ يَخْتَصِمُونَ

"***Ali toplum mübahisə apararkən, mənim onlardan heç bir xəbərim yox idi.***"(4)

"***əl-Məlәu'l-Ə'lə***"nin kimlərə dəlalət etdiyi xüsusunda, səhabə və tabiun müfəssirlərindən, fərqli görüşlər nəql edilmişdir. Belə ki:

(1) Əşrəf Əli Təhanəvi, "Həqiqətu't-Təriqa min Sünnəti'l-Əniqa", 279: "Kəşfu'l-Qubur/Qəbrlərin kəşfi"

(2) Maturidi, "Təvilatu'l-Quran", Xll, s. 125

(3) Saffat/8

(4) Sad/69

~ ibn Abbas (radiyallahu anh), bu tərkibi, "***yazıçı mələklər***" və ya "***mələklərin ən şərəfliləri***" deyə təfsir edərkən;

~ Süddi, ümumi olaraq "***mələklər***"ə işarət etdiyini bildirmişdir. Başda, Muqatil b. Süleyman və Təbəri olmaq üzərə, müfəssirlərin böyük əksəriyyəti, Süddi'dən gələn açıqlama yönündə, bu tərkibin, "***mələklər***"i, yaxud da "***mələklər aləmi***"ni ifadə etdiyi görüşündə birləşmişlərdir.

6. Araz nədir?

Hər hansı bir cövhərin varlığı üçün zəruri olmayan vəsf. Məsələn: Qəndin ağ rəngi, qəndin varlığı üçün zəruri deyildir.

7. Süluk və Salik nə deməkdirlər?

Lüğətdə, "***yola girmək, yolda yerimək; (bir şeyin) başqa bir şeyin içinə nüfuz etməsi; qoşulmaq***" mənalarına gələn "***süluk***" kəliməsi, tasavvufda, "***insanı, Haqqa çatdıran fel, əməl, ibadət, hərəkət***" mənasında istifadə edilməkdədir.

"***Süluk***", "***yol***" mənasına gələn və terminologiyada bənzər mənalara sahib olan "***təriq***" və "***təriqət***" məfhumlarından daha geniş mənalıdır. "***Təriqət***", müəyyən bir şeyx ətrafında toplanmış müridlərdən meydana gələn tasavvufi bir camaatı ifadə etdiyi halda; sülukda, belə bir qurumun varlığı, şərt deyildir.

Süluk kəliməsi, ilk dövr tasavvuf klassiklərində, dini həyatla bağlı bütün felləri əhatə edən geniş bir istifadəyə sahib ikən; 12-ci əsrdə, təriqətlərin ortaya çıxmasından sonra, daha çox, "***Haqqa çatmaq yolunda, müəyyən tasavvufi ədəb və rüknlərin tətbiq edilməsi***" mənasını qazanmışdır.

Süluka, bir tasavvuf termini olaraq, ilk dəfə, Abdu'l-Kərim əl-Quşeyri'nin "***Tərtibu's-Süluk***" adlı əsərində rast gəlinməkdədir.

"***Süluk***", təriqətlər sonrası dövrlərdə, ümumiyyətlə, eyni mənaya gələn "***seyr***" kəliməsilə birlikdə ("***seyru's-süluk***") istifadə edilmişdir.

Tasavvuf, "***süluk elmi***" şəklində tərif edilir. Bu elmin mövzusu, talibin, Haqqa çatmaq qabiliyyətini qazanmaq üçün, nəfsini, dünya kirlərindən təmizləməsi, əxlaqını düzəltməsi və gözəlləşdirməsi, məqsədi də, nəfsini və Rəbbini bilməsidir.

~ Tasavvuf yoluna girmək, yəni süluk etmək istəyənə - "***talib***";

~ Yolun başlanğıcında olana - "***mübtədi***";

~ Bu yolda məsafə qət edənə - "***salik***";

~ Yolun sonuna çatana da - "***muntəhi***" deyilir.

Salik, mübtədi ilə muntəhi arasındakı mərtəbədədir.

Sülukun nəfisdəki başlanğıcı, tövbənin ardından, qəlbin oyaq halda olması; sonu isə Haqqa vuslat (qovuşmaq, fənafillah)'ın ardından, Haqq ilə davamlı olmaq (bəqabillah)'dır.

8. Sekr nədir?

Lüğətdə, "***sərxoşluq***" mənasına gələn "***sekr***", "insanın, yediyi, ya da içdiyi şeylərin təsirilə meydana gələn sevinc halının, ağla üstün gəlməsindən doğan qəflət halı" şəklində tərif edilir(1)

Tasavvufda isə, termin olaraq, "süluk əsnasında gələn varid (feyz)'in təsirilə, salikin özündən getməsi"ni ifadə edir. Bu halı yaşayan sufiyə isə, "***sukran***" deyilir.

Sekr halının keçməsi, "***sahv***" olaraq adlandırıldığından, qaynaqlarda, sekr, sahv terminilə bərabər ələ alınmışdır.

Sufilərə görə, sekr, Quranda,

"***...Rəbbi dağa təcəlli etdikdə, onu, parça-parça etdi. Musa da, bayılaraq yerə sərildi...***"(2) ayətilə işarət edilən, "***özündən getmək halı***"dır.

Musa (əleyhissəlam)'ı sərxoş edən və bayıldan varid/feyz, Rəbbinin dağda təcəlli etdiyi anda gəlmiş; bu əsnada, Musa (əleyhissəlam), özündən gedərək, dağı görməz olmuş; bütün idrakı, sadəcə təcəlli edən Allaha yönəlmişdir.

Salik də, kəşfi açılıb camal təcəllisini seyr etməyə başlayınca, ruhu sevinclə dolar və özündən gedərək "sekr" halını yaşamağa başlayar.

Kələbazi, sekr halındakı sufinin, gözündən əşyanın itmədiyini; ancaq, onun mənəvi olaraq Allahın hüzurunda olmasının təsirilə, əşyanın, ağrı və həzz vermə kimi keyfiyyətlərini başa düşə bilmədiyini deməkdədir.(3)

Dəlilləri:

İmam Əşrəf Əli Təhanəvi, "***Həqiqətu't-Tariqa minə's-Sunnəti'l-Əniqa"*** adlı əsərində, "***sekr***" üçün, aşağıdakı dəlilləri zikr etməkdədir:

~ İbn Ömər (radiyallahu anh)'dan, belə (rəvayət) edilir:

Abdullah b. Ubey b. Səlul öldüyündə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), onun namazını qılmaq üçün, ayağa qalxınca, Ömər (radiyallahu anh) da qalxdı və Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in paltarından tutaraq, belə dedi:

---

(1) Cürcani, "ət-Tarifat", "Sekr" maddəsi

(2) Əraf/143

(3) "ət-Ta'arruf", s. 116

"Ey Allahın rəsulu! Rəbbinin namaz qılmağını nəhy etdiyi kimsənin cənazə namazınımı qılacaqsan?"

Allah rəsulu (sallallahu aleyhi və səlləm) də, ona:

"***Allah, məni, (bu işdə) sərbəst buraxdı.***"[1] (

Qeybdən gələn qüvvətli varidat/feyzlər səbəbilə, zahiri və batini hökmlər arasındakı fərqin qalxmasına, "***sekr***" deyilmişdir. Bu fərqi idrak etmə halına isə, "***sahv***" deyilir. Ömər (radiyallahu anh)'ın qəlbində, Allah üçün buğz etmə halı elə çox varid oldu ki, Peyğəmbərimiz (sallallahu aleyhi və səlləm)'ə nə şəkildə davrandığının fərqinə vara bilmədi. Yoxsa, belə davranışın, Ömərdən meydana gəlməsi, ədəbdən dolayı mümkün deyildir. Bu səbəblə, Peyğəmbər (sallallahu aleyhi və səlləm), onun halını, məzur/üzrlü gördü, bir şey demədi. Lakin, sahv halına gəlincə, hədisdə bildirildiyi üzərə, Ömər (radiyallahu anh), etdiyinə heyrət etdi [2].

Ayətin (Tövbə/80) dəlalətilə, istiğfarın münafiqlər üçün faydalı olmadığı başa düşülməkdədir. Yoxsa, bunun mənası, istiğfardan nəhy etmək deyildir. İstiğfardan nəhy etməyin dəlili olmadığına, hədisdəki:

"***Allah, məni, (bu işdə) sərbəst buraxdı.***" ifadəsi işarət etməkdədir.

Ömər (radiyallahu anh), sekr halının özünə hakim olmasından dolayı, bunun fərqində deyildi. O, ayətdəki (Tövbə/80) nəhyi, zahirinə görə başa düşmüşdü.

~ ibn Abbas (radiyallahu anh)'dan rəvayət edildiyinə görə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

Fironun suda boğulmasına gəlincə,

...ءَامَنتُ أَنَّهُۥ لَآ إِلَـٰهَ إِلَّا ٱلَّذِىٓ ءَامَنَتْ بِهِۦ بَنُوٓاْ إِسْرَٰٓءِيلَ...

"***...İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım...***"[3] *demişdi. Bunun üzərinə, Cəbrail (əleyhissəlam),*

"*Ey Muhammməd! Ona rəhmət gələcək qorxusu ilə, məni, dənizin palçığından götürüb onun ağzına tıxayarkən görsəydin...*" dedi.[4]

İman, qəlblə olur, dillə isə iqrar edilir. Tövbələrin qəbul edilməyəcəyi vaxtda (məsələn, ümidsizlik halında), iqrar etməyin heç bir faydası yoxdur. Bunun əksinə, tövbələrin məqbul olacağı vaxtda, sadəcə qəlbin iqrarı

(1) Buxari, "Təfsir", (9), 12, 13; Muslim, "Münafiqin", 3, 4; Tirmizi, hədis no: 3097, 3098; Nəsai, hədis no: 1965.

(2) Buxari, "Təfsir", 9, 13-də, Ömərin heyrət etdiyinə dair məlumat vardır.

(3) Yunus/90

(4) Tirmizi, "Təfsir"/11, hədis no: 3107

kifayət edir. Bütün bunlara, (fironun imanı, iman etmə vaxtı olmamasına) baxmayaraq, Cəbrail (əleyhissəlam)'ın, onun ağzına palçıq soxması, ifrat sekr halından dolayıdır.

~ ibn Abbas (radiyallahu anh)'dan belə rəvayət edilir:

Ömər (radiyallahu anh)'a, zina etmiş dəli bir qadın gətirildi. Əli (radiyallahu anh):

"Ey möminlərin əmiri! Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in belə buyurduğunu bilirsən:

3 nəfərdən, qələm qaldırıldı:

1. Büluğ yaşına qədər uşaqdan;

2. Oyanıncaya qədər yatandan;

3. Nə dediyini bilincəyə qədər dəlidən."

Bu, filan oğullarının dəlisidir. Möhtəməlәm, bununla zina edən, xəstəliyi oyandığı vaxt onunla zina etmişdir. Bunun üzərinə, Ömər (radiyallahu anh), onu sərbəst buraxdı.[1]

Həkimlərin qəbul etdiyi kimi; ağlın məğlub olması, bəzən bədəni hallardan, bəzən də nəfsi hallardan olur. Nəfsi hallar arasında, elə hallar vardır ki, sekr halı, qalib; və ağıl da, buna məğlub olur. Dəli, şəran məzur olduğu kimi; sekr sahibi və hala məğlub olan da, şathiyyatında (şəriətə zidd düşən sözlərində), vacib felləri tərk etməsində və haram işləməsində, məzurdur. Sekr halındakı şəxs, bəzən, başqalarını görə və seçə bilməz. Dəli və ağlını itirmiş şəxslər də, bəzən, digər insanları fərq edə bilmirlər. Bu yönü ilə, aralarında bir bənzərlik vardır.

Ömər (radiyallahu anh), bu ehtimaldan dolayı, şübhələndi. Lakin Əli (radiyallahu anh)'ın sözü, bunu yox etdi.

Bu hədisdən, bu da başa düşülür ki, əgər bir nəfərin qərinələr ilə məzur olma ehtimalı varsa, əfv edilər. Çünki, "*Möhtəmələn, bununla zina edən, xəstəliyi oyandığında onunla zina etmişdir.*" ifadəsi, bunu göstərməkdədir. Bunun qərinəsi, o qadının, çox vaxt dəli olmasıdır. Əgər bəzi kimsələrin, sekr halında söyləmiş kəlamı ilə bağlı üzr bəyan edilərsə, onların bu halı, qərinə ilə gerçəkləşmiş olacaqdır. Onların kamil fəzilətləri və sünnətə tabe olma hallarının qalib olması səbəbilə, üzrləri qəbul edilər. Çünki bu üzr, onların sözlərini dəyərləndirməkdə, bir qərinədir. Bax, sekr halı, bir üzrdür. Əgər bir kimsəyə, fisq, günah və arzularına tabe olma halı qalib gəlsə, o vaxt, təvilə gərək yoxdur. Çünki, dəlil olmayan bir ehtimal, mötəbər

(1) Əbu Davud, "Sünən", "Hüdud"/16, hədis no: 4399-4402

deyildir. Əgər belə təvilə götürəcək bir kontrol şəkli yoxdursa, o vaxt, təvilin qapısı bağlanacaqdır.

9. Sahv nədir?

Yuxarıdakı "**sekr**" maddəsinə bax.

10. Cövhər nədir?

Cövhər: "***Nəfsində (zatında) və mahiyyətində müstəqil olan, başqasına bağlı olmayan***" deməkdir.

* * *

İkinci fəsil:

Məqsədlər və qayələr:

Əhl-i Sünnət›ə görə, bu çox saydakı ismin, tək bir Zat və 7 sifətə raci olmasının əsasları haqqındadır.

Sanki belə deyə bilərsən: *«Bu isimlər, çoxdurlar; aralarında mütəradifliyi (eyni mənalılığı) qəbul etmirlər; hər birinin də, digərindən fərqli bir məna daşıması gərəkdiyini iləri sürürsən. (Bu halda), bütün bu isimlər, 7 sifətə necə raci olacaqlar?»*

Bil ki: Sifətlər, 7-dirsə, fellər, izafətlər, səlblər (yəni, səlbi məna daşıyan vəsflər) çoxdur. Elə ki, bütün bunları məhdudlaşdırmaq, demək olar ki, mümkün deyildir. Bununla bərabər:

~ 2 sifət; və ya

~ 1 sifət və bir izafət; və ya

~ 1 sifət və 1 səlb; və yaxud

~ 1 səlb və 1 izafət

birləşdirilə bilər və bunların hər birinə, bir isim verilə bilər. Beləliklə də, isimlər, çoxalmış olar. Dolayısı ilə, bütün bu isimlər, sanki, bunlara rücu etməkdədirlər:

~ Zata dəlalət edən;

~ 1 səlb ilə birlikdə Zata dəlalət edən;

~ 1 izafət ilə birlikdə Zata dəlalət edən;

~ 1 səlb və izafət ilə birlikdə Zata dəlalət edən;

~ 7 sifətdən birinə dəlalət edən;

~ 1 sifət və 1 səlbə dəlalət edən;

~ 1 sifət və 1 izafətə dəlalət edən;

~ feli bir sifətə dəlalət edən;

~ 1 izafətlə bərabər feli bir sifətə dəlalət edən; yaxud

~ 1 səlbə dəlalət edən.

Bax bütün bu isimlər, beləliklə, 10 qismə ayrılmış olur:

1. ***Zata dəlalət edən isim***,

"Allah"dır. ***"əl-Haqq"*** ismi isə, Vacibu'l-Vücud olması cəhətindən, Zat iradə edildiyi təqdirdə, Allah isminə yaxın olur.

2. ***Bir səlb ilə bərabər Zata dəlalət edən isimlər.***

(Bunlar), ***«əl-Quddus», «əs-Salam», «əl-Ğani»,*** və ***"əl-Əhəd"*** ilə bənzərləridir. Çünki,

~ ***"əl-Quddus"*** ismində, (Allahın Zatı), insan ağlına və vəhmə gələn nə varsa, hamısından səlb edilmişdir.

~ ***"əs-Salam"***da, bütün eyblərdən;

~ ***"əl-Ğani"***də, hər cür ehtiyacdan;

~ ***"əl-Əhəd"***də isə, bənzərlik və bölünə bilərlik mənaları səlb edilməkdədir.

3. ***Bir izafətlə Zata raci olan isimlər:***

"əl-Ali", "əl-Əzim", "əl-Əvvəl", "əl-Axir", "əz-Zahir", "əl-Batin" və bənzərləridir.

~ ***"əl-Ali"*** ismi, mərtəbə cəhətindən cümlə zatlardan üstün olan Zat deməkdir ki, bu üstünlük (mənası), bir izafətdir.

~ ***"əl-Əzim"*** ismi, idrakların hüdudunu aşması cəhətindən Zata;

~ ***"əl-Əvvəl"*** ismi, bütün mövcudatdan əvvəl olması;

~ ***"əl-Axir"*** ismi, bütün mövcudatın, Özünə qayıtması;

~ ***"əz-Zahir"*** ismi, ağlın, Özünə dəlalət etməsi;

~ ***"əl-Batin"*** ismi, hiss və vəhm ilə idrak edilə bilməyəcək olması cəhətindən Zata dəlalət edir ki, (mənası, başqa bir şeyə nisbətlə ifadə edilən) digər isimləri də, bunlara qiyas et.

4. ***Bir səlb və bir izafətlə Zata raci olan isimlərdir.***

(Bunlar): ***"əl-Məlik"*** və ***"əl-Əziz"*** kimi (isimlərdir). (Belə ki):

~ ***"əl-Məlik"*** ismi, heç bir şeyə ehtiyacı olmayan və hər şey Özünə möhtac olan Zata dəlalət edir.

~ ***"əl-Əziz"*** ismi, bənzəri olmayan və Özünə qovuşmaq və nail olmağın çətin olduğu Zat deməkdir.

5. ***Bir sifətə dəlalət edən isimlər***,

ki, ***"əl-Alim", "əl-Qadir", "əl-Hayy", "əs-Səmi"*** və ***"əl-Basir"*** isimləri, bunlardandır.

6. ***Bir izafətlə bərabər elm sifətinə raci olan isimlər,***

ki, ***"əl-Xabir", "əl-Hakim", "əş-Şəhid"*** və ***"əl-Muhsi"*** isimləri, bu isimlərdəndir. (Belə ki):

~ ***"əl-Xabir"*** ismi, batini xüsuslara nəzərən elmə dəlalət edir.

~ ***"əş-Şəhid"*** ismi, müşahidə edilən xüsuslara nəzərən elmə dəlalət edir.

~ ***"əl-Hakim"*** ismi, məlumatların ən şərəflisinə nisbətlə elmə dəlalət edir.

~ ***"əl-Muhsi"*** ismi, məhdud məlumatları təfsilatları ilə əhatə edərək, elmə dəlalət edir.

7. ***Əlavə bir izafətlə qüdrət sifətinə raci olan isimlər,***

ki, ***"əl-Qahhar", "əl-Qavi", "əl-Muqtədir"*** və ***"əl-Mətin"*** isimləri, bunlardandır. Çünki:

~ (***"əl-Qavi"*** isminin kökü olan) ***"qüvvət",*** qüdrətin əskiksiz olmasını ifadə edir.

~ (***"əl-Mətin"*** isminin kökü olan) ***"mətanət",*** qüdrətin şiddətini; və

~ (***"əl-Qahhar"***ın kökü olan) ***"qəhr"*** isə, qüdrətin, məqdur (təqdir olunan)'lar üzərindəki qələbəsini ifadə edir.

8. ***Bir izafət və ya bir fel ilə bərabər iradə sifətinə raci olan isimlər,***

ki, ***«ər-Rahmən», «ər-Rahim», «ər-Rauf»*** və ***«əl-Vədud»,*** bu isimlərdəndir. Çünki:

~ (***«ər-Rahmən»*** və ***«ər-Rahim»*** isimlərinin kökü olan) ***«rəhmət»,*** zəif və möhtac olanın ehtiyacını ortadan qaldırmağa izafətlə iradəyə dəlalət edir.

~ (***«ər-Rauf»*** isminin kökü olan) ***«rə'fət»,*** rəhmətin şiddətini ifadə edir ki, (bu), rəhmətdə mübaliğə deməkdir.

~ (***«əl-Vədud»*** isminin kökü olan) ***«vudd»*** isə, ehsan və inam (nemətləndirmə)'yə izafətlə iradəyə racidir.

• Rahim (olan Zat)'ın feli, möhtac birinin varlığını gərəkdirir;

• Vədud (olan Zat)'ın feli isə, bunu gərəkdirməz. Əksinə, başlanğıcdakı inam, zəif kimsənin ehtiyacını ortadan qaldırmaq və ehsana nəzərən iradəyə racidir. Bunun vəchini, əvvəl (yazılanlardan) öyrənmişdin.

9. ***Feli bir sifətə raci olan isimlər,***

ki, ***«əl-Xaliq», «əl-Bari», «əl-Musavvir», «əl-Vəhhab», «ər-Rəzzaq», «əl-Fəttah», «əl-Qabid», «əl-Basit», «əl-Xafid», «ər-Rafi», «əl-Muiz», «əl-Muzil», «əl-Adl», «əl-Muqit», «əl-Mucib», «əl-Vasi», «əl-Bais», «əl-Mubdi», «əl-Muid», «əl-Muhyi», «əl-Mumit», «əl-Muqaddim», «əl-Muaxxir», «əl-Vali», «əl-Bərr», «ət-Təvvab», «əl-Muntəqim», «əl-Muqsit», «əl-Cami», «əl-Mani», «əl-Muğni», «əl-Hadi»*** və bənzərləri, bunlardandır.

10. ***İzafətdə əlavə ilə birlikdə felə dəlalət edən isimlər***,

ki, ***«əl-Məcid», «əl-Kərim», «əl-Lətif»,*** bunlardandır. (Çünki):

~ ***«əl-Məcid»,*** Zatın şərəfilə bərabər, ikramın genişliyinə dəlalət edir.

~ ***«əl-Kərim»*** də, eyni şəkildədir.

~ ***«əl-Lətif»*** isə, feldə yumşaqlığa dəlalət edir.

Bu isimlər və digərləri, saydığımız 10 qismin xaricinə çıxmaz. (Dolayısı ilə), zikr etmədiklərimizi, zikr etdiklərimizə qiyas et. Bu, isimlər arasında eyni mənalılığın olmadığını və hamısının da, məhdud və məşhur sifətlərə raci olduğuna dəlalət edir.

* * *

Üçüncü fəsil:

Bütün bu isimlərin, mötəzilə və filosoflar məzhəbinə görə, 1 tək Zata raci olmasının keyfiyyətinin bəyanı haqqındadır:

Bu qisim, hər nə qədər, bu kitaba əslində uyğun deyilsə də, tələb səbəbilə, bu məsələni, qısaca, burda ələ alıram. Bu bəhsi kitaba yazmaq istəməyən, belə edə bilər. Çünki, bu məsələ, (bu kitab cəhətindən) əhəmiyyətli deyildir.

Deyirəm: Bunlar (yəni, mötəzilə və filosoflar), hər nə qədər sifətləri inkar etmiş və sadəcə 1 Zatı isbat etmişlərsə də; nə felləri, nə də səlbi sifətlər və Ona izafə edilən xüsusların çoxluğunu, inkar etməmişlərdir. Qisimlərdə saydığımız isimlər xüsusunda, onlar da, bizə köməkçidirlər.

Ancaq, 7 sifətə gəlincə, -həyat, elm, qüdrət, iradə, səm (eşitmək), basar (görmək) və kəlam (danışmaq) kimi sifətlər- onlar nəzdində, elmə; elm isə, Zata racidir. Bunun bəyanı isə, belədir:

~ Eşitmək sifəti, onların nəzdində, səslərlə bağlı əskiksiz elmdən ibarətdir.

~ Görmək sifəti, rənglər və digər görülən şeylərə dair əskiksiz elmdən ibarətdir.

~ Kəlam sifəti, onlara görə, Allahın felinə raci olub cansız varlıqlardan bir cisimdə xəlq etdiyi kəlamdan ibarətdir. Filosoflara görə isə, Nəbi (sallallahu aleyhi və səlləm)'in Zatında xəlq olunan səsə raci olub, Peyğəmbər, bu sayədə, yatan bir şəxsin, yuxusunda bir şeylər eşitməsinə bənzər şəkildə, xaricdə varlığı olmayan mənzum bir kəlam eşitməkdədir. Kəlamın, Allah Taala'ya izafə edilməsi də, kəlamın, Peyğəmbərin zatında, hər hansı bir insan feli və ya səsilə meydana gəlməməsi (cəhətindən)'dir.

~ Filosoflar nəzdində, həyat sifəti, Onun, Öz Zatını bilməsindən ibarətdir. Çünki, Öz Zatına şüuru olana, ***«hayy/həyat sahibi»*** deyilir. Zatına şüuru olmayanlar üçün isə, hayy deyilməz.

Geriyə, sadəcə, iradə ilə qüdrət qalır.

~ Allah (taala və təqaddəs)'in iradə sifəti, onlara görə, xeyir cəhətini və bunun nizamını bilməsi; və xeyrin, Onun bu elminə uyğun şəkildə varlıq qazanması deməkdir. Beləcə, Onun bir şeyi bilməsi, o şeyin varlığının səbəbi olur. O, bir şeydəki xeyir cəhətini bilib o şey də meydana gəldiyində və bunda da bir kərahət yoxdursa, bu şeydən razı olduğu mənasına gəlir.

(Bəzən) ***«razı olan»*** üçün, ***«Murid»*** (iradə edən) də deyilə bilir. (Beləliklə də), onlara görə, iradə, kərahətsiz şəkildə, elmə raci olur.

~ Qüdrətə gəlincə, bunun mənası, ***«istədiyində, etməsi; istəmədiyində də, etməməsi»*** deməkdir.

Onun feli, məlum; məşiyyəti (diləməsi) isə, xeyir cəhətindən elminə racidir. Bunun mənası, Onun elmi, bir şeyin vücuda gəlməsində xeyir olduğu yönündədirsə, o şey, Ondan vücuda gəlir. Bir şeydəki xeyrin vücuda gəlməməsində olduğunu bildiyi təqdirdədirsə, o şey, Ondan vücuda gəlməz. Vücuda gəlməyəcək bir şeyin vücuda gəlməməsi xüsusunda onda bir xeyir olduğuna dair bir biliyinin olmaması xaricində, bir şeyə ehtiyac yoxdur (yəni, var olmayacaq bir şeyin var olmaması da, onda bir xeyrin mövcud olduğunu bilməməsinə möhtacdır). Beləliklə də, məqul (əqlə uyğun) nizam, mövcud nizamın varlığına səbəb olmuşdur. Mövcud nizam, məqul nizama tabedir.

Onlar, belə iddia etdilər:

«Bizim elmimizin, məlumun gerçəkləşməsi xüsusunda, bir güdrətə ehtiyacı vardır. Çünki, felimiz, orqanlarla reallaşır. Orqanların da, sağlam olub qüvvət ilə də vəsflənmiş olması lazımdır. Ona (yəni, Allaha) gəlincə isə, O, orqanlarla iş görməz. Onun elmi, məlumun vücuda gəlməsi üçün kifayət edir. Bu surətdə, qüdrət, yenə elmə raci olmaqda/rücu etməkdə/qayıtmaqdadır.»

Yenə, belə də iddia etdilər:

"Elm də, Onun Zat'ına racidir. Çünki O, Zatını, Zatı ilə bilir. Beləliklə də, elm, alim və məlum, bir və eyni olmuş olur. O, başqalarını, Öz Zatı ilə bilməkdədir. Çünki, Zatını, hər varlığın məbdəsi (başlanğıcı) olması üzərə bilir. Beləcə, Zatı xaricindəki varlıqları isə, Zatından tabiyyət (dolayı olaraq) bilir. Bu isə, Onun Zatında, bir kəsrətə/çoxluğa səbəb olmaz."

Yenə, iddia etdilər ki:

"Vahidin elminin -ki, bu, Onun Zatıdır- məlumatın (bilinənlərin) çoxluğuna olan nisbəti, məsələn, mühasibəçiyə: 'İkinin iki qatı, neçə edir? Onun 2 qatı, onun da 2 qatı...onuncu qata qədər neçə edir?' şəklində sual verildiyi əsnadakı biliyinin nisbəti kimidir. Çünki, bu mühasibəçi, bu qatları açıqlamağa başlamadan əvvəl, özündə, bunu bildiyinə dair bir yəqin hasil olmuşdur. O yəqin isə, təfsillə məşğul olmadan (yəni, təfsilatlı şəkildə açıqlamağa başlamadan əvvəl), təfsilin məbdəsidir. Bu yəqin, bir xətt olub bunun, ikinin sair qatlarına hətta təfsilsiz ikinin sonsuz qədər olan qatlarına nisbəti vardır. İkinin qatları, necə ki tədricən artmağa davam etməkdədir; eyni şəkildə, varlıqlar üçün də, -mötəzilə və filosoflar

nəzdində- bir nizam vardır və bu nizamın əvvəlində, bir çoxluq olmayıb mövcudat, tədricən çoxluğa çatmışdır."

Bunun şərhi və ibtalı, uzun çəkər. Bu mövzuda zikr etdiklərimiz, ***"Təhafütü'l-Fəlasifə"*** adlı kitabda gələcəkdir. Bu mövzu isə, bu kitabın məqsədinin xaricindədir.

Allah, daha gözəl bilir...

* * *

Üçüncü fənn (bölmə): Əlavələr və yekunlaşdırma

Bu fənn'də, 3 fəsil vardır:

Birinci fəsil:

Allah Taala'nın isimləri, təvqif (şəriətin bildirməsinə bağlı olması) cəhətindən 99 ilə məhdudlaşmamışdır**.** Əksinə, bu 99 ismin xaricində də, təvqifi isimlər varid olmuşdur (gəlmişdir). Çünki, əbu Hureyrə (radiyallahu anh)'dan gələn bir digər rəvayətdə, mənaca bu isimlərə yaxın və ya uzaq olan digər isimlərlə dəyişdirildiyi görülmüşdür. (Belə ki):

• **Yaxın olana** gəlincə:

~ ***«əl-Vahid»*** yerinə ***«əl-Əhəd»***;

~ ***«əl-Qahhar»*** yerinə ***«əl-Qahir»***;

~ ***«əş-Şəkur»*** yerinə ***«əş-Şakir»*** misal olaraq verilə bilər.

• **Yaxın olmayanlara** gəlincə, misal olaraq, bunlar zikr edilə bilər:

~ ***«əl-Hadi»*** (hidayət edən);

~ ***«əl-Kafi»*** (kifayət edən);

~ ***«əd-Daim»***;

~ ***«ən-Nasir»*** (nüsrət, yardım edən);

~ ***«əl-Munir»*** (parlayan, işıq saçan);

~ ***"əl-Mubin"*** (bəyan edən, açıqlayan);

~ ***"əl-Cəmil"*** (gözəl);

~ ***«əs-Sadiq»*** (doğru, sədaqətli);

~ ***"əl-Muhit"*** (hər şeyi əhatə edən);

~ ***"əl-Qarib"*** (yaxın);

~ ***"əl-Qədim"*** (başlanğıcı olmayan);

~ ***"əl-Vitr"*** (tək);

~ ***«əl-Fatir»*** (bənzəri olmayan şeyi Yaradan);

~ ***"əl-Allam"*** (çox bilən);

~ ***"əl-Məlik"***;

~ ***"əl-Əkrəm"***;

~ ***"əl-Mudəbbir"*** (tədbir edən);

~ ***"ər-Rafi"*** (yüksəldən);

~ ***"Zi't-Tavl"*** (lütf sahibi);

~ ***"Zi'l-Məaric"*** (dərəcələr sahibi);

~ ***"Zi'l-Fadl"*** (fəzilət sahibi); və

~ ***"əl-Xallaq"*** (çoxca yaradan).

Quranda da, bu 2 hədis rəvayətinin hər ikisində də birdən keçməyən bəzi isimlər mövcuddur. Məsələn:

~ ***"əl-Mövla"***;

~ ***"ən-Nasiir"***;

~ ***«əl-Qalib»***;

~ ***"əl-Qarib"***;

~ ***"ər-Rabb"***;

~ ***"ən-Naasir"***.

Mudaafat (izafə, nisbət halındakı) isimlər də, Quranda keçməkdədir:

~ ***"Ğafiru'z-Zənb"*** (günahları bağışlayan);

~ ***"Qabilu't-təvb"*** (tövbələri qəbul edən);

~ ***"Şədidu'l-İqab"*** (cəzası şiddətli olan);

~ ***"Mulicu'l-leyli fi'n-nəhər"*** (gecəni gündüzə qatan);

~ ***"Mulicu'n-nəhəra fi'l-leyl"*** (gündüzü gecəyə qatan);

~ ***"Muxricu'l-hayyi minə'l-meyyit"*** (ölüdən diri çıxardan);

~ ***"Muxricu'l-meyyiti minə'l-hayy"*** (diridən ölü çıxardan).

Yenə, bir rəvayətdə, ***«əs-Seyyid»*** ismi varid olmuşdur.

- Bir adam, Peyğəmbərimiz (sallallahu aleyhi və səlləm)'in yanına gəlib: ***"Ey Seyyid!"*** dedi.

- Peyğəmbər (sallallahu aleyhi və səlləm): ***"Seyyid, Allah (azzə və cəllə)'dir."*** buyurdu [(1)].

(1) əbu Davud, "Sünən", hədis no: 4806

Belə başa düşülür ki, burda, Peyğəmbər (sallallahu aleyhi və səlləm), insanı, üzünə qarşı mədh etməyi əngəlləməkdədir. Çünki, başqa bir hədisdə:

"Mən, Adəm oğullarının seyyidiyəm. Bunda, fəxr yoxdur." (1) buyurmuşdur.

Bununla bərabər,

~ ***"əd-Dəyyan"*** (hər kəsin haqqını ən yaxşı bilən və verən) ismi də varid olmuşdur.

Eyni şəkildə,

~ ***"əl-Hənnan"*** (çox mərhəmətli),

~ ***"əl-Mənnan"*** (ehsanı bol) isimləri də varid olmuşdur. Və bunların xaricindəki hədislər də incələnsə, başqa isimlər də tapıla bilər.

Əgər isimlərin fellərdən iştiqaq edilməsi (meydana gətirilməsi) caiz görüləcək olarsa, o vaxt, Quranda, Allah Taala›ya mənsub bir çox fellərin müştaq olmasından dolayı, bu isimlər çoxalacaq. Məsələn:

~ ***"yəkşifu's-su / pisliyi açar"*** (2);

~ ***"yəqzifu bi'l-haqqi / haqqı endirər, yerinə qoyar"*** (3);

~ ***"yəfsilu bəynəhum / aralarını ayırar"*** (4);

~ ***"və qadəynə ilə bəni İsrail / İsrail oğullarına hökm etdik"*** (5)

Bu ayətlərdəki ifadələrdən, bunlar iştiqaq edər:

~ ***"əl-Kaşif"*** (açan);

~ ***"əl-Qazif bi'l-haqq"*** (haqqı endirən, yerinə qoyan);

~ ***"əl-Fasil"*** (ayıran);

~ ***"əl-Qadi"*** (hökm edən).

Bu şəkildə, çoxlu fel sayıla bilər. Nəzər edilməyə dəyər (bir mövzudur ki), ilərdə (açıqlaması) gələcəkdir.

Burda məqsədimiz, isimlərin, saydığımız və şərh etdiyimiz 99-dan ibarət olmadığını bəyan etməkdir. O isimlərin şərhində, adətə tabe olduq. Şübhəsiz, o, məşhur rəvayətdir. Buxari və Muslim'in ***"Səhih"***lərində yer alan və əbu Hureyrə (radiyallahu anh)'dan gələn hədisdə, bu təfsilat

(1) ibn Macə, "Sünən", hədis no: 4308

(2) Nəml/62

(3) Səbə/48

(4) Həcc/17

(5) İsra/4

yoxdur. Səhih kitablarda yer alan, budur:

"Allah (subhənəhu və taala)'nın 99 ismi vardır. Kim bunları sayarsa, cənnətə girər." (1)

Ancaq (rəvayətdə), bu isimlərin bəyanı və təfsili verilməmişdir.

Fəqihlər və alimlərin üzərində ittifaq etdikləri bu isimlər də vardır:

~ ***"əl-Murid"*** (iradə edən);

~ ***«əl-Mutəkəllim»*** (danışan);

~ ***"əl-Mövcud"***;

~ ***"əş-Şey"***;

~ ***"əz-Zat"***;

~ ***"əl-Əzəli"***;

~ ***"əl-Əbədi"***.

Bunların, Allah (subhənəhu və taala) haqqında istifadə edilməsi, caizdir.

Bir hədisdə, belə varid olmuşdur: ***"Ramazan gəldi deməyin. Çünki Ramazan, Allahın isimlərindən bir isimdir. Ramazan ayı gəldi deyin."*** (2)

(Yenə), Allah rəsulu (sallallahu aleyhi və səlləm)'dən, belə varid olmuşdur:

"Bir kimsəyə, qəm, hüzn isabət edər və deyər ki:

'Allahım, mən, Sənin qulunam. Qulunun oğluyam. Alnım, Sənin əlindədir. Hökmün, üzərimdə nafiz (nüfuz edən, təsirli)'dir. Sənin qəzan, mən(im haqqımda) ədalətdir.

~ Özünü təsmiyyə etdiyin/adlandırdığın; ya da

~ Kitabında endirdiyin; ya da

~ Məxluqatından birinə öyrətdiyin; ya da

~ Öz nəzdində, qeyb elmində Özünə ayırdığın isimlərinlə Səndən istəyirəm:

Quranı, qəlbimin baharı; sinəmin nuru; hüznümün cilası (parıldadıcısı); qəmimi aparan qılmağını istəyirəm.' **deyərsə, Allah (azzə və cəllə), onun (yəni, hüznün, kədərin) yerinə, fərəh qoyar."** (3)

Bu rəvayətdəki ***"qeyb elmində Özünə ayırdığın"*** ifadəsi, isimlərin, məşhur rəvayətlərdə varid olanlarla məhdud olmadığına dəlildir.

(1) Buxari, hədis no: 2736

(2) Beyhaqi, "əs-Sünənu'l-Kubra", 4/201

(3) Əhməd b. Hənbəl, «əl-Müsnəd», 391/1; Hakim, «əl-Müstədrək» 508/1

Burda, bəlkə də, sənin xatirinə, isimlərin 99 ilə hasr edilməsinin (məhdudlaşdırılmasının) faydasını tələb etmək gələ bilər ki, bunu zikr etmək, labüd olacaqdır.

* * *

İkinci fəsil:

İsimlərin, 99-a təxsisi (xas qılınması) və sayılmasının faydalarının bəyanı haqqındadır.

Bu fəsildəki işlərdə, nəzər vardır. Suallar şəklində gələcəkdir.

Biri, belə soruşa bilər: *"Allah (subhənəhu və taala)'nın isimləri, 99-dan çoxdurmu, deyildirmi?*

~ Əgər çoxdursa, 99-a təxsisin mənası, nədir? Məsələn, 1000 dirhəmi olan bir nəfər üçün, ***'Onun, 99 dirhəmi vardır.'*** *deyilməsi, caiz deyildir. Çünki, 1000 sayı, hər nə qədər 99-u əhatə edirsə də, 1000-dən xüsusilə 99-u zikr edincə, bu ifadədən geri qalanların (yəni, 99-dan 1000-ə qədərki qismin) nəfyini (ifadənin muhtəvasına girmədiyini) ifham edir (fəhm etdirir).*

~ Əgər isimlər, 99-dan çox deyilsə, hədisdə keçən:

'Özünü adlandırdığın bütün isimlərin ilə; ya da kitabında endirdiyin; ya da məxluqatından birinə öyrətdiyin; ya da Öz nəzdində, qeyb aləmində Özünə ayırdığın...' *ifadəsinin mənası, nədir? Çünki, bu ifadə, Onun, bəzi isimlərini, (qeyb aləmində) gizli saxladığı xüsusunda, sərih/açıqdır. Bu səbəblə, Peyğəmbər,* ***'Ramazan'*** *ismi haqqında:* ***'Bu, Allah Taala'nın isimlərindəndir.'*** *buyurmuşdur. (Yenə) Sələf-i Salehin:* ***'Filan kimsəyə, ismu'l-əzəm öyrədilmişdir.'*** *deyərlərdi. Bu, bəzi peyğəmbər və vəlilərə də nisbət edilmişdir. Bu da, (ismu'l-əzəm)'in, 99-un xaricində olduğuna dəlalət edir."*

Buna, belə cavab verərik: Bu gələn xəbərlərə görə, isimlər, 99-dan çoxdur. Hasr haqqında (yəni, isimlərin 99 olduğunu ifadə edən) hədisə gəlincə, bu hədis, 2 qəziyyə'yə (1) deyil, 1 qəziyyəyə şamildir.

Bu (məsələ), 1000 nökərə sahib olan kral (misalı) kimidir. (Əgər kralla bağlı olaraq) bir nəfər desə ki:

"Kralın, 99 nökəri vardır. Bunlar, kimə görünsələr, düşmənlər, onlara qarşı müqavimət edə bilməzlər."

---

(1) **Qəziyyə:** Hökm bildirən cümlələr üçün istifadə edilən məntiq terminidir. Aristotel, qəziyyəni, "Özü ilə bir şey haqqında bir başqa şeyin təsdiq və ya inkar edildiyi sözdür." deyə tərif etmişdir. Buna görə, qəziyyə, "2 və ya daha çox terminlə edilmiş müsbət və ya mənfi hökm bildirən cümlə"dir.)

Burdakı təxsis (yəni, 1000 olsa da, 99-a təxsis etmək, xas qılmaq; 99 ilə məhdudlaşdırmaq):

~ onların (yəni, nökərlərin) istizhar (zühur etmələri, görünmələri)'nin hüsulunu (hasil olması)'nı təmin etməsindən;

~ ya da qüvvətlərinin, digərlərindən daha çox olması;

~ və yaxud da bu sayın təxsisi, əlavəyə ehtiyac olmadan, düşmənləri dəf etmək üçün, kifayət etməsindən dolayıdır. Yoxsa, mövcud nökərlərin bu sayı ilə məhdud olmasından dolayı deyil.

İsimlərin, 99-dan çox olmamaq ehtimalı da vardır. Bu halda, xəbərin ləfzi, 2 qəziyyə›yə şamil olacaqdır. Onlardan:

• **Birinci qəziyyə:** *Allah Taala'nın, ancaq 99 ismi vardır;*

• **İkinci qəziyyə:** *Kim bu isimləri sayarsa, cənnətə girəcəkdir.*

Buna görə, əslində, hədisdə ilk qəziyyə zikr edilmiş olsaydı da, kəlam, mənaca tamamlanmış olardı.

Birinci məzhəbə (görüşə) görə isə, sadəcə birinci qəziyyənin zikri ilə kifayətlənmək, mümkün olmayacaqdır.

(İsimlərin bu saya) hasr edilməsində ən zahir və ilk başa düşülməsi lazım gələn şey, bu (yəni, sadəcə 99 ismi mövcud olduğu) olmaqla bərabər, bu da, 2 cəhətdən, uzaq ehtimaldır:

• **Birincisi:** Bu, Allahın, qeyb aləmində Özünə saxlamış olduğu isimləri mövcud olduğunu, əngəlləməkdədir. (Halbuki), hədisdə, bunun (yəni, qeyb elmində, Öz nəzdində başqa bir isminin mövcud olduğunun) isbatı vardır.

• **İkincisi:** Bu, isimləri, yalnız Özlərinə ismu'l-əzəm verilmiş olan nəbi və vəlilərin əskiksiz olaraq saya biləcəyi mənasına gəlir ki, bu halda, ismu'l-əzəm olmadan zikr edilən isimlər, say cəhətindən əskik olmuş olacaq; yaxud da, ismu'l-əzəm, bu 99 ədədinin xaricində olacaq. Bununla da, sayı 99-a hasr etmək, ibtal olacaqdır.

Ancaq belə görünür ki, Allah rəsulu (sallallahu aleyhi və səlləm), cumhuru (əksər insanları) öyrənməyə tərğib (rəğbətləndirmək) qəbilindən, bu sayı zikr etmişdir. İsmu'l-əzəm isə, cumhurun bildiyi bir isim deyildir.

Əgər deyilsə ki: *"Zahir olan, isimlərin 99-dan çox olmasıdırsa; məsələn, biz də, bunların 1000 olduğunu və bu isimlərdən 99-unu saymaqla cənnətə haqq qazanılacağını söyləsək; (bu halda), bu 99 isim, müəyyən isimlərdirmi? Yoxsa, 1000 isimdən hər hansı bir 99 isimmi olacaqdır? Hər iki rəvayətdəki isimlərin də, Allah Taala'nın isimləri olduğu qəbul ediləcək olarsa, bir kimsə, əbu Hureyrə rəvayətində keçən 99 ismi; yaxud da digər rəvayətdə keçənləri sayarsa da, cənnətə haqq qazana biləcəkdirmi?"*

Buna, belə cavab verərik: (Məşhur rəvayətdə) zahir olan 99 isimdən murad olunan, bu isimlərin özləridir. Əgər bu isimlər, müəyyən olmasaydılar, onlardakı hasr və təxsisin faydası zühur etməzdi. Qail (söz söyləyən) in: ***"Kralın, 100 nökəri vardır və bunlar kimə zahir olsalar/görünsələr, düşmən, onlara müqavimət edə bilməz."*** sözü, əgər kralın çox sayda nökəri olub bunlar arasından xüsusilə 100-ünün xüsusi bir qüvvət və şövkətə sahib olduğunu ifadə etmək üçün söylənirsə, (yerindədir). Yox əgər bütün nökərlərdən hər hansı 100-ü seçilsə, o vaxt, kəlamın nəzmi, (gözəl) olmaz.

Əgər deyilsə ki: *"Bütün isimlər, Allah (subhənəhu və taala)'ya məxsusdur. (Elə isə) isimlərdən bu 99-unun təxsis edilməsi, nəyə görədir?"*

Buna, belə cavab verərik: İsimlər arasında, mənalarının şərəf və cəlalət cəhətindən fəzilətlərinin fərqli olması, caizdir. (Beləliklə), 99 ismin, Allahın cəlalına işarət edən məna növlərini cəm etməsi cəhətindən, digərlərindən daha cəm edici isimlər olması, mümkündür. Bu səbəblə də, əlavə bir şərəflə xüsusiyyət qazanmış ola bilərlər.

Deyilsə ki: *"Allahın ismu'l-əzəmi, bunların daxilindədirmi, deyildirmi?*

~ Əgər daxilində deyilsə, (99 isim), necə olur ki, əlavə bir şərəf ilə xüsusiyyət qazanır?

~ Əgər daxildirsə, ismu'l-əzəmin mərifətinə (yəni, hansı olduğu xüsusundakı biliyə) yalnız peyğəmbər və ya vəli sahib ola biləcəyinə; və 99 ismi də, məşhur olduğuna görə, bu, necə ola bilər? Asafın, özünə ismu'l-əzəm verildiyi üçün, Bəlqis'in təxtini gətirə bildiyi söylənməkdədir. Və bu, məlum olduğu üzərə, əzəmətli bir kəramət səbəbidir."

Buna, belə cavab verərik: Burda, bunu söyləmək mümkündür ki, ismu'l-əzəm, əbu Hureyrə rəvayətinin xaricindədir. (Bu halda), sayılan bu isimlərin şərəfi, cumhur (əksər insanlar) nəzdində, məşhur olan isimlərə nəzərəndir. Vəli və nəbilərin bildiyi isimlərə nəzərən deyil.

Bu da deyilə bilər ki: Bu rəvayətdəki 99 isim, Allahın ismu'l-əzəminə şamildir. Ancaq, ismu'l-əzəm, (bu 99 isim içində), mübhəm (qapalı) buraxılmışdır. Bunu, ancaq, vəli (və nəbi) bilə bilər. Xəbərdə (hədisdə) varid olmuşdur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"Allahın ismu'l-əzəmi, bu 2 ayətdədir:

وَإِلَٰهُكُمْ إِلَٰهٌ وَٰحِدٌ ۖ لَّآ إِلَٰهَ إِلَّا هُوَ ٱلرَّحْمَٰنُ ٱلرَّحِيمُ

'Sizin ilahınız, vahid bir ilahdır. Ondan başqa ilah yoxdur. O, Rahmən və Rahimdir.' (1);

(1) Bəqərə/163

الٓمٓ ۝ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُ

'Əlif, ləm, mim. Allah, Özündən başqa ilah olmayandır. O, Hayy/həyat sahibidir; Qayyumdur.' (1) Başqa bir rəvayətə görə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə dua edən birini eşidir:

"Allahım! Sənin, Allah olduğuna; Səndən başqa ilah olmadığına; Əhəd və Saməd olduğuna; doğmamış və doğulmamış olduğuna; heç bir bənzərinin olmadığına şəhadət edərək, Səndən istəyirəm."

(Bunun üzərinə), Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurdu:

"Nəfsim əlində olan Allaha and olsun ki, (bu adam), Allaha, ismu'l-əzəmi ilə dua etmişdir. Bu şəkildə dua edilərsə, icabət edilər; bir şey istənildiyində, verilər." (2)

Əgər deyilsə ki: *"Elə isə, digər saylar arasından xüsusilə bu sayı ilə təxsis edilməsinin səbəbi, nədir? Niyə 100 deyil, 100-ə yaxın?"*

Buna, belə cavab verərik: Bunda, 2 ehtimal vardır:

• **Birincisi:** Şərəfli mənalar, bu rəqəmə çatmışdır. Burda, rəqəm məqsud (qəsd edilən) olmayıb; mənalar, bu rəqəmlərə müvafiq olmuşdur. (Necə ki), məsələn, əhl-i sünnətə görə, sifətlər, 7-dir, ki, həyat, elm, iradə, qüdrət, eşitmək, görmək və kəlamdan ibarətdir. Bunlar, 7 rəqəminin özü üçün deyil; rububiyyət sifətləri, bunlarla tamamlandığından dolayı belədir.

• **İkincisi:** -Ki, bu, daha zahirdir- bundakı səbəb, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'in: ***"100'dən 1 əskikdir. Allah, vitr (tək)'dir, vitri (təki) sevər."*** şəklindəki ifadəsinin bəyanı olmasıdır. Ancaq bu, isimlərin, iradi və ixtiyari bir isimləndirmə ilə təsmiyyə edildiyinə dəlalət etməkdə olub; şərəf ifadə edən sifətlərin, bunlarla məhdud olduğu mənasına gəlməz. Çünki bu, Onun Zatı ilə əlaqəli olub, iradi deyildir.

Belə də deyilə bilməz: ***"Allah (subhənəhu və taala)'nın sifətləri, 7-dir. Çünki O, vitrdir, vitri sevər."***

Əksinə, bu sifətlərin 7 olması, Onun Zatı və uluhiyyəti gərəyidir. 7 rəqəmi isə, burda məqsud deyildir. Bu rəqəmin mövcudluğu, iradə sahibi

---

(1) (Al-i İmran/1-2) ibn Macə, "Sünən", "Kitabu'd-Dua / Dua kitabı", 9-cu bab: "Allahın, ismu'l-əzəmi" babı, hədis no: 3855. Bu hədisi, Tirmizi, əbu Davud və Əhməd də rəvayət etmişlərdir.

(2) ibn Macə, "Sünən", "Kitabu'd-Dua", hədis no: 3857. Bu hədisi, Tirmizi, əbu Davud, Nəsai, Əhməd, ibn Hibban və Hakim də rəvayət etmişlərdir.

birinin iradəsinə və ya qəsdinə bağlı olaraq olmamışdır ki, burda, tək say qəsd edilmiş olsun.

Bu (izah), Allah (subhənəhu və taala)'nın Özünü isimləndirmiş olduğu isimlərin, 100 deyil, 99 olmasının, Onun təki sevməsindən dolayı olduğu ehtimalını gücləndirir, ki, bu ehtimalı gücləndirəcək bir açıqlamaya, sonra işarət edəcəyik.

Əgər soruşulsa ki: *"Allah rəsulu (sallallahu aleyhi və səlləm), bu 99 ismi bir araya gətirmək məqsədiləmi tək-tək saymışdır? Yoxsa bunları bir araya gətirməyi, kitab, sünnət və buna dəlalət edən xəbərlərdən toplayacaq kimsələrəmi tərk etmişdir?"*

Buna, belə cavab verərik:

Ən zahir və ən məşhur olan görüşə görə, Allah rəsulu (sallallahu aleyhi və səlləm), əbu Hureyrə›nin rəvayətində nəql edildiyi üzərə, bunları, bir araya gətirmək və insanlara öyrətmək məqsədilə saymışdır. Çünki, bu rəvayətdə, kəlamın zahirindən başa düşülən, bu isimləri saymağa rəğbətləndirməkdir. Allah rəsulu (sallallahu aleyhi və səlləm) bunları toplayıb zikr etməsəydi, cumhurun bunları sayması, çətin olacaqdı. Bu isə, əbu Hureyrə rəvayətinin sihhətinə dəlalət etməkdədir.

Əhməd əl-Beyhaqi isə, əbu Hureyrə rəvayəti haqqında kəlam edərək, bu rəvayətin isnadında, zəif bir ravinin mövcud olduğunu söyləmişdir. Əbu İsa ət-Tirmizi də «Müsnəd»ində, buna bənzər şeylərə işarət etmişdir.

Bu rəvayətin zəif olduğuna, mühəddislərin zikr etdiklərindən başqa, bu 3 xüsus da dəlalət etməkdədir:

1. Rəvayətin, mudtarib(1) olmasıdır. Çünki, Ondan, 2 rəvayət vardır və bu 2 rəvayət arasında ibdəl (dəyişiklik, fərqlilik) və təğyir (dəyişiklik, fərqlilik) xüsuslarında, zahir bir təbayün (ziddlik, uzlaşmazlıq) vardır.

---

(1) **Mudtarib hədis, nədir?**

Mudtarib: Bir-birinə bərabər müxtəlif surətlərdə rəvayət edilmiş olan hədisdir. Bunun, 1 ravidən 2 və ya daha çox rəvayət edilmiş olması ilə, ikinci bir ravidən və ya tərcih edilmə səbəbi olmayan 2-dən çox ravidən rəvayət edilmiş olması arasında, heç bir fərq yoxdur. Əgər 2 rəvayətdən və ya rəvayətlərdən 1-i, ravisinin hifzi və ya digər tərcih növlərindən birilə müreccəh (tərcih edilmiş) olarsa, bu halda, hökm, racih (sihhət yönü daha qüvvətli) olan rəvayətindir və hədis, mudtarib olmamış; və mərcuh (racih olmamış) olan rəvayət də, şazz və ya münkər olmuş olur. İdtirab (rəvayətin mudtarib olması), bəzən sənəddə, bəzən mətndə və bəzən hər ikisində də vaqe ola bilər.)

2. Əbu Hureyrə›nin rəvayəti, ***«əl-Hənnan», «əl-Mənnan»*** və ***"Ramazan"*** isimləri kimi; digər xəbərlərdə varid olan bəzi isimləri ehtiva etməməkdədir.

3. Səhih rəvayətlərdə, hədisin yalnız bu qismi mövcuddur:

"Allahın, 99 ismi mövcuddur. Kim bunları sayarsa, cənnətə girər."

İsimlərin zikr edildiyi səhih bir rəvayət yoxdur. İsimlərin içində yer aldığı rəvayət, ğərib (1) olub, isnadı da, zəifdir. Rəvayətin səhih olan qismindən zahir olan, isimlərin, 99-dan çox olmadığıdır. Bu zahir mənadan meyl etməyimizin səbəbi, bəzi isimlərin, əbu Hureyrə rəvayətində mövcud olmamasıdır. İsimlərin tək-tək sayıldığı bu rəvayətin zəif olduğunu qəbul edərsək, işkəl (problem)'lərin bir qismi, ortadan qalxacaqdır. Çünki, biz, deyirik ki:

İsimlər, 99-dan ibarət olub, Allah (subhənəhu və taala), bu isimlərlə Özünü isimləndirmişdir. Sayı, 100-ə tamamlamamışdır. Çünki, O, təkdir və təki sevir. Bu isimlərin cümləsinə, ***"əl-Hənnan", "əl-Mənnan"*** və digərləri də daxildir. Bütün isimləri bilmək isə, kitab və sünnəti araşdırmaqla mümkün ola bilər. Çünki, bu isimlərdən bir qismi, Allah (subhənəhu və taala)›nın kitabında; bir qismi də, xəbərlərdə yer almaqdadır.

Alimlər arasında bu mövzunu etina ilə tələb edib cəminə çalışan kimsə, görmədim. Sadəcə, Əli b. Hazm deyilən Məğrib hafizlərindən birini bilirəm. O (rahiməhullah), belə demişdir:

"Mənim nəzdimdə, Quran və səhih sünnətin ehtiva etdiyi 80-ə yaxın isim, səhihdir. Geri qalanların isə, xəbərlərdən ictihad təriqi ilə araşdırılması lazımdır."

Zənn edirəm ki, əbu Hureyrə'nin rəvayət etdiyi və içində isimlərin sayı olan hədis, ona çatmamışdır. Çünki, isimləri, səhih varid olan xəbərlərdən toplamışdır. (Buna görə), hədisdəki ***"Kim, bunları sayarsa..."*** ifadəsi, ***"Kim, bunları cəm edər və əzbərləyərsə"*** deməkdir. Bu cəhdində, çox yorulacaq və cənnətə girəcəkdir.

Deyilsə: "Rəvayətdə keçən isimləri 1 dəfə saymaq, dil üçün asandır."

Bəli, bəzi səhih rəvayətlərdə, ***"Kim, bunları əzbərləyərsə, cənnətə girər."*** şəklində varid olmuşdur. Əzbərləmək isə, daha çox yorucudur.

---

(1) **Ğərib hədis, nədir?**

Lüğətdə, *"vətənindən uzaqda tək qalan kimsə; başa düşülməsi çətin söz"* mənasına gələn ***"ğərib"*** kəliməsi, hədis termini olaraq, ***"sənəd və ya mətn cəhətindən tək qalmış; yaxud bənzəri, başqa ravilər tərəfindən rəvayət edilməmiş hədis"*** deməkdir.

Bu hədislə bağlı ehtimallar ilə bağlı olaraq mənə zahir olan şeylər, bunlardır ki, bunların əksəriyyətinə, daha əvvəl təmas edilməmişdir. Bunlar, ictihadi şeylər olub, ancaq təxminlə bilinə bilər. Çünki, ağlın məcrasının xaricindədir.

Ən doğrusunu, Allah bilir...

* * *

Üçüncü fəsil:

Allah (azzə və cəllə)›yə itlaq edilən (verilən) isim və sifətlər, təvqifidirmi? Yoxsa ağıl yolu ilə də isim və sifət nisbət etmək, caizdirmi?

• Qadı əbu Bəkr əl-Baqillani,

~ şəriətin əngəllədiyi; yaxud da

~ Allah (subhənəhu və taala) üçün imkansız olan bir mənanı ağla gətirənlər xaricində, istifadəsində hər hansı bir mane olmayan isimlərin Ona nisbət edilə biləcəyinə meyl etmişdir.

• Əbu'l-Həsən əl-Əşari isə, bunun, təvqifi olduğunu; (dolayısı ilə), Allah Taala haqqında şəriətin icazə verdikləri xaricində, heç bir ismin Ona nisbət edilə bilməyəcəyi görüşündədir.

• Bizə görə, tərcihə uyğun olan, məsələni təfsil etməkdir. (Belə ki):

İsmə raci olan hər şey, icazəyə bağlıdır. Ancaq sifətə raci olan şeyə gəlincə, bu, icazəyə bağlı deyildir. Burda, sadiq olan (yəni, mənası Allah haqqında caiz olan vəsfləri Ona nisbət etmək), mübah olub; kazib olan (mənası Allah haqqında caiz olmayan vəsfləri Ona nisbət etmək), mübah deyildir. Bu xüsusu isə, isim və sifət arasındakı fərqi bilmədən başa düşmək, mümkün olmaz. Bundan dolayı, deyirik ki:

"İsim, bir müsəmma (isimləndirilən, adlandırılan kimsə, nəsnə)'yə dəlalət etmək üzərə vad edilmiş (qoyulmuş) ləfzdir."

Bu halda, Zeydin ismi, Zeyddir; ağ və uzun ola bilər. Biri, ona: ***"Ey uzun!"***, ***"Ey ağ!"*** deyə nida etsə; bu şəxsin sifətlərilə (bu şəxsi) çağırmış olar və bu, yalnış olmaz. Ancaq, (bu halda), ismini söyləməmiş olar. Çünki, bu şəxsin ismi, ***"uzun"*** və ***"ağ"*** deyil; ***"Zeyd"***dir. Onun uzun və ağ olması, hər nə qədər bunların mənası özündə mövcud isə də, ***"uzun"*** və ***"ağ"***ın, Onun ismi olmasına dəlalət etməz.

(Yenə), bir uşağa, ***"Qasım", "Cami"*** isimləri verildiyində, bu isimlər, o uşağın, bu isimlərin mənaları ilə vəsflənmiş olduğuna dəlalət etməz. Əksinə, bu isimlər, bir mənaya sahib olsalar belə, birinə isim olaraq verildiklərində, isim olduqları şəxslərə dəlalətləri, Zeyd, İsa və ya mənası olmayan xüsusi isimlərin dəlalətindən fərqsiz olar. Hətta, məsələn birinə, ***"Əbdü'l-Məlik"*** ismini verdiyimizdə, bununla, o şəxsin, ***"Məlikin qulu"***

olduğunu qəsd etmərik. Bundan dolayı da, ***"Əbdü'l-Məlik"***, eynilə, İsa və Zeyd kimi (2 kəlimədən meydana gəlməyən) müfrəd bir isimdir, deyərik.

Ancaq (Əbdü'l-Məlik, yəni, məlikin qulu), vəsf/sifət olaraq istifadə edildiyində, mürəkkəb bir söz olaraq ələ alınır. Abdullah (ismi) də, belədir. Bundan dolayı da, müfrəd isim olduğunda (yəni, Abdullah kəliməsi), ***"Abadilə"*** şəklində cəm edilir. ***"İbadullah"*** şəklində isə, cəm edilmir.

Əgər ismin mənasını başa düşdünsə, hər fərdin ismi,

~ özünü təsmiyyə etdiyi (adlandırdığı); ya da

~ atası və seyyidinin (ağasının) özünə verdiyi (bir kəlimə)'dir.

Təsmiyyə (isimləndirmə, adlandırma) isə, müsəmma (isimləndirilən, adlandırılan) üzərində bir təsərrüfdür. Bu da, müsəmma üzərində bir vəlayəti (vəliliyi) gərəkdirir. İnsanın vəlayəti isə, özü, nökəri, yaxud da övladı üzərində ola bilər. Bundan dolayı da, təsmiyyə feli, bunlar üzərində reallaşdırıla bilər. Bu səbəblə də, bunlardan başqa biri, bir müsəmmaya isim qoyacaq olsa, o isim qoyulan müsəmma, bu ismi inkar edə və isim qoyana qəzəblənə biləcəkdir.

İndi, (bizim, üzərində vəlayətimiz olmayan) bir insana belə, isim vermək, onu isimləndirmək haqqımız yox ikən; necə ola bilər ki, Allah Taala haqqında, isim qoya bilək?!

Eyni şəkildə, Peyğəmbərin isimləri də, məhdud saydadır. Bunları, Peyğəmbər (sallallahu aleyhi və səlləm) saymış və:

~ Muhammməd;

~ Əhməd;

~ əl-Muqaffi (digər nəbilərə tabe olan);

~ əl-Məhi (küfrü məhv edən);

~ əl-Haşir (insanların, ayağı, yəni, izi üzərə haşr ediləcəkləri kimsə. Yəni, O, insanlardan əvvəl haşr ediləcək kimsədir.);

~ əl-Aqib (Özündən sonra nəbi olmayacaq şəxs; Özündən əvvəlkilərin yerinə xeyirli bir şəkildə xəlaf olan);

~ Nəbiyyu't-Tövbə (tövbə peyğəmbəri);

~ Nəbiyyu'r-Rahmə (rəhmət peyğəmbəri);

~ Nəbiyyu'l-Məlhəmə (döyüşlər peyğəmbəri)'dir." (1)

---

(1) (Muslim, Fəzilətlər kitabı, 34-cü bab: "Nəbi (sallallahu aleyhi və səlləm)'in isimləri", hədis no: 6061)

Bizim, (Peyğəmbəri təsmiyyə üçün bu sayılanlara əlavə olaraq) bunun üzərinə təsmiyyə etməyimiz, doğru olmaz. Ancaq, Onun vəsfini/sifətini xəbər vermək xüsusunda, belə söyləməyimiz, caizdir: ***"O (sallallahu aleyhi və səlləm), alimdir, mürşiddir, rəşiddir, hadi'dir və s."***

Eynilə, Zeyd'dən bəhs edərkən, -təsmiyyə deyil, vəsflərdən xəbər vermək xüsusunda- ***"O, ağ və uzundur."*** dediyimiz kimi.

Ümumi olaraq, bu, fiqhi bir məsələdir. Çünki (Allah və ya rəsul haqqında, naslarda varid olmayan) bir ləfzi dilə gətirməyin mübah və ya haram olduğuna dair, görüşlər vardır.

Deyirik ki:

• Allah (subhənəhu və taala)'ya isim qoymağın caiz olmamasının dəlili,

Allah rəsulu haqqında,

~ Onun, Özünü adlandırmadığı;

~ Rəbb Taala'nın və yaxud da atasının, Onu adlandırmadığı bir ləfzi, isim olaraq, Allah rəsulu üçün vad etməyin (qoymağın) caiz olmamasıdır.

Allah rəsulu (sallallahu aleyhi və səlləm) haqqında bu, qadağan olarsa; -hətta xalqdan hər hansı biri haqqında- isim vermək, qadağan olunca; Allah haqqında təsmiyyənin qadağan olması, əvladır.

Bu, fiqhi bir qiyasdır. Şəri hökmlər, bunun bənzəri üzərinə bina edilir.

• Sifətlə vəsf etməyin mübah olmasının dəlili, vəsfin, bir işdən xəbər verməsidir. Xəbər vermək isə, doğru və yalan qisimlərinə ayrılır.

~ Şəriət, yalanı, əsasından haram qılmışdır. Yalan, arizi (bir hal) olmadıqca, haramdır.

~ (Yenə) şəriət, sidqin (doğrunun) mübah olmasına dəlalət etməkdədir. Buna görə, doğru söyləmək, arizi (hallar) xaric, halaldır. Buna görə, Zeyd haqqında -O, mövcud olduğu üçün- ***"O, mövcuddur."*** deməyimiz caizdirsə; eyni şəkildə də, Allah Taala haqqında, -nass'larda varid olsun və ya olmasın- ***"O, mövcuddur."*** deyə bildiyimiz kimi; nass'larda varid olmadığını qəbul etsək belə, ***"O, qədimdir."*** də deyə bilərik.

Zeyd haqqında, ***"O, uzun və qırmızıdır."*** demədiyimiz kimi; -Çünki, bu söz ona çatdığında, bunu kərih görəcəkdir. Çünki, bu söz, nöqsanlıq vəhm etdirə bilir.- eyni şəkildə də, Allah (subhənəhu və taala) haqqında, Onun üçün əskiklik vəhm etdirən (bir ifadə, istifadə edə bilmərik).

Ancaq, əskiklik vəhm etdirməyən; ya da mədhə dəlalət edən (sifətlər), dində, haram olan bir şeydən salamat olması şərtilə, sidqin (doğru olmağın) mübah qılınması dəlilinə (söykənərək), (Allah haqqında) istifadə edilə

bilər və (bu istifadə), mübah olar.

Bundan dolayı, məsələn, bəzən bir ləfzin tək başına istifadəsi, caiz olmaz; (ancaq, bu ləfzin vəhm etdirdiyi nöqsanlığı qaldıran başqa) bir qərinə əlavə edildiyində, caiz ola bilər. (Məsələn): Allah (subhənəhu və taala) üçün, ***"Yə Zari (ey toxum əkən)!", "Yə Haris (ey əkib biçən)!"*** deyilməsi, caiz deyildir.

Lakin:

~ Xanımını hamilə qoyub (uşağın meydana gəlməsinə səbəb olan kimsə nəzərə alınmadan), əsl əkən, o deyil, Allah (taala və təqaddəs)'dir. (Yenə),

~ Toxumu torpağa atan üçün də, (eyni şəkildə), ***"Əsl toxumu əkən, o deyil, Allahdır."*** (Yenə),

~ Atan şəxs üçün də, (eyni şəkildə), ***"Əsl atan, o deyil, Allahdır."***

deyilə bilər. (Necə ki), Allah Taala, Ənfal surəsi 17-ci ayətdə, belə buyurmuşdur: ...وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَٰكِنَّ ٱللَّهَ رَمَىٰ... ۚ

"...atdığın zaman da, Sən atmadın. Lakin, Allah atdı..."

(Yenə), Allah (subhənəhu və taala) haqqında, ***"Yə Muzill (ey zəlil edən)!"*** deyə bilmərik; ***"Yə Muizz (izzət verən), Yə Muzill!"*** deyirik. Çünki, əgər bu ikisi cəm edilərsə, bu, bir mədh vəsfi olar. (Necə ki), bu, işin hər 2 tərəfinin də, Onun əlində olduğuna dəlalət edər.

Duada da, Allah (subhənəhu və taala)'ya, bizə əmr etdiyi üzərə, ən gözəl isimlərilə dua edərik. (Ancaq), isimləri xaricində bir şey ilə dua edərsək, mədh və cəlal sifətlərilə dua edər, (ancaq) belə demərik:

~ ***"Yə Mövcud!"***

~ ***"Yə Muhərrik (hərəkət etdirən)!"***

~ ***"Yə Musəkkin (hərəkətsizləşdirən)!"***

Əksinə, bunun yerinə, belə:

~ ***"Yə Muqilə'l-əsərat (ey günahları əfv edən və ya yıxılanları qaldıran)!"***

~ ***"Yə Munəzzilə'l-bərakət (ey bərəkətlər endirən)!"***

~ ***"Yə Muyəssira kullə əsir (ey hər çətinliyi asanlaşdıran)!"*** və bunun bənzərləri kimi olanlarla dua edərik.

Eynilə, bir insanı çağırarkən, ona, ismilə və yaxud mədh vəsfilə nida etdiyimiz kimi; məsələn, ***"Ey şərif!", "Ey fəqih!"*** dediyimiz kimi. Lakin ona həqarət etmək istəmiriksə, ***"Ey ağ!", "Ey uzun!"*** demərik.

Bizdən, bir insanın vəsfləri soruşulduğunda, onun, ağ dərili, qara saçlı olduğunu deyərik; ancaq, doğru olsa belə, bu, özünə çatdığında, xoşuna gəlməyəcəyi şeyləri, dilə gətirmərik. Bunun səbəbi, onun, bunu kərih görməsidir. Çünki, özündə bir nöqsanlıq təqdir edilən şeydən, xoşlanılmaz.

Eyni şəkildə, bizdən, ***"Əşyanı, hərəkət etdirən; və ya hərəkətsizləşdirən; onları, qara və ağ qılan, kimdir?"*** deyə soruşulacaq olarsa, Onun, Allah (subhənəhu və taala) olduğunu söyləyərik. Felləri və sifətləri Ona nisbət etmək üçün, xüsusi bir şəri icazəni gözləmərik.

Doğru olduğu müddətcə, bu xüsusda, şəri bir icazə mövcuddur. Ancaq arizi bir səbəb olması halı, bundan müstəsnadır. Allah Taala,

~ ***"Mövcud"*** və ***"Mucid/icad edən"***dir.

~ ***"Muzhir/izhar edən, açığa çıxaran"*** və ***"Muxfi/gizləyən"***dir.

~ ***"Musid/xoşbəxt qılan"*** və ***"Muşqi/bədbəxt edən"***dir.

~ ***"Mubqi/varlığa davamlılıq bəxş edən"*** və ***"Mufni/fane qılan, yox edən"***dir.

Bu xüsuslarda, təvqif olmasa da, zikr edilmələri, (Allah) haqqında, caizdir.

Əgər deyilsə ki: *"Bu halda, Onun haqqında,* ***'əl-Arif', 'əl-Aqil', 'əl-Fatin'*** *və* ***‹əz-Zəki›*** *və bənzəri ifadələri istifadə etmək, niyə caiz deyildir?"*

Buna, belə cavab verərik: Bu və bənzərlərinin istifadə edilməsindəki əngəl, içindəki ihamat (yəni, nöqsanlıq vəhm etdirən şeylər)'dir. Və içində iham (nöqsanlıq vəhm etdirən şey)'lərin istifadə edilməsi, şəri bir icazə ilə mümkün ola bilər. (Məsələn):

~ ***«əs-Sabur»;***

~ ***"əl-Həlim";*** və

~ ***«ər-Rahim»***[1]

kimi isimlərdə, ki, iham vardır. Ancaq, (bunlar haqqında), icazə varid olmuşdur. (Yuxarıdakılar üçün isə), icazə varid olmamışdır.

(Yuxarıdakı isimlərdəki) iham (vəhm etdirmə), belədir:

~ ***"əl-Aqil/ağıllı"***, əql edərək, yəni, ***"özünü, yalnış şeylərdən əngəlləyərək, bilik əldə edən şəxs"***ə deyilir. (Məsələn), onun üçün: ***"Aqaləhu aqluhu"***, yəni, ***"Ağlı, onu əngəllədi."*** deyirlər.

(1) Bəhsi keçən vəhm, belədir: Bu kitabın başında açıqlandığı kimi, məsələn, ***«ər-Rahim»*** ismi, əslində, lüğət etibarı ilə, ***"qəlbi yumşaq"*** mənası daşıyır. Bu da, Allah üçün, muhal/imkansızdır. O, bundan münəzzəhdir. Lakin, dində, bu isim istifadə edilmişdir.O halda, bu isim, -vəhm edilən məna iradə edilmədən-, Allah üçün istifadə edilə bilər.)

~ (***"əl-Fatin"*** və ***"əz-Zəki"*** isimlərinin kökü olan) ***"fitnət"*** və ***"zəka"*** isə, idrak edəndən qaib olan bir şeyi sürətlə idrak etməyi işar edirlər (yəni, bu sözlərlə, idrakda olmayan şeyin, sürətli bir şəkildə idrak edildiyini qəsd edirlər.)

~ (***"əl-Arif"*** isminin kökü olan) ***"mərifət"***, bəzən, bir şeyi bilmədən əvvəl, təfəkkür etməyə işarət edir. Bundan dolayı, (zikri keçən isimləri, şəri bir icazə olmadan) zikr etməyimiz, (Allah haqqında) caiz deyildir.

Əgər,

~ bir ifadənin, başa düşənlər nəzdində, heç bir şəkildə bir nöqsanlıq vəhm etdirmədiyi təhqiq edilər; və

~ bu ifadəni istifadə etməyi əngəlləyən şəri bir qadağa da olmazsa, (Allah haqqında) qəti bir şəkildə, onu istifadə etmək, caizdir.

Doğrunu ən gözəl, ancaq Allah bilir. Dönüş, Onadır.

* * *